Telman Orucov

# Lənətlənmişlər






*Telman Orucov*

**Lənətlənmişlərin özünün və nəsillərinin aqibəti**

İnsanlar özləri haqqında haqsızlığa, ədalətsizliyə yol verildikdə, onlara ağır mənəvi zərbə vurulduqda həmin düşmənçilik edəndən qisas almağa gücü çatmadığından və ya özünə vurulmuş ziyanın cavabını verə bilmək imkanı olmadığından, bu düşməninə lənətlər yağdırmağa başlayır. Bu lənət, heç də onun yaxın adamları tərəfindən vurulan zərbəyə görə qisas almağını nəzərdə tutmur, daha güclü və ədalətli olan qüvvəyə – Allaha müraciətdə, yalvarışda ifadə olunur. Zərər çəkmiş adam inanır ki, Allah onun xahişini, yalvarışını eşidib, günahsız olduğu halda ona qarşı haqsızlıq, qəddarlıq göstərənə öz cəzası şəklində tam tutarlı bir cavab verəcəkdir.

Lənət xırda narazılığa görə yaranmır, insanın həyatına və mənəvi dünyasına haqsız şəkildə və olduqca böyük ölçüdə ziyan vurulduqda, ona məruz qalmış adamın şiddətlənmiş qəzəbinin, düşməninə qarşı nəhayətsiz hiddətinin ifadəsi kimi meydana çıxır. Zərbəyə məruz qalan cavab vermək, əvəzini ödəmək iqtidarında olsaydı, heç bir tərəddüdə yol vermədən cəsarətlənmiş rıtsar qabiliyyətinə yiyələnib, vaxt itirmədən cavab verər, düşmənindən hayıfını alardı. O, özünə qarşı olan ədalətsizliyin təkrarına yol verməzdi, mümkün qədər ona vurulan

zərbənin fiziki və mənəvi ölçüsündə əvəz qaytarmağa çalışardı. Axı həddi aşmaq, yersiz qəddarlıq göstərmək onun təbiətinə yaddır, o, heç kəsə qarşı öz gücündən və imkanından istifadə edib, pislik etməmiş, nalayiq hərəkət törətməmişdi. Məhz buna görə də özünə qarşı olan haqsızlığa heç də sakit yanaşa, biganə qala bilmir. Ona əsassız olaraq hücum edəndən və yara toxundurandan qisas almağı, mərhəmət və qüdrət sahibi hesab etdiyi Allahdan xahiş edir, bunu onun ixtiyarına buraxır. Bu dərin inam bir qədər mistik xarakter daşısa da, bəzi hallarda təəccüblü qaydada meydana gəlməsi ilə öz təsdiqini tapır.

Lənətin həyata keçməsi üçün heç bir zaman ölçüsü mövcud deyildir, arzu ondan ibarətdir ki, tez ya gec hökmən bu qisas həyata keçsin, onun əks-sədası həm də digər qəddarlıq eşqinə düşənləri, az da olsa, eybəcər həvəsdən və əməldən çəkindirsin. Lənət zəiflərin özündən qüvvətli olanların qəddarlığına, mərhəmətsizliyinə, haqsızlığına verilən cavab, əslində umulan qisas şəklini alır. Şəxsi həyatına həmlə edilənlər bunu hələ sağ olarkən gördükdə sevinir, haqqın və xeyirin ədalətsizlik və şər üzərində qələbəsinin baş verməsinə şad olurlar. Qəddarlıqla həyatlarına qəsd edilənlən mərhum insanların ruhu da bu qisas hadisəsinin baş verməsindən sakitləşir, rahatlıq tapır, onun yaxınları, nəslinin nümayəndələri isə lənətin baş tutmasından, gözlədikləri qisas şəklindəki zəfərdən vəcdə gəlir, qurban getmiş babalarının, atalarının qəzəb hissinin son anda da qalib gəlməsindən, ali inam bəslənilənin tərəfindən cəzanın icra edilməsindən, onları ağır itkilərinə görə kədər

hisslərindən azad olduqlarına, hətta əzici düşüncələrdən birdəfəlik uzaqlaşdırılmağa görə, əhval-ruhiyyələrində müəyyən yüngüllüyün baş verməsi ilə öyünürlər, şər üzərində qələbəyə sevinirlər.Axı onlar öz valideynlərinin, yaxın əcdadlarının qisasını almağa heç də qadir deyildilər.

Lakin mərhəmətli Allah öz yaratdığına, ona inanc gətirənlərə qarşı haqsızlıqların baş verməsinə laqeyd qala bilməyib, onların həyatını, bütün dünyasını rəhmsizliklə həmlə ünvanına çevirənləri cəzalandırmaqla, özünün haqq tərəzisinin saf ölçünə uyğun olaraq hərəkət etdi. Gec də olsa, ədalətin zəfərinə nail olundu.

Lənət insanın yaşadığı acı hisslərin məcmuu olaraq meydana çıxır, haqsızlığın həddən ziyadə olan ölçüsünə zəif tərəfin cavabı rolunu oynayır. Lənət və onun tam əksi olan xoşbəxtlik arzulamış adamlara, ədalətinə və mərhəmətinə görə xeyir-dua şəklində minnətdarlığını bildirmək kimi insanın özünə qarşı olan pisliyin və yaxşılıqların cavabı, ifadəsi şəklində özünü göstərir. Düşməni demonizatsiya etməyə xidmət edən lənət adətən müəyyən ölçüdə olan məkanda baş verən müxtəlif fenomenləri ifadə edir, bu heç də aşağı ölçüdə, xırda bir incikliyə görə baş vermir. Lənət başlıca olaraq,  bir sıra hadisələr meydana gələndə işlənir, bu vaxt ağır zərər dəymiş adam, öz rəqibinin, düşməninin müvafiq qaydada cəzalandırılmasını, özünə qarşı edilən haqsızlığın müəllifinə müvafiq ölçüdə cavab verilməsini arzu edir. Bu arzunu isə o, kimlərəsə deyil, ədalətliliyinə və mərhəmətliliyinə möhkəm inandığı

Allaha ünvanlayır. Bəzən ona xətər toxunduran elə qüdrət sahibi olur ki, özünü qanunların təsir dairəsindən kənarda hiss edir, buna görə də cəzasız qalacağına tam əmindir. Qanuni yolla onu yerində otutmaq da mümkün deyildir, çünki qanunları özü hazırlatdırıb, imzalamaqla, ondan xalqın əleyhinə istifadə etməyə başlayır. Qanun, xalqın qalxanı olmaq vəzifəsini dayandırıb, hökmdarın iti silahına çevrilir. Onun cəzalandırılmasını isə qanunların gücsüzlüyünə görə yalnız Allahdan xahiş etmək, onun qüdrətinə olan əminliyə şübhə etməmək vasitəsilə nail olmaq olar. Çünki insanlara qəddarlıq göstərənlər heç bir qanunu tanımır, Allahdan da qorxmur. Çünki o, özünü Misir faraonları kimi Yer üzərindəki canlı Allah hesab edir. Lakin anlamır ki, faraonların özünü də yalnız Allah cəzalandırırdı, hətta onlar o dünyanı, axirəti özlərinin əbədi həyatının davamı hesab etsələr də, canlı həyatdan uzaqlaşdırıldılar. Piramidalarda isə onların guya o dünyadakı mövcudluqları üçün hər cür şərait yaradılırdı. Lakin əsas nəticə ondan ibarət idi ki, onlar həyatda, Yer üzündə əvvəlki qəddarlıqlarını göstərməkdən məhrum olurdular.

Lənətin haqladığı adamlar da malik olduqları nəhayətsiz səlahiyyətlərdən, insanların taleyinə heç bir güzəşt olmadan hakim kəsilmələrini artıq bacarmırlar, gözləmədikləri halda ağır dərdə, xəstəliyə düçar olur və həyatdan gedirlər. Onların çox saydakı əməlləri ölçülüb, biçildikdə, haqsızlıqları, ədalətsizlikləri bütünlüklə təsdiqini tapdıqda məhz lənətdə arzu olunanlar baş verir və bu, Allahın qüdrətinə olan inamı daha da artırır. Qədim Misirdə o dünyada adamların xeyir

və şər əməlləri Anubisin tərəzisində müəyyən olunurdu. İndi isə öləndən sonra adamlara qiymət verilməsinə, çoxluğun onun haqqındakı rəyinə əsaslanır.

Lənətdən fərqli olaraq, xoşbəxtlik arzulanması, sağlam düşüncədə deyilsə, kiminsə köməyi ilə yaxşı şeylər baş verəndə və ya müsbət nəticələrə gəlib çıxanda istifadə edilir. Ona yaxşılıq edən adamın bu mərhəmətə layiqincə cavab vermək imkanı olmadıqda, hisslərinin gur ifadəsi kimi ona ünvanladığı minnətdarlığ barədə intim ifadələrini tələffüz edir,, öz himayəçisinə xoşbəxtlik arzulamaqla qızğın razılıq həyacanında rahatlıq tapmağa başlayır. Gələcəyin arzulanan haqq təməli minnətdarlıq hissləri daşıyanların razılıq kəlmələrindəki ilk bünövrə timsalında meydana çıxır.

Lənət və xoşbəxtlik arzulamaq şərə və xeyirə görə insanların hisslərini ifadə edir. Bu əks hisslər medalın iki üzü xarakterini daşıyır. Xoşbəxtlik arzulamaq ilahi qüvvə tərəfindən verilən yaxşılığın dilə gətirilmə ifadəsidir. Beləliklə, fərdlərin minnətdarlıq hisslərinin, mərhəmətlilik göstərənə Allahın izni ilə xeyirə çatmaq arzusudur. Lənət də cəza arzusu olmaqla, həmin faktın Allah tərəfindən icra ediləcəyinə bəslənən inam, əminlikdir. Əgər Allah göstərişlərinə əməl etməməsinə və onun göstərdiyi yoldan çıxana ünvanlanan lənət hökmən öz işini görəcəkdir. Bu xahiş onu tanıyanların və ona sitayiş edənlərin inamına uyğun olaraq, Allahın qərarına çevrildikdə, hökmən baş verir.

İnsanlar, onlara qarşı törədilən haqsızlığa, ədalətsizliyə cavab vermək, onu icra edənlərə əvəz kimi qaytarmaq gücünə qadir olmadıqda, adətən özünün yeganə müdafiəçisi kimi Allaha müraciət etmək yolunu tutur və xahişini dilinə gətirdiyi lənət ifadələrində tələffüz edir. Onlar güman edirlər ki, düşmənləri Allaş tərəfindən hökmən cəzalandırılacaqdır, onlar Allahın varlığına şübhə etmədikləri kimi, buna da tam şəkildə inanırlar. Bu cəza tezliklə baş verdikdə, onların Allaha ünvanlanan minnətdarlıqları daha da yüksəlir. Çünki insanlardan fərqli olaraq, Allah heç vaxt haqsızlığın tərəfində olmur, onun hər bir qərarı yalnız ədalətdən və mərhəmətdən xəbər verir. Allahın cəzası ilə müqayisədə, insanların cəzası çox hallarda subyektiv marağa tabe olmaqla, onun bilavasitə ifadəsi kimi özünü büruzə verir. Allah isə mərhəməti və bağışlaması ilə yalnız xeyirxahlıq simvolu olduğunu yenidən büruzə verir.

İnsan özünə qarşı olan yaxşılığı və pisliyi daim qiymətləndirməyə cəhd edir, birincini müəlliflərindən razı qalaraq, onlara xoşbəxtlik arzulayır, ikinciyə imza atanlara isə tam nifrəti ölçüsündə lənət yağdırır. Bu arzuların və xahişərin gözlənilən həyata keçirilməsi isə Allahın iradəsindən irəli gələn imkanlara buraxılır.

Xoşbəxtlik arzulamaq o qədər də çox yayılmamışdır, çünki adamlar öz uğurunu, bəxtinin gətirməsi kimi və ya öz qabiliyyətinin qiymətləndirilməsi nəticəsi hesab edir, ona yaxşılıq edənləri ya düşüncəsində tamamilə yoxa çıxarır, yaxud da tezliklə unutmağa

başlayır. Bunu əsaslandırmaq üçün, özünün də başqalarına yaxşılıq etdiyini və onlardan minnətdarlıq görmədiyini irəli sürür.

Lənət bəslənməsi isə öz miqyasına görə daha çox yayılmışdır, çünki insanlar özlərinə dəyən ziyanı şişirtməyə meyl edir, özünün günahsız olmaması düşüncəsi ilə yaşayır, ona ziyan vuranları isə demonizasiya etməklə lənətləyir, onlara ən ağır və dəhşətli cəzaların verilməsini arzu edir. Lənət bir qayda olaraq ölçü hissini tanımır, təkcə ona pislik edənlə kifayətlənməyib, onun bütün nəslinin bədbəxtlik dənizində batmasını arzu edir. Ona görə də lənət öz təsirinin yalnız bir nəfərin üzərində həyata keçməsi ilə kifayətlənmir, nifrin şəklində həmin şəxsin nəslinin bədbəxtlikdən göz açmamaları diləyini əhatə edir. Hüquq elmində və praktikasında bir cinayətə görə iki dəfə cəza verilməsi qeyri-mümkün hesab edilsə də, lənət dalğası tsunami xarakteri daşıyaraq, ona ziyan vuranın gələcək nəsillərinin də əzablı həyata düçar olmasını əsas götürür. Beləliklə, lənət bütöv bir nəslin acı tale yaşamasına səbəb olur. Bu barədə həyatda çox sayda misanlara rast gəlmək mümkündür. Bəşər tarixi də lənətlərin həyata keçməsini təsdiq edən çox sayda hadisələrlə doludur.

Qədim yunan mifologiyası və Bibliya da lənətin işlənməsi və nəticəsi barədə çox sayda olan nümunələri nəzərə çarpdırır. Mifologiyada lənətin ünvanlandığı şəxsin təkcə özünə deyil, bütün ailəsinə də acı faciələr qismət olur, məşhur bir hökmdar ailəsinin taleyinə zəhər qatılır. Qəribə hal burasındadır ki, qızının Allahlara

qurban kimi öldürülməsinə görə, ana öz ərinin qəddarlığından və rəhmsizliyindən dəhşətə gəlib, ağır səfərə yollanan bu adama nifrin yağdırır və onun layiqincə cəzalandırılacağına ümid bəsləyir. On il davam edən müharibədən qələbə ilə vətəninə dönən çar öz haqsız əməlinin tutarlı cavabını alır.

## Çar Aqamemnon ailəsinin faciəsi

Homer özünün «İliada» poemasında mifologiyadan gələn bu hadisəni geniş surətdə təsvir edir. Troya hökmdarı Priamın oğlu Paris Sparta çarı Menelaya qonaq gəlir, Menelay gözəl arvadı Yelenanı Parisin ümidinə qoyub, ölkəsini tərk edir. Paris qadının gözəlliyinə valeh olur və ehtirasını cilovlaya bilmir. Yelena da onun sevgisini cavabsız qoymur və onlar birlikdə Kiçik Asiyaya, dənizin o tayındakı Troyaya üz tuturlar və ər-arvad kimi yaşayırlar.

Troya çarının ailəsindən Kassandradan başqa heç kəs bu izdivacın özlərinin və şəhər-dövlətlərinin fəlakətinə səbəb olacağını ağlına da gətirmir. Axı burada qeyri-təbii heç nə baş verməmişdir. İki sevgili öz arzularına uyğun olaraq birləşmişlər və bu xoşbəxtliyi qınamaq yox, ona yalnəz sevinmək lazımdır. Priamın ailəsi də oğlunun izdivacına məhz bu rakursdan yanaşırdı.

Parisin bacısı Kassandra isə öncəgörmə qabiliyyətinə malik idi və ona görə də bu ərli qadının yeni nikahının faciələrə səbəb olacağını bildirir. Lakin heç kəs onun öncəgörməsinə məhəl qoymur, sevgililərin ittifaqını tam bəyənməklə qarşılayırlar.

Menelay arvadının Parisə qoşulub qaçmasından çox mütəəssir olur və Mikena çarı olan qardaşı Aqamemnona şikayətlənir. Aqamemnon qardaşının arvadını geri qaytarmaq üçün yunan şəhər-dövlətlərindən ittifaq təşkil edib, onların əsgərlərindən təşkil olunmuş orduya başçılıq etməklə, Troyaya getməyə tələsir. Yelenanın qaçırılması ancaq sadəcə bir bəhanə idi, yunan şəhər-dövlətləri Kiçik Asiyadakı çox varlı şəhər olan İliona – Troyaya qısqanclıqla yanaşır, onu məhv etmək istəyirdilər. Aqamemnon isə Yelenanın qaçırılmasını Troyaya müdaxilə etmək üçün sadəcə ciddi bir səbəbə çevirməyə nail oldu.

Gəmilər və onlara yüklənmiş ordu üzməyə hazır idi. Lakin dəniz sakit idi, yelkənləri doldurmaq üçün külək olmadığından gəmilər limandan çıxa bilmirdi. Aqamemnon külək əsdirmək barədə allahlara müraciət etdi və onların şərəfinə doğma qızı İfigeniyanı qurban verdi. Allahlar qurbana görə yumşalıb külək əsdirdi və donanma yola düşdü.

Mikena çarının arvadı Klitemnestra qızının öldürüldüyü xəbərini eşitdikdə, dəhşətə gəldi və ərinə lənətlər yağdırmağa başladı. Əri on il ərzində Troya ilə müharibə aparanda, o, qisas kimi həm də Egisflə eşq macərası yaşadı.

Müharibə gah yunanların, gah troyalıların üstünlüyü ilə gedirdi. Heç bir tərəf qalib gələ bilmirdi, çünki müharibəni insanlar aparsa da, bu işə rəhbərliyi allahlar edirdi və onlar döyüşlərin gedişini qəsdən uzadırdılar. Hər iki tərəf ağır itkilər vermişdi, yunanların qəhrəmanı Axilles və Patrokl, Troya çarının iki oğlu – Hektor və Paris həlak olmuşdular. Yunan döyüşçüləri də bu uzun müddət ərzində vətəndən uzaqlarda əzab çəkməyə məcbur olduqlarına görə artıq yorulmuşdular. Troyanın mühasirəsinin götürülməsi yunanların məğlubiyyətinə bərabər sayılardı.

Bu vaxt hiyləgər Odisseyin – Ulissin bic ağlı yunanların köməyinə gəldi. O, təklif etdi ki, ağac materialından iri bir at düzəldib, onu troyalılara hədiyyə kimi təklif etsinlər. Bu atın qarnında çox sayda yunan əsgərləri gizlədiləcəkdi və onlar hədiyyə şəhərə girəndən sonra gecə çıxıb, şəhərin qapısını öz ordularına açacaqdı.

Troyalılar heç bir şübhə etmədən düşmənin hədiyyəsini qəbul etməyə razılıq verdilər. Təkcə troyalı kahin Lakoon bu ağılsız işin əleyhinə çıxdı, hədiyyəni qəbul etməməyi məsləhət görəndə, allahlar onu cəzalandırmaq üçün ilanları göndərdilər. İlanlar kahin və onun iki oğlunu sancıb öldürdülər. Bu, troyalıları hədiyyəni qəbul etmək qərarının daha da şiddətləndirdi və yunanların düzəltdikləri nəhəng at fiquru Troyaya gətirildi. Bu, tarixə məhz məkr simvolu olaraq «Troya atı» kimi məlumdur. Gecə düşəndə atın qarnında gizlənmiş yunan döyüşçüləri çıxıb, şəhərin qapılarını orduları üçün açdılar. Yunanlar

gözəl İlionu viran qoyub, əhalini qırdılar. Çar Priam da həlak oldu, arvadı Gekubanı və başlanğıcdan faciənin baş verəcəyini bildirən qızı Kassandranı yunanlar əsir götürdülər.

Troyadan rəvayətə görə təkcə Eney qaçıb, canını qurtara bildi. O, nəhayət Tibr çayının sahilinə gəldi və onun nəslindən olan Romul sahildəki yeddi təpə üstündə Roma şəhərnii saldı.

Qaliblər içərisində yalnız Menelayla Yelena yarıdı, onlar yenidən birləşib, ər-arvadlıqlarını davam etdirdilər. Öz hiyləgərliyi ilə yunanların qələbə çalmasının əsas səbəbkarı olan Odissey də troyalıların lənətinə gələrək, vətəni İtakaya qayıtmaq üçün çox sayda ölümcül təhlükələrlə üzləşdi və onun geriyə dönməsi əlavə on il çəkdi. Vətənində o, çoxlarının onun arvadı Penelopa ilə evlənib, çar tacına yiyələnməyə cəhd etdiklərini eşitdi və sehrli yay oxundan istifadə edərək, arvadının əlinə sahib olmağa çalışanları öldürdü. İtakada da qan axıdıldı.

Aqamemnon Mikenaya qalib kimi qayıtsa da, ona ünvanlanmış lənətin hesabına, doğma qızının ölümünə səbəb olduğuna görə cəzalanmalı idi. Arvadı Klitemnestra onu bağışlamaqdan çox uzaq idi və məşuqu Egisflə birlikdə, Aqamemnon hamamda çimərkən onu boğub öldürdü.

Bu dəfə onların qızı Elektra  anasının öz ərini, onun atasını qətlə yetirməsindən hiddətlənib, qardaşı Orestə təlqin etdi ki, qatil ananı

hökmən öldürmək lazımdır. Orest nə qədər müqavimət göstərsə də, bacısının təklifinə qulaq asmalı oldu və doğma anasını öldürdü.

Klitemnestranın lənəti əri Aqamnenona ünvanlansa da, təkcə onun məhvi ilə nəticələnmədi, özü də oğlu tərəfindən öldürüldü. Ananın qətlə yetirilməsinin təşəbbüskarı olan Elektra da digər qətlin iştirakçısı oldu.. Beləliklə, Mikena kimi şəhər-dövlətin hökmdarının ailəsi, özü başda olmaqla məhv oldu.

Qədim yunan mifi canlı misallarla göstərir ki, lənət heç də adi söz kimi havada qalmır, böyük qüdrətə yiyələnməklə, ünvanlandığı şəxsi və onun ailəsinin ağır faciələrə məhkum edir. Lənətlənmiş adam öz cinayətinə görə tutarlı cavab almaqla, özü də digər bir cinayətin qurbanına çevrilir.

## Medeyanın qisası

Mifologiyada sədaqətsizliyə görə adamların lənətə gəlməsi ilə, cəzalandırılması barədə digər hadisələr də öz əksini tapır. Yunan Yason arqonavtlardan ibarət komanda yığmaqla, gəmi ilə iki dənizdə üzüb, uzaq Kolxidaya gəlib çıxdı ki, oradakı var-dövlət mənbəyi olan «Qızıl yunu» oğurlayıb vətəninə gətirsin. Onu əldə etməyə çalışanların hamısı uğursuzluğa düçar olmuşdu, çünki Kolxida çarı Aka onu mühafizə etmək üçün çox sehrli vasitələrdən istifadə edirdi.

Çarın Medeya adlı qızı Yasonu gördükdə, ona vuruldu və onun nəzərdə tutduğu əməliyyata köməklik göstərmək istədi. Yason çarın ağır şərtlərini həll etməyə başladı və Medeya öz məsləhətçiləri ilə onu əvvəlcədən agah etdiyindən, o, hər sınaqdan qalib kimi çıxırdı. Nəhayət, o, ağacın budağından asılmış «Qızıl yunu» oğurlamağa müvəffəq oldu və vətəninə qayıdanda sevgilisi Medeyanı da özü ilə götürdü. Onlar ər-arvad kimi yaşadıqlarından uşaqları oldu. Lakin bir az sonra Yason Medeyaya sədaqətsizlik göstərib, Korrinf çarının qızı olan printsessa ilə evlənəndə, Medeya ərindən qisas almaq üçün iki doğma uşağını öldürdü. Qədim yunan dramaturqu Yevripid «Medeya» pyesində qadının emosiyasının və hiddətinin daha güclü olduğunu göstərir. Medeya ərinin xəyanəti ilə barışmadı. Atasının öz qızı Medeya barədəki lənəti öz işini gördü, ərinin onu atması və bu qızın günahsız körpə uşaqlarının öz əli ilə dəhşətli şəkildə məhv etməsi kimi taleyinin acı sınaqlarının şahidi oldu.

Yason Medeyaya sədaqətsizlik göstərəndə, heç də təəccübə səbəb olan bir iş görməmişdi, arvadının öz atasına olan sədaqətsizliyini başqa bir qaydada təkrar etmişdi. Kolxidalı arvadı Medeyadan nankorluğu öyrənən Yason da ona olan sevgisini satmaqla, onu tərk etməklə, əslində təkcə atasına deyil, vətəninə də xəyanət edən qadına, gözləmədiyi halda bumeranqı andıran cavabını vermişdi. Medeya sevgisinə nail olmaqla həyat sevincinə də nail olduğunu güman edirdi, lakin daha acı nəticə ilə, övladları üçün qatil olması və sevdiyi ərindən ayrı düşməsi şəklindəki faciəni yaşamalı  oldu.

Qədim yunan mifi bir daha göstərir ki, valideynə, ən başlıcası vətənə xəyanət daha ağır sonluqla nəticələnir. Valideynin qarğışı, vətəninə xəyanəti heç vaxt bağışlamamaqla, özünü olduqca ağır cəza şəklində büruzə verir.

## Bibliyada lənət misalları

Bibliyada da lənət timsallı çoxlu hadisələr nəql olunur. Yəhudilər Misirdə qul kimi yaşayır, kərpic kəsmək kimi kölə əməyi ilə məşğul olurdular. Moisey öz xalqının bu əzablarını görüb, Allaha müraciət etdi ki, yəhudilərin Misiri tərk etməsinə, vəd edilmiş torpaqlarına qayıtmasına şərait yaratsın  Allah faraonun, yəhudilərin ölkədən getməsinə razılıq verməsi üçün onun özünə və ölkəsinə ağır sınaqlar göndərdi. Faraon vəziyyətin ağır olduğunu dərk edib, yəhudilərə Misirdən çıxmağa icazə verdi.

Moiseyin başçılıq etdiyi çoxminli dəstə çoxlu çətinlikləri dəf etməli oldu. Qırmızı dənizin keçmək üçün Moisey Allahın köməyi ilə suyu aralayıb, qaçanlara yol açdı. Sinay yarımadasında dolaşanda, aclıqdan əziyyət çəkən yəhudilərə Bibliya sıyığı adlanan səma sıyığı göndərdi.

Nəhayət, onlar Kanaanın (Kənanın) yaxınlığına gəlib çıxdılar. Moisey kəşfiyyatçılar göndərdi ki, vəd edilən torpağın əhalini necə

təmin edəcəyini öyrənsin. Kəşfiyyatçılar iki adamın çiynindəki ağacdan asılmış iri üzüm salxımları ilə qayıtdılar. Onlar dedilər ki, Kanaanda süd və bal çayı axır. Bu, yəhudilərin sevincinə səbəb oldu. Lakin Moiseyin özü can atdığı doğma torpağa ayaq  basa bilmədi, lap yaxınlıqda olarkən öldü.

Yəhudi qullar ağır həyat şəraitindən azad olmaq üçün faraonu lənətlənmişdilər və Moisey bunu Allaha çatdırmışdı. Ona görə də yəhudilər oranı tərk edənə qədər Misirdə çox sayda fəlakətlər baş verdi. Allah ona inanan və pənah gətirən bəndələrini həmişə eşidir. Yəhudilər isə tək Allaha sitayiş etdiklərinə görə, Allah tərəfindən seçilmiş bir xalq idi. Bu xalq Allahın göstərişlərinə əməl etməyəndə çox ciddi surətdə cəzalandırılırdı. İudeya qonşu imperiyalar tərəfindən hücuma məruz qalırdı. Assuriyalılar uzun müddət bir yəhudi şəhərini mühasirədə saxlamışdı. Yalnız yəhudi qızı Yudifin qəhrəmanlığı xalqı gələcək Assuriya köləliyindən azad etmişdi.

Assuriya sərkərdəsi Olofernin  yəhudi qızılarını ələ keçirmək istəyini Yudif  eşitmişdi. Bundan agah olduqda mühasirə edənlərin icazəsi ilə o, doğma şəhərindən çıxıb, Olofernin düşərgəsinə yollandı. Asssuriyalı hərbçi onu gülərüzlə qarşıladı və Yudifin intim yaxınlığa razı olduğuna əmin olub, sayıqlığını itirdi. O, çox şərab içib, yatmışdı. Yudif onun qılıncını qapıb, Olofernin başını kəsdi və öz ayaqları altına atdı. İtalyan rəssamı Corcone bu hadisəyə həsr olunmuş tablosunda gözəl

Yudifin ayaqları altındakı Olofernin kəsilmiş başını təsvir edir. Sonra qız doğma şəhərinə qayıtdı.

Assuriyalılar hadisədən xəbər tutduqdan sonra adi bir qızın qəhrəmanlığı, onları yəhudilərdən qorxmağa məcbur etdi və onlar şəhərin mühasirəsini götürüb, oradan uzaqlaşdılar. Yəhudilərin assuriyalılara nifrət hissi və lənət yağdırması öz işini sadə bir qızın əlilə çox ümid etdiklərinin həllinin şahidi oldular.

Sonra midiyalılar və xaldeyllər Assuriyanı məğlub edib, Yeni Babilistan dövlətini yaratdılar. Bizim eradan əvvəl 609-cu ildə baş verən bu hadisə Babilistan çarı Nabuhadonosorun yaxşı və pis əməllərinə geniş yol açdı. O. öz dövrü üçün dünyanın ən gözəl şəhəri olan Babili tikdirdi və yenidən qurdu. Şəhərin İştar qapısı qlazurdan (şirdən) istifadə olunmaqla rəngli kaşı hissələrindən düzəldilmiş mistik və real heyvanların rəsmləri ilə bəzədildi.

Lakin Nabuhadonosor assuriyalıların gücü çatmadığı bir işi həyata keçirdi, Yerusəlimi tutdu və minlərlə şəhər əhalisini Babilə sürgün etdi. Əsirlikdə yəhudilər dözülməz əzablarla üzləşdilər, aclıq xalqı taqətdən salırdı. Bibliyanın «Hüzn» kitabında sürgündəkilərin dəhşətləri içərisində, ac ananın doğduğu körpəsini yediyi kimi ağlasığmaz hesab edilən hadisədən xəbər verilir. Lakin yəhudilər Allahın onları buraxdıqları günahlara görə cəzalandırdıqlarını güman etdikləri kimi,

onları nəhayət mərhəmət göstərəcəyinə də möhkəm inanırdılar. Həqiqətən də bu baş verdi.

B.e.ə. 539-cu ildə Nabuhodonosorun nəvəsi, çar Baltasar paytaxtdakı sarayında böyük ziyafət düzəltmişdi. Orada min nəfər saray əyanı və nüfuzlu şəxslər iştirak edirdi. Baltasar arvadı ilə şərab içəndə, göstəriş verdi ki, Yerusəlim məbədindən qarət edilmiş qızıl və gümüş qədəhlər gətirilsin ki, məclisdə şərab onlarda içilsin.

Bu qədəhlər Babilə daşınmışdı və çar Baltasar daxil olmaqla adamlar şərabı onlarda içirdilər. Bu müqəddəsliyə qarşı təhqir idi. Bu vaxt sarayın ağ divarında naməlum əllə yazılan sözlər gözə dəydi. Divarda *«mene, mene, tekel, uparsin»* sözləri yazılmışdı. Münəccimlər onların mənasını izah edə bilmədilər. Bu vaxt münəccim Deniel yada salındı və çar onun gətirilməsini əmr etdi.

Deniel gələndə, Baltasar dedi ki, sözlərin mənasını izah etsə, yüksək qaydada mükafatlanacaqdır. Deniel isə mükafatdan imtina edib dedi ki, sözlər bildirir ki, hər şey hesablanmışdır, çəkilmişdir və bölünmüşdür. Baltasar bu xəbərdarlığa məhəl qoymayıb yeyib-içməyi davam etdirdi.

Gecə yarısı pers ordusu Baltasarın atası, onunla birgə çar olan Nabonidə qalib gəlib, Babili işğal etdi və Baltasar öldürüldü. Persiya çarı II Kir (Böyük Kir və ya Sirus) yəhudiləri Babil sürgünündən azad edib, onlara Yerusəlimə qayıtmağa, öz dini ibadətlərini icra etməyə və

məbədlərini bərpa etməyə icazə verdi. O vaxtdan yəhudilər Persiya çarına minnətdarlıq ifadə edərək, onun şərəfinə təriflər söyləməyə başladılar.

Nabuhodonosorun Yerusəlimi işğal etməsi və şəhər sakinlərini sürgünə göndərmək kimi qəddar hərəkəti, yəhudilərin ona lənət yağdırmasına səbəb olmuşdu. Bütöv bir xalqın, özü də Allahın seçdiyi xalqın lənəti yerdə qalmadı və təkcə Babil deyil,  Babilistan dövləti tarixin arxivinə verilməli oldu. Yerusəlim isə öz müqəddəs Solomon məbədini qoruyub saxlaya bilməsə də, altı əsr sonra Titin başçılığı altında Roma ordusunun işğalına məruz qalsa da, gələcəkdə iudaizmlə yanaşı, xristian və  nisbi də olsa müsəlman dinlərinin də mərkəzinə çevrilməklə, üç dinin beşiyi rolunu oynadı. Üç min ilə yaxın  müddətdə yəhudilər bu ərazidə özlərinin qədim İudeya və İsrail dövlətlərini bərpa etmişdilər. Bir əsrə yaxındır ki, XX əsrin ortalarında yaradılan İsrail dövləti bu ərazidə kiçikliyi ilə seçilsə də, çoxlu müharibələrlə üzləşdi, lakin öz suverrenliyini qoruyub saxlaya bildi Holokostda 6 milyon adamını itirən yəhudilər feniks quşu kimi yenidən həyata qayıdıb, özünün hərtərəfli inkişaf etmiş, müasir demokratik dövlətini yaratdılar. Assuriya da, Yeni Babilistan imperiyası da, Qədim Roma dövləti də məhv olub, tarixin səhifələrini tərk etdi. Yəhudilərin dövləti isə dəhşətli sınaqlara, dünyada görünməmiş dinc adamların böyük itkisinə baxmayaraq, qamətini düzəldib, öz xalqını əsl inkişaf və ehtiyac

köləliyindən birdəfəlik azad olmuş  yeni yaranan bir dövlətin sahibi kimi şərəf simvoluna çevrdilər.

Bibliyada digər bir qadının da öz xalqını məhvdən xilas etməsi hadisəsi təsvir olunur. Persiya çarı Artakseris milli mənsubluğu ona məlum olmayan yəhudi qızı Esteri özünə kəniz götürmüş və bu gözəl qız onun çox xoşuna gəldiyinə görə qanuni arvadı elan etmişdi. Esterin dayısı Mordexay da sarayda xidmət edirdi və vəzir Hamanın əyalətdəki bütün yəhudiləri qırmaq barədə göstərişindən agah olub, bunu pers çarına çatdırmaqla, qarşısını almağa cəhd göstərməsi köməyini Esterdən gözlədiyini bildirmişdi.

Ester Hamanın təhlükəli adam olduğunu bilirdi və çox ehtiyatla hərəkət edirdi. O, ikinci dəfə qonaqlıq verəndə, Hamanın yəhudiləri məhv etmək istədiyini çara bildirdi. Çar həm də Hamandan arvadını ələ keçirmək istədiyindən şübhələnmişdi, ona görə də əmr etdi ki, Haman dar ağacından asılsın. Həmin dar ağacını Haman Mordexayı asmaq üçün qurdurtmuşdu.

Ester əslində Yudifin igidliyini təkrar edib, öz xalqını məhv olmaqdan xilas etdi. Hələ b.e. ə. VI əsrdə Persiya imperiyasında yaşayan bütün yədulərin qırılması baş tutsa, bu ilkin holokost xarakteri daşıyardı. Ona görə də yəhudilər arasında Ester adı min illər ərzində öz qiymətini itirməmişdir və müasir yəhudilər də qızlarını bu adla adlandırırlar. Tələbə vaxtı indiki Heydər Əliyev sarayının yerləşdiyi küçədə kirayədə

yaşayarkən, qonşuluğunda yəhudinin arvadı Ester çox mehriban bir insan idi. Oğlu kitab ticarəti ilə məşğul olurdu. Sonra Amerikaya mühacirət etdi və valideynlərini də öz yanına apardı.

## II Filipp və Makedoniyalı Aleksandr sülaləsi

Makedoniya çarı II Filipp qısa müddət ərzində kiçik dövlətini iqtisadi və hərbi cəhətdən xeyli möhkəmləndirib, Yunanıstanı ittifaq adı altında öz tabeliyinə salmışdı. Buna o, qızğın müharibələr aparmaq və diplomatiyadan güclü istifadə etmək yolu ilə nail olmuşdu. B.e.ə. 356-cı ildə arvadı Olimpiada ona Aleksandr adlandırdıqları oğul doğmuşdu. Aleksandr adı Homerin «İliada» poemasından götürülmüşdü, hərfi mənada «kişiləri döyən, məğlub edən» mənasını verirdi.

336-cı ildə çar Filipp qızı Kleopatranı ərə vermək üçün böyük toy mərasimi keçirirdi, şənliyə çoxlu qonaqlar dəvət edilmişdi. Filipp nailiyyətlərinə və xoşbəxtliyinə görə özünü çox məğrur aparırdı. Axı o, Afina kimi şəhər-dövləti, Attikanı da öz tabeliyinə keçirə bilmişdi.

O, toyda qonaqları salamlamaq istədikdə, bir cavan oğlan yaxınlaşıb, xəncəri onun sinəsinə soxdu və zərbədən Filipp yerə yıxılıb öldü. Bu vaxt dostu Hefestion 20 yaşlı Aleksandrın əlini qaldırıb, atasının varisi kimi onun Makedoniya çarı olduğunu elan etdi. Aleksandr

taxt-taca yiyələndikdən sonra, digər yunan şəhər-dövlətlərinin də döyüşlərlə Makedoniya tabeliyinə keçməsinə nail oldu.

22 yaşında isə atasının arzusuna uyğun olaraq, Persiya imperiyasını məhv etmək üçün üzüb Kiçik Asiyaya keçdi. Qranik çayı yanındakı ilk vuruşda qalib gəldi, Qordi şəhərində isə «Qordi düyününü» qılıncla kəsb açmaqla, bunu bacaranın rəvayət timsalındakı perspektiv rolu oynayan Asiyanın çarı olmaq barədəki ideya onun öz məqsədinə inamını daha da möhkəmləndirdi.

Qranik döyüşündə düşmən döyüşçüsü ona qılıncla zərbə endirməyə cəhd etdikdə, Aleksandrın uşaqlıq dostu onu qabaqladı və öz qılınc zərbəsi ilə döyüşçünü öldürdü. Beləliklə, Klit hələ Persiyaya yürüşün başlanğıcında Aleksandrı real ölüm təhlükəsindən xilas etmişdi.

Aleksandr Troya müharibəsindəki döyüşdə həlak olan igid Axillesi ehtiramla yad etdi. Axı o, Homerin öz qəhrəmanı məhəbbətlə təsvir edildiyi «İliada» poemasını ən qiymətli sərvət kimi özü ilə gəzdirirdi.

Sonra İss yaxınlığındakı döyüşdə qalib gələndə, Persiya çarı III Dara saray xəzinəsini də götürüb qaçmaqla canını qurtardı. Onun sələfi I Dara isə Persiya imperiyasını xeyli böyütmüş, çox sayda inkişaf tədbirləri həyata keçirmiş, o cümlədən Suzadan Sardıya 1800 km. uzunluğunda yol çəkdirmiş və dünyada ilk poçt sistemi yaratmışdı. Yolun üstündəki hər 40 km. məsafədəki dayanacaq məntəqənələrində yolçular qidalana, istirahət edə, atlarını dəyişə bilərdilər. İmperiyadakı

yol şəbəkəsi hesabına çar öz dövlətinin ərazisində baş verənlərdən tezliklə hali olurdu. Onun b.e. ə. VI əsrin sonunda yaratdığı paytaxt Persepolis. dövrünün ən gözəl şəhərlərindən biri idi. onu meydana gətirilənlərin müqayisəsiz dühasından, təkrarolunmaz istedadından xəbər verirdi. Şəhərdəki saray və onu bəzəyən heykəllər böyük yaradıcılıq nümunələri idi. Bir əsr sonra Afinada tikilən Parfenon məbədi də möhtəşəşəmliyində ona uduzurdu. Bu saraydakı 20 metr hündürlüyündəki kapitellərin üstündə iri öküz heykəlləri ucalırdı. Təəssüf ki, bu gözəl şəhər işğalçı Makedoniya döyüşçüləri tərəfindən yandırılıb, məhv oldu.

Sələfinə bənzəməyən III Dara isə döyüşdən qaçmışdı. Onun anası Sisiqambis, arvadı Statira və iki qızı Aleksandra əsir düşdü. Onlar ağlayırdılar ki, yəqin çar Dara da ölmüşdür. Aleksandr onları sakitləşdirdi ki, Dara sağdır. O, əsir götürdüyü qadınlara hörmətlə yanaşdı, onların məişət qayğıları saraya məxsus qaydada təşkil olundu. Çarın anası öləndə, ona ləyaqətli matəm keçirdi.

Sonra Qavqamelada daha ciddi və böyük döyüş getdi. Aleksandrın canlı qüvvəsi və süvari dəstəsi Persiyanınkından üç dəfə az idi. Buna baxmayaraq, o, hərbi dühaya xas olan məharət göstərib, məhv olmaq şansı ilə üzləşmiş öz sərkərdəsi Parmenionun qoşununu süvari dəstəsinin hücumu ilə xilas etdi və Persiya ordusunun ön cərgəsini yarıb, unlara qarşı hücuma keçdi. Makedoniya ordusu özündən xeyli güclü olan 150 minlik Persiya ordusuna qalib gəldi. Dara qələbəyə böyük ümid

bəslədiyi halda yenə də qaçmağa məcbur oldu, sonralar satraplarından biri xəyanət edərək, çarı öldürtdü.

Aleksandr paytaxt Persepolisi tutandan sonra, sərkərdəsi Ptolemeyin kənizi, afinalı qız Taisin təşəbbüsü ilə, Kserksin Afinanı yandırmasının qisasını almaq məqsədilə bu gözəl şəhər oda verildi. Aleksandr yanğn başlayanda sarayında idi, bu vəhşiliyə müqavimət göstərmək əvəzinə, onda bilavasitə iştirak etdi. Beləliklə, Aleksandr həm də bu məşhur çəhərin timsalında gözəlliyin dağıdıcısı, böyük vandal olduğunu göstərdi.

Sonra Aleksandr Xəzər dənizinin cənubu ilə irəliləyib, Orta Asiyaya keçdi, Soqdiananı zəbt etdi. Burada ziyafətdə xoşagəlməz hadisə baş verdi. Yerli əhalinin nüfuzlu adamlarının iştirakı ilə keçirilən ziyafətdə Aleksandr öz sərkərdələrini qorxaqlıqda təqsirləndirdi. Doğrudan da, skiflərin yunanlara etdiyi basqınların qarşısı alına bilmirdi. Klit yad adamların yanında özlərinin ələ salınmasına dözməyib, etirazını bildirdi, Aleksandr isə istehzasını davam etdirdikdə, Klit şairYevripidin şeirindəki sözlər ilə onu tiran adlandırdı. Hiddətlənən Aleksandr mühafizəçisinin nizəsini qapıb, Klitin sinəsinə atdı və  ağır yara almaqla o, öldü. Sonra Aleksandr çox peşiman olub, dostuna bir neçə gün yas saxladı.

Aleksandr atasının sərkərdə sirdaşı kimi silahdaşı olmuş Parmenion vətənə qayıdarkən, onun öldürülməsi barədə göstəriş verdi.

Sonra o, Parpenionun oğlu Filotu da öldürtdürdü. Son vaxtlar Aleksandr özünə qarşı sui-qəsd təşkil ediləcəyindən qorxub, bunda yaxın adamlarından şübhələnirdi və onları aradan götürürdü.

Sonra Baktriyadan keçib Hindistanın şimalına, indiki Pakistan ərazisinə girib, oradakı hind dövlətlərindən biri olan çar Porun səltənətini işğal etdi.

Cənuba tərəf irəlilədikdə, gözləmədiyi bir hadisə baş verdi, ordu qiyam qaldırıb, yürüşü davam etdirməkdən imtina etdi. Bu, Aleksandr üçün ağır zərbə idi, o, təkcə Hindistanı deyil, o vaxtlar məlum olan bütün dünyanı tutmaq, yəqin ki, Yaponiyaya çatmaq istəyirdi. Ordunun etirazı onun planlarını alt-üst edirdi. Aleksandr həm də böyük ağıl sahibi, məharətli siyasətçi idi. Ordunun müqavimətini qırmaq tədbirləri ona baha başa gələ bilərdi. Ona görə də döyüşçülərinin qərarı ilə razılaşmaq yolunu tutdu. Ordunu iki hissəyə ayırıb, biri cənubda okeanda üzməklə admiral Nearxın başçılığı altında İran körfəzinə gedib çıxmalı idi. Digər dəstə isə, özünün başçılıgı altında Gerdosiya səhrasından keçməklə Babilə çatmalı idi. Geri dönmək səfəri olduqca əzablı idi və ordu bu vaxt xeyli itki verməli oldu.

Nəhayət, b.e.ə. 324-cü ildə Aleksandrın ordusunun hər iki dəstəsi Babilə gəlib çatdı.

Böyük Aleksandr təkcə hərb dahisi deyildi, həm də uzaqgörən strateji düşüncəyə malik idi. O, Qərblə Şərqi öz imperiyasında

birləşdirməyə çalışırdı. Bu məqsədlə işğal olunmuş ərazilərin əhalisinin qaydalarını öyrənib, onlardan istifadə edirdi. Pers paltarı geyinir, Persiya çar sarayının qaydasında özünə təzim edilməsini tətbiq edirdi. Misirdə paytaxt Memfisdən 600 km. aralı olan Amman məbədinə səhra ilə gedib, orda olan allah  Pa-nın oğlu olması barədəki kahinlərin qərarını və faraon titulunu qəbul etmişdi.

Aleksandr qeyri-adi sərkərdəlik istedadına şəxsi igidliyini də əlavə edirdi. Daim irəli atılmaqla döyüşçülərinə nümunə göstərirdi. Güclü strateq olduğu kimi həm də məharətli taktik idi. İgidliyinin "mükafatı" kimi çoxlu yaralar alırdı.

Həm də o, əsl qurucu şöhrətinə yiyələnmişdi, şəhərsalma təcrübəsində yüksək biliklərə malik olmasını göstərirdi. Onun Nilin və Aralıq dənizinin sahilində saldığı Aleksandriya şəhəri öz şərəfinə belə adı daşımaqla yanaşı, yerinin seçilməsi və şəhərin planlaşdırılması məhz yüksək arxitektorluq istedadından xəbər verirdi. Aleksandr sayı az qala yüzə çatan Aleksandriya adlanan şəhərlər salmışdı. O, bəzi yeni şəhərlərinə özünün döyüş atı olan Butsefalın da adını qoyurdu.

Döyüşdə düşmən kimi vuruşmuş xalqları birləşdirmək, keçmişi yaddan çıxarmaq üçün o, müxtəlif tədbirlər həyata keçirirdi. Babilə qayıtdıqdan sonra 10 min nəfər döyüşçüsünün yerli qızlarla nikahını təşkil etdi, mərasim beş gün davam etdi. Özü də bu nikah ənənəsindən kənarda qalmamaq üçün çar III Daranın əsir götürdüyü böyük qızı

Statira ilə evləndi, mərhum çarın kiçik qızını isə dostu Hefestiona ərə verdi. Bundan əvvəl isə o, Baktriya əyanının qızı Roksana ilə evlənmişdi.

Aleksandr xəstə olmasına baxmayaraq, Afrikanın şimalına yeni yürüş planlaşdırırdı ki, işğallarını yekunlaşdırdıqdan sonra, Aralıq dənizi ilə Yunanıstana qayıtsın. Lakin malyariya, döyüşlərdə aldığı yaralar və spirtli içkiyə meyllilik onu taqətdən salmışdı və ümumiyyətlə o, öz sıhhıti qayğısına qalmırdı. Aleksandr qısa sürən xəstəlikdən sonra 323-cü ildə, 32 yaşında Babildə vəfat etdi.

Aleksandrın ölümündən sonra onun üç qitənin ərazisini əhatə edən böyük imperiyası, öz sərkərdələri tərəfindən, onlar artıq varis kimi diadox adlanırdı, ayrı-ayrı hissələrə parçalandı. Onun generalı Ptolomeyə Misir düşdü, Kassandr isə Makedoniyanın hökmdarlığı ilə razılaşdı. Aleksandrın imperiyasının dağılmasından 2300 il sonra Avroasiyada baş verən SSRİ-nin məhvini və parçalanmasını xatırladırdı.

Makedoniya çarı Kassandr öz hakimiyyətini qoruyub saxlamaq üçün Roksananı və onun Aleksandrdan doğduğu oğlunu öldürtdü. O. həm də Aleksandrın anası Olimpiadanın məkrindən qorxduğuna görə, onun da öldürülməsi göstərişini verdi.

Beləliklə, II Filipp və Makedoniyalı Aleksandr sülaləsi qısa ömür yaşadı, atadan başlamaqla, oğulda başa çatdı. Həm ata, həm də oğul döyüşlərdə az qan axıtmamışdılar, təkcə yunan şəhər-dövlətlərinin

sakinlərinin, ata və oğulun işğalları vaxtı axıtdığı qan onlara lənət yağdırılmamış qalmamışdı. Çar II Filipp Yunanıstanda hegemonluğa nail olmaq üçün hər cür tədbirə əl atırdı, yunanları Makedoniya tabeliyinə salmaq üçün qanlı döyüşlər aparırdı. Qisas alınmasını çox gözləmək lazım gəlmədi, və qatilin zərbəsi ilə o, b.e.ə. 336-cı ildə həyatdan getdi.

Makedoniyalı Aleksandr hərb tarixində özünə bərabər olan ikinci bir şəxsi tanımır. O, düşməndən xeyli az qüvvə ilə, onun üzərində qələbə çalmağı bacarırdı. O, hərb elminin və praktikasının dahisi idi. O, ordusunu ərzaqla, atlarını yemlə təmin etmək üçün logistikaya xüsusi əhəmiyyət verib, öz yürüşdə irəliləmək yollarını yollarını ustalıqla seçirdi. Orta Asiyaya girməmişdən əvvəl Xəzər dənizinin cənubu ilə irəliləməklə, o, ordusunun ərzaa olan və süvari dəstəsindəki atların yem tələbatını lazımınca ödəməyi bacarmışdı. Aleksandr döyüş yerini seçməkdə də xüsusi məharət göstərir, heç vaxt səhvə yol vermirdi. Lakin o, şəxsi qüsurlardan da xali deyildi. Dostlarından, ətrafındakılardan şübhələnmək onun həyatına zəhər qatırdı. Şübhələndiyi adamları, gümanına hansısa bir əsasın olub-olmadığını nəzərə almadan, aradan götürməyə cəhd edirdi. Onun hiddətlənməsi bəzən qan axıtmaqla nəticələnirdi. Dostu Klitin, atasının etibarlı silahdaşı və özünün qabiliyyətli sərkərdəsi Parmenionun və onun oğlunun öldürülməsi, Aleksandrın haqsızlığından, bəzən qəddarlığa qurşanmasından xəbər verirdi. Onların ruhu yəqin ki, Aleksandrı lənətlənməmiş ötüşməmişdi. Ona görə də özünün olduqca vaxtsız ölümündən sonra, nəsli də

birdəfəlik kəsildi. Makedoniya çarı Kassandr onun qəddarlığına özünün nankor və daha iyrənc qəddarlığı ilə cavab verdi.

Lakin tarix, görünməmiş qələbələrinə görə Böyük Aleksandrı yaşadır və bəşəriyyət gələcəkdə də heç vaxt bu hərb dahisini yaddan çıxarmayacaqdır. Onun Qərblə Şərqi birləşdirmək istəyi baş tutmasa da, yəqin ki, müharibələr erasına nəhayət son qoyulanda, dünyanı bölən bu iki hissə birləşib, bəşəriyyətin sarsılmaz bütövlüyünü meydana gətirəcəkdir. Bəlkə də, bu, həyata keçməsi çətin olan bir arzudur, lakin qədim tarixdə bu, məhz Aleksandr tərəfindən həmin ideya irəli sürülmüşdüsə və ya ona cəhd edilmişdisə, gələcək dünyada da bir nəfər deyil, çoxları bu ideyanı bərpa edib, onun reallaşmasına çalışacaqdır. Aleksandrın nəcib ideyası yenidən yada düşsə, Feniks quşunun məhv olduqdan sonra, küldən dirilməsi, boy atmasını xatırlamaq lazım gəlir. Makedoniyalı Aleksandrın ümumbəşəri xeyirxah istəyi də, Feniks fenomenini kimi yenidən dünyada yada salınmaqla, özünün heç şübhəsiz böyük və insanlığa fayda verən dəyər olduğunu sübut edəcəkdir.

## Qay Yuli Sezarın macəraları

Qədim Roma tarixini bəzəyən Qay Yuli Sezar olduqca maraqlı və təzadlı bir həyat yaşamışdır. O, çox gənc ikən öz qorxmazlığını nümayiş etdirmiş, sərkərdə Marinin arvadı olan xalasının dəfnində, Marinin

düşməni, diktator Sulladan çəkinməyərək nümayişkaranə surətdə iştirak etmişdi. Optimatların güclü olduğu Romada o, populyarlara qoşulmuşdu. B.e.ə. 60-cı  ildə Pompeylə və Krassla birgə birinci Triumviratı yaratmışdır. Həmin vaxt onlar Sezardan güclü idilər, Qney Pompey məşhur sərkərdə şöhrəti qazanmışdı, Krass isə Romanın ən varlı adamı idi.

Sezar Qalliyaya prokonsul təyin ediləndə, burada qanlı müharibələr aparmış, şəhərləri xaraba qoymuş,  tarixçi Plutarxın yazdığına görə bir milyon adamın ölümünə səbəb olmuş və elə həmin sayda da əsir götürmüşdü. Aleziya döyüşündəki qələbə onun şöhrətini daha da böyütmüşdü. Həmin döyüşdə qall sərkərdəsi Torsinqotoriki əsir götürmüşdü..

Qalliyada olarkən b.e.ə. 55-ci ildə ilk dəfə Britaniya adasına ayaq basmışdı. İngiltərənin «Albion» adı da La-Manşdan baxdıqda ada dumana bürünməklə süd rəngində göründüyündən, «ağ» mənasını verən bu sözdə ifadə olunmuşdu.

B.e.ə. 49-cu ilin yanvarında o, mövcud qanunu pozaraq, Rubinon çayını keçməklə ordusu ilə birlikdə Roma ərazisinə daxil olmuşdu. O, bu hərəkətinin vətəndaş müharibəsinə səbəb olacağını bildiyindən, məşhur «Alea jakta» - «Püşk atılmışdır» sözlərini söyləmişdi. Bu o demək idi ki, artıq geriyə yol yoxdur, taledən qaçmaq heç də mümkün deyildir.

Pompey bu xəbəri eşidəndə, onun ordusu İspaniyada idi və özünün gücsüzlüyünə əmin olduğuna görə, Yunanıstana qaçdı və Sezar heç bir müqavimətlə rastlaşmadan Romaya girdi. O, boş qalmış hakimiyyəti öz üzərinə götürdü, Senat da Pompeylə birlikdə Romanı tərk etmişdi.

Sezar Pompeyi məhv etmək üçün Yunanıstana gedib, b.e.ə 48--ci ildə Farsal döyüşündə onu məğlub etdi və Misirə qaçan Pompey Aleksandriya yaxınlığında qətlə yetirilmişdi.

Sezar Alekskandriyaya gələndə, burada müqavimətlə qarşılandı. Lakin şəhərdə yanğın törətməklə, döyüşdə qalib gəldi. Qardaşı XIII Ptolomey tərəfindən hakimiyyətdən qovulmuş Kleopatranı Sezar çariçalığa bərpa etdi və onun məşuquna çevrildi. Onların yaxınlığından Sezarın Sezarion adlandırılan oğlu dünyaya gəldi.

Lakin Sezar əldə etdikləri, ömürlük diktator təyin edilməsi ilə də razılaşmayıb, çar olmaq istədi. Çar ölkəni Senata ehtiyac olmadan təkbaşına idarə edəcək, ona heç bir müxalifət mövcud olmayacaqdı. Bu respublika quruluşunun məhv olması demək idi.

Respublika tərəfdarları Sezarın bu niyyətinin baş tutmaması üçün ona sui-qəsd təşkil etdilər. Sezar isə hətta falçının onu xəbərdar etməsinə də əhəmiyyət verməyib, Senata yollandı və Pompey kuriyasına girən kimi sui-qəsdçilər onu əhatə etdi və Kassa onun boynuna ilk zərbəni vurdu. Sui-qəsdçilərdən heç kəs kənarda qala bilməzdi, ona 23 xəncər yarası vuruldu, axırıncı zərbəni onun qasığına oğlu kimi sevdiyi Mark

Yuli Brut vurdu və Sezar onun zərbəsinə inanmaq istəməyərək *«Et tu, Brut»* - «Səndəmi, Brut» nidasını qışqırmışdı Bu hadisə b.e.ə. 44 –cü ilin 15 martında, romalıların adlandırdığı idi günündə baş vermişdi..

Sezarın ölümündən sonra sui-qəsdçilər Yunanıstana qaçdılar. Sezar tərəfdarları döyüşdə onları məğlub edəndə, çoxu öldürüldü. Qısa müddətdən sonra Sezarın qatillərindən heç biri sağ qalmadı.

Oktaviandan, Lepiddən və Antonidən ibarət ikinci Triumvirat yarandı və Romanı artıq onlar idarə edirdilər. Bölgü əsasında Qərbin idarəçiliyi Oktaviana, Şərqinki isə Mark Antoniyə keçdi. Mark Antoni Misir çariçası Kleopatraya vuruldu, arvadı öldüyündən Romaya qayıdıb, Oktavianın bacısı Oktavia ilə evləndi. Lakin sonra onu boşadı, yenə də Kleopatranın yanına döndü. Oktavian bunu şəxsi təhqir kimi qarşıladı. Həm də Romaya məxsus olan Şərq torpaqlarını Antoni Kleopatraya bağışlayırdı. Onların həm də ekiz övladları – oğlu və qızı olmuşdu. Oktavianla Antoni arasındakı təbliğat müharibəsi isə səngimək bilmirdi.

Kleopatra Misirdə hakimiyyəti oğlu Sezariona verməyə çalışırdı. B.e.ə. 31-ci ildə Yunanıstandakı Aktsium dəniz döyüşündə Antoninin və Kleopatranın donanmaları məğlub oldu. Antoni özünü b. e. ə. 30-cu ildə öldürdükdən sonra, Kleopatra da intihar vasitəsilə həyatdan getdi.

Oktavian Sezarın nəvə qohumu və rəsmi varisi idi, lakin o, hakimiyyətə sahib olmağı və onu qoruyub saxlamağı hər şeydən üstün tuturdu.

B.e.ə. 30-cu illərdə tək hakimiyyətliyə yiyələndikdən sonra, Sezarionun tapılıb öldürülməsi göstərişini verdi. Və b.e. 14-ci ilinə qədər 44 il ərzində printseps adı altında ilk Roma imperatoru oldu. O, həm də müqəddəs mənasını verən Avqust kimi məşhurlaşmışdı. Ondan sonra mənfur im0eratorlar meydana gəldi, b.e.. 180-ci ilinə kimi cəkkiz onillik ərzində isə nəcib imperatorlar Romanı idarə etdi.

Yuli Sezar istedadlı sərkərdə və dövlət xadimi idi, lakin o, respublika Romasına yad olan çar olmaq eşqinə düşdükdə, respublika quruluşu tərəfdarlarının müqavimət gücünə inanmadığından sayıqlığını itirdi və həyatla vidalaşmalı oldu.

Sezar Qalliyada çox qan axıtmışdı, əsir götürdüyü qall sərkərdəsini öldürtmüşdü. Onların və vətəndaş müharibəsində həlak olan romalıların lənəti öz işini gördü. Özü kimi, tanımaq istəmədiyi bastard oğlu da həyatdan getdi. Sezarın saysız-hesabsız günahlarına görə onun heç bir cinayəti olmayan oğlu da anasına görə qurbana çevrildi.

## Jak de Molenin lənəti qısa müddətdə həllini tapır

Tampliyer rıtsarlarının (temple – «məbəd» deməkdir, fransız dilində «tampl» kimi tələffüz edilir, tampliyep isə «məbədlilər» deməkdir) böyük magistri Jak de Mole 1250-ci ildə anadan olmuşdu, ordenin 23-cü və axırıncı lideri idi. O, 1312-ci ilə kimi bu vəzifəni icra

etmişdi. O, Tampliyer ordenini islahata uğratmaq istəyirdi, lakin Roma papası V Klement onu bu vəzifədən götürmüşdü.

Tampliyer ordeni olduqca güclü dini və hərbi təşkilat olmaqla, Səlib yürüşlərində iştirakdan böyük var-dövlət qazanmışdı. Fransaya qayıtdıqdan sonra orada və qonşu İspaniyada torpaqlar almağa başlamışdı və kral hakimiyyəti üçün ciddi təhlükəyə çevrilmişdi. Həm də Fransa kralı IV Filip ordendən böyük miqdarda borc pul almışdı. Ona borclu olmağına görə kral cəhd edirdi ki, ordeni parçalasın və borcu ödəməkdən imtina etsin.

Kral XIV əsrin əvvəllərində ordeni məhv etmək üçün, onun üzvlərinin təqibinə, dustaq edilməsinə başladı. Həbs edilənlər, onlardan saxta etiraflar alınması üçün işgəncələrə məruz qalırdı. 1307-ci ildə həbs edilən de Mole işgəncələrə dözməyib, ittihamda göstərilən günahlarını etiraf etməyə məcbur oldu. Sonralar Mole öz əvvəlki sözlərini dəyişib, ittihamlarda irəli sürülən günahları bütünlüklə rədd etdi. Kral vəziyyətin yaxşı olmadığını görüb, məhkəməni Sena çayındakı adaya, Notr-dam kilsəsinin qabaq tərəfinə köçürdü və məhkəmə Moleni tonqalda yandırılmaq cəzasına məhkum etdi. XIV əsrin sonunda isə Jak de Mole növbəti əfsanəvi  şəxsiyyətə çevrildi.

Hospitalyer ordeni də mövcud idi, onlar xəstəxananalarda xidmət göstərdiklərinə görə belə adlanırdılar, tampliyerlərə nisbətən Fransaya gec gəlmişdilər və kralın onları da həbs edəcəyindən qorxurdular. Axı

tampliyerlərin həbsindən sonra, onların mülkiyyətləri də müsadirə edilmişdi.

De Mole kardinallar tərəfindən mühakimə edildikdə, o, 1307-ci ildə dediklərindən bütünlüklə imtina etdi. Lakin kralın məhkəməsi 1314-cü ildə onun tonqalda yandırılmaq hökmünü verdi. Baş magistrin öldürülməsi barədə xəbər bütün ölkəyə yayıldı.

Ən maraqlı cəhət edam olunan Jak de Molenin ölüm qabağı, ona haqsızlıq edənləri lənətləməsi idi. O, heç bir qorxu hiss etmədən ucadan dedi ki, Allah onlardan hökmən qisas alacaqdır. O, çəkinmədən Roma papası V Klementi də kral IV Filiplə birlikdə ittiham etdi. O dedi ki, sizin məhkəmə Yer üstündəkilər üçündür, həqiqət və onun barəsindəki mühakimə isə Göylərdəki Allahın əlindədir. Papanı xəbərdar etdi ki, o, və kral IV Filip bir ilin ərzində Allahın qarşısında öz cinayətlərinizəə görə cavab verməli olacaqsınız.

Kral IV Filip və papa V Klementin hər ikisi Molenin edam edilməsinin bir ili içərisində öldülər. Klement 1314-cü ildə uzun müddət xəstə yatdı, Filip isə ov etdikdə ürək tutmasından öldü. Molenin edamından cəmi 14 il sonra 300 ildən bir az artıq ömür sürmüş Kapetinq sülaləsi iflasa uğradı. Axı de Mole təkcə kralı və papanı deyil, onların törəmələrini də lənətləmişdi. Kralın övladları və nəvələri çox qısa müddətdə hökmranlıq etdilər.

XX əsrin əvvəlində, 1913-ci ildə Rusiyada öz 300 illiyini təntənəli bayram edən Romanovlar sülaləsi də dörd il sonra süqut etdi. Kapetinq sülaləsi kimi Romanovlar da çox sayda haqsızlıqlar işlətmiş, günahsız insanların qanını axıtmışdı. Təkcə 9 yanvar 1905-ci ildə dinc mitinqə çıxmış adamlar güllələbaran edilmişdi.

Günahsız de Molenin edam etdirən kralın şəxsi ədalətsizliyi əsasında çox sayda bədbəxt hadisələr seriyası baş verdi. Lənətin belə reallaşmasını görəndən sonra, gəl onun gücünə və hökmən öz icrasını tapmasına inanma. Allah ona pənah gətirən və ondan mərhəmət uman bəndələrini müdafiəsiz qoymur və onlara qarşı ədalətsizlik edənlər, insanların həyatına zəhər qatan və onları məhv edən qəddar hökmdarlar barədə tez ya gec ədalətli hökmünü verməklə özünün müqayisəsiz qüdrətini bir daha insanlara göstərməklə, onları məhz mərhəmət qanadı altında saxladığına inandırır.

Digər bir maraqlı cəhət də ondan ibarətdir ki, Kapetinq sülaləsi tarixin arxivinə verilsə də, bütünlüklə yaddan çıxmadı, Böyük Fransa inqilabı düşmən saydığı kralı bu sülalənin törəməsi kimi adlandırmağı məqbul saydı, hansı ki, o, Burbon sülaləsinə məxsus idi.

Dörd əsrdən də çox sonra Kapetunq sülaləsi yenidən yada düşdü. 1789-cu il iyulun 14-də qalib gələn Böyük Fransa burjua inqilabının tətbiq etdiyi qadağanlar  hesabına kral XVI Lui və kraliça Mariya-Antuanetta artıq həmin titullarla deyil, vətəndaş  Kapet və vətəndaş

qadın Kapet  kimi adlanmalı idilər., Digər zadəgan titullarını ifadə edən adları dilə gətirmək də qadağan edildi. Hamı bir-birinə müraciət edərkən «vətəndaş» sözünü işlətməli idi.

Devrilən kral XVI Lui Burbon sülaləsinə məxsus olsa da, onu yaddan çıxmış digər sülalənin adı ilə «vətəndaş Kapet» adlandırırdılar və məhkəmədə də  hakim ona yalnız belə müraciət edirdi.  Kral və kraliça sözünü işlədənlər cəzalanırdı. Robespyerin dediyi kimi, «inqilabın yaşaması üçün kral öldürülməli idi». Məhkəmə də kral və kraliça haqqında ölüm hökmü çıxardı və 1793-cü ilin yanvarında və oktyabrında, doqquz aylıq fasilə ilə kral XVI Lui və kraliça Mariya-Antuanetta İnqilab, (indiki Konkord, bu söz ,«razılıq» - deməkdir) meydanında gilyotina edildilər. Məhkəmənin saxta ittihamlara əsaslanması şübhə doğurmurdu.

İnqilab müharibələrdən daha böyük fəlakətdir, çünki o tarixin qanuni təkamül övladı olmayıb, hansısa ideya ilə süni qaydada mayalanan uşaq kimi doğulur. Bu uşaq özünün böyüməsi üçün keçmişi bütünlüklə inkar etməli, onun nümayəndələrini qırmaqdan çəkinməməlidir. İnsanın həyati orqanları qanla qidalandığı kimi, inqilab da qan axıtmaqla, düşmən saydıqlarını məhv etməklə cana dolmağa başlayır, bu yolla qüdrətli  varlığa çevrilir. İnqilab donanması təbii çaylarda üzməyi bacarmır, ona ayrılmış tarixi məsafəni qət etmək üçün qan çayında dolaşmaq lazımdır.

Müharibədə ordu döyüşdə düşmən silahlı qüvvələri ilə vuruşub, onu məhv etməyə çalışır. İnqilabın qələbəsindən sonra isə öz xalqının içindəki çox saydakı düşməni qırmağa girişməklə, vətəndaş müharibəsinə start verilir. Xalqın xeyli faydalı seqmenti bu dəhşətli toqquşmada məhv olur.

Lakin inqilab düşmən saydıqlarını qırdıqdan sonra bu qan axıtma mənbəyi xeyli kasadlaşır. Qan bazarında inqilabın tələbi böyük olduğu halda, düşmən adlandırdığı cəbhə düşərgəsindən gələn təklif azalır, kiçilir. Bu vaxt daim qana susayan inqilab öz balalarını yeməyə başlayır. Sinfi mübarizə artıq öz əvvəlki tərəfdarlarına qarşı yönəlir. Böyük Fransa inqilabından sonra başlanan Terror 1794-cü ildə görkəmli xadim Jortj Dantonu, bu terrorun təşəbbüskarı Maksimilian Robespyeri də məhv etdi.

Aşağı təbəqə də liderlərindən nümunə götürüb, nifrət hissini qızışdırırdı. Sankluyotların, bu sözün "gödək şalvarlılar" mənasına uyğun gələn qaydada, həmin paltarın ölçüsü kimi, ağılları da gödək idi və onlar elan edilən istənilən mənfur dalğaya həvəslə qoşulurdular. Kralı və kraliçanı ən eybəcər ifadələrlə təhqir etmək onların inqilabi natiqlik peşəsinə çevrilirdi. Terrordan xeyli sonra hakimiyyətə gələn Napoleon royalistlərlə yanaşı, inqilabçıları da təqib etməyə girişdi.

Rusiyada Oktyabr inqilabından sonra vəziyyət daha ağır şəkil aldı. 1918-ci ildə Vətəndaş müharibəsinin başlanması ilə "qırmızı terror" da

işə düşdü. Bolşeviklərin yaratdığı ordu «ağlara» qalib gəldi. İnqilab rəhbəri Lenin düşmən adlandırdığı varlıları, din xadimlərini qırmağa, dar ağacından asmağa çağırırdı. Stalin isə ətalət qaydasında inqilab liderlərini məhv etmək kimi ağır vəzifəni həll etməyə girişdi. 1930-cu illərdə aparılan təmizləmələrdə Lenin qvardiyasının üzvü adlananlar bütünlüklə sıradan çıxdı. «Xalq düşməni» adı altında istənilən adamı məhv etmək mümkün oldu. Ölkənin məhsuldar qüvvələrinə, nəhəng canlı itki hesabına böyük ziyan dəydi. İnqilab adamlara xoşbəxt həyat bəxş etməyi vəd etsə də, milyonlarla ailələrin həyatına zəhər qatdı. İnqilab ağacı başqa dadda olan meyvə verə bilmirdi.

Kapetinq sülaləsinin yada salınması, inqilab adlanan dəhşətlər mənbəyi barədə söhbətə də yol açdı. Ölümün obrazı olmadığına görə insanlar ondan ömür boyu davam edən üzücü qorxu hiss etmirlər. İnqilab adlanana yırtıcı Moloxun isə tarixdə qorxunc nümunələri olduğundan, onların baş verməsinə mümkün qədər mane olmaq lazımdır. Axı inqilab həqiqi düşməni unudub, xalqı parçalamaqla, onun ayrı-ayrı hissələrini bir-birinə düşmən edir, öz xalqının qanının axıdılması kimi iyrənc bir yol tutur.

Valua sülaləsinin sonunun bədbəxtlikləri

Valua sülaləsindən olan kral XII Lui öz ölümündən əvvəl 15 yaşındakı qızı Klaudinanı, onu kral taxt-tacında əvəz edəcək Fransiskə ərə vermişdi. O, hələ 1508-ci ildə taxt-taca çıxanda həmin öz əmisi oğluna hersoq titulunu vermişdi. Bu qərar Fransiskin kral kürsüsünə yiyələnməsi üçün, evlənməsi ilə bilikdə yaxşı zəmin yaratmışdı. Fransiskin gözlədiyini əldə etməsinə çox vaxt sərf olunmadı, 1515-ci ildə o, artıq I Fransisk adı altında Fransa kralı oldu. O, bundan əvvəl orduda xidmət etmiş, Milan hersoqluğunu işğal etmək üçün vuruşmuşdu. Lakin onun cəhdləri kral olduqdan sonra sərt müqavimətlə rastlaşmalı oldu. Kral Ferdinand öldükdən sonra, Hollandiyada böyümüş və ona görə ispan dilini bilməyən nəvəsi Karl İspaniya taxt-tacına sahib oldu. O, V Karl adı altında 19 yaşında həm də Müqəddəs Roma imperiyasının imperatoru olmaqla böyük iqtisadi və hərbi qüdrətə yiyələndi. Ispaniyanın var-dövləti olduqca böyük idi. Üstəlik, Vest İndiyadan ölkəyə gəmilərlə qızıl, gümüş yükü az sonra gəlməyə başladı.

Kral I Karl öz imkanlarına arxalanıb, İtaliya kiçik dövlətlərini də zəbt etmək istəyirdi. Və əslində bu məqsədinə çatmaq üçün ona mane olacaq bir qüvvə də yox idi. Bu məsələdə Fransanın ona tutarlı rəqib olması qeyr-mümkün idi, çünki qüvvələr nisbəti İspaniyanın xeyrinə fərqli idi və onun İtaliyaya ağalıq etmək istəyi həm də malik olduğu imkanlara əsaslanırdı.

I Karl üçün təhlükəli düşmən Osmanlı imperiyası idi, onu isə 1571-ci ildəki Lepanto dəniz döyüşünə qədər məğlub etmək mümkün

olmamışdı. Həm də Fransanı  İspan kralı özünə bərabər olan rəqib saymırdı və fürsət düşən kimi onu məhv etmək istəyirdi. Axı artıq o, özü İtaliya dövlətlərinə ağalıq etmək eşqinə düşmüşdü. Onların düşmənçiliyi 1522-ci ildə daha da gücləndi.

I Fransiskə şəxsi həyatında da bədbəxtlik baş verdi. 24 yaşlı arvadı Klaudinanı itirmişdi. 1525-ci ildə isə İtaliyanın Pavla şəhərindəki döyüşdə Fransiskin ordusu ispanlara məğlub oldu və Fransisk özü isə onlara əsir düşdü. Məhbəsdən qaçmaması üçün onu Madriddə hündür bir qüllədə saxlayırdılar. I Karl onun azad olunması üçün nəhəng məbləğdə qızıl pul istəyirdi. Axırda Fransisk 7 və 5 yaşlı iki oğlunu girov verməklə dustaqxanadan azad oldu. Uşaqlar 4 il İspaniyada girov kimi dustaq saxlandıqlarından, doğma dillərini də unutmuşdular. Dofin vətəninə qayıtdıqdan sonra, 18 yaşında öldü. Yeni dofinliyə keçən Henri 1533-cü ildə Katerina Mediçi ilə evləndi və atası 1547-ci ildə öləndə, II Henri adı altında taxt-taca çıxdı. Onun hökmranlığı 12 il sürdü və öləndə onu oğlu II Fransisk əvəz etdi. O, Şotlandiya kraliçası Mariya Styuarta evlənmişdi. Onun krallığı 1,5 il çəkdi və əri öləndə  Mariya da vətəninə qayıtdı.

Onu kral kürsüsündə qardaşı IX Karl əvəz etdi. 1572-ci ildə anasının fəal iştirakı ilə keçirilən Müqəddəs Varfolomey gecəsindəki huqenotların qırğınından sonra kral öldü və onu Polşa kralı olan qardaşı III Henri əvəz etdi. 1589-cu ildə qəribə davranışı ilə taxt-tacı hörmətdən

salan III Henri qətlə yetirildi və bununla da Valua sülaləsi sona çatdı və Burbon sülaləsinin əsası qoyuldu.

Sülalənin son üzvləri dini münaqişənin əsasını qoymuşdular, ölkədə huqenotlar təqib edilirdi. Onlar həm də xeyli bədbəxtliklərlə üzləşmişdilər, bəziləri bunu sülalənin ünvanına söylənən lənətlərin nəticəsi hesab edirdi.

1589-cu ildə kral taxt-tacına  tam qanuni əsasla yeni Burbon sülaləsinin banisi IV Henri çıxdı. O, huqenot lideri olduğundan 1594-cü ilə kimi katoliklər onu paytaxt Parisə buraxmırdılar. O, dinini dəyişib, katolikliyə qayıtmaqla Parisə daxil ola bildi. 1572-ci ildə o, II Henrinin və Katerina Mediçinin qızı, üç kralın bacısı olan Marqaritaya evlənmişdi, sonra onlar boşandılar. IV Henri 1600-cü ildə Mediçilər ailəsinin digər üzvü Mariya ilə evləndi. 1610-cu ildə Parisin küçələrində karetada gedən kralı fanatik katolik xəncər zərbəsi ilə öldürdü. Sonralar onun qızı Henrietta- Mariya İngiltərənin gələcək kralı I Karla, o, Uels printsi olarkən, 1623-cü ikdə ərə getmişdi.

Valua sülaləsindən olan qohumlarının bədbəxtliyə xidmət edən lənəti onu da rahat buraxmamış, bu ləyaqətli kral da qətl hesabına həyatı tərk etmişdi..

## İngiltərədəki qısa ömürlü Tüdor sülaləsinin bədbəxtlikləri

İngiltərədə XV əsrdə Yorkların və Lanlasterin (Ağ qızılgülün və Qırmızı qızılgülün) münaqişəsi davam edir, silahlı toqquşmalara səbəb olurdu. Yorklar hakimiyyətdə olanda kral IV Eduard 1483-cü ildə öldükdən sonra, taxt-tacı, onun prints oğlanları olduğu halda, qardaşı III Riçard qəsb etdi. O, qardaşı oğlanlarını Tauer qəsrinə saldırdı və sonra uşaqların öldüyü bildirildi. III Riçard bu əclaflıqlarla kifayətlənməyib, ölən kralın arvadı ilə evləndi və öz qardaşı qızını da ələ almağa çalışırdı.

Riçarda qarşıdurmada güclü müxalifət də var idi və onu əsasən Lankaster ailəsi təşkil edirdi. Fransada məskunlaşmış lankasterlərin lideri 1485-ci ildə İngiltərə sahillərinə gəldi və III Riçardın ordusu ilə Bosvort döyüşü başlandı. Kral öz qüvvələrinə və qalib gələcəyinə çox inanırdı. Lakin onun vəziyyəti ağırlaşdı, özü öldürüldü və ordusu məğlub oldu. Lankasterlərin Fransadan gəlmiş lideri VII Henri adı altında kral elan edildi.

VII Henri ağıllı adam idi, ölkəni parçalayan iki nəslin düşmənçiliyinə, qızılgüllərin müharibəsinə son qoymaq üçün Yorklardan olan kral IV Eduardın qızına evlənməklə, iki düşmən ailəni qohum etməklə, aradakı nifaqlara birdəfəlik son qoydu.

VII Henrinin iki oğlu var idi, Uels printsi olan oğlu Arturu İspaniya kralı Ferdinandın və kraliçası İzabellanın qızı Katerina Araqonluya

evləndirmişdi. Bir neçə aydan sonra Artur oldu. 1509-cu ildə ölən VII Henrini isə taxt-tacda ikinci oğlu, VIII Henri adı altında əvəz etdi.

VIII Henri qardaşının dul arvadına vurulmuşdu və həddi-buluğa çatana qədər gözləyib, Katerina Araqonluya evləndi. Henri sülaləni yaşatmağı, davam etdirməyi vacib vəzifə hesab edirdi, lakin arvadı ona oğul doğa bilmirdi. Doğduğu beş uşaqdan yalnız qızı Mariya salamat qalmışdı və gələcəkdə o, kraliça olacaqdı.

1527-ci ildə qadın düşkünü olan kral ona oğul doğmuş məşuqəsinin böyük bacısı, Fransadan qayıdan Anna Boleynə vuruldu. Ərli bacısından fərqli olaraq Anna (Qərbdə geniş yayılmış Anna adı, İisus Xristin nənəsi olmaqla, onun anası Mariyanın anasının adından götürülmüşdür) kralın intim istəklərinə tabe olmurdu və arvadını boşayıb, ona qanuni qaydada evlənməyi təklif edirdi. Onsuz da kral özü də Katerinadan aralanmaq istəyirdi və çox inanırdı ki, bacısı ona bastard oğul doğduğu kimi, Anna da ona prints doğacaq və sülalənin davamına möhkəm zəmin yaradacaqdır.

Lakin Katerina Araqonlunu boşamaq asan məsələ deyildi. Valideynləri ölsə də, İspaniya kralı I Karl onun yaxın qohumu idi və o, Roma papası üzərində güclü təsirə malik idi. Ona görə də papa kralın arvadını boşamasına razılıq vermədi.

Henri əlacsız qalıb, Roma kilsəsi ilə əlaqəni qırmaq yolunu tutdu, Anna Boleyn də onu buna təhrik edirdi. VIII Henri ingilis kilsəsini

Roma papasının tabeliyindən çıxardı və yeni yaratdığı Anqlikan kilsəsinə, kral kimi özünün başçılıq etdiyini elan etdi. Məhkəmə Henrinin Bibliyada əsaslanan iddiasını əsas götürüb, bu onun qardaşı arvadına evlənməsini qanundan kənar hesab edirdi, onun Katerina Araqonlunu boşaması ilə razılaşdı. Anna Boleynin 1533-cü ilin əvvəlində artıq hamilə olduğunu nəzərə alıb, kral onunla gizli surətdə evləndi və 1533-cü ilin sentyabrında Anna krala oğul deyil, Elizabet adlandırdıqları qızı doğdu.

VIII Henri çox sayda ədalətsizliklərə də yol verirdi. O, katolik monastırlarını müsadirə edib, onların var-dövlətinə sahib olmaq istəyirdi. Bu var-dövlət isə olduqca böyük idi. İlk dəfə o, yepiskoplar şurasından bir monastırın ona verilməsini xahiş etdi. Yepiskoplar krala güzəştə getmək istədikdə, yepiskop Fişer etirazını bildirib, bir pritça söylədi. O dedi ki, balta tiyəsi bir dəfə meşəyə gəlib, ondan özünə sap düzəltmək üçün kiçik odun parçası istədi. Meşə özündə  milyonlarla belə odun növünə malik olduğuna görə, etiraz etməyib, balta tiyəsini razı saldı. Tiyə saplandıqdan sonra meşənin canına düşüb, onu qırmağa başladı. O qədər qırdı ki, əsl odun daşqını meydana gəldi.

Sonra o, sözünü belə yekunlaşdırdı: kral da indi bir monastır istəyir, sonra isə hamısını əlinə keçirməyə cəhd edəcəkdir. Onun peyğəmbərliyi düz çıxdı, bütün monastırlar tezliklə kralın mülkiyyətinə keçdi.

VIII Henrinin Anna Boleynə evlənməyinə görə də etiraz edən yepiskop Fişeri kral öz düşməni kimi 1535-ci ildə edam etdirdi.

Kraliça Anna Boleyn saray qaydalarına o qədər də məhəl qoymurdu, şux və müstəqil təbiətinə görə əyanların hansından xoşu gəldiyini də gizlətmirdi. Bunu isə onun freynləri (lediləri) müşahidə edib, krala çatdırırdılar. Annanın zinakarlıq etməsi barədə öz şübhələrini əsas götürüb, kral onun mühakimə olunmasını tələb etdi. Anna artıq Tauer qəsrinə salınmışdı, o, qardaşı ilə guya intsest əlaqəsi də daxil olmaqla, beş nəfərlə zinakarlıq etməkdə ittiham edildi və işgəncə altında onlardan bəzisi bunu etiraf etdikdə, kraliçanın özünün mühakiməsi vaxtı qardaşı da daxil olmaqla üçü edam edildi. Doğma dayısının sədrlik etdiyi məhkəmə Annaya qarşı ittihamları əsas götürüb, onu edam etmək hökmünü çıxardı. Anna edam olunanda xahiş etmişdi ki, onu cəllad küt balta zərbəsi ilə deyil, Fransadakı kim daha iti olan qılınc vasitəsilə boynunu vursunlar. Bu hadisə 1536-cı ildə baş verdi. Ondan bir il əvvəl Katerina Araqonlu da həyatdan getmişdi.

Henrinin Almaniyadan olan dördüncü arvadı xoşuna gəlmədiyindən onu boşamışdı. Beşinci arvadı Katerina Houard cavan və gözəl idi və Henri onu sevirdi. Lakin az sonra Katerinanın yeniyetmə vaxtı fahişəlik etdiyi aşkar oldu və Henri, öz günahlarına etiraz edən bu qızı da edam etdirdi. Henri altı dəfə evləndi, lakin axtardığı xoşbəxtliyi ölənə qədər tapa bilmədi.

Annanın anadan yetim qalmış üç yaşlı qızı Elizabetin ağır günləri başladı, fahişə adlanan anasına görə o, bastard hesab olunurdu.

İkinci arvadının edam edilməsindən az sonra Henri onun saray ledisi Ceyn Seymurla evləndi və bu qız onun üçüncü arvadı olmaqla, bir il sonra krala çox arzuladığı oğul doğdu. Lakin doğuşdan 12 gün sonra Ceyn özü öldü. Uşaq sonralar VI Eduard adı altında kral elan edilmişdi.

1547-ci ildə atası öldükdən sonra taxt-taca çıxan azyaşlı Eduard ögey bacısı Elizabetə yaxşı münasibət bəsləyirdi, lakin altı ildən sonra o, öləndə ögey bacısı, Katerina Araqonlunun qızı olan Mariya kraliça olanda, Elizabet yenidən sıxışdırılmağa başlandı. Mariya onu öldürmək üçün bəhanə axtarırdı, lakin kralişaya qəsddə iştirakı barədə ona qarşı irəli sürülən ittiham öz təsdiqini tapmadı.

1558-ci ildə beş il hakimiyyətdə olan Mariya öləndə Elizabet kraliça elan edildi. Lakin bu məsələ də müəyyən çətinliklə həllini tapmışdı..

I Elizabet hakimiyyətdə özünü istedadlı və bacarıqlı kraliça kimi göstərdi. Təqib olunmasına baxmayaraq, o, yaxşı təhsil almışdı, beş dildə danışırdı. Poeziya da ona yad deyildi. Dini münaqişələr ölkəni parçalamaq həddinə gələndə, Elizabet cəsarətli qaydada protestantizmi müdafiə etmək mövqeyindən çıxış etdi. Bacısı, Qanlı Mariya adlanan kraliça katolikliyi yaymaq üçün protestantları edama məhkum etdirmişdi. Elizabet də katolikləri cəzalandırmaq yolunu tutdu.

Elizabet sülaləni davam etdirmək üçün ərə getməli, oğul doğmalı idi. Lakin o, İngiltərənin müstəqilliyi naminə ərə getmək fikrini rədd edirdi. Güman edirdi ki, əcnəbiyə ərə getsə, İngiltərə katolitsizmə qayıdacaq, ingilisə ərə getsə, ərinin qohumları hakimiyyətin siyasətinə müdaxilə edəcəkdir. Onun əlini xahiş edən əcnəbilər heç də az deyildi. Vaxtilə kraliça bacısının əri olmuş, İspaniya kralı II Filipp onu almaq istəyirdi, lakin Elizabet onun təklifini qəbul etməmişdi.

Fransa printsi III Henri ona elçi düşdükdə, bu vaxt ayaqlarının ağrısından əziyyət çəkən Elizabet demişdi ki, qoca axsaq qadınını gənc ərini kilsəyə aparması heç də yaxşı hal olmazdı.

I Elizabet ərə getmədiyinə görə, «Bakirə» ləqəbini qəbul etməyi üstün bildi. Lakin onun bakirəliyi heç də həqiqətə uyğun deyildi. Onun bir neçə məşuqu olsa da, onlardan birinin ona evlənmək təklifinə də razılıq verməmişdi.

İngiltərədə sığınacaq tapmaq üçün oraya qaçıb gəlmiş və dustaq edilən Şotlandiya kraliçası Mariya Styuartın kraliça Elizabetə qarşı sui-qəsddə iştirakı 1587-ci ildə aşkar edildikdə, o, mühakimə olundu və edam edildi. Onun öldürülməsi katolik dünyasının hiddətinə səbəb oldu. Onsuz da Roma papası Elizabetin öldürülməsinin kilsəyə faydalı olduğunu öz bullasında bildirmişdi.

1588-ci ildə İspaniya kralı II Filipp İngiltərəyə hücum etmək üçün öz Məğlubedilməz Armadasını göndərdi. Dəniz qulduru, admiral Fransis

Dreyk və onun silahdaşları ispan donanmasına ağır zərbə vurmaqla məğlub etdilər. İrlandiya yaxınlığında Şimal dənizindəki tufan da Armadanın qalıqlarına böyük ziyan vurdu. II Filipp gileylənirdi ki, o, ingilislərlə vuruşmaq istəyirdi. Allahla vuruşmağa isə o, heç vaxt cəsarət etməzdi.

Elizabetin taxt-tacda olmasının son illəri də heç də sakit keçmirdi. İrlandiyadakı uğursuzluğa görə o, sevdiyi hərbçini özündən uzaqlaşdırmışdı. 45 ilə qədər hakimiyyətdə olduqdan sonra I Elizabet 1603-cü ildə öldü. Onun dövrü İngiltərəyə «qızıl epoxa» bəxş etdi. Bu illərdə ədəbiyyat və teatr sənəti xeyli inkişaf etdi. İngiltərə dünyaya Uilyam Şekspir kimi ədəbi düha, müqayisə olunmayan bir dramaturq bəxş etdi.

Elizabet ölərkən, İngiltərə krallığına Şotlandiya kralı VI Ceymsin gətirilməsini xəbər vermək üçün onun yanına qasidlər göndərdi. Tüdor sülaləsinin davam etməsi üçün heç kəs olmadığından, taxt-taca qohum kimi ən qanuni seçilmiş adam şotland kralı idi. Onun anası Mariya Styuartı dolayısı yolla da olsa, Elizabet edam etdirmişdi. Şotlandiyada 13 ay ərzində VI Ceyms kimi kral olan adam, I Ceyms adı altında İngiltərə kralı oldu və 1625-ci ildə o, öləndə oğlu I Karl taxt-taca yiyələndi, lakin sonrakı ikinci onillikdə onun parlamentlə müxalifəti yarandı və 1649-cu ildə o, edam edildi. Onun varislərinin hakimiyyəti də onillik fasilədən sonra baş versə də, uğurlu olmadı və 1689-cu ildəki

Şanlı iİqilab İngiltərədəki başıpozuqluqlara, vətəndaş qarşıdurmasına və xaosa aparan yola son qoydu.

Tüdorlar sülaləsi müharibə yolu ilə hakimiyyətə gəlmişdi. Onun ikinci nümayəndəsi VIII Henri iki arvadını edam etdirdiyinə görə monstr sayılırdı. Onun oğlu azyaşlı VI Eduardın hakimiyyətini də, dayısının idarəçiliyə müdaxiləsinə görə, uğurlu hesab etmək olmazdı. Ondan sonra beş il müddətində kraliçalıq edən Mariya Tüdor dini zəmində qəddar siyasət apardığına görə, taxt-tacı gözdən salırdı.

1558-ci ildə, 25 yaşlı qız olan I Elizabet İngiltərəyə yeni hava, yeni işıq gətirdi. Düşmən katolik dünyası ilə əhatə olunduğuna baxmayaraq, heç vaxt onun  cəsarətli hökmranlığına şübhə yaranmamışdı. 1588-ci ildə ingilis döyüşçüləri qarşısında çıxış edən kraliçanın özünün dediyi kimi, cılız bədənə malik olsa da, onun sinəsində kral ürəyi döyünürdü. XII əsrin sonunda İngiltərə kralı olan Riçard, qəbul etdyi Şir ürəkli adı ilə tanınsa da, ondan dörd əsr sonra bu ada I Elizabet daha çox layiq idi. Riçard Səlib yürüşündən qayıdanda, Müqəddəs Roma imperiyasının ərazisində əsir düşmüş, böyük girov pulu hesabına azad olunmuşdu. I Elizabet isə daha qüdrətli düşmənlərlə əhatə olunmasına və dəfələrlə qəsdlərə məruz qalmasına baxmayaraq, uzun müddətli hakimiyyətinə fasilə verməmişdi.

XIX əsrdəki kraliça Viktoriya və XX əsrdəki II Elizabet öz məşhur sələflərinin ənənəsini davam etdirərək, müvafiq olaraq 63 il və 70 il ərzində taxt-tacda olmuşdular.

Tüdor sülaləsi hakimiyyətdə 118 il olmuş, həm VIII Henri, həm də Elizabet hərbi dəniz qüvvələrinin inkişafına ciddi fikir verməklə, İngiltərənin gələcəkdə böyük dəniz dövləti, daha sonra isə dünyanın dörddə birini əhatə edən imperiya kimi mövcudluğunun təməlini qoymuşdular.

## Romanovlar sülaləsinin son nümayəndələri

Romanovlar sülaləsi 1613-cü ildə Polşa ağalığına son qoymaqla əmələ gəlmiş, üç əsr ərzində Rusiyanın ərazisini dəfələrlə genişləndirərək, onu Avropada güc sahibi olan böyük imperiyaya çevirməyi bacarmışdılar. Böyük Pyotr və onun işini uğurla davam etdirən II Yekaterina bu sahədə daha çox fərqlənmişdilər. Peterburqda Pyotrun şərəfinə qoyulmuş «Mis atlı» heykəlinin altında latın dilində “ PETRO primo” və “CATHARİNA sekunda”, rusca isə “”’Petru pervomu ot Ekaterinı vtoroy” sözləri yazdırmışdı. Rusiyanın iqtisadi və hərbi inkişafında həmin alman mənşəli qadın böyük nailiyyətlərə imza atmışdı.

Lakin XVIII əsrin sonundan XX əsrin ikinci onilliyinə qədər Rusiyanın idarə olunmasında mürəkkəb hadisələr də baş vermişdir. Əslində II Yekaterinanın hakimiyyətə gəlməsi də çar ərinin devrilməsi və öldürülməsi nəticəsində baş vermişdi. Yekaterina öz məşuqlarının köməyi ilə III Pyotru taxt-tacdan salmış və çariça kimi hakimiyyətə yiyələnmişdi.

Yekaterinanın oğlu Pavel (onun atasının qraf Saltıkov olduğu güman edilir) taxt-tacda 1796-cü ildə ölən anasını əvəz etməklə, beş il hakimiyyətdə olmuşdu. Oğlu I Aleksandrın da iştirak etdiyi sui-qəsd nəticəsində 1801-ci ildə Pavel öldürülmüş və hakimiyyətə I Aleksandr yiyələnmişdi.

I Aleksandrın ən böyük nailiyyəti beş il əvvəl, 1807-ci ildəki Tilzit görüşündən sonra dostluq etməyə başladığı Napoleon üzərində 1812-ci ildə qələbənin əldə edilməsindəki rolu idi. Moskvanı zəbt edən Napoleon ona iki dəfə sülh müqaviləsi təklif etsə də, Aleksandr onun məktublarına cavab verməmiş, Napoleonun Moskvadan və Rusiyadan biabırçı surətdə qaçmasına əslində şərait yaratmışdı. Moskvanı fransızlara təhvil verərkən, ordunun qorunub saxlanması, imperator I Aleksandrın və hərbi xadim Mixail Kutuzovun olduqca uğurlu gedişi sayılmalıdır. Napoleondan fərqli olaraq onlar daha güclü şahmatçı olduqlarını nümayiş etdirərək, qabaqcadan bir neçə uğurlu gedişi fikirləşib tapmış və bu, onlara qələbə çalmağa imkan vermişdi.

I Aleksandr 1814-cü ildə qalib ordusu ilə birgə Parisə daxil olmuş, imperator Napoleonun Elbaya sürgün edilməsinr israrla təklif edib, onun məhv edilməsinin qarşısını almışdı. I Aleksandr Napoleonun keçmiş arvadı Jozefina tərəfindən hörmətlə qəbul edilmişdi.

1825-cü ildə I Aleksandrın Taqanroqda müəmmalı ölümü Peterburqda yeni çarın müəyyən edilməsinə görə problemlərin yaranmasına səbəb oldu. Taxtı böyük oğul kimi Konstantin tutmalı olduğu halda, onun kiçik qardaşı Nikolay tutdu. Bu vaxt dekabristlər üsyanı baş verdi. Savadsız əsgərlər Konstantinin kim olduğunu bilməyib, «Yaşasın Konstitusiya» deyə qışqırırdılar. Üsyan, qan axıtmaqla yatırıldı. Üsyanın başçıları olan beş nəfər edam edildi.

Onun nəslindən olan II Nikolay da çar taxt-tacına çıxdıqda, Moskvanın Xodınskısında payladığı ianəni almaq üçün basdırıqda onlarla insan həlak oldu. Çar II Nikolay isə bu qurbanların getməsinə məhəl qoymayıb, arvadı ilə Britaniya səfirliyində təşkil edilən bala gedib, rəqs etdi.

Hər iki Nikolaylar adamların qırğınına izah olunmayan laqeydlik göstərdiklərinə görə lənətə gəldilər.

I Nikolay Osmanlı imperiyasına öz sələfləri kimi ziyan vurmaq istəyirdi, axı II Yekaterina Türkiyəyə məxsus olan böyük əraziləri müharibələr vasitəsilə tutmuş, Krım xanını məcbur etdiyinə görə, o, 1783-cü ildə guya könüllü olaraq yarımadanın Rusiya imperiyasının

tabeliyinə keçməsini xahiş etmişdi. Rusiya dini zəmində Osmanlıya problemlər yaratmaq istəyəndə, Böyük Britaniya və Fransa Türkiyənin köməyinə gəldi və 1853-cü ildə başlanan Krım müharibəsi Rusiyanın ağır məğlubiyyəti ilə nəticələndi. Çar 1849-cu ildə Macarıstan üsyanı vaxtı xilas etdiyi Avsriya imperiyasının xəyanəti ilə üzləşmiş, imperator Frants İosif ona çox gözlədiyi  köməkliyi göstərməmişdi. Rusiyanın təhkimçi kəndlilərdən yığılmış ordusu Avropa əsgərləri ilə müqayisədə gücsüz görünürdü. Çar I Nikolay hələ müharibə başa çatmamış, dərddən xəstələndi və 1855-ci ildə öldü.

Onu əvəz edən oğlu II Aleksandr 1861-ci ildə təhkimçiliyi ləğv etdi. Quldarlığın başqa növü hesab edilən təhkimçilik Avropada xeyli əvvəllər, məsələn, İngiltərədə bir neçə əsr əvvəl artıq qadağan olunmuşdu. Rusiya isə iqtisadi və sosial anaxronizm sayılan təhkimçiliyi XIX əsrin ortalarına qədər saxlamışdı. Təhkimçi kəndli də qul kimi torpaqla birlikdə alınıb, satılırdı. Avropa kapitalizmə qədəm qoyub, yeni formasiyanı inkişaf etdirdiyi halda, Rusiya feodalizmin ən iyrənc mirasından əl çəkə bilmirdi.

Lakin II Aleksandrın gördüyü böyük iş qiymətini almadı. 1881-ci ildə o, qətlə yetirildi. Onu əvəz edən III Aleksandr on üç il hökmranlıq etdikdən sonra, 1894-cü ildə xəstəlikdən öldü. Onun yerini olduqca iradəsizliyi ilə seçilən II Nikolay tutdu. O, siyasətdə naşı adam idi, alman arvadının güclü təsiri altına düşmüşdü. Şarlatan Qriqori Rasputin

də arvadının məsləhəti ilə nəinki saraya buraxılmış, hətta dövlət işlərinə bilavasitə müdaxilə etməyə başlamışdı.

I Dünya müharibəsi vaxtı baş komandanlığı öz üzərinə götürən II Nikolayın qüsurları özünü daha açıq şəkildə göstərdi. 1917-ci ildəki Fevral inqilabı çar mütləqiyyətini ləğv etdi. Oktyabr inqilabı ilə ölkəni yeni siyasi relslər üzərinə keçirdi.

Müvəqqəti hökumətin hakimiyyəti vaxtı çarın ailəsi Sibirə sürgün edilmişdi. Kolçakın hücumu təhlükəsinə görə, bolşevik hökuməti onu Yekaterinburqa gətirdi.

1918-ci ilin 17 iyulunda II Nikolay, arvadı, dörd qızı və oğlu ilə birlikdə yaşadıqları evdə güllələndi.

Romanovlar sülaləsi 300 ildən bir az artıq, 304 il yaşadı. Onun çarları ağır cəza sistemi hesabına xalqı itaətdə saxlayırdı. Sülalədən əvvəl çar olmuş İvan Qroznı qan axıtmaqda ad çıxarmışdı. Böyük Pyotr da onun ənənəsinin davam etdirirdi və onun kimi öz oğlunun qətlinə sərəncam vermişdi.

I Dünya Müharibəsi (1914-1918 –ci illər) cəbhələrində Rusiyanın canlı itkisi yüz minlərlə ölçülürdü, 1,5 milyona çatmışdı. Hərbi quruculuğa və fəaliyyətə başçılıq edən II Nikolayın səbatsızlığı Rusiyanı məğlubiyyətlər girdabından uzaqlaşmağa imkan vermirdi.

Mütləqiyyətin uzun müddət davam etməsi, xalqı ağır həyata salması və istismarı, mərhəmət hissinə məhəl qoymaması Rusiyanı

lənətlər məkanına çevirməklə, hakimiyyət nümayəndələrinin cəzalandırılması hallarına gətirib çıxardı. II Nikolay və onun ailəsi özünə və sələflərinə qarşı olan lənətlərə görə qətlə yetirmələri ilə layiqli cavabını aldı.

## Lənətlənmiş Rokfeller ailəsi

Rokfeller ailəsinin bünövrəsini 1839-cu ildə anadan olmuş, ABŞ-ın ilk milyarderi Con Rokfeller qoymuşdu. Onun atası Uilyam Rokfeller əsl dələduz idi, saxta dərmanlar düzəldib, onları satmaqla məşğul olurdu. Hətta yenicə istehsal edilməyə başlanan nefti də şüşələrə doldurub, müalicəvi təsiri olan dərman kimi adamlara satırdı.

Conun 14 yaşı olanda, atası ailəsini qoyub, Kanadaya qaçmışdı. O, 19 yaşı olanda neftdən kerosin istehsal edib, onu satmağa başladı. O, əvvəlcə mühasib işləyirdi. Bundan əlavə, hinduşka yetişdirib satırdı. Bir yerdə qərar tutana qədər 100 firmanı dolaşmışdı. Təhsildən yayınıb, kurslarda oxumuşdu və  onu axırda bir firmada idarə rəisi təyin etdilər.

Amerikada  neft, başlıca olaraq kerosin istehsal edilməyə başlandı. Lampalar kerosin yandırmağa keçdiyindən, bu məhsula tələbat böyük idi. Con Rokfeller də taleyini «Standart Oyl» şirkəti ilə bağladı. O, daim varlanmağa çalışırdı. Ona görə də neftdən kerosindən başqa digər maddələr də istehsal etməyə girişdi. Öz partnyorlarının 24 zavodunu

satın aldı və beləliklə, kiçik şirkəti 24 dəfə böyüdü. 1880-ci ildə onun şirkəti artıq Birləşmiş Ştatların ümumi neftinin 90 faizini istehsal edirdi. Endryu Karnegi polad istehsalında inhisara malik olduğu kimi, Con Rokfeller də neft istehsalında inhisar yaratmışdı. Bu ona ölkədə ilk milyarder olmağa imkan vermişdi. Sonralar prezident Teodor Ruzvelt onun inhisarına son qoymağa cəhd etsə də, hüquqi proseduraların mürəkkəbliyi onun buna nail olmasına imkan vermədi. Lakin bir jurnalist qadın, atasını müflis etdiyinə görə, prezidentin gücü çatmayan Con Rokfellerdən qisas almaq üçün onu ifşa etdi. Buna qədər, 1890-cı ildən Cona qarşı onsuz da hücumlar başlanmışdı. Neftin qiyməti də bu vaxt 30 sentdən 8 sentə düşdü. Onu yalnız  Henri Fondun avtomobil sənayesi xilas etdi,  avtomobillərdəki daxili yanacaq mühərriki yalnız benzinlə işləyirdi.

Con 57 yaşında pensiyaya çıxdı. Qadın jurnalist onu ifşa edəndə göstərdi ki, XIX əsrin sonunda o, dövlətin içində dövlət qurmağa müvəffəq olmuşdur.

Prezident Teodor Ruzvelt də Con Rokfelleri əzməyə cəhd etsə də, bunu bacarmadı. Qadın jurnalistin sonralar baş verən ifşası ona daha böyük təsir göstərdi. 1915-ci ildə Rokfellerin şirkəti parçalandı. Lakin o, səhmlərini qoruyub saxlaya bildi. O, filantrop fəaliyyəti ilə məşğul olmağa başladı, qoca yaşlı kasıblara pul paylayırdı və onu buna görə geniş təbliğ edirdilər. O, 97 il yaşadı. Con təkcə varlı deyildi, həm də

hökmdar idi. Onun düşüncəsinə görə, kim varlıdırsa, o, dünyanı idarə edir.

Onun oğlu Devid ölkədə ilk dəfə 70 mərtəbəli bina tikdi. Rokfellerlərin bankı Hitleri də maliyyələşdirirdi. Con həm də BMT-nin Nyu Yorkdakı binasının maliyyələşdirdi və oğlu Devid də milyarder oldu.

Conun böyük nəvəsi Nelson Rokfeller (1903-1979-cu illər) bizneslə yanaşı, siyasətlə də məşğul oldu, hələ prezident Franklin Ruzveltin dövründə mühüm vəzifə tutmuşdu. 1959-1972-ci illərdə isə Nyu York ştatının qubernatoru, 1974-1977-ci illərdə respublikaçılar partiyasından ABŞ-ın vitse-prezidenti olmuşdu. Onun oğlu Maykl etnoqraf və antropoloq kimi 1961-ci ildə Yeni Qvineya adasına səfər etmiş və yoxa çıxmışdı. Onu yerli kannibalların yeməsi barədə şayiələr danışılırdı.

Nelson özü 1979-cü ildə keçmiş işçisi olan cavan qızla intim xarakterli görüşdə, ürək tutmasından ölmüşdü.

Onun kiçik qardaşı Devid 1986-cı ildə öz təyyarəsi ilə Bakıda keçirilən SSRİ-ABŞ əlaqələrinə həsr olunmuş elmi konfransda iştirak etməyə gəlmişdi. O, Qorbaçovla yaxın əlaqə saxlayırdı, SSRİ-nni ilk və son prezidenti pensiyada olanda, Mixail Qorbaçova öz fondunu yaratması üçün 70 milyon dollar pul vermişdi. Devidin üzərində altı dəfə ürək köçürülməsi əməliyyatı keçirilmişdi, CAR-ın Keyptaun şəhərindən

olan məşhur cərrah Kristian Barnardın ürək köçürmə sahəsindəki kəşfi Devidə çox kömək etmiş, o, 100 il ömür sürmüşdü.

Rokfellerlər fırıldaq yolu ilə böyük var-dövlətə yiyələndiklərinə görə lənətlənmişdilər. Nelson Rokfeller cavan oğlunu itirmiş, özü də böyük maddi imkanına baxmayaraq, 72 yaşında vəfat etmişdi. Onun babası Cona və kiçik qardaşı Devidə lənət elə də təsir etməmişdi, onlar müvafiq olaraq 97 və 100 il yaşamışdılar.

Rokfellerlərin şöhrəti XX əsrlə yekunlaşdı, XXI əsrdə onların nəslinin taleyinə dair xəbərlərə mətbuatda elə bir diqqət göstərmir.

## Kennedilər ailəsi

XX əsrin 20-ci illərində və sonrakı onilliklərdə Birləşmiş Ştatlarda katolik dininə sitayiş edənlərin siyasi nüfuz sahibi olması, hətta parlament üzvlüyünə seçilməsi qeyri-mümkün bir hadisə sayılırdı. Siyasi aləmdə katoliklər az qala afroamerikanlar kimi nəinki iştirak edə bilmirdilər, bunu heç xəyallarına da gətirmirdilər.

Cozef Kennedi irland mənşəli katolik idi və 30 yaşında artıq milyonerə çevrilmişdi. O, kinostudiyaya  başçılıq edir, film istehsalı ilə məşğul olurdu. Srirtli içkilərdn istifadənin ABŞ-da qadağan olunduğu dövrdə ölkəyə qaçaxmalçılıqla Kanadadan onları gətiririrdi. Bu

fəaliyyətləri hesabına böyük var-dövlət qazanrmışdı. Onun arzusu Amerikada ilk katolik prezident olmaq idi.

Prezident  Franklin Delano Ruzveltin dövründə o, dövlət işinə keçdi, Qiymətli Kağızlar komissiyasının sədri təyin edildi. 1940-ci ildə isə pezident onu İngiltərədə ABŞ-ın səfiri təyin etdi. Ruzvelt, səfir maaşının az olduğuna görə, bu vəzifəyə varlı adamları göndərirdi ki, səfirliyin fəaliyyəti ilə əlaqədar olan xərclərin xeyli hissəsini onlar öz üzərlərinə götürsünlər. Cozef Kennedi də, əsasən bu xüsusiyyəti nəzərə alınaraq, səfir təyin edilmişdi.

Lakin İngiltərədə yeni baş nazir seçilən Uinston Çörçillin Kennedidən, onun antisemitizminə və faşistlərə rəğbət  bəslədiyinə görə xoşu gəlmirdi. Ona görə də az müddətdən sonra Cozef Kennedi bu diplomatik vəzifəsini tərk etməli oldu.

Ata Kennedi öz arzusu puç olduğundan, böyük oğlu Kiçik Cozef Kennedinin gələcəkdə prezident olacağına çox ümid edirdi. Lakin 1944-cü ildə hərbi təyyarəçi olan Kiçik Cozef Atlantik okeanı üzərində qəzaya uğrayıb, həlak oldu.

Cozef Kennedi öz xəyali arzusundan əl çəkmədi, bu dəfə ümidini ikinci oğlu Cona bağladı. Con, atası səfir olarkən, İngiltərənin Hitler Almaniyası ilə müharibəyə pis hazırlaşması barədə tənqidi elmi iş yazmışdı. Lakin onun səhhəti də yaxşı deyildi, II Dünya müharibəsi vaxtı 1941-1943-cü illərdə donanma zabiti olmuş, hərbi dənizçi xidməti

göstərdikdə, gəmi yaponların hücumu nəticəsində iki hissəyə bölünmüş, Con bir hissədə dənizçi kolleqalarını xilas edə bilmişdi.,Conun onurğa sütunu bu vaxt travma almışdı və bu onu çox incidirdi. Uşaqlıqda da çox vaxt xəstə olurdu. Kiçik qardaşı Robert zarafatla demişdi ki, ağcaqanad da Conu sancmaqdan qorxur, onun xəstə qanı ağcaqanadı da məhv edə bilər.

Lakin Con atasının arzusuna əməl edərək, siyasətə atıldı, əvvəlcə konqressmen, sonra isə, 1947-1961 -ci illərdə ABŞ Konqressində əvvəlcə konqressmen, sonra isə senator olmuşdu. 1955-ci ildə o, belinin ağrısına görə uzun müddət xəstəxanada yatdı və xəstə vaxtı «*Profilies in Coarige*» - «Mərdliyin profilləri» adlı dərin məzmunlu kitab yazdı. Onun bu əsəri Plittser mükafatına layiq görüldü.

1960-cı il seçkilərində o, Demokrat partiyasından prezidentliyə namizəd göstərildi, rəqibi respublikaçı vitse-prezident Riçard Nikson idi. Nikson böyük təcrübəyə malik, güclü siyasətçi idi. Vitse-prezident kimi SSRİ-də qonaq olarkən çıxışları ilə sovet adamlarının gözünü açmaq sahəsində geniş fəaliyyət göstərmişdi. SSRİ rəhbəri N.S.Xruşşov onun bu təhlükəli fəaliyyətinə mane ola bilmirdi. Kennedi onunla mübarizədə ilk dəfə olaraq televiziadan geniş istifarə etməklə, seçkiqabağı marafonda onu üstələyirdi.

Lakin seçkilərdə çox az səs üstünlüyü ilə Con Fitscerald Kennedi Niksona qalib gəldi və 20 yanvar 1961-ci ildən prezidentliyə başladı. O,

özünə qədər olan prezidentlər arasında ən cavanı olmaqla, 43 yaşında bu yüksək kürsünü tutmuşdu. Atanın arzusu həyata keçmişdi. O, həm öz ölkəsində, həm də Avropada böyük populyarlıq qazanmışdı. O, ilk katolik idi ki, prezident seçilmişdi. O, jurnalist, fransız mənşəli Jaklin Buveyə evlənmişdi və onların iki uşağı olmuşdu. Onların Kerolayn adlı qızı və Con adlı oğlu var idi.

1963-cü il noyabrın 23-də Con Kennedi arvadı və vitse-prezident Lindon Consonla birlikdə yeni seçkiqabağı kampaniya ilə əlaqədar olaraq Texas ştatının Dallas şəhərinə gəldi. Kabriolet maşında arvadının yanında əyləşən Kennediyə kitab bazası yaxınlığında atılan güllə atəşi ilə o, ağır yaralandı və az sonora öldü. Təyyarədə Vaşinqtona qayıdan Lindon Conson prezident kimi and içdi.

Kennedi hərbi qəbiristanlıq olan Arlinqtonda dəfn edildi, dünya mətbuatını onun kiçik oğlunun tabuta hərbi qaydada salam verməsi fotoşəkli bəzədi.

1968-ci ildə Conun qardaşı Robert Frensis Kennedi özünü Demokrat partiyasından prezidentliyə namizəd olmaq üçün mübarizə apardı, Prezident Conson seçkilərdə iştirak etməkdən imtina etmişdi. Robert Kennedi təcrübəli siyasətçi idi, 1961-1964-cü illərdə ABŞ-ın Ədliyyə naziri işləmiş, 1965-ci ildə Nyu York ştatından senator seçilmişdi.

Los-Ancelesdə praymeriz seçkisində qalib gələn Robert «Ambassador» otelində güllə atəşi ilə qətlə yetirildi. Beləliklə, ata Kennedinin onunla bağlı ümidi də baş tutmadı.

Sağ qalan Edvard Kennedi artıq bu arzu ilə yaşaya bilməzdi. Çünki maşını aşıb çaya düşdükdə, orada qoyub qaçdığı katibəsi ölmüşdü.

Jaklin də əri Cona sədaqətli arvad olmadığını göstərdi. Robert qətlə yetiriləndən sonra ,1968-ci ildə, yunan maqnatı, gəmi donanmasının sahibi Aristotel Onassisə ərə getdi. Qadının əri prezident olanda yunan milyoneri Jaklinin bacısına vurulmuşdu və onunla yaxtada istirahət etmişdi.

Lakin nikah uzun sürmədi. Onassisin oğlu təyyarə qəzasında həlak oldu. Jaklin də ərindən boşandı. Aristotel Onassis ağır xəstəliyə düçar oldu və deyirdilər ki, Jaklin onun ailəsinə özlərinə məxsus olan lənət payını gətirmişdir. Onassis uzun müddət məşhur opera müğənnisi Mariya Kallas ilə eşq macərası yaşamışdı. Jaklinə evləndikdən sonra onu tərk etmişdi.

Cozef Kennedi 1970-ci ildə öləndə, üç oğlunun həyatdan getməsinin şahidi olmuşdu. Qızı isə psixiki xəstə olduğundan dəlixanada yatırdı.

Cozef Kennedi oğlu Conun şəxsində prezidentlik barədəki bəslədiyi arzusuna çatdı, lakin ailəsi böyük faciələrlə üzləşdi. Sonra onun nəvələri də həyatdan getdi. Təkcə Robert Kennedinin oğlu Robert

siyasi fəaliyyət göstərir və prezident Trampın administrasiyasında işləyir.

Napoleon da güman edirdi ki, Mariya Luizadan olan oğlu sülaləni davam etdirəcəkdir. Özündən bir qədər sonra oğlu da Vyanada, Şenonburq sarayında şübhəli bir şəraitdə həlak oldu. Arzu məqsədə çatmaqda müəyyən rol oynasa da, heç də həmişə uğur gətirmir. Xəyal hansısa bir anda qırılmalı, məhv olmalı olur.

Cozef Kennedi prezident oğluna görə arzusuna çatsa da, az sonra onu itirmişdi. İkinci oğlu da atasının ümidini həyata keçirmək üçün prezident kürsüsünə gedən yolda qətlə yetirilmişdi.

## Nehru - Qandi ailəsi

1947-ci ildə Hindistanın müstəqillik qazandıqdan sonra ilk baş naziri olan Cəvahirləl Nehru Kəşmir yaxınlığındakı Əhmədabad şəhərində ziyalı ailəsində doğulmuşdu. Atası Motiləl Nehru vəkil kimi işləməklə, varlı adam hesab olunurdu. O, Mahatma Qandinin yaratdığı Milli Konqress pariyasının liderlərindən biri idi. Cəvahirləl Nehru İngiltərədə təhsil almışdı və Hindistanın Böyük Britaniya ağalığından azad olunması uğrundakı mübarizəyə qoşulmuş, bir neçə dəfə həbs edilmişdi. Onun arvadı Kamala (hind dilində “lotos gülü” deməkdir, Nehru isə hind mifologiyasında müqəddəs dağın adıdır)  İndira adlı bir

qız doğmuş, az sonra vəfat etmişdi. Nehru bir daha evlənməmişdi. Lakin onun Böyük Britaniyanın Hindistan üzrə vitse-kralı Maunbattenin arvadı ilə eşq macərası yaşaması barədə şayiələr gəzirdi.

Nehru yeganə övladı olan qızı İndiranı çox sevirdi və onun yaxşı təhsil alması qayğısına qalırdı. 1930-cu illərdə həbsdə olarkən qızına tarixə həsr olunmuş olduqca məzmunlu məktublar yazırdı. Məktublarda onun elmi kommunizm təsirinə məruz qaldığı da aydın görünür. Ölümündən sonra həmin məktublar kitab şəklində nəşr edilərək, «Dünya tarixinə baxış» adı altında üç cilddən ibarət idi.

Nehru 1964-cü ildə ölən vaxtı qızı İndira Qandi nazir kimi hökumət üzvü idi. Qız 1947-ci ildə Feroz Qandi ilə ailə qurmuş, onların iki – Raciv və Sancay adlı oğlanları olmuşdu. Lakin sonralar ailə dağılmış, oğlanlarını İndira böyütmüşdü. Az sonra keçmiş əri vəfat etmişdi.

Hakim Milli Konqress partiyasının təkidi ilə İndira Qandi baş nazir vəzifəsində atasını əvəz etmişdi. Atası kimi, o da Hindistanın iqtisadi inkişafında çox işlər görmüşdü. Hindliləri aclıqdan xilas etmək üçün həyata keçirdiyi «yaşıl inqilab» adlanan aqrar islahatı yaxşı nəticələr vermişdi. Lakin İndira milli məsələlərin həllində səhvlərə yol verirdi. Pəncab ştatının paytaxtı Armitsarda siqhlər muxtariyyət tələb etmək üçün üsyan qaldırdıqda, İndira Qandi ora federal hökumətin qoşunlarını

göndərib, yerli əhali üçün müqəddəs sayılan Qızıl Məbədi işğal etdi. Toqquşmada xeyli sayda insan həlak oldu.

Baş nazirin mühafizəçilərin arasında mənşəcə siqh (onların hamısı «şir» mənasını verən Sinq familiyası daşıyırlar) olan oğlan 1984-ci ilin noyabrında İndira Qandiyə atəş açıb, onu qətlə yetirdi.

Ölümündən əvvəl İndira oğlu, siyasi mübarizədə onun silahdaşı və əvəz edəcək kiçik oğlu Sancayı itirmişdi. Sancay şəxsi təyyarəsinin sürməklə istirahət edirdi. Sonuncu dəfə havaya qalxanda təyyarə idarəetməni itirib, yerə çırpıldı və Sancay həlak oldu. Kiçik oğlunun ölümü ona çox ağır gəldi, çünki onu özünün siyasi həyatdakı varisi hesab edirdi. Böyük oğlu Raciv siyasətə maraq göstərmirdi, beynəlxalq marşrutla uçan təyyarənin pilotu idi. O, italyan qızı Soniyə vurulmuş, onunla evlənmişdi. Onların oğul övladları var idi.

İndira Qandi şəxsi həyatında da qüsurlara yol verirdi. Bu dul qadın öz yoqa müəllimi Braxmaçariyə olduqca yaxın olması ilə fərqlənirdi, hətta onların intim yaxınlığı barədə də ölkədə şayiələr dolaşırdı. Yoqa müəllimi baş nazir iqamətgahında yeganə adam idi ki, hökumət başçısının yanına istənilən vaxt girə bilirdi. Ona görə də onu Hindistanın, Rusiya çarı II Nikolayın sarayındakı dələduz və şarlatan Qriqori Rasputini hesab edirdilər. XX əsrin sonunda Hindistanda Rusiyanın əsrin əvvəlindəki biabırçılığını təkrar etməsi heç də yaxşı hal deyildi.

Milli Konqres partiyası öz liderini itirdiyinə görə, Raciv Qandini məcbur etdi ki, baş nazir vəzifəsini üzərinə götürsün. Başqa çıxış yolu olmadığından Raciv partiyanın qərarına tabe oldu. Vəzifəsini o, çox ağıllı qaydada həyata keçirirdi. Lakin 1989-cu ilə qədər baş nazir oldu. 1991-ci ildə seçkiqabağı yığıncaqda bir qadın ona gül vermək məqsədilə yaxınlaşdıqda, üstündəki bombanı partlatdı və Raciv Qandi da anası kimi həlak oldu.

Partiya liderləri onun arvadı Sonini dilə tutdular ki, ərini baş nazirlikdə əvəz etsin. İtaliyan qızı buna etiraz edərək, siyasi fəaliyyətdə iştirakdan imtina etdi.

Sonralar Racivin oğlu Ruhula partiyanın liderliyinə yüksəldi və partiya bir neçə dəfə parlament seçkilərində məğlubiyyətlə üzləşdi. Milli Konqress partiyası iki baş nazirin qətlindən sonra nüfuzunu xeyli itirmişdi və xalqın gözündə əvvəlki liderliyini bərpa edə bilmədi.

İndiki baş nazir Narendra Modinin başçılıq etdiyi “BxaratiyaCanata Parti” seçkilərdə dalbadal qalib gəldiyindən, o, hökumət başçısı vəzifəsini uzun illərdir ki, əldən buraxmır. Modi Hindistanın inkişafı sahəsində böyük uğurlar qazanmışdır. O, indus dininin qatı müdafiəçisi olmaqla, müsəlmanlara heç də loyallıqla yanaşmır. Lakin o, Çinlə Hindistan arasında olan soyuq münasibəti ləğv etməyə nail olmuşdur. Modinin siyasəti ona istiqamətlənmişdir ki, Hindistan hökmən fövqəldövlət səviyyəsinə yüksəlsin, olkənin gur

iqtisadi inkişafı bu böyük arzunun reallaşacığına şübhə edilməyən zəmin yaradır.

Nehru – Qandi ailəsinə qarşı yağdırılan lənət, onun üzərindəki qara buluda  çevrilərək, bir əsrin yarısı qədər olan müddət ərzində öz təsdiqini ölüm və qətllərdə tapdı. Onlar üçün dayaq rolunu oynayan Milli Konqress partiyası da vaxtilə mövcud olan böyük nüfuzunu itirdi. Ölkənin inkişafında əldə edilən nailiyyətlər xalqı illuziyalaradan uzaqlaşmağa, yeni siyasi arxitektura ilə hasablaşmağa sövq etdi.

## İranda 54 il ömür sürmüş Pəhləvi sülaləsi

1925-ci ilin sentyabrında Persiya taxt-tacında olan Əhməd şah Qacar devrildi və 129 il ölkəyə ağalıq etmiş Qacar sülaləsinin ləğv edildiyi elan edildi. Bu böyük çevrilişə general Rza xan rəhbərlik etmişdi. O, özünü Rza şah Pəhləvi adı altında şah elan etməklə, yeni Pəhləvi sülaləsinin əsasını qoymuşdu.

Rza şah 1878-ci ildə dehqan ailəsində anadan olmuş, karyerasına Persiya kazak briqadasının əsgəri kimi başlamışdı. 20 yaşında o, artıq zabit rütbəsi daşıyırdı. Bu vaxt o, generalın mühafizəçisi təyin edildi. 1910-cu ildə kapitan olmaqla, 1919-cu ildə isə artıq Rza xan general rütbəsinə qalxmışdı. 1921-ci ildə döyüşlə paytaxt Tehrana girmiş,

Əhməd şah Qacar onu hərbi qubernator və baş komandan təyin etmişdi. Bir qədər sonra isə o, hərbi nazir vəzifəsini daşımışdı.

Qacar sülaləsinin sən nümayəndəsi  şah taxt-tacından devrildikdən və Qacar ailəsi ləğv edildikdən sonra, 1925-ci ilin sonunda Rza şah Pəhləvi adı altında yeni şah meydana gəldi. O, həm də Pəhləvi sülaləsinin əsasını qoydu.

O, bəzi islahatlar da həyata keçirmişdi, paytaxtın abadlaşdırılmasına qayğı göstərmişdi. 1927-1928-ci illərdə 1923-cü ildən mövcud olan təslim olma rejimini ləğv etmiş, 1929-cu ildə isə Mülki Kodeks qəbul etmişdi. O, islam dininin hegemonluğuna qarşı çıxmaqla, 1929-cu ildə çadranın götürülməsi barədə dekret imzalamışdı. 1935-ci ildə isə dövlətin adını dəyişərək, «Persiya» adı əvəzinə, beynəlxalq aləmdən dövlətini «İran» kimi adlanmasını tələb etmişdi. Ordunun gücündən istifadə edərək iri feodalların separatçılığına qarşı mübarizə aparmışdı.

Dövlətin adının dəyişdirilməsinə gəldikdə, ölkədə yaşayanlar özlərini ari irqinə məxsus nəsil hesab edir, buradan meydana gələn «Ariyan» adını bir qədər dəyişib, «İran» sözü ilə əvəz etmişdilər. Hitler 1933-cü ildə Almaniyada hakimiyyətə gəldikdən sonra, ari irqinin başqalarından fərqləndirməklə, ali irq olduğunu elan etmiş və az-çox bu irqə yaxın olmalarını iddia edənlər, özlərini ari kimi qələmə verməyə cəhd etmişdilər. Hitlerə təzim edənlər heç də az deyildi, 1936-cı ildə

birilə qədər İngiltərədə kral olan VIII Eduard özünün tam alman olduğunu elan edib, xətanət yolu tutaraq, ölkəsinin Hitlerin şərtlərini qəbul etməsini təbliğ edirdi.

Arilərin yüksək sivilizasiyalaşmış xalq kimi Hindistanın şimalından çıxdığı güman edilir. Hindistanın gələcək baş naziri Cəvahirləl Nehru da, dustaqxanadan 1930-cu illərdə qızına yazdığı məktublarda, bu, sonradan «Dünya tarixinə baxış» adı altındakı kitab şəklində çap olunmuşdur, arilərin Yunanıstandakı b.e.ə. VI-V əsrlərdəki elmi, mədəni və siyasi partlayışın müəlliflərinin də arilər olduğunu iddia edirdi. Hitler də arilərin bu tarixi fəaliyyətini əsas götürərək, ari irqinin yüksək keyfiyyətlərini təbliğ etməyə, almanların məhz onların törəməsi olduğunu sübut etməyə cəhd göstərirdi. Bir sözlə, XX əsrin birinci yarısında arilər barədəki iddialar irqçiliyin daha geniş inkişaf etdirilməsi üçün ən əlverişli alətə çevrilmişdi. Rza şah da əsasən savadsız olduğuna görə, bu təbliğatın təsiri altına asanlıqla düşmüşdü.

Lakin II Dünya müharibəsi Rza şahın planlarında düzəlişlər etdi. 1941-ci ilin yayında müharibənin gedişi vaxtı Böyük Britaniya və SSRİ hökumətləri İran ərazisinə girməyə icazə verilməsini tələb etdilər, 25 avqustda sovet və ingilis qoşunları İran sərhədlərinin hər iki qurtaracaqdan ölkəyə daxil olub, müharibənin bütün dövrü ərzində İranı öz nəzarətində saxlamışdı. 1941-ci ilin sentyabrında Rza şah oğlu Məhəmməd Rza Pəhləvinin xeyrinə taxt-tacdan getdi. O, Cənubi Afrika

Respublikasına sürgünə göndərildi və 1944-cü ildə Yohanesburq şəhərində öldü. Pəhləvi sülaləsinin banisi taxt-tacda 16 il qala bildi.

1941-ci ilin payızından şah elan edilən Məhəmməd Rza Pəhləvi 1919-cu ildə anadan olmuşdu. Rza xanın Bakıdan olan ikinci arvadı Məliktac ona ekiz uşaq – gələcək şah Məhəmməd Rzanı və onun xanım Əşrəf adlandırılan bacısını doğmuşdu.

Kiçik Məhəmməd Rza 1925-30-cu illərdə Persiya Kadet korpusunda, sonra isə altı il ərzində İsveçrədə təhsil almışdı. Onu səfərdə müşayiət edən və İsveçrədə onunla birlikdə qalan, SAVAK-ın rəisinin birinci müavini və şah mühafizə qvardiyasının başçısı Məhəmməd Fərdost özünün ingilis dilindəki böyük həcmli kitabında gələcək şahla qatarla Bakıdan və Ukraynadan keçib getdiklərini, təhsil illərini və şahla birgə keçirdiyi xidmət dövrünü geniş təsvir edir. Müəllif şahın özünün və onun bacısı xanım Əşrəfin əxlaq sahəsindəki qüsurlarını da qeyd edir. Əşrəf parlament üzvü olan erməni Palançiyanla Feyzabad kurort şəhərinin açlışı vaxtı yaxınlıq etmək istədikdə, həmin adam buna razılıq verməyib, paytaxta yola düşməklə qadını tərk etdikdə, xanım Əşrəf onun uçduğu təyyarəni partlatmaqla, istəyinə baş əyməməsindən belə qisas almışdı. Şah özü də Parisdə səfərdə olarkən, iri pul məbləği hesabına yüksək dairənin qadınları ilə kef etməkdən çəkinməmişdi. Bunları müşahidə etmiş Fərdost öz kitabında qələmə almışdır.

Yeni şah böyük Britaniya və SSRİ ilə əməkdaşlıq etmək istəyirdi. 1943-cü ilin noyabrında Tehranda Üçlüyün konfransında iştirak edən İ.V. Stalin onunla görüşəndə 24 yaşlı Məhəmməd Rza Pəhləvi ona yaxşı təsir bağışlamışdı və elə həmin ilin sentyabrında şah natsist Almaniyasına qarşı müharibə elan etmişdi.

Şah əvvəllər hökumətin işinə az müdaxilə edirdi, çünki hökumət Məclisin tabeliyində idi. Həm də ki, təcrübəsiz və qətiyyətsiz adam hesab olunurdu.

1949-cu ildə ona sui-qəsd təşkil olundu, lakin o, yüngül yaralanmışdı. Bundan sonra onun fəallığı artdı, ölkədə hərbi vəziyyət elan olundu.

1950-ci illərin əvvəllərində ABŞ Böyük Britaniyanın İrandakı təsirini sıxışdırmağa və qüvvədən salmağa çalışırdı. İngilis - İran neft şirkətinin bölünməsi barədə danışıqlar gedəndə, neft sənayesini milliləşdirmək çağırışları meydana gəldi. Baş nazir məsciddə öldürüldükdə, 1951-cü ildə Məhəmməd Müsəddiq baş nazir təyin edildi. O da milliləşdirmə tələbi ilə çıxış etdi və mayın 1-də milliləşdirmə barədə qanun qəbul edildi. Həm də Müsəddiq şaha təklif etdi ki, İranı tərk etsin, o deyirdi ki, monarx hökmranlıq etməldir, idarə etməməlidir. Şah əslində gələcək Böyük Britaniya kraliçasına bənzəməli idi. Şah əvvəlcə Bağdadda, sonra isə Romada müvəqqəti sürgündə oldu, lakin

1953-cü ildə amerikanların köməyi ilə dövlət çevrilişi baş verdi. Bu vaxt bütün hakimiyyət şahın əlinə keçdi.

1954-cü ildə Beynəlxalq Neft Konsorsiumu ilə müqavilə bağlandı. Neft sənayesi yenə də ingilis və amerikan şirkətlərinin əlinə keçdi və 1951-ci ildəki milliləşdirmə barədəki qanun ləğv edildi.

Milliləşmə şüar kimi xalqı özünə cəlb etsə də, düşünülməmiş tədbir idi. Neft sənayesində milli mühəndis kadrlar yox idi və fəhlələr də istehsaldan baş çıxarmırdı. Qısa müddətdə neft sənayesi tənəzzülə uğradı və istehsal az qala sıfıra endi. Çünki ingilis mütəxəssisləri ölkəni tərk etmişdilər.

1957-ci ildə ABŞ-ın Mərkəzi Kəşfiyat İdarəsininnin və İsrailin Mossadının köməyi ilə İranda SAVAK adlı gizli siyasi polis yaradıldı və bu orqan müxalifəti təqib etməklə məşğul oldu. Onun xüsusi Evin məhbəsi dəhşətinə görə xüsusi «şöhrət» tapmışdı. Şah artıq amerikanların ətəyindən yapışmışdı. 1971-ci ildə İran qoşunları Ormuzd boğazında üç adanı işğal etdi.

1963-cü ildə şah radikal iqtisadi və sosial islahatlar barədəki proqramı həyata keçirməyə başladı. Onun mühüm hissəsi torpaq islahatı idi. Neft pulları hesabına mülkədarlardan torpaq alınıb, üç dəfə ucuz qiymətə və uzun müddətli kredit əsasında torpağı becərən kəndlilərə verildi. Şahın özü də bu islahat hesabına  çox böyük torpaq sahəsinə

sahib oldu. Kəndlilər də qazandılar, 1970-ci ilə qədər 1,2 milyon kəndli ailəsi torpaq almışdı.

1978-ci ildə İranda kütləvi narazılıqlar başlandı. Ağır xəstə olan şah inqilabın meydana gəldiyi bir vaxtda idarəçiliyə olan iradəsini və qətiyyətliliyini itirmişdi.

1979-cu ilin yanvarında Məhəmməd Rza Pəhləvi şəxsi təyyarəsində Tehranı tərk etdi. Həm də bəyan etdi ki, ölkəsinə qayıdacaqdır. Bu vaxt üsyan başlandı, xalqın etirazı üçün çoxlu səhvlər də buraxılmışdı. 16 yanvar 1979-cu ildə monarxiyanın qəti süqutu baş verdi. Artıq ayatolla Xomeyni İranda yeni, dini rejim yaratmışdı, ölkə teokratik dövlət kimi idarə olunmağa başlandı.

Şah əvvəlcə Misirə getdi, sonra Mərakeşdə və Meksikada sürgündə oldu. İslam hakimiyyəti isə onun verilməsini tələb edirdi.

Şah bu vaxt limfa vəzləri xəstəliyindən əziyyət çəkirdi. ABŞ-da müalicə olunarkən, 1979-cu ilin noyabrında tehranlılar ABŞ səfirliyini tutdular və diplomatları əsir götürdülər. Şaha Misirdə sığınacaq verdilər və 1980-ci ilin yanvarında o, öldü.

Məhəmməd Rza Pəhləvi üç dəfə evlənmişdi, birinci arvadı Misir kralı Fuadın qızı idi. İkinci arvadı Sürəyya ona varis doğa bilmədiyindən boşandı. Üçüncü arvadı Fərəh Diba ona Rza Sirus adlı oğul (1960-cı il), Ağa Rza adlı oğul (1965-ci il) və Leyla adlı qız (1970-ci il) doğmuşdu. Qızı Leyla 2000-ci ildə, oğlu Ağa Rza isə 2011-ci ildə öldülər.

Birinci oğlu Rza Pəhləvi şahın qanuni varisi hesab olunur və taxt-tac iddiasını tez-tez dilinə gətirir.

Pəhləvi sülaləsi əsrin əvvəlində meydana gəlib, sonuna yaxın məhv oldu. Onun vur-tut iki nümayəndəsi taxt-tacda oldu, birincisi sürgün olundu, ikincisini isə inqilab devirdi.

## Pakistandakı Bhutto ailəsi

Hindistan Milli Konqres partiyasının liderlərindən biri, Mahatma Qandinin yaxın silahdaşı Məhəmməd Əli Cinna qatı müsəlman idi və Hindistanın dini fərqə görə parçalanmasının əsas təşəbbüsçüsü idi. 1947-ci ildə Hindistan müstəqillik qazandıqda, Cinna bu ölkədən ayrılıb, yeni müsəlman dövləti yaratmaq ideyasını irəli sürdü və bunun həyata keçirilməsinin dini düşmənçiliyə aparacağına məhəl qoymadan öz arzusunu həyata keçirmək üçün hər şeyi qurban verməyə hazır idi.  Hələ 1934-cü ildən Hindistandakı Müsəlman Liqasının lideri olmuşdu. Pakistan, Hindistanın müsəlman əhalisinin yaşadığı qərbi və  şərqi hissədə yerləsən, bir-birindən xeyli aralı olan ərazilərdən ibarət idi. Şərqi Pakistan Benqal körfəzində yerləşirdi. Məhəmməl Əli Cinna Böyük Britaniyanı dominiyonu kimi yeni yaranan Pakistanın bir illiyə

qubernatoru oldu, 1948-ci ildə isə öldü. Yalnız 1956-cı ildə Pakistan müstəqil dövlət kimi tanındı.

Cinna bu fəaliyyətində pretsedentə də əsaslanırdı. XIX əsrdə Böyük Britaniya Hindistanının xarici işlər naziri olan Durmandın idarəçiliyi əsasında Əfqanıstan Hindistandan ayrılıb, müstəqil dövlətə çevrilmişdi. Əfqanıstan siyasi həyatında puştunlar mühüm rol oynadığı halda, Durmandın çəkdiyi sərhəd xətti ilə müstəqil Əfqanıstanda puştun azlığı yaşamalı olmuş, Hindistanda (indiki Pakistan ərazisində) isə puştunlar çoxluq təşkil etmişdilər. Puştunlar sonralar Pakistanda siyasi narahatlıqlar yaratmaq üçün əslində yanacaq rolunu oynamışdılar.

Məhəmməd Əli Cinna lider kimi öz məqsədinə nail oldu və onun səyi nəticəsində gec də olsa müstəqil Pakistan Respublikasını yarandı. Dövlətin adı da «Pak insanların vətəni» mənasını verirdi. Lakin onun yaratdığı dövlət daim turbulentlikləri ilə seçilməyə başladı. Böyük Britaniya imperiyasından ayrılan iki müstəqil dövlət arasında sərhəddəki əraziyə bütünlüklə sahib olmaq üstündə müharibələr getdi. Bu ərazi isə Cammu və Kəşmir əyaləti idi, bura Karakorum dağının ətəyində yerləşməklə, Hindistanın ştatı idi. Onun ərazisinin bir hissəsinə Pakistan nəzarət edirdi.. 1947-ci, 1965-ci və  1971-ci illərdə Hindistanla Pakistan arasında qısa müddətli müharibələr baş verdi.

Son müharibədən sonra Pakistanda daxili vəziyyət də kəskinləşdi. 1971-ci il seçkilərində ölkənin qərbli siyasətçilərin gözlədiklərinin

əleyhinə, Mucibur Rəhmanın başçılıq etdiyi Şərqi Pakistandakı partiya parlament seçkilərində qalib gəldi. Axə o, Şərqi Pakistan milli hərəkatının lideri idi. Parlament respublikasının idarəetmə qaydasına görə, baş nazir qalib partiyanın lideri olmalı idi, lakin Qərbi pakistanlılar bu vəziyyətlə razılaşmayıb, onun baş nazir seçilməsinə imkan vermədilər.

Bu vaxt Mucibur Rəhman Şərqi Pakistanın ümumi dövlətdən ayrılıb, 1971-ci ildə Banqladeş Xalq Respublikası adı altında yeni dövlət yaratmaq vəzifəsini həyata keçirdi və 1972-ci il və yanvar 1975-ci illərdə Pakistanın baş naziri, sonrakı 7 ay ərzində ölkənin prezidenti oldu. O, 1975-ci ildə hərbi çevriliş vaxtı öldürülmüşdü. Banqladeş yarım əsrdən artıq müddətdə müstəqil dövlət kimi fəaliyyət göstərir, lakin ölkə dünyanın ən kasıb ölkəsi olaraq qalır.

Təəssüf ki, 2025-ci ilin yazında Hindistanla Pakistan arasında yenidən müharibə tonqlı alovlanmağa başıamışdır. Nüvə silshına malik olan hər iki dövlət arasındakı silahlı münaqişə dünya üçün də böyük təhlükə mənbəyi ola bilər. Hər iki ölkədə mövcud olan millətçilik fəsadlar törətmələrinə son qoymaq istəmirlər. Hindistanın baş naziri Narendra Modi kəskin anti-müsəlman mövqeyi ilə seçilir.

Pakistanda həm də əsasən hərbiçilərin həyata keçirdiyi dövlət çevrilişləri siyasi həyatın adi halına çevrilmişdir. Generallar bu işdə xüsusilə fərqlənirdilər. Zülfüqar Əli Bhuttonun yaratdığı və ona başçılıq

etdiyi Pakistan Xalq Partiyası partiyası seçkilərdə qalib gəldiyinə görə, o, 1971-1973-cü illərdə Pakistanın dövlət başçısı, 1973-1975-ci illərdə baş naziri olmuşdu. 1974- cü ildə Hindistan atom bombasının ilk sınağını keçirdikdə o, Pakistanın nüvə silahına malik olmasıını özü üçün müqəddəs vəzifə hesab etdi. Düşmən Hindistan atom bombasına malik olduğundan, Pakistan da özünü müdafiə etmək üçün cəbbəxanasında bu qırğın silahını görməli idi. Zülfüqar Bhutto hətta demişdi ki, pakistanlılar aclıqdan otlamağa başlasalar da, biz atom silahını əldə etməyə nail olmalıyıq.  Bu vəzifə yalnız onun ölümündən sonra həyata keçirilə bildi, 1987-ci ildə Pakistanda atom bombası layihəsi uğurla başa çatdı. Pakistan ilk müsəlman dövləti idi ki, atom silahına yiyələnmişdi, bu hadisəni ərəb dövlətləri böyük sevinclə qarşıladılar.

Lakin 1977-ci ildə general Məhəmməd Ziya-ül Haqq hərbi qiyam qaldırıb, Bhuttonu vəzifədən qovmağa nail oldu və onu həbs etdi. Məhkəmə Zülfüqar Bhuttonun edam edilməsi hökmünü verdi, lakin o, bu hökmün icra ediləcəyinə inanmırdı. Çünki ABŞ və SSRİ daxil olmaqla, sox çayda dövlət onun əfv edilməsini xahiş etmişdi. Bhutto da onların təklifinin təsir gücünə ümid etdiyindən, ağır cəzalanmanın baş verəcəyinə heç cür inanmırdı. 1979-cu ildə onu həbsxanadan çıxarıb, boynuna kəndir salmaqla, sürüyüb eşafota gətirdilər və dar ağacından asdılar.

Ölkəsinə atom silahı verməyə çalışan bir dövlət xadimini məhz hərbçi generallar məhv etdilər.

Görünür, Bhutto ailəsi lənətlənmişdi, onun Oksfordda oxuyan qızı Benəzir özünü natiq kimi yetişdirmişdi. O, vətəninə qayıtdıqdan sonra, partiya yaradıb, seçkilərdə iştirak etdi və qalib gələrək, 1988-1990-cı illərdə baş nazir oldu.  Lakin ciddi səhvlərə yol verməsi iddiası ilə vəzifədən getməli oldu.  İnadkarlığı ilə seçilən Benəzir baş nazirlikdən getsə də,  1993-1996-cı illərdə yenidən bu vəzifəni tuta bildi. Müsəlman dünyasında Benazir Bhutto ilk baş nazir olan qadın idi. Ondan sonra bu estafeti Türkiyənin baş naziri olmuş Tansu Çillər öz əlinə götürdü. O, Azərbaycan rəhbərliyinə qeyri-loyal münasibəti, ilk və həm də son hərbi müxalifətə dəstək verməsi barədəki ölkədə yayılmış və müəyyən əsaslara söykənən şayiə ilə xatırlanır. İndoneziyada isə, burada XX əsrin ortalarında, 1945-1967-ci illərdə ölkənin prezidenti olmuş Sukarnonun qızı Linqavati Sukarnoputra sonralar hakimiyyətə gələrək. 2001-2004-cü illərdə ölkənin ilk qadın prezidenti oldu.

Bir müddət sonra Benazir Bhutto yenidən siyasi fəaliyyətə qayıtdı və gur seçki kampaniyası aparmağa başladı. Onun yenidən qalib gələcəyinə böyük ümidlər bəslənirdi. Lakin 2007-ci ildəki seçkiqabağı mitinq başa çatdıqda, ona atılan atəş Benazir Bhuttonun həyatına son qoydu. O, atasının qətlinə görə hayıf almağa müvəffəq olsa da, özünü mühafizə edə bilmədi və qatilin qurbanı oldu.

Benazir Bhuttonun bədbəxtliyindən, onun siyasi fəaliyyətinə təkcə əri kölgə salmaqla kifayətlənmirdi, doğma qardaşı da onun uğuruna sevinmək əvəzinə, ona qarşı əsassız ittihamlar irəli sürürdü.

Benazir çox mübariz qadın olsa da, ona hücum edən qüvvələrə davam gətirə bilmirdi və axırda, 54 yaşında həyatla acı şəkildə vidalaşmalı oldu.

Bhutto ailəsi atanın və qızın şəxsində, onların faciələrinə görə, yəqin ki, lənətlənmişdi. Baş nazir olan ata hərbi çevriliş nəticəsində devrildikdən sonra edam edilmiş, qızı isə yenidən baş nazir kürsüsünə iddia etdikdə qətlə yetirilmişdi. Görünür, siyasi fəaliyyət təkcə şöhrət gətirmir, bəzən gözlənilməyən fəlakətlə də yekunlaşmalı olur. Siyasətdə çox vaxt onun mürəkkəbliyindən yaxşı baş çıxaran, cəsarətli hərəkəti ilə çoxlarının təəccübünə səbəb olan adamlar uğur qazanırlar. Makiavelli elminə yaxşı yiyələnənlər, hakimiyyət piramidasının zirvəsinə qalxmaq nə qədər çətin olsa da, onu fəth etməyi bacarırlar. Edmund Hillari 1951-ci ildə ilk dəfə Everesti -Yer üzündəki dünyanın bu ən yüksək nöqtəsini fəth etmişdi. Siyasətçilərə də alpinist cəsarəti və iradəsi lazımdır, bəzən şərait da onlara uğur qazanmaqda yaxşı köməklik göstərir. Siyasət, adamı şöhrətə çatdırsa da, onun həyatına ağır sınaqları əlavə etməklə, sakit aramını pozmuş olur. Buna isə hər adam dözə bilmir və kiçik bir səhvi onu, özündən asılı olmadan məhvə aparan faciəli yola istiqamətləndirir.

Lənətlənmiş bəzi tarixi şəxsiyyətlərin həyat və mübarizə yolunu müşahidə etdikdə, onların iflasının, süqutunun məhz haqsızlıqdan, ədalətsizlikdən xəbər verən öz əməllərinin labüd nəticəsi kimi meydana çıxdığı görünür. Adamlara zülm edənlər əsasən cəzasız qalmırlar.

Onların həsəd aparılacaq həyatı az sonra cəhənnəm əzabları ilə, buna mənəvi və fiziki sarsıntılar da daxildir, dolmaqla, onlara özlərini düzgün aparmamalarının cavabı şəklində  meydana çıxır. Lənət, insana qarşı böyük ədalətsizlik edənlərə ünvanlanır, onların məhvi barədəki arzulardan, əslində yalvarışlardan ibarət olur. Belə qənaətə gəlinir ki, haqsız əməl əsasən qisas şəklində olan məhvedici bir cavabla üzləşir və nəticə etibarilə, ədalət zəfər çalır.

*SON*

*03.03.2025*

## Cinayət və cəza

İlk insanlar Bibliyaya görə dünyaya gəldikdən sonra, bəşəriyyətin əcdadları sayılan Adəm və Həvva (Adam və Yeva) Yerüstü cənnətdə (Edemdə) məskunlaşmışdılar.. Onlar heç bir zəhmət çəkmədən ömürləri boyu buradakı hər cür nemətlərdən bəhrələnə bilərdilər. Allah onları hər şeylə təmin etmişdi, təkcə Xeyir və Şər ağacının meyvəsini yeməyi onlara qadağan etmişdi. Yaşamaq üçün bütün vasitələrin bol olduğu şəraitdə insan ölənə qədər rahat ömür sürə bilərdi. Lakin qadağanı pozmaq həvəsi qalib gəldi, buna isə onu tamah və nəfsi saxlaya bilməmək məcbur etmişdi. Qadın təbiətindən irəli gələn hər şeyi dadmaq istəyi ilə, Həvva ilanın şeytan xüsusiyyətli təhriki ilə məhz qadağan olunmuş meyvəni yedikdə, onun ləzzətinin təsiri altına düşüb, bu xətanı törətməyə ərini də sövq etdi. Qnların gözü açılmışdı. Allah qoyduğu qadağanın pozulduğunu görüb, ilk günaha batmaya görə onların hər ikisini Yerüstü cənnətdən qovdu və insan nəsli yeni ağır şəraitdə, az qala Yerüstü cəhənnəmin əzablarına və çətinliklərinə məruz qalmaqla ömür sürməli oldu.

İlk günaha batma və ona görə Allah tərəfindən cəzalanma bu əcdad timsalındakı bəşər nümayəndələri üçün ibrət mənbəyi olmalı idi və onlar hansısa bir xəta törətməkdən uzaaq qaçmalı idilər. Lakin Adəm və Həvvanın ailəsində baş verən sonrakı hadisə daha böyük bədbəxtliyə səbəb oldu.

Onların əvvəlcə Qabil (Kain) adlı oğlanları oldu, sonra isə ikinci oğulları olan Habil (Abel) dünyaya gəldi. Onlar zəhmətlə məşğul olub, ailəni ərzaqla təmin edirdilər. Qabil əkinçi kimi tarlada işləyirdi, Habil isə qoyun sürüsünü otarıb, çobanlıq edirdi.Bir dədə Habil qoyunun balası olan quzunu Allaha hədiyyə gətirdi və O, nəinki hədiyyəni qəbul etdi, hətta bundan çox razı qaldı. Qabil də Allaha öz hədiyyəsini verməyə tələsdi, məhsulundan ona nəsə gətirdi. Lakin Allah onun hədiyyəsini və özünü qəbul etmədi. Bu, böyük qardaşın qəzəbinə səbəb oldu və Habilə qarşı paxıllıq onu rahat buraxmırdı. İki qardaş birlikdə tarlaya getdi və Qabil kiçik qardaşını qətlə yetirdi. İlk dəfə olaraq,qəsdən adam öldürmə baş verdi, çünki nə bir təsadüf, nə də hansısa bir ehtiyatsızlıq halı olmamışdı. Həm də, hələ başqa bir cinayət baş verməmişdən, onun ən ağır növü törədilmişdi

İnsanı Allah yaratmışdı, həmin varlığın həyatına son qoymaq da onun səlahiyyətində idi. Bu qayda ilə hamı razılaşdığından. maneəsiz olaraq həyata keçməkdə davam edirdi. Lakin Qabil ilk dəfə olaraq Allaha məxsus olan işi öz üzərinə götürüb, həddi aşaraq, insan həyatına qəsd etmişdi. Bundan ağır cinayət ola bilməzdi, təəssüf ki, bu qanlı hadisə həm də başqalarına nümunə göstərməli olan ilk bəşər ailəsində baş vermişdi.

Ən dözülməz cəhət o idi ki, bu qətlin törədilməsi üçün heç bir əsas və tutarlı səbəb yox idi. Habil şəxsən qardaşının ziddinə heç bir təmənnalı hərəkət etməmişdi, sadəcə olaraq Allaha hədiyyə vermişdi və bu əməlində hansısa bir pis məqsəd də güdməmişdi. Yalnız paxıllıq, qısqanclıq kimi insan təbiətinin qüsuru qardaş qətlinə səbəb olmuşdu.

İkinci təəssüf isə ondan ibarət idi ki, öz ağır cinayətinə görə Qabil layiqli cəza almamışdı, Allah sadəcə olaraq ona demişdi ki, tarlası artıq məhsul verməyəcəkdir. Buna görə o, yaşadığı ərazini tərk etməli olmuşdu. Ağır cinayətə görə cəza əslində yüngül könüllü sürgündə əvəz olunmuşdu. Allah həm də cəzalandırmadığı Qabilə demişdi ki, kim onu qətlə yetirsə, onun nəslindən yeddi adam öldürüləcəkdir. Ədalətin zəfəri xeyli gecikərək, yalnız qatilə qarşı cinayət işlədildikdə baş verəcəkdi.

İlk günaha batmanın müəllifləri olan ailədə həm də ilk ən ağır cinayət baş vermişdi, qardaş qatili meydana gəlmişdi. Beləliklə insan cəmiyyətinin yol yoldaşı olan cinayətlər lap başlanğıcdan, onun həyatına ağır damğa vurmuşdu. Cinayət isə cəzasız qaldıqda, bir qayda olaraq, daha ağır fəsadlar törədir. Ona görə də sonralar törədilmiş cinayətə cavab kimi insanların özlərinin icad etdiyi cəza sistemi meydana gəldi. Lakin çox hallarda cəza cinayətin ölçüsünə o qədər də uyğun gəlmirdi, bu isə onun təsir gücünü azaldırdı. Cəza əsasən törədilən cinayətə bərabər şəkildəki cavab rolunu oynayırdı. Bu bərabərlik “gözə görə göz” prinsipini əmələ gətirdi. Əlbəttə ki, bu, “gözə görə başın kəsilməsindən” ədalətli idi. Quldarlıq cəmiyyətində bu qayda özünü “Talion qanunu” kimi göstərdi.Qanunun mahiyyəti ondan ibarət idi ki, zərər toxundurulmuş adam, həmin zərəri torədənə tam ölçüdə cavabını qaytarsın. Sonralar isə iri dövlətlərin yaranması ilə hüquq sistemi inkişaf etdi, cinayətlərə görə nəzərdə tutulan müxtəlif cəzaların tətbiq olunması qaydası yarandı. Bu vaxt artıq cinayətin baş vermə şəraiti və motivləri, həmçinin cinayətkarın şəxsiyyəti də nəzərə alınırdı. Bu sahədə ilk böyük sənəd Hammurabi

Kodeksi hesab olunur.  Hammurabi Köhnə Babilistanın məşhur çarı idi, b.e. ə. 1792-1750-ci illərdə hökmranlıq etmişdi. Onun Kodeksi cəmiyyətin idarə olunmasında hüququn və o dövr üçün ədalətin tətbiq olunması nöqteyi-nəzərindən çox böyük əhəmiyyətə malik idi.

İlkin dövrlərdə cəzalandırma tətbiq edilməsə də, az sonra qisas almaq, vurulan xətərin əvəzini ödəmək şəklində olan cəza növləri meydana çıxdı. İlk qətl hadisəsi isə təəssüf ki, cəzasız qalmışdı, qatilin öz yaşayış yerindən sadəcə olaraq uzaqlaşması ilə nəticələnmişdi.

Bibliyada yazıldığı kimi, Habil qardaşına qarşı heç bir pis hərəkət etməmişdi, yalnız Allaha itaət şəklində olan kiçik hədiyə vermişdi. Qabilin hədiyyəsi isə həmin Allah tərəfindən qəbul edilməmişdi. Burada Habilin hansısa bir günahı yox idi. Lakin bu, böyül qardaşda səfeh bir qısqanclıq yaratmışdı və o, günahsız bir insanı qətlə yetirmişdi. Axı Habil Allahın iradəsinə və qərarına müdaxilə edə bilməzdi. Göründüyü kimi, belə ağır cinayətin törədilməsi üçün hansısa bir əsas yox idi, sadəcə, qısqanclıq dəhşətli qətlin baş verməsinə gətirib çıxarmışdı

**Bibliyanın təsvir etdiyi digər cinayətlər**

.

İlk bəşər ailəsinin oğlu olan Qabil  tarixdə (əlbəttə, Bibliyaya görə) ilk qatil kimi, özü də qardaş qatili kimi “şöhrət” tapmışdı. Bu ibtidai insan tərəfindən cinayətlə müqayisədə, hətta Herostratın b.e.ə.356-cı ildə Efesdə Artemida məbədini yandırmasının özü də vandalizm halı olduğundan,  xəta kimi nisbətən sönük görünür.

Sonrakı peyğəmbərlərin övladları da gələcək nəsillərə nümunə olmaq əvəzinə, qəddarlıq törətmiş, qan axıtmışdılar, hətta bu iyrənc əməllərinə adi bir hal kimi baxmışdılar. Bəzən onlar günahsız insanların kütləvi surətdə məhvini planlaşdırmış və onu vəhşicəsinə həyata keçirmişdilər.

Peyğəmbər Ceykobun (Yaqubun) 4 arvaddan 12 oğlu var idi, onlardan ikisinin – Cozefin (Yusifin) və Bencaminin (Benyaminin) anası onun sevimli arvadı olan və həyatdan vaxtsız getmiş Raxil idi. Atanın bu iki oğluna olduqca xoş münasibəti, Raxilin böyük bacısı Liadan olan onun 6 oğlunda pis bir qısqanclıq

yaratmışdı və onlar hətta Cozefi öldürmək istəyirdilər. Lakin həmin cinayətə susayanlar, bu iyrənc əməllərindən əvvəl də qan tökmüşdülər, bütöv bir tayfanı milli ədavəti rəhbər tutaraq, qırmışdılar. Bu cinayəti bilavasitə, Lianın doğduğu Simeon və Levi törətmişdi.

Peyğəmbərin (onun ikinci adı İsrail idi, gələcək bu addakı ölkənin əhalisi onun 12 oğlunun törəmələrindən əmələ gəldiyinə görə, həmin dövlət də məhz onun adı ilə aldanmışdı) Liadan olan qızı Dina harasa qonaq gedəndə, başqa bir tayfanın başçısı Hamorun oğlu onu zorlamışdı. Qız gözəl olduğuna görə oğlan ona vurulmuşdu və onu qanuni qaydada almaq istəyirdi. Hamor Ceykobun yanına gəldi ki, onun qızını oğluna alsın, yaxşı bilirdi ki, oğlu Dinanı həqiqətən sevir. Dinanın qaraqaşları etiraz edib, öz şərtlərini irəli sürdülər. Çünki yəhudi oğlanlarının və qızlarının başqa tayfa üzvləri ilə ailə qurması qadağan idi. Qardaşlar tayfanın kişi cinsindən olan bütün üzvlərinə yəhudilər kimi sünnət edilməsi şərtini irəli sürdülər, yalnız bu halda bacılarının tayfa başçısının oğluna ərə getməsinə razılıq verəcəkdilər. Axı yəhudilərin doğulan oğlan uşağı 8 günlük olduqda, ona sünnət edilir, bədənə belə xəsarət yetirmə yəhudi kişilərinin əsas əlaməti sayılırdı. İslam dini də meydana gələndən, kişi cinsindən olanlar üçün bunu vacib dini bir qayda kimi qəbul etdi.

Əlacsız qalan tayfa başçısı Dinanın doğma qardaşlarının bu şərti ilə razılaşdı və şəhərinə qayıdıb, bunu sakinlərə çatdırdı. Körpədən tutmuş qocaya qədər kişi cinsindən olan tayfa üzvlərinin hamısına sünnət edildi.

Üç gün sonra tayfa üzvləri hələ yaralı kimi yataqda olanda, Simeon və Levi qılınclarını götürüb, şəhərə girdilər və müdafiəsiz vəziyyətdə olan bütün adamları öldürdülər. Sonra isə onlar  şəhəri qarət etdilər.

Ən ədalətsiz cəhət o idi ki, onlar günahsız insanları vəhşicəsinə qətlə yetirmişdilər və cəzasız qalmışdılar. Bu onları başqa cinayətə də sövq etdi və atalarının çox sevdiyi arvadından olan ögey qardaşları Cozefi öldürmək istədilər. Bu məqsədlə onu çöldə ov etməyə apardılar. Burada onu yağış suyunu yığmaq üçün olan çuxura salıb, köynəyini isə kəsdikləri keçinin qanına bulayıb, evə qayıdanda, atalarına göstərdilər. Guya ki, Cozefi vəhşi heyvan parçalayıb öldürmüşdür. Ceykob əziz oğlunun ölümünə uzun müddət matəm saxladı. Qardaşlar isə əmin idi ki, Cozef çuxurda acından və susuzluqdan öləcəkdir.

Cozefi salındığı çuxurun yanından karvan yolu keçirdi, Misirə gedən tacirlər Cozefi orada satmaq üçün özləri ilə götürdülər. Cozefin başına Misirdə çox sayda hadisələr gəldi. Faraonun mühafizəçisi Potifarın arvadı qəşəng oğlan olan Cozefə dəlicəsinə vurulmuşdu, onunla yaxınlıq etmək istəyirdi. Lakin yad sayılan yəhudi oğlan buna razılıq vermirdi. Qəzəbindən qadın şərləməkdən istifadə etdi, guya Cozef  onu zorlamaq istəyirmiş. Cozef həbs olundu və dustaqxanada yuxu yozması ilə şöhrət tapdı. Bu vaxt faraon bir qorxulu yuxu görmüşdü. Münəccimlər yuxunu yoza bilmirdilər. Cozef barədə eşidən faraon onu çağırtdırdı və dustaq yuxunu ona dəqiqliklə izah etdi. O, azad olundu, sarayda vəzifə tutdu, az sonra ölkədə faraondan sonra ikinci səlahiyyətli şəxsə çevrildi. O, ağıllı siyasəti ilə bol məhsul götürülən illərdə topladığı ehtiyatdan, məhsul qıtlığı vaxtı istifadə edib, Misirdə aclığın qarşısını aldı, hətta qonşu xalqlara da ərzaq köməyi göstərdi. VII əsrdəki Çin imperatriçası U, tarixdə o, ölkənin yeganə qadın hökmdarı idi, Cozefdən xəbəri olmadığı halda, bu üsulu tətbiq edib, böyük saydakı təbəələrinin aclığa məruz qalmasına imkan verməmişdi.

Cozef onu öldürmək istəyən qardaşlarından da qisas almadı, əksinə, onları taxılla təmin etdi.

Bibliya digər cinayət hadisələri və onlardan xilas olma misalları ilə də doludur. Persiya çarı Kserksin (əslində, Artakserksin) Suzadakı hakimiyyət strukturuna yəhudi Mordexay da daxil idi. Onun qız qohumu Ester gözəl olduğundan hərəmxanaya götürülmüş və az sonra çarın xoşuna gəldiyindən, onun arvadına çevrilmişdi. Mordexay Esterə tapşırmışdı ki, yəhudi olduğunu heç kəsə deməsin.

Bu vaxt Kserksin baş naziri olan Haman əyalət başçılarına bütün yəhudiləri qırmaq göstərişini vermişdi. Ester bunu ustalıqla əri olan çara bildirdikdə, həm də arvadına guya xəyanət etməkdə ondan şübhələndiyinə görə, Kserks Mordexay üçün onun qurdurduğu dar ağacından Hamanın özünü asdırdı və onun yəhudilərin qırğını barədəki göstərişini ləğv etdi. Beləliklə, Ester öz xalqını 2,5 min il əvvəl baş verəcək ilkin Holokostdan xilas etdi. Bəlkə də, Hitlerin məşuqəsi alman qızı Yeva Braun deyil, Ester kimi müasir yəhudi qızı olsaydı, fürerin yəhudilərə qarşı qəddarlığı belə miqyas almazdı. Ancaq bu, sadəcə  bir mülahizədir, Hitlerin quduzluğunu adi yəhudi qızı da söndürə bilməzdi, Holokostun qarşısı belə asan yolla alına bilməzdi.

## Cinayətlər cəzanın da meydana gəlməsinə şərait yaradır

Qədim dövrlərin bəzi cəzasızlıq halları arxada qaldı, cəmiyyət inkişaf etdikcə cinayət yoxa çıxmadığı kimi, onun cəzalandırılması zərurəti də daha açıq şəkildə özünü göstərdi. Törədilmiş cinayətin cəzasız qalmasına artıq əsasən son qoyuldu.

Təkamül nəticəsində primitiv xarakter daşıyan cəza növləri qanunlar əsasında daha ədalətliləri və cinayətin özünə müvafiq olanları ilə əvəz edildi. Qisas almanı ifadə edən Talion qanunu meydana gəldi, bu, qədim dövrlərdə cəzanın tətbiq edilməsinin təməl hissəsi idi. Hazırda bu məfhum, cəzanın cinayət dərəcəsində olmasını və xətər toxundurana eyni formada cavab verilməsini ifadə edir. Bu qayda "gözə görə göz", "dişə görə diş" prinsipini özünün bir ədalət ölçüsü kimi əks etdirirdi. Bu, əslində səhraların konsepsiyası olmaqla, Talion qanununu daha aydın ifadə edir. Talion, başqa sözlə qisas, prinsipcə erkən Babilistan qanununda, hənçinin Bibliya və Qədim Romanın qanunlarında inkişaf etdirilməklə, cinayətkarın öz qurbanına vurduğu yaraya və xətərə dəqiq şəkildə uyğun olan cəzasında ifadə olunurdu. Erkən cəmiyyətlərin çoxu bu "gözə görə göz" prinsipini, onun hərfinə tam uyğun olaraq tətbiq edirdilər. Fələstində bədənə xətər toxundurmaq və onu yaralamaq da oğurluq tək pis əməl kimi qiymətləndirilirdi. Ona cəza verilməsi məsələsi ancaq dövlət tərəfindən həll olunmurdu, fərdin özünün ixtiyarına buraxılırdı.

Erkən Romada da dövlətin xətər toxundurana və toxunulmuşa münasibət göstərilməsinə elə bir əhəmiyyət verilmirdi Talion və ya.qisas başlıca ağrılı məmnuniyyət əldə etmək olmaqla, hətta xətər toxundurulmuş adamın istədiyi pulun verilməsi ilə də yoluna qoyulmurdu. Qisas nəticəsində hər iki tərəfi təmsil edənlər öz bədənlərinin eyni üzvlərinə artıq malik olmayacaqdılar. Fələstin müdrikləri isə belə bir qanunu işə saldılar ki, gözü itirməyə səb\b olan xətər töxundurulmuş tərəf , onu toxundurandan, bu vurulan ziyanın dəyərini tələb etməlidir. Bu, orada cinayətin bərabər ölçüdə cəzalandırılmasının qadağan edilməsinə gətirib çıxardı. B. e. ə. V əsrdən Romada da qisas alma cərimə ilə əvəz

olundu. Lakin hətta Orta əsrlər Almaniyasında, XVII və XVIII əsrlərdə isə Skandinaviyanın bəzi zonalarında qisas cəzası bərpa olunmuşdu.

Əgər Talion qanununa görə xətər toxundurulmuş adam öz düşmənindən eyni qaydada qisas alırdısa, dövlətin yaranması və inkişafı ilə cəza siyasəti də onun ixtiyarına keçdi. İngilis alimi Tomas Hobbsun (XVII əsr) nəhəng dəniz əjdahası kimi Leviafan adlandırdığı dövlət, cəmiyyətin sosial sistemini bütünlüklə idarə etdiyinə görə, cinayətkarlığa qarşı mübarizəyə də nəzarət etməyi öz üzərinə götürmüşdü.

Cinayət və cəza sözü cinayətkarlığın cəzalandırılmasının, məhkəmə prosesinin və cinayət barədə başlıca ifadələri əhatə edir. Cinayətlər qəsdən törədilənlərə və qəsdən olmayanlara bölünür. Həm də cinayətlər ciddi olanlar və kiçik növlər kimi bir-birindən fərqlənir.

Ciddi cinayətlərə adam (uşaq) oğurluğu (kidnup) və kiminsə onun iradəsi əleyhinə götürülüb aparılması, yanğın törətməklə mülkiyyətə od vurmaq, adama hücum etmək, burada fiziki hücum nəzərdə tutulur, evi yarmaqla oğurluq cinayəti törətmək üçün qanunsuz olaraq tikintinin içərisinə girmək (İngiltərədə hətta mülkiyyət sayılan əraziyə girmək – trespass da cinayət sayılır), uşağın pis davranışı, narkotik vasitələrinin alveri – narkotiklərin qanunsuz idxalı, saxta şəkildə dustaq edilmə – şəxsi öz iradəsi əleyhinə və qanuni hakimiyyətin xəbəri olmadan dustaq etmək, aldatmaq – şəxsi və ya maliyyə faydası əldə etmək üçün aldatma, insan alveri – qanunsuz olaraq adamların qul əməyinə cəlb etmək, həm də seksual məqsədlər üçün başqa yerə aparılması, qətlə yetirmək – bu cinayət bir neçə növdə olur, bura həmçinin genosid – irqi və ya dini qrupların ardıcıl olaraq öldürülməsi də daxildir, mütəşəkkil cinayət – mütəşəkkil banda qrupları və ya təşkilat tərəfindən törədilən cinayət, qaçaqmalçılıq – əmtəələrin qanunsuz idxalı və ixracı, terrorizm – qanunsuz zorakılıq və ya siyasi məqsəd naminə qorxutma, hədələmə - bütün bunlar daha çox yayılmış cinayət növlərinə daxildir.

Kiçik cinayətlərə isə cib oğurluğu, mağazadan pulunu ödəmədən mal götürmək, yol qəzaları, vandalizm – tikintini qəsdən uçurma və ya ona xətər toxundurmaq şəklində baş verir.

Cinayətlərin növləri çox olduğu kimi, cəzaların da növləri müvafiq olaraq müxtəlifdir. Bunlara ölüm cəzası, dustaq etmək barədə hökm verilməsi, ömürlük

həbs, 10 illik və ya 6 aylıq həbs, hökmün təxirə salınması, mülkiyyətdən məhrum etmə, dustaq kimi xəstəxanada müalicə olunmaq üçün saxlamaq, cərimələr, ev dustağı etmək, sürücülük sənədindən istifadə hüququnu dayandırılması daxildir.

Məhkəmə hakimiyyəti, cinayətə həsr olunmuş qanunçuluq və kodekslər, cəza institutları, cinayət və cəza tarixinin bütöv hissələridir.

Cinayət və cəza nə vaxt start götürmüşdür? Hansı faktorlar adamları cinayət törətməyə sövq etmişdir? İlk anlarda cəza növü kimi qisas almaq,  cinayətin əvəzini ödəmək qaydalarında və formalarında olmuşdu.

Bu dövrlərdə cəza cinayətlə müqayisə olunmurdu və cəzalar o qədər də sərt deyildi, bu, onunla nəticələnirdi ki, qurban, törədilən cinayətə görə yeni bir rola daxil olurdu, əsasən, öz qisasını hansı qaydada almaq yolunu axtarırdı. Bu bəzən qarşı tərəflər arasında qan düşmənçiliyinə aparıb çıxarırdı, bunun bariz nümunəsi Şekspirin “Romeo və Cülyetta” pyesində Montekki və Kapuletti ailələrinin timsalında öz əksini tapmışdır. Qan qisasını almaq bəzən bir neçə nəsil boyu davam edirdi, bu, getdikcə daha ağır və geniş cinayətlərə yol açırdı. Qisas alma tədbirindən Siciliyadakı mafioz qruplar, “Koza Nostra” faydalanırdı. Onlar və ya Yaponiyadakı “Yakudza” təkcə qurbanları üçün deyil, öz üzvləri üçün də qəddar cəzalar tətbiq edirdi, satqınlıq və bəzən hətta kiçik xətalara görə mafiya təşkilatının üzvləri sərt qaydada cəzalandırıldılar. “Yakudza” üzvlərinin öz xətasını yaddan çıxarmaması üçün, cəza kimi onların əl barmaqları kəsilirdi. Bəzi üzvlərin əlində bir neçə barmağın yalnız kötüyü qalırdı.

Siciliyada isə mafiya qrupunun üzvü satqınlıq etdikdə, onun nəslinin davamlılığının az qala bütünlüklə kəsilməsinə nail olunurdu.

Fransada və İtaliyada qan düşmənçiliyi vaxtilə geniş miqyas aldığından, onu fərqləndirən “vendetta” məfhumu da meydana gəlmişdi. Fransız yazıçısı Gi de Mopassan bir hekayəsində vendetta naminə qoca qadının bu dəhşəti davam etdirməyə necə hazırlaşdığı təsvir edilir.

Ümumiyyətlə, qan qisası, qan düşmənçiliyi zorakılığa əsaslanmaqla, dövlətlərin yaranmasından əvvəlki dövrə məxsus olmaqla, qəbilə, tayfa icmalarının aralarında  baş verən mübahisələri həll etməyin əsas vasitəsi idi. İbtidai insanlar sonralar yaranan doplomatiyanın nə olduğunu bilmədiklərindən, ziddiyyətlərin yoluna qoyulmasını yalnız qan axıtmaqda görürdülər. Ona görə də qan qisası

arxaik xarakter daşıyır. Lakin adamların ağlında problemlər yarandıqda, bu vasitə müharibələr şəklində, fərdi qətl törətmək formasında yenidən işə düşür. Müasir insan ən ağır cinayətin hansısa bir növünə yol verdikdə, daha çox ibtidai əcdadını xatırladır.

XVIII əsrdən başlayaraq Avropa ölkələrində qəbul olunan yeni qanunlar cəzanın törədilmiş cinayətə uyğun olması qaydasını meydana gətirdi. Belə qanunların mövcud olmasına baxmayaraq, bu prinsip çox vaxt praktikada özünü doğrultmurdu. Qədim dövrlərdə də cəmiyyətdəki problemləri nəzərə alaraq, həmçinin qəbul edilən hüquqi sənədlər cinayət hadisələrinin azaldılmasına cəhd göstərirdi.

B.e.ə. XVIII əsrdə Köhnə Babilistanda meydana gələn Hammurabi Kodeksi bu sahədə ilk uğurlu nümunə sayıla bilər. Kodeks ilk dəfə cinayətlə cəzanın müvafiqliyi qaydasının həyata keçirilməsinə yol açmışdı. Hammurabinin şəxsi təşəbbüsü ilə işıq üzü görən bu Kodeks müxtəlif cinayətləri əhatə edirdi, ailə müqaviləsindən tutmuş, başlıca cinayətlərə qədər gedib çıxırdı. İlk nümunə bu idi ki, "təqsir sübut olunana qədər ittiham edilən günahsız hesab olunurdu". Dörd min ilə yaxın vaxt keçməsinə baxmayaraq, bu qayda bizim dövrümüzdə də davam edir və elmi hüquq dilində "təqsirsizlik prezumpsiyası" adlanır. Müasir cinayət mühakiməsi praktikasına da Kodeks öz təsirini göstərmişdir. Hammurabi Kodeksinə uyğun olaraq verilən cəza, əsasən cinayət dövrünün sosial vəziyyətinə və cinayətin baş verdiyi şəraitə əsaslanırdı.

Misal üçün, varlı adam oğurluqda təqsirli bilindikdə, ona qulun oğurluqda təqsirli olduğu hala nisbətən daha ağır cərimə qoyulurdu. Varlı adamı qətlə yetirən, qulu öldürmək üçün tətbiq olunandan daha sərt cəzaya məhkum edilirdi.

Qisas almaq üçün yəhudilərdən qəbul edilmiş"gözə görə göz" prinsipin tətbiq olunurdu. Əgər adam öz kolleqasının ayağını sındırmışdısa, onun öz ayağı da sındırılmalı idi. Bu, heç şübhəsiz, gözə və ya dişə görə başı kəsməkdən daha yumşaq cəza idi. Cəzalar qisas kimi, bədənə xətər toxundurmaqdan başlayaraq, zorakı ölümə qədər olan ölçülərdə nəzərdə tutulurdu. Cinayətkar çox cinayət törətsə, cəza cavabı kimi onun gözü tökülür, dili və qulağı kəsilirdi və ya iki qolu bədənindən ayrılırdı.

Kodeks cəmiyyətə baş ağrısı gətirən problemlərə nəinki göz yummur, əksinə, onun bütünlüklə aradan qaldırılmasına çalışırdı. Şəhər bazarında alıcı ilə satıcının qiymət üstündə mübahisəsi, nəticədə savaşla yekunlaşırdı. Bazar, ictimai asayişin daha tez-tez pozulduğu məkana çevrilmişdi. Kodeks bu vəziyyəti aradan qaldırmaq üçün “beware bayer” – “alıcıdan ehtiyat elə” prinsipini maddə kimi təsbit etmişdi. Alıcıya məsləhət görülürdü ki, satıcı ilə qiymət üstündə mübahisə etməsin, axı o, öz əməyinin bəhrəsini bazra çıxarmışdır ki, əvəzində müəyyən qazanc əldə etsin. Qiymət alıcını razı salmırsa, ondan həmin əmtəəni almasın, başqa satıcı ilə daha əlverişli alver etmək imkanını da nəzərdən qaçırmasın.

Sovet dövründə bütün əsas ticarət dövlətin inhisarında olduğundan, əhalidə narazılıq yaratmamaq üçün  “müştəri hər şeydə haqlıdır” prinsipi hökm sürürdü. Kodeks isə  bu hüququ əksinə satıcıya verirdi. Çünki satıcı öz malının yiyəsi idi, onu hansı qiymətə satmasını özü müəyyən edirdi, ona hansısa bir təzyiq göstərilə bilməzdi.

Kodeksin irəli sürdüyü bu qayda, təəccüblü qaydada, bazardakı mübahisə və savaşları bütünlüklə aradan qaldırdı. Kodeks bununla göstərdi ki,o təkcə uğurlu hüquqi sənəd olmayıb, həm də cəmiyyətin ümdə məsələlərinə müdaxilə etmək qabiliyyətinə malikdir.

Cəzanın obyektiv və ədalətli olması məsələsinin müzakirəsində qədim filosoflar heç də kənarda qalmırdılar, ağıllı məsləhətlər verməyə çalışırdılar. Qədim yunan filosofları Platon və Aristotel cinayət hüququ sistemində mühüm yollar açmağa çalışırdılar, cinayət və cəzanın cəmiyyət üçün necə böyük problem olduğunu, həm də mühüm əhəmiyyət daşıdığını qeyd edirdilər. Hər iki filosof fərdin cinayət törətməsi səbəblərini də tədqiq etməyə çalışırdı.

Platon qeyd edirdi ki, adamların cinayət törətməsinin başlıca səbəbi onların savadsız və kasıb olmasıdır.  Aristotel isə deyirdi ki, cinayətə görə cəzalar və məsuliyyət daşımaq, başqaları tərəfindən cinayət törədilməsinin qarşısını almaq üçün mühüm imkan tək istifadə edilməlidir.

Böyük din xadimləri də bu məsələlərin araşdırılmasında kənarda qalmırdılar. Şərqdən fərqli olaraq, Avropada adamlar mühakimədən qorxmurdular və məhkəmədə öz haqlarını cəsarətlə müdafiə edirdilər. Şərq xalqlarında isə

mühakiməyə dözmürdülər, məhkəmə prosesi əvəzinə hətta hadisə araşdırılmadan öz ölümlərinə də hazır olurdular.

Görkəmli din xadimi, Müqəddəs Akvinas güman edirdi ki, Allah tərəfindən verilmiş "təbii qanun" mövcuddur. İnsanlar təbiət tərəfindən məhz yaxşı olmaq üçün dünyaya gəlmişlər.

Böyük İtalyan filosofu Çezare Bekkaria (XVIII əsr) "Cinayət və cəza haqqında" kitab yazmışdı. İlk dəfə olaraq "cəzanın cinayətə uyğun olmasını" bir prinsip kimi irəli sürülmüşdü. Cinayətin sərtliyini və miqyasını cəza özündə ehtiva etməlidir. Bu prinsip həm də digərlərini cinayət törətməkdən yayındırır. O, öz elmi əsəri ilə kriminologiyanı xeyli inkişaf etdirmişdi.

ABŞ prezidenti Con Kennedi hələ senator olarkən yazdığı "Mərdliyin profilləri" kitabını Bekkariadan geniş bir sitat gətirməklə yekunlaşdırılır.

Çezare Bekkaria (1738–1794-cü illər) yazmışdı: "Mən bir həyatı xilas etmək aləti olmağı bacarsam, onun xeyir-duası və göz yaşları, hətta bütün bəşəriyyətin nifrəti müqabilində də, mənə kifayət dərəcədə bir təsəlli olacaqdır".

Böyük filosofun xatirəsinə hörmət əlaməti olaraq, demək olar ki, o, hüquq elmi və praktikası qarşısında görkəmli xidmətlərinə görə, bir nəfərin deyil, yüz minlərin taleyinə pozitiv təsir göstərdiyinə görə təkcə təsəlli tapmamalıdır, həm də qədirbilən bəşəriyyətin həqiqi ehtiramını qazandığına görə öz həyatından razı qalmalıdır. Bekkaria sadə bir cümləsində özünün ədalətliliyini, insanpərvərliyini geniş surətdə açıb göstərir. Belə həyat kredosuna görə bəşəriyyət ona nifrət deyil, yalnız hörmət və məhəbbət bəsləyərdi.

Məşhur italyan kriminal psixiatrı Çezare Lambrozo (XIX əsr) isə qeyd edirdi ki, savadlı adamlar daha az cinayət törədirlər, savadlıların cinayəti, həm də müqayisədə dəhşətli olmaqdan çox uzaqdır.

## Dustaqxanaların inkişaf etməsi

XVIII əsrə qədər dustaqxanalar əsasən mühakimədən əvvəl ittiham olunanları saxlamaq üçün istifadə edilirdi. İctimai qaydada, xalqın gözü qarşısında

tətbiq edilən cəzalar yoxa çıxdıqdan sonra. dustaqxanaların populyarlığı xeyli artdı. Həmin əsr ərzində məhbəslər artıq məhkum edilmişlərlə dolu idi.

Kişilər üçün olan dustaqxanalar qəddar praktikaya malik olması ilə seçilirdi. Burada dustaqlar bir-birindən ayrı saxlanılırdı, onların bir-biriylə danışmasına da icazə verilmirdi.

Təəssüf ki, beləliklə, bəşəriyyət formalaşdıqca, onun qüsuru timsalında çıxış edən cinayətlər nəinki kəsilmədi, azalmadı, əksinə, hətta artmaqda davam etdi.

İbtidai insanlar da cinayət törətməmiş ötuşmürdülər, bu, çox vaxt mülkiyyət ələ keçirmək cəhdləri ilə bağlı olurdu. Makiavelli mülkiyyətin insan üçün necə böyük əhəmiyyət daçıdığını göstərmək üçün, özünün”Hökmdar” əsərində yazırdı ki, mülkiyyətə vurulan xırda ziyan,  ata qətlindən də ağır təsir göstərdiyindən, ömür boyu unudulmur. Mülkiyyətin toxnulmazlığı isə az qala müqəddəslik qazanır. Ərəblərin “ehram” ifadəsindən yaranan “haram” sözü,  bu münasibətin mütləq xarakter daşıdığını, onu qəsb etmək cəhdinin qanun və din tərəfindən hökmən cəzalandırılacağını bildirir.  Bunu başqa bir şəkildə ingilislərin mülkiyyətin toxunulmazlığını necə qoruduqlarında da görürük. Orada kiminsə mülkiyyəti sayılan əraziyə, torpaq sahəsinə girildikdə, bu, “tresspass” adlanmaqla, cinayət kimi qiymətləndirilir.

İnsan yarandığı vaxtdan  mülkiyyət onun yaşayışının mühüm hissəsi olmaqla, ona sahib olmanın əsl qalxan müdafiəsinə arxalanır. Dövlətlər də bu prinsipi öz qanunlarında təsbit etməli oldular. İndi mülkiyyətin toxunulmaz sayıldığı  prinsip bütün hüquqi sənədlərdə  öz əksini tapmışdır. İbtidai icma dövrünə gəldikdə,  bu, daha çox aclığın qarşısını alan ərzaqdan ibarət idi, ona sahib olmaq üstündə tayfalar bir-biriylə vuruşur, başqasına məxsus olanı qəsb etməyə çalışırdı. Adətən, ərzaq qıtlığı, aclıq baş verdikdə buna dözməyən qəbilə üzvləri, ərzaq barədə nisbətən kasadlıq hiss etməyən tayfalara basqın edib, həmin dövrün ən qiymətli sərvəti olan qida maddələrini ələ keçirməyə çalışırdılar. Beləliklə, ibtidai formadakı həmlələr və müharibələr meydana gəlirdi. Aclıqdan xilasə  olmaq üçün qan axıtmaq, adamları öldürmək meyli özünü qabarıq şəkildə göstərirdi.

Aclığı və onun ağır nəticələrini təkcə ibtidai insanların qisməti olduğunu güman etmək heç də düzgün deyildir.  Sonrakı dövrlərdə də adamların ondan əziyyət çəkməsi halları az olmamışdır. Bu bədbəxtlik bəzən vəhşi yırtıcılara xas

olan əməllərin insanlar arasında baş verməsinə də səbəb olmuşdu. Bibliyanın "Hüzn" kitabında, yəhudilərin Babilistana sürgün edildiyi vaxtlarda, aclıqdan ananın öz körpəsini yediyi bildirilir. Yaxud, Fransa kralı II Filip Avqust 1204 –cü ildə Normandiyanın bir hissəsini döyüşlə ingilislərdən azad edəndə , mühasirədən çox istifadə etmişdi. Bu vaxt oradakı mülki əhali dəhşətli aclıqla üzləşdiyindən, əlacsız qalıb,kannibalizmə əl atmışdılar. Adamlar doğulan körpəni yeyirdilər. Əllərinə toyuq düşdükdə, onu lələkləri ilə, içalatı təmizlənməmiş şəkildə dişlərinə çəkirdilər. Böyük Vətən müharibəsi illərində blokadada olan Leninqradda da aclıqdan insanlığa zidd hərəkətlərin baş verməsi, nə qədər acı olsa da, heç də təəccübə səbəb olmamalıdır. Ona görə də aclıq təkcə ibtidai insanı pozğun yola cəlb etmirdi, sivilizasiyalanmış adamlara da mədənin tələbinin ödənilməməsi problemi ilə yanaşı, onların şüuruna, ağlına da özünün güclü neqativ təsirini göstərirdi.,

Sonralar ibtidai icma dövrü xeyli arxada qaldıqda, şəhərlərin və şəhər-dövlətlərin və iri dövlətlərin yaranması ilə, bilavasitə özünə məxsus olan başqa bədbəxtlikləri törətməsi ilə birlikdə, aclıqla daim qol-qola gəzən müharibələrin intensivliyi, miqyası, ot kimi biçdiyi qurbanların sayı, az qala, həndəsi ölçüdə böyüdü. İbtidai insan sonralar baş verən bu geniş miqyaslı bədbəxtliklərin və dəhşətlərin şahidi olsaydı, min illər ötüb, keçsə də. inkişaf etmiş insan nəslinin ağılsız hərəkətlərinə qəhqəhə çəkib, gülərdi.

## İmperiyaların törətdiyi kütləvi qətllər və qırğınlar ən ağır cinayətdir

Hərbi cəhətdən qüvvətli olanlar qonşu xalqların ərazilərini işğal edib, onların özlərini isə itaətlərinə salırdılar. Bu yolla ilk imperiyalar meydana gəldi. Mesopotamiyada, b.e.ə. XXIV–XXII əsrlərdə Akkad imperiyası, XIV–XI əsrlərdə isə Assuriya imperiyası tarixi fakta çevrildi. Gələcəkdə dörd min illik tarixə sahib olacaq Misir imperiyası meydana gəldi. Afina, sonra isə Makedoniya ittifaq adı altında qonşu dövlətlərə ağalıq etməklə, əslində, bu birliyi imperiya kimi idarə edirdi. Bizim eradan əvvəl Qədim Roma imperiyası böyük ərazilər işğal etmişdi.

Böyük Karl VIII əsrin sonu, IX əsrin əvvəllərində Roma imperiyasının ənənəsi əsasında Qərbi Avropanı Qərb imperiyasında birləşdirmişdi. Ondan əvvəl

meydana gələn Ərəb xilafəti imperiya kimi sürətlə böyüdü. Böyük Karl Xəlifə Harun ər-Rəşidlə eyni vaxtda hökmranlıq etməklə, onunla əlaqə saxlayırdı. Artıq VII əsrin ortalarından Orta Şərqin və Afrikanın şimalını işğal etmiş müsəlman ərəblər, VIII əsrin əvvəlində İspaniyanı da Mavrlar vasitəsilə tutmağa başlamışdılar. Bu, İslamın Avropa qitəsinə ayaq açmasına səbəb olmuşdu, bu işi Osmanlı imperiyası isə daha geniş miqyasda davam etdirmişdi. Bir cəhəti də qeyd etmək lazımdır ki, Ərəb xilafəti Asiyada və Afrikanın şimalında tutduğu ərazilərdə , Avropada isə Pireney yarımadasında o dövr üçün mütərəqqi xarakter daşıyan yeni İslam sivilizasiasını yaymışdı.

XIII əsrdə o vaxtkı dünyanın üçdə birindən çoxu Çingiz xan imperiyasının tərkibində idi, onun ərazisi 33 milyon kv.km-ə bərabər idi.

Osmanlı dövləti başlanğıcda kiçik olsa da, XIV əsrdən başlayaraq ətrafdakı dövlətləri işğal etməklə, öz ərazisini xeyli böyütmüşdü. 1453-cü ildə isə Konstantinopolu tutmaqla, Bizans imperiyasının mövcudluğuna son qoymuşdu.

Yeni tarix, ümumiyyətlə, həm də böyük imperiyaların yaranması dövrü olmuşdur. Osmanlı imperiyası üç qitədə ərazilərə malik olmaqla böyüməyə başladı. Böyük Britaniya və Fransa Şimali Amerikada böyük ərazilərə sahib oldu, İspaniya Mərkəzi Amerikada və Braziliya istisna olmaqla, həmçinin Cənubi Amerikada iri müstəmləkələrə yiyələndi. Böyük Britaniya imperiyası XVIII əsrdə Şimali Amerikadakı koloniyalarını itirsə də, Ost-İndia kompaniyasının köməyi ilə Asiya qitəsinin nəhəng dövləti olan Hindistana yiyələndi. Eyni adlı subkontinent onun müstəmləkəsinə çevrildi. XIX əsrdə artıq Böyük Britaniya imperiyası Viktoriya epoxası dövründə dünyanın dörddə birinə ağalıq edirdi. Vaxtilə İspaniya imperiyası barədə deyilən “onun üzərində günəş batmır” sözləri, indi Britaniya imperiyasının fərqliliyini  xarakterizə edirdi.

Avstriya, sonra isə Avstriya-Macarıstan imperiyası Avropadakı böyük əraziləri öz idarəçiliyində birləşdirməklə yanaşı, İspaniya sarayı vasitəsilə Vest-İndianın sərvətlərindən böyük fayda götürürdü.

İmperiyalar haqqında geniş söhbət açmaq, heç də əsassız deyildir. Əgər biz fərdlərin, mütəşəkkil cinayət qruplarının qanundan kənar fəaliyyətindən danışırıqsa, onların müvafiq qaydada cəzalandırılmasını da qeyd etməklə, onlara qarşı mübarizənin uğurlu olduğundan da xəbər veririk. İmperiyalar isə daha böyük

cinayətlərə səbəb olur, kütləvi qırğınlara müəlliflik edir. Ona görə də onların cinayəti, cəmiyyətdə baş verən və fərdlərin törətdiyi cinayətlərlə müqayisədə ölçüyə sığmazdır. İmperiyalar müharibələr aparmaqla, qan çayı axıtmaqla meydana gəlir, xoşbəxtlikdən, onların varlığına yenə də müharibələr və inqilablar son qoyur. Ona görə də imperiyaları tarixin ən böyük cinayətkarı hesab etmək lazımdır. Onlar işğal etdikləri əraziləri və xalqları idarə etmək üçün insanlığa zidd olan heç bir əməldən çəkinmirlər. İtaətində saxladığı xalqların qırğınını təşkil etməklə öyünürlər. Silah gücünə idarə isə, qan axıtmaqdan başqa bir fəaliyyət növünü tanımır.

Müasir insanlar imperiyaların tarixinə nifrət bəsləməklə, onların lənətləyirlər ki, hələ müəyyən sayda mövcud olsalar da, bir daha reinkarnasiya etməsinlər, gələcək tarixə də öz iyrənc damğasını vurmaq imkanına bir daha yiyələnməsinlər.

Xalqlar müstəmləkə zülmündən azad olduqdan sonra, hansısa bir şəkildə imperiyanın yenidən meydana gəlməsinə, təkrarlanmasına dözə bilməzlər. Çünki onlar bu azadlığı əldə etmək üçün çox əziyyət çəkmiş, böyük qurbanlar vermişlər.

İmperiyaların tabeliyində olan ölkələrin xalqları milli-azadlıq uğrunda mübarizə aparmaqla yanaşı, imperiyaların onurğa sütununu yenə müharibələr qırdı. Şimal Amerikadakı 13 koloniya 1770-ci illərdə Böyük Britaniya ağalığına qarşı inqilab müharibəsinə qalxıb, bu silahlı mübarizədə qalib gəlməklə. qədim Afinanın demokratiya təcrübəsinə əsaslanan yeni Amerika Birləşmiş Ştatları dövlətini yaratdılar. Bu, Afina şəhər dövlətindən və Qədim Roma respublikasından sonra meydana gələn ilk demokratik dövlət idi, onları bir-birindən iki min ilə yaxın zaman məsafəsi ayırırdı.

XIX əsrin ikinci onilliyində Cənubi Amerika ölkələrinin xalqları İspaniya ağalığından azad oldular. Yunanıstanın 1830-cu ildə müstəqillik qazanması ilə, Osmanlı imperiyasının eroziyası gücləndi, ayrı-ayrı ölkələr onun ağalığından çıxdıqca, imperiyanın süqutu yaxınlaşırdı. Bu da Ox dövlətləri ittifaqına daxil olan Osmanlı imperiyasının I Dünya müharibəsindəki məğlubiyyəti nəticəsində baş verdi və onun xarabalıqlarında çox sayda müstəqil dövlətlər yarandığı kimi, 1923-cü ildə doğulan yeni Türkiyə Respublikası isə ancaq özünə məxsus olan ərazi ilə kifayətlənməli oldu.

1947-ci ildə Britaniya imperiyası, Hindistanın öz müstəqilliyini elan etməsi ilə, ABŞ-ın yaranmasından sonra ikinci ağır zərbə aldı. 1960-cı illərdə Afrikada milli-azadlıq hərəkatı geniş vüsət aldı və qitədə çox sayda müstəqil dövlətlər meydana gəldi.

İmperiyalar heç də müstəmləkələrinin azad olması yolu ilə ondan qopmasını istəmirdilər və çoxlu qan axıtmaqla onları ram etməyə çalışırdılar. 1895–1898-ci illərdə Britaniya generalı Kitçeaerin komandanlığı altında ingilislər sudanlıların Maxdi hərəkatını kütləvi qırğın vasitəsilə qanda boğdular. 1899–1902-ci illərdə gedən ingilis-bur müharibəsində britaniyalılar qalib gəlməklə, Cənubi Afrika əhalisinin mübarizəsini yatıra bildilər.

İmperiyalar tarix boyu böyük miqyaslı cinayətlərin, dəhşətli müharibələrin mənbəyi rolunu oynamışlar. İmperiyalar xalqların qanını böyük ölçüdə axıtmaqla meydana gəldiyi kimi, onların sonuna hökm verən axırıncı müharibədə məğlub olmaqla, dəfn edildikləri öz qəbirlərini tapmalı olmuşdular. I Dünya müharibəsi dörd imperiyanın dağılmasına, onların bətnindən çıxan çox sayda yeni dövlətlərin yaranmasına səbəb olmuşdu. Avstriya-Macarıstan, Osmanlı, Almaniya imperiyaları təkcə Antantaya məğlub olmadılar, həm də əvvəlki varlıqlarının mövcudluğunun sonunun şahidi olmaqdan yayına bilmədilər. Rusiya imperiyasını isə 1917-ci ildəki inqilablar məhv etdi.

Yazıda imperiyalara belə geniş yer ayrılması heç də təsadüfi deyildir, onlar adətən işğal müharibələri aparmaq nəticəsində yaranır, çoxlu qan axıdır, permanent münaqişə mənbəyinə çevrilirlər. Müstəmləkə xalqlarına qarşı onlar ağır cinayətlər törədirdilər, bu ölkələri açıq səma altında olan nəhəng həbs düşərgələrinə döndərirdilər. Belçika kralı II Leopild Konqoda (indiki Zair respublikası) heveya şirəsini toplamaq üçün afrikalılara elə gündəlik norma qoymuşdu ki, bu, adamları taqətdən salırdı. Kral, meşədə normada nəzərdə tutulan həcmdə qiymətli şirə toplaya bilməyənləri, qollarını kəsməklə cəzalandırırdı. Belçika plantatorlarının vəhşiliyi hədd tanımırdı. Brüsseldə zəncilər ekzotik heyvanlar kimi sərgilərdə nümayiş etdirilirdi.

Adətən fərdin, bir adamı qətlə yetirməsi ən ağır cinayət hesab olunur, imperiya isə müstəmləkəsi olan ölkələrdə yüz minlərlə insanı, yalnız itaətdən boyun qaçırdığına görə məhv edirdilər. Ona görə də onlar ən ağır cəzaya layiqdirlər. Təəssüf ki, onların cinayəti cəzasız qalır, qırğın təşkil etdiklərinə görə

imperatorların boynu vurulmur. Əgər ədalət zəfər çalsaydı, imperializm də öz vəhşilikləri üçün məsuliyyət daşımalı olardı, onların hamısı qanun qarşısında cavab verərdi. Beynəlxalq Cinayət Məhkəməsi ayrı-ayrı müharibə qızışdıranları cəzalandırdığı halda, imperiyaların öz müstəmləkələrindəki əsl mütəşəkkil cinayət qruplarının üzvləri barədə indinin özündə də heç də kəskin mövqe tutmur. Böyük ədalətsizlik ondadır ki, geniş miqyaslı cinayət cəzasız qalır və bu, başqalarını da qan axıtmağa qızışdırır.

Dinlər yaranandan insanları birliyə səsləyirdi. Ona görə də bütün dinlər daha böyük icmadan ibarət olan şəhərlərdə meydana gəlmişdi. Din qətllərin, qan axıtmanın qatı əleyhdarı idi. Xristian dininə itaət edən adamlar İisusun əsgərləri olduğundan, onlar silahdan istifadə etməklə vuruşmamalı idilər. Lakin Səlib yürüşləri Sahibin qəbrini xilas etmək pərdəsi altında gedən əsl işğalçılıq müharibələri idi və çox sayda müsəlmanların qanını axıtmışdı.

Xristian dini meydana gələndə ona inanc gətirənlər də təqib olunmuş, öldürülmüşdülər. Apostollar Pyotr və Pavel Romada edamla qətlə yetirilən ilk şəhidlər olmuşdular. Yalnız imperator Konstantin 330-cu ildə xristianların təqibinə son qoymuş, dini icmaların öz ibadətlərini sərbəst icra etmələrinə icazə vermişdi. Lakin xristian dini yalnız IV əsrin sonunda Romada dövlət dini elan olunmuşdu. Bundan xeyli əvvəl, 313-cü ildə bu din artıq Qafqaz Albaniyasının dövlət dini idi. Ermənilər isə qədim alban kilsələrini öz adlarına çıxaraq, guya onların Qriqoryan dininə məxsus olduğunu iddia etməklə, çox sayda olan dini məbədləri  saxta yolla mənimsəmək istəyirdilər.

İspaniyada XV əsrdə və sonralar inkvizisiya tüğyan edirdi. XVI əsrdə İngiltərədə əvvəlcə protestantlar, sonra isə katoliklər sərt təqiblərə məruz qaldılar. “Qanlı” adını daşıyan kraliça Mariya Tüdor protestantları edam etdirirdi,  onun kiçik bacısı kraliça I Elizabet də katoliklərə qarşı sərt mübarizə aparırdı.. Çünki katolik dünyası kraliça Elizabeti öldürmək barədəki çağırışla çıxış etmişdi.Şotlandiya kraliçası Mariya Stüart isə İngiltərədə əgər hakimiyyətə gəlsəydi, protestantların vəziyyəti daha ağır ola bilərdi.

Oliver Kromvel isə 1649-cu ildə kral I Çarlzın boynunu vurduqdan sonra, Şimali İrlandiyanın Droqheda şəhərində 20 min katolik rahibin qırğınına göstəriş vermişdi.

Hitler isə irqi və dini ayrı-seçkiliyi əsas götürərək, arilərin aliliyini həyata keçirmək üçün yəhudilərə qarşı Holokost adlanan geniş miqyaslı genosid həyata keçirmişdi. İsrail isə öz xalqının bədbəxtliyinə görə Hitlerə və alman natsistlərinə nifrət etməklə yanaşı, indi Qəzzədə ərəbləri qırğına məruz qoymaqdan çəkinmir.

İslam dini xristianlıqdan fərqli olaraq kütləvi qırğınlar tədbiri keçirməmişdir. Təəssüf ki, islamçılar çox hallarda terrordan geniş istifadə elirlər. 2001-ci ilin 11 sentyabrında Üsamə ben Ladenin xarabalıq "cəngavərləri" Nyu-Yorkda "Twin" – "Ekizlər" adlanan Ticarət Mərkəzinin iki nəhəng binasını partlatmışdılar, burada həm də xeyli insan tələfatı baş vermişdi. Teokratik dövlətlərdə insan haqlarına riayət edilməsinə məhəl qoyulmur. Səudiyyə Ərəbistanında əxlaq polisi günahsız adamları namaz vaxtı yalnız məscid əvəzinə, küçədə olduqlarına görə şallaqla qamçılayırdılar. İranda hicabı örtməyə düzgün əməl etməyən qadınlar nəinki cəzalandırılır, hətta həbs edilirlər. Dinlər yaxşı nümunə göstərmək əvəzinə, iyrənc əməllərə də əl atırlar.

## Dustaqxanalar və orada cəza çəkənlər

Dustaq edilənlərin və müharibə əsirlərinin saxlandıqları dustaqxana sakinlərinin psixoloji vəziyyətinin öyrənilməsinə nəzər salmaq maraq doğurmaya bilməz. Örtülü divarlar arasında olanlara bu institutun necə təsir göstərdiyini araşdırmaq heç də faydasız deyildir. Burada diqqət rolların, qaydaların, simvolların, şəxsi yaşayış şəraitinə və situasiya dəyişikliklərinə həmin fərdlər tərəfindən necə dözmələrinin,onları dəf etmələrinin öyrənilməsi baş verir. Bir neçə il ərzində fərdlilikdən uzaqlaşmış adamların vandalizmə və qeyri-humanist xüsusiyyətli hərəkətlərə meyl etməsi də diqqəti cəlb etməmiş qalmır. Onlar özlərindən asılı olmayaraq ,öz şəxsi kimliyinin anonim edən situasiyalara atılırlar. Bu adamların müxtəlif anti-sosial hərəkətlərə yol verdikləri eksperiment vaxtı gözə çarpır. Görünür, onlar elə bil ki, insandan aşağı olan düşmənə və ya obyektə çevrilirlər. Bütün bunlar Qərb ölkələrində aparılan tədqiqat xarakterli eksperimentlərin nəticəsi ilə öyrənilir.

Dustaqxananı öyrənmə, anti-sosial davranışı başa düşməyə kömək edir. Burada mühafizəçilər ilə dustaqlar arasında baş verən konfliktlər də müəyyən maraq kəsb edir.

Bəzi dustaqlar məhbəsə salınana qədər digər adamlarla danışıqlarında, həm də mühakimə vaxtı əsasən özlərini heç də təqsirkar hesab etməmişdilər. Aqressiya, avtoritarizmin sağ qanadı, sosial ağalıq istiqaməti və nartsissizm dustaqxana eksperimentləri vaxtı məhbusları yüksək dərəcədə öyrənməkdə və xarakterizə etməkdə də kömək edir. Ona görə də bu, dustaqxananın fəaliyyət mexanizmini optimallaşdırmaqda və ekspertlərin nəticələrini düzgün tətbiq etməkdə böyük rol oynayır.

Qabaqcıl dustaqxana təcrübəsi olan ölkələrdə, dustaqların davranışında müsbət dəyişikliklərin yaranmasına nail olmaq üçün müxtəlif təyinatlı belə eksperimentlər həyata keçirilir və dustaqxana rəhbərliyi onların nəticələrindən istifadə etməyin praktiki əhəmiyyətini anlayaraq, geniş tətbiq etməyə cəhd edirlər. Onlar başa düşürlər ki, eksperimentlər elmi xarakter daşıdığından, dustaqlar arasındakı psixoloji durumu düzgün qiymətləndirməyə də kömək edir. Eksperimentlər heç də özünü aldatmaq vasitəsi olmayıb, baş verən situasiyaları düzgün qiymətləndirmək və anlamaq məqsədini güdür. Ona görə də həmin ölkələrin birində keçirilən eksperimentin gedişini və nəticəsini müşahidə etmək bizim üçün də heç də əhəmiyyətsiz məsələ deyildir.

Eksperiment, dustaqları və dustaqxana şəraitinin onlara göstərdiyi təsiri hərtərəfli öyrənməyə istiqamətlənir. Bəzi dustaqlar buna qədər digər adamlarla danışıqlarına görə əməllərini inkar edərək, özlərini təqsirkar hesab etməmişdilər.

Eksperiment  ilk növbədə volontyor subyektlərin köməyi ilə aparılır, dustaqxana mühitinin onlara necə təsir göstərdiyini hərtərəfli açmağa kömək edir. İlk növbədə volontyorların yarısı mühafizəçi rolunu oynamalıdır, digər yarısı isə dustağa çevrilir. Onlar 7 gündən 14 günə qədər bu rolları ssenariyə uyğun olaraq dəqiq icra etməli idilər.

Eksperiment dövründə dustaqlar zirzəmidə saxlanılırdı. Mühafizəçilər isə kontrast qaydaya uyğun olaraq, dustaqlardan ayrı, tam fərqli mühitdə olmalı idilər. Mühafizəçilərə istirahət üçün xüsusi zonaya çıxmaq və fiziki cəhətdən yüngülləşmək imkanı verilirdi.

Eksperimentin başlanmasından əvvəl mühafizəçilərə tapşırılmışdı ki, dustaqlara fiziki xətər toxundurmasınlar və ya onların qidalanmasını və su içmələrini ləngitməsinlər. Mühafizəçilər çalışmalı idilər ki, dustaqların hər bir fərdə aid olan xüsusiyyətlərini yox etməyə, azaltmağa çalışmasınlar. Onlar dustaqlar üzərində öz hakimiyyətlərini göstərməli idilər. Lakin onlara fiziki güc tətbiq etməklə, bu adamların hissini oyatmasınlar ki, onlar artıq dustaqdırlar.

Dustaqlar mühafizəçilərə qarşı üsyan qaldırdıqda, bu əlbəttə, dustaqxana praktikasında heç də nadir hadisə deyildir, onlar zirzəmini tərk etməkdən imtina etdilər və mühafizəçiləri təhqir etməyə başladılar. Mühafizəçilər isə dustaqların paltarlarını, yorğan-döşəklərini yığışdırıb, uzaqlaşdırdılar ki, onları üsyanı davam etdirməkdən çəkindirsinlər. Onlar üsyan edənlər barədə dedilər ki, “bunlar təhlükəli dustaqlardır”.

Dustaqların, qaydanı pozmağa yönəlmiş sonrakı hərəkətlərinin miqyasını azaltmaq üçün mühafizəçilər onları bir-birindən ayırdılar, onların hamam otaqlarına getməsi imkanını azaltdılar və onları məcbur etdilər ki, özlərinin təbii ehtiyatlarını ödəmək üçün zirzəmidə qoyulmuş vedrələrdən yüngülləşmək vasitəsi kimi istifadə etsinlər.

Sonra isə dustaqları yaxşı davrananlara və bilavasitə qiyam qaldıranlara böldülər. Dustaqlar bir-birindən ayrı düşdülər, narazılıq edənlərin təsir dairəsi məhv edilməklə, onlar arasındakı həmrəylik də, əslində, yoxa çıxdı. Dustaqlardan biri bu vaxt zirzəmidə qışqırmağa başladı, buna görə onu uzaqlaşdırmalı oldular. Digər dustaqları isə mühafizəçilər məcbur etdilər ki, öz yoldaşları olan həmin dustağı “bəd adam” adlandırsınlar.

Hər bir dustağın üstü ardıcıl olaraq axtarılırdı və onlar lüt soyundurulurdular. Həşəratlardan qorunmaq üçün onların üzərinə dərman tipli maye səpirdilər. Eksperiment dustaqxana rejiminin mümkün qədər optimal qaydada olmasına şərait yaradırdı.

**Dustaq**

Dustaq törətdiyi cinayətinə görə cəzalandırılmaqla, dustaqxana daxilinin adamına, sakininə çevrilir. Eyni qaydada, misal üçün, müharibədə düşmən kimi əsir götürülənlər dustaq hesab olunurlar. Dustaqxana isə dustaqların örtülü saxladığı bir məkan olmaqla, həm də məhbəs, bəzən hətta daha sərt qaydaların tətbiqinə görə "zindan" adlanır. Dustaqxanalar həmçinin mühakimədən əvvəl ittiham edilənlərin bir qisminin, onlar adətən cəmiyyət üçün azadlıqda olanlara təhlükə mənbəyi sayılır, saxlanılması üçün də istifadə olunur.

Dustaq, öz iradəsi əleyhinə azadlıqdan məhrum edilmiş adamdır. Lakin onun bu məhdudiyyətlərə düçar olması kiminsə istəyinə görə deyil, onun özünün qanundan kənar şəkildəkii anti-sosial davranışı ilə əlaqədardır. Dustaqxananın nə olduğunu anlayan adam qanunsuz əməllərdən, zərərli davranışdan qaçmalıdır, çünki cinayətinə görə cəzalanmayacağına hansısa bir qarantiya yoxdur, cəzanın sərtliyinin və düşəcəyi mühitin ruhu əzməsini də heç vaxt yaddan çıxarmamalıdır.

Dustaqxanalar çoxlu növlərə bölünür. Onlar kişilər, qadınlar və yeniyetmələr üçün olur, həm də bəziləri cəmiyyət üçün təhlükə mənbəyi sayılan adamlar olduqlarından, şəraitinə görə bir-birindən fərqlənən növlərə də bölünürlər. Yerli və ayrıca geniş yayılmış dustaqxanalar mövcuddur, axırıncı növlərdə müttəhim özü barədəki hökmdə ifadə olunan cəzasını çəkir.

Bütün dustaqlar üç kateqoriyaya bölünür və onların hansı sistemə aid olan dustaqxanada saxlanması bununla müəyyən olunur.

Maksimum təhlükəsizlik şəraitində saxlanan dustağın oradan qaçmaq imkanı olduqca məhduddur və bu qaçmaya cəhdin baş tutması çətin olaraq qalır. Dustaqxana, penitensiar, həbs mərkəzi olmaqla, orada adamlar dövlət hakimiyyəti altında, həm də öz iradəsi əleyhinə və vətəndaşlıq borcunu inkar etmək qaydasındakı müxtəlif cinayətlərə görə dustaq kimi saxlandığı yerdir. Mühakimədən əvvəl ittiham edilən şəxslər də, ittiham daha ciddi xarakter daşıyanda, dustaqxanada saxlana bilər.

Dustaqxananın istifadəsi dövlətin yüksəlişi ilə əlaqədar olan bir sosial təşkilat forması kimi özünü göstərir. Bəzi qədim filosoflara görə, dustaqxanalar dustağı islah etmək üçün deyil, ittiham edilənləri cəzalandırmaq üçün istifadə olunur.

Cəriməni ödəyə bilməyənlərin də cəza növü kimi dustaq edilmə qaydasında saxlanması tətbiq olunurdu. Bu praktika Böyük Britaniyada geniş yayılmışdı, ölkədə XIX əsrdə borc məhbəsləri şəbəkəsi mövcud idi. Onu yazıçı Çarlz Dikkens özünün "Devid Kopperfild" əsərində təsvir edir.

Dustaqxana öz bədnam "şöhrəti" ilə insanlara yaxşı məlum idi və onlara əlavə adlar da verilirdi. Qədim Afinada dustaqxana "zəncirlər yeri" kimi tanınırdı. Qədim romalılar isə dustaqxanaları ilk dəfə cəza üçün olan bir forma kimi istifadə edənlər idi. Yaponiyada isə məhbəslər mühakimədən əvvəl müttəhimləri saxlamaq yeri idi, burada adamlar cəza kimi öldürəcəklərini, yaxud bəxtləri gətirərsə, azad olunacaqlarını gözləyirdilər. Yaponiyada başqa cəza növü yox idi, geniş yayılan cəza ölüm hökmü idi, yaponlar adi oğurluğa görə ölüm hökmü tələb edən Avropadakı eybəcər qanuna bələd olmasalar da, Drakontun hüquqi "icadını" müntəzəm olaraq tətbiq edirdilər.

Qədim Romada dustaqlar metal qəfəslərdə, ictimai binaların zirzəmilərində saxlanılırdı, ayrıca dustaqxana binası və ya ərazisi yox idi. Qədim romalılar qəbirstanlıqda mərhumun külü olan kiçik qutuların saxlandığı yeri "Kolumbari" – "Göyərçin yuvası" adlandırdıqları kimi, dustaqxananın da böyük ərazi tutmasını məqbul saymırdılar. Burada ən məşhur Mamartin dustaqxanası b.e.ə. 640-cı ildə, hələ respublika quruluşundan az qala bir əsr yarım əvvəl, çarların Romanın idarə etdiyi dövrdə yaranmışdı. Məhbəs öz sərt qaydaları ilə seçilirdi, geniş zindanlar şəbəkəsi fəaliyyət göstərirdi. Orta əsrlərdə isə Avropada qəsrlər, fortlar və ictimai binaların zirzəmiləri dustaqxana rolunu oynayırdı.

Hökumət dustaqxanaları himayə edərkən dustaqların təhlükəsizliyini təmin edir və onları yenidən cinayət törətməkdən yayındırmağa çalışır. Ona görə də həbsxanalarda vəziyyəti yaxşılaşdırmağa ehtiyac duyur. Burada dustaqlar əvvəlki əməllərini tərk etməlidirlər.

Dustaqxanalar öz işləri üçün və dustaqların təhlükəsizliklərini hiss etmələrinə real şərait yaratmağa borcludur. Dustaqxana dustağın həbsdən azad olmasına onları hazırlamalıdır ki, qapıdan çıxdıqdan sonra onların dəyişilməsinə ümid yaransın.

Yerli dustaqxanalar əsasən məhkəməyə qədər ittiham olunanları saxlamaq üçün istifadə olunur, həm də onlar bir neçə günlük həbs müddəti üçün nəzərdə

tutulur. Xırda xuliqanlıq cinayəti törədənlər qısa müddətdə də olsa, orada məskunlaşırlar.

Geniş yayılmış dustaqxanaların hamısı kateqoriyalara bölünür. “A” kateqoriyasına daxil olanlardan ağır cinayət törətmiş dustağın həbsdən qaçması imkanı olmur, çünki onlar qaçsalar, cəmiyyət üçün əlavə təhlükə törədə bilərlər. Bu dustaqxanalar həm də sərt qaydaların tətbiq edilməsi ilə fərqlənirlər. Aşağı kateqoriyalarda isə nisbətən az qorxulu dustaqlar saxlanılır. Dustağın davranışından asılı olaraq, onun saxlanması, dustaqxana şəraitinə görə daha yaxşısına və ya pisinə dəyişdirilə bilər. Sovet həbsxanalarında xüsusən soyuq və rütubətli iqlim şəraitində saxlanılanlar çox hallarda vərəmlə (tuberkulyozla) xəstələnirdilər. Xəstəlik hesabına onların orqanizmi çox zəifləyir, hətta onlar azadlığa çıxandan sonra da bu şəkildəki dustaqlıq mirası, onların həyatına zəhər qatmaqda davam edirdi və bəzən hətta həyatla vidalaşmalarına da səbəb olurdu. Dustaqxanalarda həm də tif epidemiyası yayıldığından, bu mərəz “dustaq xəstəliyi” kimi tanınır. Əlbəttə, dustaqlara tibbi nəzarət tətbiq edilir, lakin şərait öz təsirini göstərməmiş qalmır. Məhbəsdəki kameralarda dustaqların ifrat sıxlığı, epidemiyanın sürətlə yayılmasına səbəb olur. Heç bir izolyasiya tədbiri həyata keçirilməyəndə, xəstəliyin inkubasiya dövründə daha çox sayda adamın  ona sirayətlənməsi baş verir.

Sovet İttifaqında repressiyalar dövründə “xalq düşməni” hesab edilənlər saxta mühakimələr vasitəsilə azadlıqdan məhrum edilirdi və onlar həbs düşərgələrindəki daha ağır həyat şəraiti ilə tanış olmaq məcburiyyətində qalırdılar. Onlar həbsxanaya düşəndən çox hallarda işgəncələrin zülmünə də dözməli olurdular.

Dustaqxana institutu mahiyyətinə görə müxtəlif növlər arasında bölünürdü. Kişi cinsindən olanlar cinayət törətdikdə, adətən, daha sərt qaydaları olan dustaqxanalarda saxlanırdı.

Dustaqxana həmçinin məhbəs, penitensiar, həbs mərkəzi, yaxşılığa doğru düzəliş mərkəzi, düzəlmə bacarığına malik olan bir yer  kimi də tanınır. Burada adamların, öz iradəsi əleyhinə və dövlət hakimiyyəti altında azadlıqları inkar edilir, ümumiyyətlə, müxtəlif cinayətlər üçün onlar cəza çəkməli olurlar.  Cəmiyyətdə bütün səlahiyyətləri öz üzərinə götürdüyünə görə ,  bütün cəza sistemi də dövlətin

tabeliyindədir və onun adından tətbiq edilir. Dustaqlar cəzalarını çəkəndə dövlətin qanununun nə demək olduğunu anlamağa başlayırlar.

Həbsxanalar həmçinin bəzən hakim rejimin siyasi repressiyası üçün alət kimi də istifadə olunur. Diktaturanın hakim kəsildiyi ölkələrdə və teokratik dövlətlərdə belə təcrübə geniş yayılmışdır. Bu vaxt çox hallarda siyasi cinayətlər üçün cəzalandırmaqdan ötəri düzgün mühakimə və ya lazım olan proseslər aparılmır. Bəzi hallarda dövlət mülki adamları dustaq edə və onları həbs düşərgələrində saxlaya bilir.

Dustağa çevrilmə, cəza kimi öz cərimələrini ödəməyənlər üçün də tətbiq edilə bilər. Qədim romalılar dustaq edilməni, təkcə həbs kimi deyil, cəzanın xüsusi növü kimi də istifadə edirdilər, məhkum olunanlar dəmir qəfəslərdə saxlanılırdı. Orta əsrlərdə isə Fransada qəsrlər, fortlar və ictimai binaların zirzəmiləri dustaqları saxlamaq üçün istifadə olunurdu. İspaniyada isə qorxulu düşmənin qaçmaması üçün qüllələr əlverişli saxlama yeri kimi tanınırdı. 1525-ci ildə İtaliyadakı Pavia döyüşündə əsir düşmüş Fransa kralı I Fransiski İspaniya kralı I Karl məhz uca qüllədə saxlayırdı.

Digər ümumi cəza kimi adamlar qalera quldarlığına məhkum edilirdi, onlar gəmilərin dibində saxlanılmaqla, donanma və ticarət gəmilərində avar çəkirdilər. Bu olduqca ağır zəhmət idi və sərt cəza növü kimi qiymətləndirilirdi.

Bəzi ölkələrdə cinayətkarlara güclü təsir göstərmək məqsədilə, dustaqlar ölkənin öz ərazisində deyil, məhkumluq müddətini çəkmək üçün müstəmləkələrə göndərilirdi. İngiltərə bu üsuldan daha çox istifadə edirdi. Orada azadlıqdan məhrum edilənlər cəzalarını çəkmək üçün 1660–1776-cı illərdə Britaniya Amerikasına göndərilirdi. Amerikada inqilabın baş verməsi və Birləşmiş Ştatlar dövlətinin meydana gəlməsi ilə oraya dustaqların göndərilməsi imkanı kəsildiyindən, dustaqlar yeni qitə olan Avstraliyaya göndərilirdi. Avtoxton əhali olan avstraliya  buşmenlərindən sonra Avstraliyanın ilk sakinləri məhz ingilis dustaqları olmuşdu. Qitənin aborigen əhalisi öz qitələrində ağ adam kimi, ilk dəfə ingilis dustaqlar ilə qarşılaşmalı oldular, sonra isə britaniyalılar əhalinin əksəriyyətini təşkil etməklə, yerli əhalini sıxışdırmağa başladılar. Qitədə məskunlaşan ilk ağdərili sakinlər  məhz metropoliyadan gətirilən dustaqlar idi, sonralar isə buraya Böyük Britaniyadan geniş ölçüdə miqrasiya başlandı..

İnsan haqları siyasi əhəmiyyət kəsb etdiyindən, dövlətlərin çoxunda onun dustaqxana qaydalarına da təsiri üzə çıxdı. Modern dustaqxanaların yaradılmasına başlandı.

Yeni cəmiyyətlər erasında dustaqxanalar sosial sistemdə xüsusi rol oynayırdı. Həbsxana "intizam üçün istifadə yeri" adlanırdı. Onlar məktəb, xəstəxana və baraklar kimi istifadə olunurdu.

XVII və XVII əsrlərdə Avropada və ABŞ-da edam cəzasına və işgəncələrə qarşı müqavimət hərəkatı başlandı. Kiçik cinayətə görə ölüm hökmü verilməsinə son qoyuldu, axı bu, Afinada hər kiçik oğurluğa görə ölüm cəzası vermək barədəki drakon qanunlarına bənzəyirdi. Kütləvi dustaq edilmə ləğv olundu, bəzən bunun həlli kimi ağır zəhmətə cəlb edilmə qaydası meydana gəldi. Maarifçilik ideyaları nəzərdə tuturdu ki, dustaqların daha effektiv cəzalandırılması üçün ictimai cəza kimi qamçılanma və ya mənəvi islaha məruz qalma tətbiq oluna bilər. Dustaqxanalar mənəvi təminatın bəşəri institutları kimi qurulmalı, dustaqların davranışı "düzəldilməli idi ki, onlar azad olanda cəmiyyətin normal model üzvlərinə çevrilsinlər". Dustaqlara "dustaqxana əməyi" işləri verilirdi ki, onlar real dünyada yaşamağa hazırlansınlar.

Dustaqxana təkcə dustaqlar üçün deyil, həm də oradakı nəzarətçilər üçün də bir növ sınaq yeridir. Nəzarətçilər dustaqlara yuxarıdan aşağı deyil, insan kimi baxmalıdırlar. Onlar üçün azadlıqdan məhrum edilmiş bu adamlar heç vaxt nifrət obyektinə çevrilməməlidir. Nəzarətçi öz təyinatına ciddi əməl etsə, dustağın xırda xətasına görə onu əlavə cəzalandırmaq eşqinə düşməz. Məgər onun özü həyatda səhv etmirmi? Axı hər səhvə görə adamı cəzalandırmaq ağıla da gəlmir. Dustaq hökmün təyin etdiyi müddətdə öz azadlığının xeyli hissəsini itirmişdir, heç də bu o demək deyildir ki, bunula birlikdə insan olmağını da paralel qaydaya uyğun olaraq itirmişdir. Onu aşağı insan hesab etmək, faşist prinsiplərinə yuvarlanmağa bənzəyir. Həbsxana dustağa cəza vermək üçündür, heç də onu ümidsizliyə qapılmağa sövq edən və həyatdan məhrum edilmək qorxusu yaradan ölüm düşərgəsi deyildir.

Lakin həbsxana təcrübəsində nəzarətçilərin qəddarlıq göstərməsi, addımbaşı dustağa təhqir etməsi halları da olmuşdur. Bu mənada XIX əsrin əvvəlində Fransa həbsxanalarının birində dustaqların qəddar nəzarətçidən qisas alması faktı maraqlıdır və həmin nəzarətçinin bədnam adı dustaqların ona verdiyi ağır cəzada

öz əksini tapdığından, iki əsrdən sonra da dustaqlar cəmiyyəti tərəfindən unudulmur. Bunun ifadəsi kimi dustaqxanalarda dustaqlar üçün bişirilən şorbaya həmin nəzarətçinin soyadından götürülmüş "balanda" deyilir. Özü də bu ad Fransadan bütün dünyaya yayılmışdır.

Böyük fransız yazıçısı Onore de Balzakın da "İnsan komediyası" epopeyasının kitablarının birində təsvir etdiyi hadisə real fakt idi və onun məşhurlaşmağı da təsadüfi deyildi. Dustaqxanaların birində Balanda adlı qəddar bir nəzarətçi işləyirdi. O, yeri gəldi, gəlmədi dustaqları təhqir edir, heç bir səbəb olmadan onlara əl qaldırırdı. Dustaqlar bu əclafın hərəkətindən cana doyduqlarından, nəhayət onu öldürmək qərarına gəldilər. Lakin bu qətlin izi qalsa, onlar ağır cəzalandırılacaqdı. Ona görə də qeyri-adi qətl formasını işə salmalı oldular.

Dustaqlar mətbəxdə qaynar qazanların yanında dayanmışdılar. Bura gələn Balanda onları söyməyə, təhqir etməyə başlayanda, dustaqlar nəzarətçini əllərinə götürüb, paqqıldayan şorba qazanının içinə atdılar. Az sonra onun bədənindən əsər-əlamət qalmadı, əti əriyib şorbaya qarışmışdı. Şübhə yaratmamaq üçün dustaqlar nəzarətçinin əti qatılmış həmin şorbanı iştahla yedilər.

Beləliklə, həbsxanalarda bişirilən şorbanın adı kimi beynəlxalq şəkildəki "balanda" sözü meydana gəldi və dövlət sərhədlərindən asılı olmayaraq, bu ad həbsxanaları dolaşmağa başladı. Nəsarətçi, öz səlahiyyətlərinə görə dustaqlardan fərqlənsə də, yaşadıqları birgə mühit onlara da öz təsirini göstərməmiş qalmır. Fransız müəllifi, markiz Astolf de Kyustin özünün "Rusiya 1839-cu ildə" əsərində yazır ki, Peterburq yaxınlığındakı Şlessilburq zindanında olarkən, o, müşahidə etmişdi ki, nəzarətçilər dustaqlardan o qədər də fərqlənmirlər, çünki eyni mühitdə olur, eyni hava ilə nəfəs alırlar. Bu qənaətinə görə, o, nəzarətçilərin də özünəməxsus cəza çəkdiklərini göz önünə gətirirdi.

Müasir həbsxanalarda da qəddarlar, Balanda kimi iyrənc nəzarətçilər heç də yoxa çıxmamışlar. Bəziləri dustağın qohumlarına gəlir mənbəyi kimi baxır, görüşə görə onlardan rüşvət alırlar. Dustağa evdən gətirilən xörəyə də "şirə məxsus pay" kimi şərik çıxırlar. Onlar "Balanda" əhvalatından nəticə çıxarsalar, dustaqların nifrətinə sahib olmalarını dayandırarlar.

Lakin nəzarətçiləri bütünlüklə qaralamaq da düzgün deyildir, insafsızlıqdır. Həbsxana rəisləri və nəzarətçiləri arasında əsl humanistlər, filantroplar heç də az deyildir və onlar hörmətə layiqdirlər.

Tanınmış yazıçı Azərbaycan Dövlət Universitetinin jurnalistika fakultəsində təhsil alarkən SSRİ rəhbəri N.S.Xruşşova göndərdiyi məktubda donuz və eşşək şəkilləri çəkmiş, atında müvafiq olaraq Xruşşov və Mikoyan sözlərini yazmışdı. Bir müddət sonra DTK işçiləri universitetə gəlib, onu auditoriyadan götürüb aparmışdılar. Onlar qrafologiya metodundan istifadə edərək, məktubun müəllifini üzə çıxarmışdılar. Buna təəccüblənmək lazım deyildir. Rumıniya diktatoru Nikolae Çauşesku özü haqqında yazılmış məktubun müəllifini tapmaq üçün, ölkədən az deyil, bir min yazı maşınkasını yığdırmışdı.

Məhkəmə tələbəni 4 il müddətinə azadlıqdan məhrum etmişdi. Dustaqlara qohumları onlara xörək, ərzaq gətirdikləri halda, bu kasıb tələbənin uzaq rayonda yaşayan valideynləri bir dəfə də olsun onu görməyə gəlməmişdilər. Dustaqxana rəisi olan Muradəliyev soyadlı nəcib adamın nəzərindən bu. yayınmamışdı, ona görə də evdən özünə gətirdiyi xörəklə birlikdə tələbə dustağın da payını nəzərə alır və onu öz kabinetində yeməyə məcbur edirdi. Sonralar tələbə dustaq həbsdən azad olunub, universitetə bərpa edildi, romanlar çap etdirməklə yazıçıya çevrildi. Lakin o, heç vaxt həbsxana rəisinin ona qayğıda ifadə olunan yüksək alicənablığını yaddan çıxarmırdı, onu dərin ehtiramla xatırlayırdı.

Dustaqxanalar son vaxtlarda həm də qəribə dini təhsil ocağına çevrilmələri ilə də öyünə bilərlər, bu məcburi həyat universitetləri auditoriyası. özgə təyinatlı məkanından xeyli sayda dindar məzun buraxır. Cəzaya məhkum edilmiş bəzi din xadimləri, dustaqların bekarçılıqdan yaranan depressiyasına son qoymaq üçün, onları namaz qılmağa, bəzi Quran ayələrini əzbərləməyə öyrədirlər. Dustaq edilmiş bir siyasi xadim onunla bir kamerada dözülməz sıxlıqda yaşayan şəhər məscidlərindən birinin axundu Hacı Əbdülün bu sahədəki fəaliyyətini çox tərifləyirdi. Kameradakı dustaqlar növbə ilə az müddətdə yatırmışlar, bu şərait də onları daha artıq əzirmiş. Bunu hiss edən axund onların dini təhsili ilə məşğul olmağa başlamış, yaranan ümidsizlikdən onları xilas etməyi bacarmışdı. Bunu söyləyən adam da, həmin axund da indi həyatda yoxdur. Lakin dustaqxanadakı müsbət həmrəylik ruhunu ifadə edən bu əhvalat dillərdə dolaşmaqda davam edir.

Cəzalar törədilən cinayətə cavab kimi təqdim edilir və onun məqsədlərindən biri cinayətlərin sayının mümkün qədər azaldılmasıdır. Həm də potensial caniləri xəbərdar etməkdir ki, onlar cəzadan yayına bilməyəcəklər.

Məhkəmələr də səhvə yol verdikdə, adamların həyatına, xoşbəxtliyinə zərbə vurur. Əvvəllər əslində saxta olan ağır cəzalar hətta onların həyatına son qoyurdu. ABŞ-da məhkum edilənlərin bir neçə il sonra təqsirkar olmadığı aşkar edilir və onlar dustaqlıqdan azad edilirlər. Lakin elektrik stulunda səhv nəticəsində canlarını tapşıranları artıq yenidən  həyata qaytarmaq mümkün olmur. Məhkəmənin, daha doğrusu, jürinin, hakimin səhvi günahsız insanın cəzalanmasına səbəb olduğu kimi, əsl təqsirkarın da cəzadan yayınmasına yol açır.

## Qanunlar cinayətkarlığa qarşı mübarizədə

Cinayət qanunçuluğu da bu xəstəliyə qarşı mübarizədə mühüm rol oynayır. Qanunverici orqan da qanunların hazırlanmasında və qəbul edilməsində yüksək məsuliyyət daşıyır.  Mahiyyətə sahib olmamaqla, qanun öz yol göstərməsi ilə məhkəmə səhvlərinə şərait yaratmamalıdır. Qanun bütün cəmiyyət üzvləri, hamı üçün eyni təsir gücünə və tətbiq edilmə imkanına malik olmalıdır.

Qanunlar dövrün tələbinə uyğun olmaqla yanaşı, həm də onlar, uzun müddət fəaliyyət göstərmələri  üçün strateji təfəkkürə arxalanmalıdır. Qanun heç də qaralama yazı deyildir ki, onu istənilən vaxt düzəlişə məruz qoyasan. Qanun dövlət siyasətinin vacib hissəsi olduğundan, onun meydana gəlməsinə mühüm qayğı bəslənməlidir. Qanunlar gələcəyə istiqamətlənmiş bu günün ümdə tələblərini və müsbət qaydalarını əks etdirməlidir, geriliyin, anaxronizmin təsirinə heç cür yol verməməlidir. Xalqın öz keçmişinə, ənənələrinə hörmət bəsləməsi, onun həyatında yaşamaqda davam etsə də, qanuların mətnində özünə yer tapmamalıdır.

Ənənələr, miflər qanun yaradıcılığında arxa plana keçməlidir. Mif  bəzi canlılara da müqəddəslik verməklə, onlara xüsusi qayğı göstərir. Qədim Çində qurbağalar müqəddəs sayılırdı, qurbağanın quruldaması yağış yağacağından xəbər verirdi. Yağış isə əkinçi üçün ən qiymətli hədiyyə idi. Qurbağa az qala səma cisimlərinə bərabər sayılırdı. Müasir çinli üçün bu həşarata aludəçilik keçmişdə

qalmışdır. Çinlilər bəlkə də yeganə xalqdır ki, əsrlər boyu dini ehkamları və baxışları inkar edərək, əxlaq normalarının kvintessensiyası saydıqları Konfutsi təlimini, onların daha canlı əvəzedicisi kimi qəbul etmişlər. Bu, həm də xalqın həyatına din bayrağı altında cəhalətin müdaxiləsinə yol verilməməsinə əsasən şərait yaratmışdır. Çin Xalq Respublikasının qanunları miflərin və dini baxışların təsirindən çox uzaqdır.

Bəzi xalqların mifləri cəmiyyət üzvlərinin davranışına mənfi təsir göstərməmiş qalmır. Mif adı altında həm də cəhalət böyük gücə yiyələnir. Qərbi Afrika ölkələrində ilan, miflər tərəfindən müqəddəslik qazandığına görə, onu öldürəni hökmən edam cəzası gözləyirdi. Zəhərli ilanın məhvi mükafat əvəzinə, insanın öldürülməsi ilə nəticələnirdi. Cinayətkar da cəmiyyət üçün ilana bənzər bir rol oynayır, onun orqanizmini zəhərləyir. Bəzi xalqlarda ilana xüsusi qayğı göstərildiyi kimi, caniyə də ifrat ədalətlilik göstərmək, bəzən onu cəzadan uzaqlaşdırmaq cəhdi yalnız böyük zərər vura bilər.

XXI əsr həyatda süni intellektin geniş yayılmasına yol açmaqla, dini ehkmların nisbi dominantlığına ağır zərbə vuracaqdır. İnsan özü hansısa yaradıcıya ehtiyac duymadan, istənilən canlı aləm nümunələrini yaratmağa özü qadir olacaqdır. Öz məchulluğu ilə böyük təsir gücünə malik olan Göylər də əvvəlki sitayiş cazibədarlığını xeyli dərəcədə itirməli olacaqdır.

Qanunun hərfinə və ruhuna əməl edilməsi ilə yanaşı, törədplən cinayətin baş verdiyi şərait, motivlər və cinayət etmiş adamın şəxsi keyfiyyətləri, onun psixiki durumu da öyrənilməklə, nəzərə alınmalıdır. Axı bəzən cinayətin yaranmasında mühit də öz təsirini göstərməmiş qalmır. Cinayət heç də boşluqda baş vermir, onun əmələ gəlməsində başqa faktorlar da iştirak edir.

Qanun icra vasitəsi ilə öz gücünü və ədalətliliyini göstərir. Bu mühüm sənəd dövlətin adından elan edilir. Qədim Romanın böyük şairi Horatsi yazırdı ki, “Caelo tanantem credidimus Jovem Reqnare”- “Göydə ildırım çaxması , Yupiterin hökmranlığına bizi inandırır”. Qanun icra edildikdə, heç də ildırımdan zəif səslənmir və dövlətin sarsılmaz iradəsindən xəbər verir. İldırım əgər Yupiteri yada salırdısa, qanun isə birbaşa dövlətin adından elan edilir. Dövlət isə yalnız xalqın səsinə əsaslanır. Yenə də Qədim Roma zərb-məsəli köməyə gəlir: “Vox populi - vox Dei”- “Xalqın səsi - Allahın səsidir”.

Ona görə də qanunun düzgün icra edilməsindən də çox şey asılıdır. Musiqiçiyə yaxşı musiqi aləti lazım olduğu kimi,  alət də yaxşı musiqiçi əlində daha təsirli səslənir. Yaxşı qanun pis icra edildikdə, öz məzmununu və mahiyyətini itirir, hərfini və ruhunu dəyişmiş olur. Qanunlar ədalət prinsipindən, obyektivlikdən uzaqlaşdıqda, hökmən qanunsuzluğa yol açır. Onun icrasından hansısa bir seqment deyil, bütöv cəmiyyət ziyan və əziyyət çəkir. Bunu nəzərə aldıqda, ədalət qanundan yuxarıda dayanır, çünki qanun qəbul edildikdə, hansısa bir dolayı məqsəd güdülməsinə yol verilməsi, onu hökmən gözdən salır.

Hakimlər hökmü qanuna əsaslanaraq çıxarırlar, onların səhv etməyə haqqları yoxdur. Hökm istintaq materialına əsaslanır, lakin bu o demək deyildir ki, hakim müstəntiqin rəyini Quran ayəsi kim qəbul etsin. Məhkəmənin hökm çıxarması mexaniki deyil, məhz yaradıcı işdir, hakim bunu bacarmalıdır.  Hakimlər, yaxşı olar ki, qədim romalıların "Memento mori" maksimasını - "Ölümü yaddan çıxarma" prinsipini daim xatırlasınlar. Rəvayətə görə, hətta triumfda addımlayan Yuli Sezarın arxasında həmişə bir qul gedirdi və onun qulağına "Memento te esse mortalem"- "Yaddan çıxarma ki, sən ölərisən". Hakimlərə isə bu həqiqəti başqası deyil, özləri daim təkrar etməlidirlər. Bu xəbərdarlıq onları səhvlərdən hifz edə, həm də adamların taleyinə qanun çərçivəsində həssaslıqla yanaşmağa sövq edə bilər.

## Cəza çəkənlərin ləyaqət hissi gözlənilməlidir

Cəsa heç də sərtliliyi ilə öyünməməlidir, onun qiyməti obyektivliliyində və ədalətliliyində üzə çıxır.Azadlıqdan məhrum edilmə barədə hökm, cəza çəkənin və məhkum edilənin alçaldılmasına yol verməməlidir. Onun sərbəstliyinin məhdudlaşdırılması insan haqlarına hansısa bir şəkildə zərbə vurmamalıdır. Cinayət heç vaxt özünü əvvəllər törədilən kimi göstərmir, daim orijinallığı ilə seçilir. Axı tarixdə də heç bir hadisə mütləq dəqiqliklə təkrar olunmur. Ona görə də hakimlər Birləşmiş Ştatlardakı kimi keçmiş pretsedentlərə deyil,yalnız qanuna əsaslanmalıdır. Özündən razılıq, təcrübəsinə güvənmək hakimə yalnız pis xidmət göstərə bilər. Cinayətkara gəldikdə, o, çox vaxt cəsarətinə görə deyil, qorxaqlığına görə qanunu pozmaq yoluna düşür.

Dustağın ləyaqətinin tapdanmasına yol verilməsi insan haqlarının kobud surətdə pozulmasıdır. İttiham olunana və dustağa heç bir şəkildə işgəncə verilməməlidir. Dustağı hədələmək də yol verilməz bir qəbahət sayılmalıdır. Fransada II Dünya müharibəsi vaxtı Peten hökumətinin polisi, həbs edilmiş antifaşist qadının güllələnməkdən qorxduğunu hiss edib, ona demişdi ki, bizdə güllələnməkdən də betər daha dəhşətli cəza növləri vardır. Lakin polisin öz aqibəti də acınacaqlı oldu. Almanlar Fransadan qovulduğu kimi, onlarla əməkdaşlıq edən Vişi rejimi də məhv oldu. Xainlər, almanlara qulluq göstərənlər layiqli cəzalarını aldılar, lakin onlar yalnız qanun qarşısında cavab verməli oldular. Onlara qarşı başqa bir dəhşətli cəza növü tətbiq edilmədi.

Dustağın  şəxsiyyətinə hörmət edilməməsi, həmin ölkədə insan haqlarının pozulmasının əyani göstəricisidir. İşgəncələrlə yanaşı, dustağın mənəvi dünyasına həmlə, İspaniyadakı biabırçı inkvizisiya ənənələrinin reinkarnasiyası sayıla bilər. Müasir cəmiyyətə inkvizisiya prinsiplərinin ayaq açması, dövlətin Əsas Qanununa – Konstitusiyaya məhəl qoyulmamasından xəbər verir. Konstitusiyaya xəyanət isə dövlətin dayaqlarının zəifləməsinin, eroziyaya uğramasının göstəricisidir.

Dustaqxanaya gəldikdə, onun nəzarətçiləri öz təlimatlarına ciddi surətdə riayət etməlidirlər, ona əməl edilməyəndə, nəzarətçi öz səlahiyyəti daxilindəki fəaliyyəti ilə məşğul olmaq əvəzinə,  sui-istifadəyə yol verir və qanunu kobud surətdə pozmuş olur.

Dustaqxana cinayətkara təlqin etməlidir ki, o, yenidən normal vətəndaş kimi cəmiyyət sıralarında yaşamağa başlayacaqdır, azad insan kimi bütün hüquq və vəzifələrə sahib olacaqdır. Ona görə də əvvəlki törətdiyi əməldən peşman olmaqla yanaşı, özünü həbsdən sonrakı həyata hazırlamalıdır. Təəssüf ki, bir sıra hallarda dustaqxana islah əvəzinə, dustağa əlavə cinayət vərdişləri aşılamaqla məşğul olur. Belə dustaqxana dustağın mənəvi sağlamlığna nail olmur,  əksinə onu  başqa mənəvi xəstəliklərə sirayətləndirir. Cəmiyyət isə bundan yalnız ziyan çəkir.

Dustaq heç vaxt özünün də insan olduğunu unutmur və kəsmir.O, bəşər fərdinin ləyaqətlərini irs kimi qəbul etməlidir. Azadlıqdan məhrum olma operativ bir cəzadır və o həyat şəraitinin kəsilməyən qaydada azalmasına səbəb olmamalıdır. Onun sərbəstliklərinin məhdudlaşdırılması, heç də malik olduğu insan haqlarına zərbə vurmamalıdır. Dustağın hansısa bir şəkildə alçaldılmasına, mənəvi və fiziki cəhətdən təhqir edilməsinə yol verilməməlidir. Dustağın ləyaqətinin

tapdanması faktı,  məhz insan haqlarının kobud surətdə pozulması kimi qiymətləndirilməlidir.

Dustağın imtiyazları da mövcuddur. Dustaq ailəsinin və uşaqlarının onun yanına gəlməsi hüququna və Qərb dövlətlərində həftə ərzində ona daha çox pul göndərilməsi imkanına malik olmalıdır. Dustaqxanalarda dustağın öz arvadı ilə bir yerdə yaşamasına da müəyyən müddət ərzində icazə verilir.

Lakin dustaqxana qaydalarını pozan dustaqlar normal qaydada cəzalandırılmalıdırlar. Qaydanı pozan cəza kimi 21 günə qədər zirzəmidə saxlanılır, bəzən hətta əvvəlki hökmündəki müddətə 42 gün də əlavə olunur. Bu vaxt dustağın imtiyazları da ləğv edilir, onun saxlandığı zirzəmidən televizor götürülür. Psixoloji cəhətdən Stokholm sindromu da əmələ gələ bilər. Bu vaxt paradoksal fenomen kimi, müəyyən vaxtdan sonra adam, ona xətər toxunduqda elə müdafiə mexanizmlərinə yüksəlir ki, bu, canlanmaya və travmatik situasiya stressindən azad olmağa gətirib çıxarır. Stokholm sindromu qadınlarda xüsusi qaydada özünü göstərir, bəzən zorlamanın qurbanı onun ləyaqətini tapdayanı nəinki bağışlamağa, hətta sevməyə başlayır. Təbiətin insan ağlına göstərdiyi təzyiqdən baş çıxarmaq çətindir.

## “Qanunda olan oğrular” adlananlar və ya “vorı v zakone” termini altında yaşayanlar

Sovet İttifaqı qapalı cəmiyyət olduğundan , orada dünyanın heç yerində rast gəlinməyən qəribəliklərə də təsadüf edilirdi. Bəzi institut növləri yalnız onun ərazisinə məxsus olduğundan, relikt sayılan ağacları xatırladırdı. Kriminal aləm də öz qeyri- adi xüsusiyyətlərinə görə  cəmiyyətin digər seqmentlərindən geri qalmırdı. Dustaqxanalar cinayətkarlar arasında özlərinə nəxsus olan xırda “kübar” təbəqəsini yaradırdı və onlar qaydalarına görə başqa dustaqlardan fərqləndikləri kimi, əlavə nüfuz və imtiyaz sahiblərinə çevrilirdilər. Kriminal cəbhə kapitalist dünyasından da bəzi “inkişaf” elementlərini qəbul etdiyi halda, onun tam  fərqli xarakter daşıyan yeni institutu  ölkənin sərhədlərindən kənara çıxmırdı.SSRİ

dustaqxanaları cinayətkarlar arasında qanundan kənar iyerarxiyanın yaratması ilə, dünyanın digər dövlətlərindəki cəza müəssisələrindən kəskin surətdə fərqlənirdi.

Cinayət dünyasının elitaya məxsus və xeyli nüfuza yiyələnənlərdən ibarət olan xırda bir qrupun adı rus dilindən başqa dillərə keçmişdir və hər yerdə “vorı v zakone” adlanır. Bu ifadə dilimizə tərcümədə “qanunda olan oğrular” mənasını verir. Bu terminin yaranması və başlıcası, onun mahiyyəti spesifik bir hadisə olmaqla, dünya kriminal praktikasında onun heç bir analoqu yox idi. Bu xüsusi qrup 1930-cu illərdə yaranmaqla, kriminal ənənələrin, həmçinin müstəsna qapalılığın, gizlinliyin tətbiq olunduğu qəddar,  sərt bir kodeksə malik idi.

Oğru cəmiyyətinin özü cinayətkar – oğru adətlərində və ənənələrində meydana gəlmişdir və XVIII–XIX əsrlərdəki Saxalin katorqası dövrlərinə gedib çıxır. Böyük rus yazıçısı A.P. Çexov XIX əsrin sonlarında Saxalinə səfər edərkən, burada sürgün olunanların cəmiyyətini müşahidə etmiş, dustaqlara hökmranlıq edən gürcü mənşəli bir katorqaçının onlara tam rəhbərlik etdiyini görmüşdü. Bu adam banda üzvlərinin hamısına ağalıq edirdi.

SSRİ-də “vorı v zakone” kimi bir institutun meydana gəlməsi, Böyük Oktyabr inqilabının qələbəsindən 15 il sonra baş vermişdi. Bu vaxt islah-əmək müəssisələrinin cinayət mühitində digər professional cinayətkarlarla birlikdə yeni bir kateqoriya seçilirdi. Onlar özlərini əvvəlcə elita kimi müəyyən etdilər. “Vorı v zakone” dövrəsinə isə yalnız müəyyən tip professional cinayətkarlar daxil olurdu. Onlar özlərini inqilaba qədərki Rusiyanın kriminal ənənələrini qoruyub saxlayanlar adlandırırdılar. Onlara hüquq mühafizə orqanlarının işçiləri ilə əməkdaşlıq etmək qadağan olunmuşdu. Heç bir satqınlıq, hətta məhbusa zorakılıq tətbiq edildiyi təqdirdə də, bağışlanmırdı. “Vorı v zakone”lərə ailə qurmaq, qohumlarla və yaxınlarla əlaqə saxlamaq da qadağan olunurdu. Onlar dustaqlar arasında baş verən bütün mübahisələri həll etməli idilər. Siyasətlə heç bir yaxınlıq ola bilməzdi, hərbi xidmətə, dövlət maraqlarının müdafiəsinə də icazə verilmirdi. Onlar qumar oynamağı yaxşı bacarmalı idilər. Adamları qətlə yetirmək, əgər bu, oğru prinsiplərinə və oğrunun şərəfinə aid deyilsə, ola bilməzdi. Həmçinin xuliqanlıq cinayətinin törədilməsi və qadın zorlanması da qadağa altında idi.

Böyük Vətən müharibəsi dövründə isə oğruların çoxu kodeksə məhəl qoymayaraq, Qızıl Ordu sıralarına daxil olub, almanlara qaşı cəbhədə vuruşurdu.

1979-cu ildə Kislovodskda kriminal liderlərin (“Vorı v zakone”) və qeyri-qanuni iş adamlarının (onlar “tsexovşiklər” adlanırdı) görüşü baş verdi. İş adamları razılaşdılar ki, təhlükəsizlik naminə öz gəlirlərinin 10 faizini oğrulara verəcəklər.

Xüsusi qrupa daxil olan oğruların sayına gəldikdə, əgər 1993-cü ildə onların üzvləri 1200 nəfər idisə, 2019-cu ildə bu say az qala üç dəfə azalıb, 444 nəfərə düşdü. Bu təşkilat özünün aydın nüvəsinə və rəhbərliyinə malik deyildir. Yaponlardakı “Yakudza”dan fərqli olaraq, oğruların mərkəzi rəhbərliyi olmadığından, nüfuz zonası üstündə onların arasında tez-tez qanlı münaqişələr baş verir, oğrular bir-birilərini qətlə yetirirlər.

Azərbaycanda da “qanunda olan oğrular” var idi və onların cinayətlərinə qarşı təsirli mübarizə aparılmırdı. Heydər Əliyev artıq müstəqil respublikada ikinci dəfə hakimiyyətə gəldikdən sonra, “vorı v zakone”lərə qarşı mübarizə gücləndi, onlardan bir neçəsi keçmiş cinayətlərinə görə azadlıqdan məhrum olma cəzaları aldılar. Digərləri isə Türkiyəyə qaçıb, bir-birilərinə qarşı qanlı münaqişəyə başladılar. Gürcüstanda isə prezident M. Saakaşvilinin təşəbbüsü ilə oğru qrupu üzvlərini 5-8 il müddətində azadlıqdan məhrum edilməsini nəzərdə tutan qanun qəbul edilmişdi.

“Vorı v zakone” bir qayda olaraq məhbuslar üzərində nəzarəti ələ keçirməyə çalışırlar. Bunun üçün onlar sadə müraciət forması ilə yanaşı, adamları satın almaqdan və hədələməkdən də istifadə edirlər. Onların arasında daim hakimiyyət uğrunda mübarizə gedir, lakin onlar mütəşəkkil cinayət sistemində müəyyən stabilliyə də nail olurlar. Bəzi oğrular Madriddə, Berlində və Nyu-Yorkda yaşayırlar.

Rusiyada ən nüfuzlu kriminal avtoritetlərdən biri olan ded Xasan 2013-cü ildə qətlə yetirildi. Öz kolleqaları kürd mənşəli oğrunu aradan götürdülər. “Müqəddəs” yer heç də boş qalmır. Bir avtoritet aradan götürüldükdə, onun yerini tutmağa çoxlu namizədlər olur. Onlardan biri nəhayət vahid ali nüfuz sahibinə çevrilir. Heç də sirr deyildir ki, Rusiyanın bəzi kiçik şəhərlərini avtoritetlər idarə edirlər, buna təəccüblənmək də lazım deyildir, çünki hakimiyyət nümayəndəsi kimi vəzifə sahibi olanların içərisində də tamahkarlığına görə oğrulardan fərqlənməyənləri az deyildir, korrupsiya onları oğruların kolleqasına döndərmişdir. Təəssüf ki, digər postsovet respublikalarında da həmin xəstəliyin infeksiyası yayılır.

Qanunda oğru olanlar o dünyaya köçdükdən sonra, bir qayda olaraq, törətdikləri ağır cinayətlərin xatirəsi ilə yaşamaqda davam edirlər, bu da onların “yaradıcılığının” məhsuludur. Pərəstişkarları isə onların “igidliklərini” xeyli şişirtməklə, bədii naxışlar vurmaqla bu kriminal cəbhənin qəhrəmanlarını geniş təbliğ edirlər. Onların fəaliyyətindən vaxtilə fayada götürmüş bəzi ötəri siyasi xadimlər də bu eybəcər işdə fəal iştirak edirlər. Öz kolleqalarının köməyi ilə həyatla tez vidalaşdıqdan sonra, onların nüfuzunun davamı, qəbirastınlıqda ucalan heykəllərdə və çox dəbdəbəli qəbir komplekslərində nümayiş etdirilməklə, “ölməzlik” qazanır. Heykəllər adamlara bunu təlqin etməyə cəhd göstərir ki, onlar ölməmişlər, iyrənc əməlləri yaşamaqda davam etməklə, bir növ “əbədilik” qazanır Uydurulan rəvayətlər də avam adamların şüuruna öz təsirini göstərməsini kəsmir..

SSRİ-də, sonralar isə müstəqil Gürcüstanda ən məşhur “vor v zakone” Caba İoseliani idi. O, əslində, öz kodekslərini pozaraq, siyasi xadim və hərbçi olmuşdu. Özü “Mexondroni” adlı böyük hərbi dəstə yaratmışdı. O, həm də böyük nüfuz sahibi olmaqla yanaşı, bədii yaradıcılıqla məşğul olurdu. 7 ay müddətində prezident E.Şevardnadzenin başçılıq etdiyi Dövlət Şurasının üzvü olmuşdu. Prezident onu özünə qarşı qəsd təşkil etməkdə ittiham etmiş və o, 11 il müddətinə azadlıqdan məhrum edilmişdi.

Cavanlığında oğurluğa və quldurluğa görə bir neçə dəfə həbs edilmiş, dustaqxanada “vor  v zakone” titulunu qazanmışdı. Sonralar o, Tbilisi Dövlət Teatr və Kino İnstitutunun professoru olmuş, çoxlu roman və pyes yazmışdı. Teatrlar onun pyeslərini tamaşaya qoyurdu.

Onun son həbsinə nail olan prezident sonralar İoselianini əfv etdi. Lakin 2003-cü ildə o, öldü və cəsədi, hörmət əlaməti olaraq Tbilisidə panteonda dəfn edildi. Kriminallardan heç kəs Caba İoseliani kimi belə nüfuz zirvəsinə yüksəlməmişdi. Oğruların çoxunun təhsili yox idi, onlar ancaq bir neçə həbsxana “universitetini” bitirmişdilər.

## Epiloq əvəzi

Cinayətlər təkcə ayrı-ayrı fərdlərin qüsuru olmayıb, müharibələr də nəzərə alındıqda, daha çox, cəmiyyətin müəyyən ölçüdəki natamamlığından xəbər verir. Tarix boyu cinayətlərə görə müxtəlif cəzalar tətbiq edilsə də, onların faydası gözlənildiyindən xeyli az olmuşdur. Kütləvi cinayətlər, onların dəhşətli nümunələri olan müharibələr və xüsusən Dünya müharibəsi adlanan onların növü bəşəriyyətə daha böyük ziyan vurmuşdur.

Dinlər də cinayətkarlığa qarşı dildə mübarizə aparsalar da, onlar da özlərinin bu sahədəki fəaliyyətləri ilə öyünə bilməzlər. Çünki onlar da xalqları barışığa, sülhə çağırmaq əvəzinə, işğalçının mövqeyini müdafiə etməklə, toqquşmaları qızışdırmaqla, revanşizmə səsləməklə, olduqca neqativ mövqedən çıxış edirlər.

Biz sabaha, gələcəyə böyük ümidlə baxırıq, çox hallarda isə dünyada baş verən reallıqlara göz yumuruq. Hadisələr isə bu gün olduqca qorxulu istiqamətdə gedir. Ona görə də cinayətlərin, bura müharibələr də daxildir, gələcəkdə azalmasını və ya artmasını modelləşdirmək də çətindir. Proqnozlar çox vaxt özünü doğrultmur. İnsanlar hər yeni əsrin dinc şəraitə malik olacağını düşünürlər, lakin baş verən dəhşətli olaylar bu nöqteyi-nəzəri alt-üst edir. XVIII əsrin sonunda Böyük Britaniyanın gənc baş naziri Kiçik- Uilyam Pitt bir sıra beynəlxalq münasibətləri yoluna qoyduğuna görə, XIX əsrin sülh, əmin-amanlıq dövrü olacağını vəd etmişdi. Napoleon isə həmin əsrin başlanğıcdakı on ili ərzində Avropda qan seli axıtdı. Vaxtından əvvəl dünyadan köçən Pitt bunları görmədi. Yaxud, 1938-ci ildə Hitlerlə xəyanət sazişini imzalayan İngiltərə baş naziri Nevil Çemberlen London təyyarə meydanında kağız parçasını adamlara göstərərək, sülh gətirdiyini elan etdi. Bir il sonra, Münxen sazişi ilə əl-qolu açılan Hitler Avropanı böyük dərdə salan müharibəyə başladı və az sonra bu, Dünya mühribəsinə çevrildi. I Dünya müharbəsinin yaraları hələ sağalmamış, bəşəriyyət daha böyük miqyaslı və daha müdhiş müharibənin iştirakçısına çevrildi.

SSRİ dağıldıqdan, Soyuq müharibəyə son qoyulduqdan sonra amerikan filosofu Frensis Fukuyama iki sistemin mübarizəsinin yoxa çıxdığını əsas götürərək, tarixin sona çatdığını xəbət vermişdi. Ancaq dünya xeyli genişdir və ayrı- ayrı dövlətlər arasında , onların maraq dairəsi fərqli olduğuna görə, ardıcıl olaraq qızğın münaqişələr gedir. XXI əsrin ilk onilliklərində baş verənlər yeni Dünya müharibəsi qorxusu yaradır. Yer kürəsinin müxtəlif nöqtələrində müharibə

ocaqları alovlanmağa başlamışdır. Sakit okeanın həm şərq, həm də qərb sahillərində tez-tez vulkan püskürməsi, zəlzələlər, tsunamilər baş verdiyinə görə, bu ifrat seysmik zona "Odlu qövs" adlanır.  İndi Avropada və Yaxın Şərqdə gedən müharibələr , vulkanın oyanmasından daha dəhşətli ölçüdə həmin ərazilərdə insan qırğını lavası axıdır  Elə bil ki, insanlar Yer kürəsinə ölüm və dağıntı cəzası gətirməkdə təbiətlə yarışa girmişdir və bu əcayib fəaliyyətində ona üstün gəlməyə çalışır. Müharibə timsalındakı antropogen xarakterli zəlzələlər bəşəriyyətə daha böyük ziyan vurur. İmperiyalist məqsədlər yenə ön plana keçir. Mahiyyəti üzrə daha çox iyrənc kapitalizmi təmsil edənlər və zonada ağalıq eşqinə düşənlər, bu formasiyanın daha yüksək pilləsinə çatmağa çalışırlar. Leninin ötən əsrin əvvəlində öz məşhur əsərində yazdıqları yenə də təkrar olunmaqla, özünü XXI əsrin reallığında da göstərir. Bu vəzifəni yerinə yetirmək üçün hətta nüvə silahını işə salmaq hədələrindən də istifadə edilir.Ona görə də az-çox iqtisadi və elmi texniki imkanları olan başqa dövlətlər də bu qırğın silahına sahib olmaq həvəsinə düşürlər. Bu isə heç də xoş persrektivdən xəbər vermir.

Gələcək, mənəvi cəhətdən sağlam insanlara məxsus olmalıdır, bu ümid verir ki, cinayətlər bütünlüklə yoxa çıxmasa da, onların sayı azalacaq, bu isə, cinayətkarların potensial hədəf obyekti olan dinc insanların rahat nəfəs almasına imkan verəcəkdir. Biz sadəcə gözləməli olmamalıyıq, fəaliyyətimizlə, bir arximilli vəzifə kimi, həm də təhlükəsizliyimiz naminə dövlətimizə bu sahədə köməklik göstərməliyik. Bu isə, heç şübhəsiz, gələcək barədə işıqlı ümidlərin reallaşacağı imkanı işartılarının meydana gəlməsi ilə, müəyyən sağlam təskinlik yaradacaqdır.

**SON**

***21.09.2024***

## Cinayət və cəza

İlk insanlar Bibliyaya görə dünyaya gəldikdən sonra, bəşəriyyətin əcdadları sayılan Adəm və Həvva (Adam və Yeva) Yerüstü cənnətdə (Edemdə) məskunlaşmışdılar.. Onlar heç bir zəhmət çəkmədən ömürləri boyu buradakı hər cür nemətlərdən bəhrələnə bilərdilər. Allah onları hər şeylə təmin etmişdi, təkcə Xeyir və Şər ağacının meyvəsini yeməyi onlara qadağan etmişdi. Yaşamaq üçün bütün vasitələrin bol olduğu şəraitdə insan ölənə qədər rahat ömür sürə bilərdi. Lakin qadağanı pozmaq həvəsi qalib gəldi, buna isə onu tamah və nəfsi saxlaya bilməmək məcbur etmişdi. Qadın təbiətindən irəli gələn hər şeyi dadmaq istəyi ilə, Həvva ilanın şeytan xüsusiyyətli təhriki ilə məhz qadağan olunmuş meyvəni yedikdə, onun ləzzətinin təsiri altına düşüb, bu xətanı törətməyə ərini də sövq etdi. Qnların gözü açılmışdı. Allah qoyduğu qadağanın pozulduğunu görüb, ilk günaha batmaya görə onların hər ikisini Yerüstü cənnətdən qovdu və insan nəsli yeni ağır şəraitdə, az qala Yerüstü cəhənnəmin əzablarına və çətinliklərinə məruz qalmaqla ömür sürməli oldu.

İlk günaha batma və ona görə Allah tərəfindən cəzalanma bu əcdad timsalındakı bəşər nümayəndələri üçün ibrət mənbəyi olmalı idi və onlar hansısa bir xəta törətməkdən uzaaq qaçmalı idilər. Lakin Adəm və Həvvanın ailəsində baş verən sonrakı hadisə daha böyük bədbəxtliyə səbəb oldu.

Onların əvvəlcə Qabil (Kain) adlı oğlanları oldu, sonra isə ikinci oğulları olan Habil (Abel) dünyaya gəldi. Onlar zəhmətlə məşğul olub, ailəni ərzaqla təmin edirdilər. Qabil əkinçi kimi tarlada işləyirdi, Habil isə qoyun sürüsünü otarıb, çobanlıq edirdi.Bir dədə Habil qoyunun balası olan quzunu Allaha hədiyyə gətirdi və O, nəinki hədiyyəni qəbul etdi, hətta bundan çox razı qaldı. Qabil də Allaha öz hədiyyəsini verməyə tələsdi, məhsulundan ona nəsə gətirdi. Lakin Allah onun hədiyyəsini və özünü qəbul etmədi. Bu, böyük qardaşın qəzəbinə səbəb oldu və Habilə qarşı paxıllıq onu rahat buraxmırdı. İki qardaş birlikdə tarlaya getdi və Qabil kiçik qardaşını qətlə yetirdi. İlk dəfə olaraq,qəsdən adam öldürmə baş verdi, çünki nə bir təsadüf, nə də hansısa bir ehtiyatsızlıq halı olmamışdı. Həm də, hələ başqa bir cinayət baş verməmişdən, onun ən ağır növü törədilmişdi

İnsanı Allah yaratmışdı, həmin varlığın həyatına son qoymaq da onun səlahiyyətində idi. Bu qayda ilə hamı razılaşdığından. maneəsiz olaraq həyata keçməkdə davam edirdi. Lakin Qabil ilk dəfə olaraq Allaha məxsus olan işi öz üzərinə götürüb, həddi aşaraq, insan həyatına qəsd etmişdi. Bundan ağır cinayət ola bilməzdi, təəssüf ki, bu qanlı hadisə həm də başqalarına nümunə göstərməli olan ilk bəşər ailəsində baş vermişdi.

Ən dözülməz cəhət o idi ki, bu qətlin törədilməsi üçün heç bir əsas və tutarlı səbəb yox idi. Habil şəxsən qardaşının ziddinə heç bir təmənnalı hərəkət etməmişdi, sadəcə olaraq Allaha hədiyyə vermişdi və bu əməlində hansısa bir pis məqsəd də güdməmişdi. Yalnız paxıllıq, qısqanclıq kimi insan təbiətinin qüsuru qardaş qətlinə səbəb olmuşdu.

İkinci təəssüf isə ondan ibarət idi ki, öz ağır cinayətinə görə Qabil layiqli cəza almamışdı, Allah sadəcə olaraq ona demişdi ki, tarlası artıq məhsul verməyəcəkdir. Buna görə o, yaşadığı ərazini tərk etməli olmuşdu. Ağır cinayətə görə cəza əslində yüngül könüllü sürgündə əvəz olunmuşdu. Allah həm də cəzalandırmadığı Qabilə demişdi ki, kim onu qətlə yetirsə, onun nəslindən yeddi adam öldürüləcəkdir. Ədalətin zəfəri xeyli gecikərək, yalnız qatilə qarşı cinayət işlədildikdə baş verəcəkdi.

İlk günaha batmanın müəllifləri olan ailədə həm də ilk ən ağır cinayət baş vermişdi, qardaş qatili meydana gəlmişdi. Beləliklə insan cəmiyyətinin yol yoldaşı olan cinayətlər lap başlanğıcdan, onun həyatına ağır damğa vurmuşdu. Cinayət isə cəzasız qaldıqda, bir qayda olaraq, daha ağır fəsadlar törədir. Ona görə də sonralar törədilmiş cinayətə cavab kimi insanların özlərinin icad etdiyi cəza sistemi meydana gəldi. Lakin çox hallarda cəza cinayətin ölçüsünə o qədər də uyğun gəlmirdi, bu isə onun təsir gücünü azaldırdı. Cəza əsasən törədilən cinayətə bərabər şəkildəki cavab rolunu oynayırdı. Bu bərabərlik “gözə görə göz” prinsipini əmələ gətirdi. Əlbəttə ki, bu, “gözə görə başın kəsilməsindən” ədalətli idi. Quldarlıq cəmiyyətində bu qayda özünü “Talion qanunu” kimi göstərdi.Qanunun mahiyyəti ondan ibarət idi ki, zərər toxundurulmuş adam, həmin zərəri torədənə tam ölçüdə cavabını qaytarsın. Sonralar isə iri dövlətlərin yaranması ilə hüquq sistemi inkişaf etdi, cinayətlərə görə nəzərdə tutulan müxtəlif cəzaların tətbiq olunması qaydası yarandı. Bu vaxt artıq cinayətin baş vermə şəraiti və motivləri, həmçinin cinayətkarın şəxsiyyəti də nəzərə alınırdı. Bu sahədə ilk böyük sənəd Hammurabi

Kodeksi hesab olunur.  Hammurabi Köhnə Babilistanın məşhur çarı idi, b.e. ə. 1792-1750-ci illərdə hökmranlıq etmişdi. Onun Kodeksi cəmiyyətin idarə olunmasında hüququn və o dövr üçün ədalətin tətbiq olunması nöqteyi-nəzərindən çox böyük əhəmiyyətə malik idi.

İlkin dövrlərdə cəzalandırma tətbiq edilməsə də, az sonra qisas almaq, vurulan xətərin əvəzini ödəmək şəklində olan cəza növləri meydana çıxdı. İlk qətl hadisəsi isə təəssüf ki, cəzasız qalmışdı, qatilin öz yaşayış yerindən sadəcə olaraq uzaqlaşması ilə nəticələnmişdi.

Bibliyada yazıldığı kimi, Habil qardaşına qarşı heç bir pis hərəkət etməmişdi, yalnız Allaha itaət şəklində olan kiçik hədiyə vermişdi. Qabilin hədiyyəsi isə həmin Allah tərəfindən qəbul edilməmişdi. Burada Habilin hansısa bir günahı yox idi. Lakin bu, böyül qardaşda səfeh bir qısqanclıq yaratmışdı və o, günahsız bir insanı qətlə yetirmişdi. Axı Habil Allahın iradəsinə və qərarına müdaxilə edə bilməzdi. Göründüyü kimi, belə ağır cinayətin törədilməsi üçün hansısa bir əsas yox idi, sadəcə, qısqanclıq dəhşətli qətlin baş verməsinə gətirib çıxarmışdı

## Bibliyanın təsvir etdiyi digər cinayətlər

.

İlk bəşər ailəsinin oğlu olan Qabil  tarixdə (əlbəttə, Bibliyaya görə) ilk qatil kimi, özü də qardaş qatili kimi “şöhrət” tapmışdı. Bu ibtidai insan tərəfindən cinayətlə müqayisədə, hətta Herostratın b.e.ə.356-cı ildə Efesdə Artemida məbədini yandırmasının özü də vandalizm halı olduğundan,  xəta kimi nisbətən sönük görünür.

Sonrakı peyğəmbərlərin övladları da gələcək nəsillərə nümunə olmaq əvəzinə, qəddarlıq törətmiş, qan axıtmışdılar, hətta bu iyrənc əməllərinə adi bir hal kimi baxmışdılar. Bəzən onlar günahsız insanların kütləvi surətdə məhvini planlaşdırmış və onu vəhşicəsinə həyata keçirmişdilər.

Peyğəmbər Ceykobun (Yaqubun) 4 arvaddan 12 oğlu var idi, onlardan ikisinin – Cozefin (Yusifin) və Bencaminin (Benyaminin) anası onun sevimli arvadı olan və həyatdan vaxtsız getmiş Raxil idi. Atanın bu iki oğluna olduqca xoş münasibəti, Raxilin böyük bacısı Liadan olan onun 6 oğlunda pis bir qısqanclıq

yaratmışdı və onlar hətta Cozefi öldürmək istəyirdilər. Lakin həmin cinayətə susayanlar, bu iyrənc əməllərindən əvvəl də qan tökmüşdülər, bütöv bir tayfanı milli ədavəti rəhbər tutaraq, qırmışdılar. Bu cinayəti bilavasitə, Lianın doğduğu Simeon və Levi törətmişdi.

Peyğəmbərin (onun ikinci adı İsrail idi, gələcək bu addakı ölkənin əhalisi onun 12 oğlunun törəmələrindən əmələ gəldiyinə görə, həmin dövlət də məhz onun adı ilə aldanmışdı) Liadan olan qızı Dina harasa qonaq gedəndə, başqa bir tayfanın başçısı Hamorun oğlu onu zorlamışdı. Qız gözəl olduğuna görə oğlan ona vurulmuşdu və onu qanuni qaydada almaq istəyirdi. Hamor Ceykobun yanına gəldi ki, onun qızını oğluna alsın, yaxşı bilirdi ki, oğlu Dinanı həqiqətən sevir. Dinanın qaraqaşları etiraz edib, öz şərtlərini irəli sürdülər. Çünki yəhudi oğlanlarının və qızlarının başqa tayfa üzvləri ilə ailə qurması qadağan idi. Qardaşlar tayfanın kişi cinsindən olan bütün üzvlərinə yəhudilər kimi sünnət edilməsi şərtini irəli sürdülər, yalnız bu halda bacılarının tayfa başçısının oğluna ərə getməsinə razılıq verəcəkdilər. Axı yəhudilərin doğulan oğlan uşağı 8 günlük olduqda, ona sünnət edilir, bədənə belə xəsarət yetirmə yəhudi kişilərinin əsas əlaməti sayılırdı. İslam dini də meydana gələndən, kişi cinsindən olanlar üçün bunu vacib dini bir qayda kimi qəbul etdi.

Əlacsız qalan tayfa başçısı Dinanın doğma qardaşlarının bu şərti ilə razılaşdı və şəhərinə qayıdıb, bunu sakinlərə çatdırdı. Körpədən tutmuş qocaya qədər kişi cinsindən olan tayfa üzvlərinin hamısına sünnət edildi.

Üç gün sonra tayfa üzvləri hələ yaralı kimi yataqda olanda, Simeon və Levi qılınclarını götürüb, şəhərə girdilər və müdafiəsiz vəziyyətdə olan bütün adamları öldürdülər. Sonra isə onlar  şəhəri qarət etdilər.

Ən ədalətsiz cəhət o idi ki, onlar günahsız insanları vəhşicəsinə qətlə yetirmişdilər və cəzasız qalmışdılar. Bu onları başqa cinayətə də sövq etdi və atalarının çox sevdiyi arvadından olan ögey qardaşları Cozefi öldürmək istədilər. Bu məqsədlə onu çöldə ov etməyə apardılar. Burada onu yağış suyunu yığmaq üçün olan çuxura salıb, köynəyini isə kəsdikləri keçinin qanına bulayıb, evə qayıdanda, atalarına göstərdilər. Guya ki, Cozefi vəhşi heyvan parçalayıb öldürmüşdür. Ceykob əziz oğlunun ölümünə uzun müddət matəm saxladı. Qardaşlar isə əmin idi ki, Cozef çuxurda acından və susuzluqdan öləcəkdir.

Cozefi salındığı çuxurun yanından karvan yolu keçirdi, Misirə gedən tacirlər Cozefi orada satmaq üçün özləri ilə götürdülər. Cozefin başına Misirdə çox sayda hadisələr gəldi. Faraonun mühafizəçisi Potifarın arvadı qəşəng oğlan olan Cozefə dəlicəsinə vurulmuşdu, onunla yaxınlıq etmək istəyirdi. Lakin yad sayılan yəhudi oğlan buna razılıq vermirdi. Qəzəbindən qadın şərləməkdən istifadə etdi, guya Cozef onu zorlamaq istəyirmiş. Cozef həbs olundu və dustaqxanada yuxu yozması ilə şöhrət tapdı. Bu vaxt faraon bir qorxulu yuxu görmüşdü. Münəccimlər yuxunu yoza bilmirdilər. Cozef barədə eşidən faraon onu çağırtdırdı və dustaq yuxunu ona dəqiqliklə izah etdi. O, azad olundu, sarayda vəzifə tutdu, az sonra ölkədə faraondan sonra ikinci səlahiyyətli şəxsə çevrildi. O, ağıllı siyasəti ilə bol məhsul götürülən illərdə topladığı ehtiyatdan, məhsul qıtlığı vaxtı istifadə edib, Misirdə aclığın qarşısını aldı, hətta qonşu xalqlara da ərzaq köməyi göstərdi. VII əsrdəki Çin imperatriçası U, tarixdə o, ölkənin yeganə qadın hökmdarı idi, Cozefdən xəbəri olmadığı halda, bu üsulu tətbiq edib, böyük saydakı təbəələrinin aclığa məruz qalmasına imkan verməmişdi.

Cozef onu öldürmək istəyən qardaşlarından da qisas almadı, əksinə, onları taxılla təmin etdi.

Bibliya digər cinayət hadisələri və onlardan xilas olma misalları ilə də doludur. Persiya çarı Kserksin (əslində, Artakserksin) Suzadakı hakimiyyət strukturuna yəhudi Mordexay da daxil idi. Onun qız qohumu Ester gözəl olduğundan hərəmxanaya götürülmüş və az sonra çarın xoşuna gəldiyindən, onun arvadına çevrilmişdi. Mordexay Esterə tapşırmışdı ki, yəhudi olduğunu heç kəsə deməsin.

Bu vaxt Kserksin baş naziri olan Haman əyalət başçılarına bütün yəhudiləri qırmaq göstərişini vermişdi. Ester bunu ustalıqla əri olan çara bildirdikdə, həm də arvadına guya xəyanət etməkdə ondan şübhələndiyinə görə, Kserks Mordexay üçün onun qurdurduğu dar ağacından Hamanın özünü asdırdı və onun yəhudilərin qırğını barədəki göstərişini ləğv etdi. Beləliklə, Ester öz xalqını 2,5 min il əvvəl baş verəcək ilkin Holokostdan xilas etdi. Bəlkə də, Hitlerin məşuqəsi alman qızı Yeva Braun deyil, Ester kimi müasir yəhudi qızı olsaydı, fürerin yəhudilərə qarşı qəddarlığı belə miqyas almazdı. Ancaq bu, sadəcə bir mülahizədir, Hitlerin quduzluğunu adi yəhudi qızı da söndürə bilməzdi, Holokostun qarşısı belə asan yolla alına bilməzdi.

**Cinayətlər cəzanın da meydana gəlməsinə şərait yaradır**

Qədim dövrlərin bəzi cəzasızlıq halları arxada qaldı, cəmiyyət inkişaf etdikcə cinayət yoxa çıxmadığı kimi, onun cəzalandırılması zərurəti də daha açıq şəkildə özünü göstərdi. Törədilmiş cinayətin cəzasız qalmasına artıq əsasən son qoyuldu.

Təkamül nəticəsində primitiv xarakter daşıyan cəza növləri qanunlar əsasında daha ədalətliləri və cinayətin özünə müvafiq olanları ilə əvəz edildi. Qisas almanı ifadə edən Talion qanunu  meydana gəldi, bu, qədim dövrlərdə cəzanın tətbiq edilməsinin təməl hissəsi idi. Hazırda bu məfhum, cəzanın cinayət dərəcəsində olmasını və xətər toxundurana eyni formada cavab verilməsini ifadə edir. Bu qayda "gözə görə göz", "dişə görə diş" prinsipini özünün bir ədalət ölçüsü kimi əks etdirirdi. Bu, əslində səhraların konsepsiyası olmaqla, Talion qanununu daha aydın ifadə edir. Talion, başqa sözlə qisas, prinsipcə erkən Babilistan qanununda, hənçinin Bibliya və Qədim Romanın qanunlarında inkişaf etdirilməklə, cinayətkarın öz qurbanına vurduğu yaraya və xətərə dəqiq şəkildə  uyğun olan cəzasında ifadə olunurdu. Erkən cəmiyyətlərin çoxu bu "gözə görə göz" prinsipini, onun  hərfinə tam uyğun olaraq tətbiq edirdilər. Fələstində bədənə xətər toxundurmaq və onu yaralamaq da oğurluq tək pis əməl kimi qiymətləndirilirdi. Ona cəza verilməsi məsələsi ancaq dövlət tərəfindən həll olunmurdu, fərdin özünün ixtiyarına buraxılırdı.

Erkən Romada da  dövlətin xətər toxundurana və toxunulmuşa münasibət göstərilməsinə elə bir əhəmiyyət verilmirdi Talion və ya.qisas başlıca ağrılı məmnuniyyət əldə etmək olmaqla, hətta xətər toxundurulmuş adamın istədiyi pulun verilməsi ilə də yoluna qoyulmurdu. Qisas nəticəsində hər iki tərəfi təmsil edənlər  öz bədənlərinin eyni üzvlərinə artıq malik olmayacaqdılar. Fələstin müdrikləri isə belə bir qanunu işə saldılar ki, gözü itirməyə səb\b olan xətər töxundurulmuş tərəf , onu toxundurandan,  bu vurulan ziyanın dəyərini tələb etməlidir. Bu, orada cinayətin bərabər ölçüdə  cəzalandırılmasının qadağan edilməsinə gətirib çıxardı. B. e. ə. V əsrdən  Romada da qisas alma cərimə ilə əvəz

olundu. Lakin hətta Orta əsrlər Almaniyasında, XVII və XVIII əsrlərdə isə Skandinaviyanın bəzi zonalarında qisas cəzası bərpa olunmuşdu.

Əgər Talion qanununa görə xətər toxundurulmuş adam öz düşmənindən eyni qaydada qisas alırdısa, dövlətin yaranması və inkişafı ilə cəza siyasəti də onun ixtiyarına keçdi. İngilis alimi Tomas Hobbsun (XVII əsr) nəhəng dəniz əjdahası kimi Leviafan adlandırdığı dövlət, cəmiyyətin sosial sistemini bütünlüklə idarə etdiyinə görə, cinayətkarlığa qarşı mübarizəyə də nəzarət etməyi öz üzərinə götürmüşdü.

Cinayət və cəza sözü cinayətkarlığın cəzalandırılmasının, məhkəmə prosesinin və cinayət barədə başlıca ifadələri əhatə edir. Cinayətlər qəsdən törədilənlərə və qəsdən olmayanlara bölünür. Həm də cinayətlər ciddi olanlar və kiçik növlər kimi bir-birindən fərqlənir.

Ciddi cinayətlərə adam (uşaq) oğurluğu (kidnup) və kiminsə onun iradəsi əleyhinə götürülüb aparılması, yanğın törətməklə mülkiyyətə od vurmaq, adama hücum etmək, burada fiziki hücum nəzərdə tutulur, evi yarmaqla oğurluq cinayəti törətmək üçün qanunsuz olaraq tikintinin içərisinə girmək (İngiltərədə hətta mülkiyyət sayılan əraziyə girmək – trespass da cinayət sayılır), uşağın pis davranışı, narkotik vasitələrinin alveri – narkotiklərin qanunsuz idxalı, saxta şəkildə dustaq edilmə – şəxsi öz iradəsi əleyhinə və qanuni hakimiyyətin xəbəri olmadan dustaq etmək, aldatmaq – şəxsi və ya maliyyə faydası əldə etmək üçün aldatma, insan alveri – qanunsuz olaraq adamların qul əməyinə cəlb etmək, həm də seksual məqsədlər üçün başqa yerə aparılması, qətlə yetirmək – bu cinayət bir neçə növdə olur, bura həmçinin genosid – irqi və ya dini qrupların ardıcıl olaraq öldürülməsi də daxildir, mütəşəkkil cinayət – mütəşəkkil banda qrupları və ya təşkilat tərəfindən törədilən cinayət, qaçaqmalçılıq – əmtəələrin qanunsuz idxalı və ixracı, terrorizm – qanunsuz zorakılıq və ya siyasi məqsəd naminə qorxutma, hədələmə - bütün bunlar daha çox yayılmış cinayət növlərinə daxildir.

Kiçik cinayətlərə isə cib oğurluğu, mağazadan pulunu ödəmədən mal götürmək, yol qəzaları, vandalizm – tikintini qəsdən uçurma və ya ona xətər toxundurmaq şəklində baş verir.

Cinayətlərin növləri çox olduğu kimi, cəzaların da növləri müvafiq olaraq müxtəlifdir. Bunlara ölüm cəzası, dustaq etmək barədə hökm verilməsi, ömürlük

həbs, 10 illik və ya 6 aylıq həbs, hökmün təxirə salınması, mülkiyyətdən məhrum etmə, dustaq kimi xəstəxanada müalicə olunmaq üçün saxlamaq, cərimələr, ev dustağı etmək, sürücülük sənədindən istifadə hüququnu dayandırılması daxildir.

Məhkəmə hakimiyyəti, cinayətə həsr olunmuş qanunçuluq və kodekslər, cəza institutları, cinayət və cəza tarixinin bütöv hissələridir.

Cinayət və cəza nə vaxt start götürmüşdür? Hansı faktorlar adamları cinayət törətməyə sövq etmişdir? İlk anlarda cəza növü kimi qisas almaq,  cinayətin əvəzini ödəmək qaydalarında və formalarında olmuşdu.

Bu dövrlərdə cəza cinayətlə müqayisə olunmurdu və cəzalar o qədər də sərt deyildi, bu, onunla nəticələnirdi ki, qurban, törədilən cinayətə görə yeni bir rola daxil olurdu, əsasən, öz qisasını hansı qaydada almaq yolunu axtarırdı. Bu bəzən qarşı tərəflər arasında qan düşmənçiliyinə aparıb çıxarırdı, bunun bariz nümunəsi Şekspirin "Romeo və Cülyetta" pyesində Montekki və Kapuletti ailələrinin timsalında öz əksini tapmışdır. Qan qisasını almaq bəzən bir neçə nəsil boyu davam edirdi, bu, getdikcə daha ağır və geniş cinayətlərə yol açırdı. Qisas alma tədbirindən Siciliyadakı mafioz qruplar, "Koza Nostra" faydalanırdı. Onlar və ya Yaponiyadakı "Yakudza" təkcə qurbanları üçün deyil, öz üzvləri üçün də qəddar cəzalar tətbiq edirdi, satqınlıq və bəzən hətta kiçik xətalara görə mafiya təşkilatının üzvləri sərt qaydada cəzalandırıldılar. "Yakudza" üzvlərinin öz xətasını yaddan çıxarmaması üçün, cəza kimi onların əl barmaqları kəsilirdi. Bəzi üzvlərin əlində bir neçə barmağın yalnız kötüyü qalırdı.

Siciliyada isə mafiya qrupunun üzvü satqınlıq etdikdə, onun nəslinin davamlılığının az qala bütünlüklə kəsilməsinə nail olunurdu.

Fransada və İtaliyada qan düşmənçiliyi vaxtilə geniş miqyas aldığından, onu fərqləndirən "vendetta" məfhumu da meydana gəlmişdi. Fransız yazıçısı Gi de Mopassan bir hekayəsində vendetta naminə qoca qadının bu dəhşəti davam etdirməyə necə hazırlaşdığı təsvir edilir.

Ümumiyyətlə, qan qisası, qan düşmənçiliyi zorakılığa əsaslanmaqla, dövlətlərin yaranmasından əvvəlki dövrə məxsus olmaqla, qəbilə, tayfa icmalarının aralarında  baş verən mübahisələri həll etməyin əsas vasitəsi idi. İbtidai insanlar sonralar yaranan doplomatiyanın nə olduğunu bilmədiklərindən, ziddiyyətlərin yoluna qoyulmasını yalnız qan axıtmaqda görürdülər. Ona görə də qan qisası

arxaik xarakter daşıyır. Lakin adamların ağlında problemlər yarandıqda, bu vasitə müharibələr şəklində, fərdi qətl törətmək formasında yenidən işə düşür. Müasir insan ən ağır cinayətin hansısa bir növünə yol verdikdə, daha çox ibtidai əcdadını xatırladır.

XVIII əsrdən başlayaraq Avropa ölkələrində qəbul olunan yeni qanunlar cəzanın törədilmiş cinayətə uyğun olması qaydasını meydana gətirdi. Belə qanunların mövcud olmasına baxmayaraq, bu prinsip çox vaxt praktikada özünü doğrultmurdu. Qədim dövrlərdə də cəmiyyətdəki problemləri nəzərə alaraq, həmçinin qəbul edilən hüquqi sənədlər cinayət hadisələrinin azaldılmasına cəhd göstərirdi.

B.e.ə. XVIII əsrdə Köhnə Babilistanda meydana gələn Hammurabi Kodeksi bu sahədə ilk uğurlu nümunə sayıla bilər. Kodeks ilk dəfə cinayətlə cəzanın müvafiqliyi qaydasının həyata keçirilməsinə yol açmışdı. Hammurabinin şəxsi təşəbbüsü ilə işıq üzü görən bu Kodeks müxtəlif cinayətləri əhatə edirdi, ailə müqaviləsindən tutmuş, başlıca cinayətlərə qədər gedib çıxırdı. İlk nümunə bu idi ki, "təqsir sübut olunana qədər ittiham edilən günahsız hesab olunurdu". Dörd min ilə yaxın vaxt keçməsinə baxmayaraq, bu qayda bizim dövrümüzdə də davam edir və elmi hüquq dilində "təqsirsizlik prezumpsiyası" adlanır. Müasir cinayət mühakiməsi praktikasına da Kodeks öz təsirini göstərmişdir. Hammurabi Kodeksinə uyğun olaraq verilən cəza, əsasən cinayət dövrünün sosial vəziyyətinə və cinayətin baş verdiyi şəraitə əsaslanırdı.

Misal üçün, varlı adam oğurluqda təqsirli bilindikdə, ona qulun oğurluqda təqsirli olduğu hala nisbətən daha ağır cərimə qoyulurdu. Varlı adamı qətlə yetirən, qulu öldürmək üçün tətbiq olunandan daha sərt cəzaya məhkum edilirdi.

Qisas almaq üçün yəhudilərdən qəbul edilmiş"gözə görə göz" prinsipin tətbiq olunurdu. Əgər adam öz kolleqasının ayağını sındırmışdısa, onun öz ayağı da sındırılmalı idi. Bu, heç şübhəsiz, gözə və ya dişə görə başı kəsməkdən daha yumşaq cəza idi. Cəzalar qisas kimi, bədənə xətər toxundurmaqdan başlayaraq, zorakı ölümə qədər olan ölçülərdə nəzərdə tutulurdu. Cinayətkar çox cinayət törətsə, cəza cavabı kimi onun gözü tökülür, dili və qulağı kəsilirdi və ya iki qolu bədənindən ayrılırdı.

Kodeks cəmiyyətə baş ağrısı gətirən problemlərə nəinki göz yummur, əksinə, onun bütünlüklə aradan qaldırılmasına çalışırdı. Şəhər bazarında alıcı ilə satıcının qiymət üstündə mübahisəsi, nəticədə savaşla yekunlaşırdı. Bazar, ictimai asayişin daha tez-tez pozulduğu məkana çevrilmişdi. Kodeks bu vəziyyəti aradan qaldırmaq üçün "beware bayer" – "alıcıdan ehtiyat elə" prinsipini maddə kimi təsbit etmişdi. Alıcıya məsləhət görülürdü ki, satıcı ilə qiymət üstündə mübahisə etməsin, axı o, öz əməyinin bəhrəsini bazra çıxarmışdır ki, əvəzində müəyyən qazanc əldə etsin. Qiymət alıcını razı salmırsa, ondan həmin əmtəəni almasın, başqa satıcı ilə daha əlverişli alver etmək imkanını da nəzərdən qaçırmasın.

Sovet dövründə bütün əsas ticarət dövlətin inhisarında olduğundan, əhalidə narazılıq yaratmamaq üçün "müştəri hər şeydə haqlıdır" prinsipi hökm sürürdü. Kodeks isə bu hüququ əksinə satıcıya verirdi. Çünki satıcı öz malının yiyəsi idi, onu hansı qiymətə satmasını özü müəyyən edirdi, ona hansısa bir təzyiq göstərilə bilməzdi.

Kodeksin irəli sürdüyü bu qayda, təəccüblü qaydada, bazardakı mübahisə və savaşları bütünlüklə aradan qaldırdı. Kodeks bununla göstərdi ki,o təkcə uğurlu hüquqi sənəd olmayıb, həm də cəmiyyətin ümdə məsələlərinə müdaxilə etmək qabiliyyətinə malikdir.

Cəzanın obyektiv və ədalətli olması məsələsinin müzakirəsində qədim filosoflar heç də kənarda qalmırdılar, ağıllı məsləhətlər verməyə çalışırdılar. Qədim yunan filosofları Platon və Aristotel cinayət hüququ sistemində mühüm yollar açmağa çalışırdılar, cinayət və cəzanın cəmiyyət üçün necə böyük problem olduğunu, həm də mühüm əhəmiyyət daşıdığını qeyd edirdilər. Hər iki filosof fərdin cinayət törətməsi səbəblərini də tədqiq etməyə çalışırdı.

Platon qeyd edirdi ki, adamların cinayət törətməsinin başlıca səbəbi onların savadsız və kasıb olmasıdır. Aristotel isə deyirdi ki, cinayətə görə cəzalar və məsuliyyət daşımaq, başqaları tərəfindən cinayət törədilməsinin qarşısını almaq üçün mühüm imkan tək istifadə edilməlidir.

Böyük din xadimləri də bu məsələlərin araşdırılmasında kənarda qalmırdılar. Şərqdən fərqli olaraq, Avropada adamlar mühakimədən qorxmurdular və məhkəmədə öz haqlarını cəsarətlə müdafiə edirdilər. Şərq xalqlarında isə

mühakiməyə dözmürdülər, məhkəmə prosesi əvəzinə hətta hadisə araşdırılmadan öz ölümlərinə də hazır olurdular.

Görkəmli din xadimi, Müqəddəs Akvinas güman edirdi ki, Allah tərəfindən verilmiş "təbii qanun" mövcuddur. İnsanlar təbiət tərəfindən məhz yaxşı olmaq üçün dünyaya gəlmişlər.

Böyük İtalyan filosofu Çezare Bekkaria (XVIII əsr) "Cinayət və cəza haqqında" kitab yazmışdı. İlk dəfə olaraq "cəzanın cinayətə uyğun olmasını" bir prinsip kimi irəli sürülmüşdü. Cinayətin sərtliyini və miqyasını cəza özündə ehtiva etməlidir. Bu prinsip həm də digərlərini cinayət törətməkdən yayındırır. O, öz elmi əsəri ilə kriminologiyanı xeyli inkişaf etdirmişdi.

ABŞ prezidenti Con Kennedi hələ senator olarkən yazdığı "Mərdliyin profilləri" kitabını Bekkariadan geniş bir sitat gətirməklə yekunlaşdırılır.

Çezare Bekkaria (1738–1794-cü illər) yazmışdı: "Mən bir həyatı xilas etmək aləti olmağı bacarsam, onun xeyir-duası və göz yaşları, hətta bütün bəşəriyyətin nifrəti müqabilində də, mənə kifayət dərəcədə bir təsəlli olacaqdır".

Böyük filosofun xatirəsinə hörmət əlaməti olaraq, demək olar ki, o, hüquq elmi və praktikası qarşısında görkəmli xidmətlərinə görə, bir nəfərin deyil, yüz minlərin taleyinə pozitiv təsir göstərdiyinə görə təkcə təsəlli tapmamalıdır, həm də qədirbilən bəşəriyyətin həqiqi ehtiramını qazandığına görə öz həyatından razı qalmalıdır. Bekkaria sadə bir cümləsində özünün ədalətliliyini, insanpərvərliyini geniş surətdə açıb göstərir. Belə həyat kredosuna görə bəşəriyyət ona nifrət deyil, yalnız hörmət və məhəbbət bəsləyərdi.

Məşhur italyan kriminal psixiatrı Çezare Lambrozo (XIX əsr) isə qeyd edirdi ki, savadlı adamlar daha az cinayət törədirlər, savadlıların cinayəti, həm də müqayisədə dəhşətli olmaqdan çox uzaqdır.

## Dustaqxanaların inkişaf etməsi

XVIII əsrə qədər dustaqxanalar əsasən mühakimədən əvvəl ittiham olunanları saxlamaq üçün istifadə edilirdi. İctimai qaydada, xalqın gözü qarşısında

tətbiq edilən cəzalar yoxa çıxdıqdan sonra. dustaqxanaların populyarlığı xeyli artdı. Həmin əsr ərzində məhbəslər artıq məhkum edilmişlərlə dolu idi.

Kişilər üçün olan dustaqxanalar qəddar praktikaya malik olması ilə seçilirdi. Burada dustaqlar bir-birindən ayrı saxlanılırdı, onların bir-biriylə danışmasına da icazə verilmirdi.

Təəssüf ki, beləliklə, bəşəriyyət formalaşdıqca, onun qüsuru timsalında çıxış edən cinayətlər nəinki kəsilmədi, azalmadı, əksinə, hətta artmaqda davam etdi.

İbtidai insanlar da cinayət törətməmiş ötuşmürdülər, bu, çox vaxt mülkiyyət ələ keçirmək cəhdləri ilə bağlı olurdu. Makiavelli mülkiyyətin insan üçün necə böyük əhəmiyyət daçıdığını göstərmək üçün, özünün"Hökmdar" əsərində yazırdı ki, mülkiyyətə vurulan xırda ziyan, ata qətlindən də ağır təsir göstərdiyindən, ömür boyu unudulmur. Mülkiyyətin toxnulmazlığı isə az qala müqəddəslik qazanır. Ərəblərin "ehram" ifadəsindən yaranan "haram" sözü, bu münasibətin mütləq xarakter daşıdığını, onu qəsb etmək cəhdinin qanun və din tərəfindən hökmən cəzalandırılacağını bildirir. Bunu başqa bir şəkildə ingilislərin mülkiyyətin toxunulmazlığını necə qoruduqlarında da görürük. Orada kiminsə mülkiyyəti sayılan əraziyə, torpaq sahəsinə girildikdə, bu, "tresspass" adlanmaqla, cinayət kimi qiymətləndirilir.

İnsan yarandığı vaxtdan mülkiyyət onun yaşayışının mühüm hissəsi olmaqla, ona sahib olmanın əsl qalxan müdafiəsinə arxalanır. Dövlətlər də bu prinsipi öz qanunlarında təsbit etməli oldular. İndi mülkiyyətin toxunulmaz sayıldığı prinsip bütün hüquqi sənədlərdə öz əksini tapmışdır. İbtidai icma dövrünə gəldikdə, bu, daha çox aclığın qarşısını alan ərzaqdan ibarət idi, ona sahib olmaq üstündə tayfalar bir-biriylə vuruşur, başqasına məxsus olanı qəsb etməyə çalışırdı. Adətən, ərzaq qıtlığı, aclıq baş verdikdə buna dözməyən qəbilə üzvləri, ərzaq barədə nisbətən kasadlıq hiss etməyən tayfalara basqın edib, həmin dövrün ən qiymətli sərvəti olan qida maddələrini ələ keçirməyə çalışırdılar. Beləliklə, ibtidai formadakı həmlələr və müharibələr meydana gəlirdi. Aclıqdan xilasə olmaq üçün qan axıtmaq, adamları öldürmək meyli özünü qabarıq şəkildə göstərirdi.

Aclığı və onun ağır nəticələrini təkcə ibtidai insanların qisməti olduğunu güman etmək heç də düzgün deyildir. Sonrakı dövrlərdə də adamların ondan əziyyət çəkməsi halları az olmamışdır. Bu bədbəxtlik bəzən vəhşi yırtıcılara xas

olan əməllərin insanlar arasında baş verməsinə də səbəb olmuşdu. Bibliyanın "Hüzn" kitabında, yəhudilərin Babilistana sürgün edildiyi vaxtlarda, aclıqdan ananın öz körpəsini yediyi bildirilir. Yaxud, Fransa kralı II Filip Avqust 1204 –cü ildə Normandiyanın bir hissəsini döyüşlə ingilislərdən azad edəndə , mühasirədən çox istifadə etmişdi. Bu vaxt oradakı mülki əhali dəhşətli aclıqla üzləşdiyindən, əlacsız qalıb,kannibalizmə əl atmışdılar. Adamlar doğulan körpəni yeyirdilər. Əllərinə toyuq düşdükdə, onu lələkləri ilə, içalatı təmizlənməmiş şəkildə dişlərinə çəkirdilər. Böyük Vətən müharibəsi illərində blokadada olan Leninqradda da aclıqdan insanlığa zidd hərəkətlərin baş verməsi, nə qədər acı olsa da, heç də təəccübə səbəb olmamalıdır. Ona görə də aclıq təkcə ibtidai insanı pozğun yola cəlb etmirdi, sivilizasiyalanmış adamlara da mədənin tələbinin ödənilməməsi problemi ilə yanaşı, onların şüuruna, ağlına da özünün güclü neqativ təsirini göstərirdi.,

Sonralar ibtidai icma dövrü xeyli arxada qaldıqda, şəhərlərin və şəhər-dövlətlərin və iri dövlətlərin yaranması ilə, bilavasitə özünə məxsus olan başqa bədbəxtlikləri törətməsi ilə birlikdə, aclıqla daim qol-qola gəzən müharibələrin intensivliyi, miqyası, ot kimi biçdiyi qurbanların sayı, az qala, həndəsi ölçüdə böyüdü. İbtidai insan sonralar baş verən bu geniş miqyaslı bədbəxtliklərin və dəhşətlərin şahidi olsaydı, min illər ötüb, keçsə də. inkişaf etmiş insan nəslinin ağılsız hərəkətlərinə qəhqəhə çəkib, gülərdi.

## İmperiyaların törətdiyi kütləvi qətllər və qırğınlar ən ağır cinayətdir

Hərbi cəhətdən qüvvətli olanlar qonşu xalqların ərazilərini işğal edib, onların özlərini isə itaətlərinə salırdılar. Bu yolla ilk imperiyalar meydana gəldi. Mesopotamiyada, b.e.ə. XXIV–XXII əsrlərdə Akkad imperiyası, XIV–XI əsrlərdə isə Assuriya imperiyası tarixi fakta çevrildi. Gələcəkdə dörd min illik tarixə sahib olacaq Misir imperiyası meydana gəldi. Afina, sonra isə Makedoniya ittifaq adı altında qonşu dövlətlərə ağalıq etməklə, əslində, bu birliyi imperiya kimi idarə edirdi. Bizim eradan əvvəl Qədim Roma imperiyası böyük ərazilər işğal etmişdi.

Böyük Karl VIII əsrin sonu, IX əsrin əvvəllərində Roma imperiyasının ənənəsi əsasında Qərbi Avropanı Qərb imperiyasında birləşdirmişdi. Ondan əvvəl

meydana gələn Ərəb xilafəti imperiya kimi sürətlə böyüdü. Böyük Karl Xəlifə Harun ər-Rəşidlə eyni vaxtda hökmranlıq etməklə, onunla əlaqə saxlayırdı. Artıq VII əsrin ortalarından Orta Şərqin və Afrikanın şimalını işğal etmiş müsəlman ərəblər, VIII əsrin əvvəlində İspaniyanı da Mavrlar vasitəsilə tutmağa başlamışdılar. Bu, İslamın Avropa qitəsinə ayaq açmasına səbəb olmuşdu, bu işi Osmanlı imperiyası isə daha geniş miqyasda davam etdirmişdi. Bir cəhəti də qeyd etmək lazımdır ki, Ərəb xilafəti Asiyada və Afrikanın şimalında tutduğu ərazilərdə , Avropada isə Pireney yarımadasında o dövr üçün mütərəqqi xarakter daşıyan yeni İslam sivilizasiasını yaymışdı.

XIII əsrdə o vaxtkı dünyanın üçdə birindən çoxu Çingiz xan imperiyasının tərkibində idi, onun ərazisi 33 milyon kv.km-ə bərabər idi.

Osmanlı dövləti başlanğıcda kiçik olsa da, XIV əsrdən başlayaraq ətrafdakı dövlətləri işğal etməklə, öz ərazisini xeyli böyütmüşdü. 1453-cü ildə isə Konstantinopolu tutmaqla, Bizans imperiyasının mövcudluğuna son qoymuşdu.

Yeni tarix, ümumiyyətlə, həm də böyük imperiyaların yaranması dövrü olmuşdur. Osmanlı imperiyası üç qitədə ərazilərə malik olmaqla böyüməyə başladı. Böyük Britaniya və Fransa Şimali Amerikada böyük ərazilərə sahib oldu, İspaniya Mərkəzi Amerikada və Braziliya istisna olmaqla, həmçinin Cənubi Amerikada iri müstəmləkələrə yiyələndi. Böyük Britaniya imperiyası XVIII əsrdə Şimali Amerikadakı koloniyalarını itirsə də, Ost-İndia kompaniyasının köməyi ilə Asiya qitəsinin nəhəng dövləti olan Hindistana yiyələndi. Eyni adlı subkontinent onun müstəmləkəsinə çevrildi. XIX əsrdə artıq Böyük Britaniya imperiyası Viktoriya epoxası dövründə dünyanın dörddə birinə ağalıq edirdi. Vaxtilə İspaniya imperiyası barədə deyilən “onun üzərində günəş batmır” sözləri, indi Britaniya imperiyasının fərqliliyini  xarakterizə edirdi.

Avstriya, sonra isə Avstriya-Macarıstan imperiyası Avropadakı böyük əraziləri öz idarəçiliyində birləşdirməklə yanaşı, İspaniya sarayı vasitəsilə Vest-İndianın sərvətlərindən böyük fayda götürürdü.

İmperiyalar haqqında geniş söhbət açmaq, heç də əsassız deyildir. Əgər biz fərdlərin, mütəşəkkil cinayət qruplarının qanundan kənar fəaliyyətindən danışırıqsa, onların müvafiq qaydada cəzalandırılmasını da qeyd etməklə, onlara qarşı mübarizənin uğurlu olduğundan da xəbər veririk. İmperiyalar isə daha böyük

cinayətlərə səbəb olur, kütləvi qırğınlara müəlliflik edir. Ona görə də onların cinayəti, cəmiyyətdə baş verən və fərdlərin törətdiyi cinayətlərlə müqayisədə ölçüyə sığmazdır. İmperiyalar müharibələr aparmaqla, qan çayı axıtmaqla meydana gəlir, xoşbəxtlikdən, onların varlığına yenə də müharibələr və inqilablar son qoyur. Ona görə də imperiyaları tarixin ən böyük cinayətkarı hesab etmək lazımdır. Onlar işğal etdikləri əraziləri və xalqları idarə etmək üçün insanlığa zidd olan heç bir əməldən çəkinmirlər. İtaətində saxladığı xalqların qırğınını təşkil etməklə öyünürlər. Silah gücünə idarə isə, qan axıtmaqdan başqa bir fəaliyyət növünü tanımır.

Müasir insanlar imperiyaların tarixinə nifrət bəsləməklə, onların lənətləyirlər ki, hələ müəyyən sayda mövcud olsalar da, bir daha reinkarnasiya etməsinlər, gələcək tarixə də öz iyrənc damğasını vurmaq imkanına bir daha yiyələnməsinlər.

Xalqlar müstəmləkə zülmündən azad olduqdan sonra, hansısa bir şəkildə imperiyanın yenidən meydana gəlməsinə, təkrarlanmasına dözə bilməzlər. Çünki onlar bu azadlığı əldə etmək üçün çox əziyyət çəkmiş, böyük qurbanlar vermişlər.

İmperiyaların tabeliyində olan ölkələrin xalqları milli-azadlıq uğrunda mübarizə aparmaqla yanaşı, imperiyaların onurğa sütununu yenə müharibələr qırdı. Şimal Amerikadakı 13 koloniya 1770-ci illərdə Böyük Britaniya ağalığına qarşı inqilab müharibəsinə qalxıb, bu silahlı mübarizədə qalib gəlməklə. qədim Afinanın demokratiya təcrübəsinə əsaslanan yeni Amerika Birləşmiş Ştatları dövlətini yaratdılar. Bu, Afina şəhər dövlətindən və Qədim Roma respublikasından sonra meydana gələn ilk demokratik dövlət idi, onları bir-birindən iki min ilə yaxın zaman məsafəsi ayırırdı.

XIX əsrin ikinci onilliyində Cənubi Amerika ölkələrinin xalqları İspaniya ağalığından azad oldular. Yunanıstanın 1830-cu ildə müstəqillik qazanması ilə, Osmanlı imperiyasının eroziyası gücləndi, ayrı-ayrı ölkələr onun ağalığından çıxdıqca, imperiyanın süqutu yaxınlaşırdı. Bu da Ox dövlətləri ittifaqına daxil olan Osmanlı imperiyasının I Dünya müharibəsindəki məğlubiyyəti nəticəsində baş verdi və onun xarabalıqlarında çox sayda müstəqil dövlətlər yarandığı kimi, 1923-cü ildə doğulan yeni Türkiyə Respublikası isə ancaq özünə məxsus olan ərazi ilə kifayətlənməli oldu.

1947-ci ildə Britaniya imperiyası, Hindistanın öz müstəqilliyini elan etməsi ilə, ABŞ-ın yaranmasından sonra ikinci ağır zərbə aldı. 1960-cı illərdə Afrikada milli-azadlıq hərəkatı geniş vüsət aldı və qitədə çox sayda müstəqil dövlətlər meydana gəldi.

İmperiyalar heç də müstəmləkələrinin azad olması yolu ilə ondan qopmasını istəmirdilər və çoxlu qan axıtmaqla onları ram etməyə çalışırdılar. 1895–1898-ci illərdə Britaniya generalı Kitçeaerin komandanlığı altında ingilislər sudanlıların Maxdi hərəkatını kütləvi qırğın vasitəsilə qanda boğdular. 1899–1902-ci illərdə gedən ingilis-bur müharibəsində britaniyalılar qalib gəlməklə, Cənubi Afrika əhalisinin mübarizəsini yatıra bildilər.

İmperiyalar tarix boyu böyük miqyaslı cinayətlərin, dəhşətli müharibələrin mənbəyi rolunu oynamışlar. İmperiyalar xalqların qanını böyük ölçüdə axıtmaqla meydana gəldiyi kimi, onların sonuna hökm verən axırıncı müharibədə məğlub olmaqla, dəfn edildikləri öz qəbirlərini tapmalı olmuşdular. I Dünya müharibəsi dörd imperiyanın dağılmasına, onların bətnindən çıxan çox sayda yeni dövlətlərin yaranmasına səbəb olmuşdu. Avstriya-Macarıstan, Osmanlı, Almaniya imperiyaları təkcə Antantaya məğlub olmadılar, həm də əvvəlki varlıqlarının mövcudluğunun sonunun şahidi olmaqdan yayına bilmədilər. Rusiya imperiyasını isə 1917-ci ildəki inqilablar məhv etdi.

Yazıda imperiyalara belə geniş yer ayrılması heç də təsadüfi deyildir, onlar adətən işğal müharibələri aparmaq nəticəsində yaranır, çoxlu qan axıdır, permanent münaqişə mənbəyinə çevrilirlər. Müstəmləkə xalqlarına qarşı onlar ağır cinayətlər törədirdilər, bu ölkələri açıq səma altında olan nəhəng həbs düşərgələrinə döndərirdilər. Belçika kralı II Leopild Konqoda (indiki Zair respublikası) heveya şirəsini toplamaq üçün afrikalılara elə gündəlik norma qoymuşdu ki, bu, adamları taqətdən salırdı. Kral, meşədə normada nəzərdə tutulan həcmdə qiymətli şirə toplaya bilməyənləri, qollarını kəsməklə cəzalandırırdı. Belçika plantatorlarının vəhşiliyi hədd tanımırdı. Brüsseldə zəncilər ekzotik heyvanlar kimi sərgilərdə nümayiş etdirilirdi.

Adətən fərdin, bir adamı qətlə yetirməsi ən ağır cinayət hesab olunur, imperiya isə müstəmləkəsi olan ölkələrdə yüz minlərlə insanı, yalnız itaətdən boyun qaçırdığına görə məhv edirdilər. Ona görə də onlar ən ağır cəzaya layiqdirlər. Təəssüf ki, onların cinayəti cəzasız qalır, qırğın təşkil etdiklərinə görə

imperatorların boynu vurulmur. Əgər ədalət zəfər çalsaydı, imperializm də öz vəhşilikləri üçün məsuliyyət daşımalı olardı, onların hamısı qanun qarşısında cavab verərdi. Beynəlxalq Cinayət Məhkəməsi ayrı-ayrı müharibə qızışdıranları cəzalandırdığı halda, imperiyaların öz müstəmləkələrindəki əsl mütəşəkkil cinayət qruplarının üzvləri barədə indinin özündə də heç də kəskin mövqe tutmur. Böyük ədalətsizlik ondadır ki, geniş miqyaslı cinayət cəzasız qalır və bu, başqalarını da qan axıtmağa qızışdırır.

Dinlər yaranandan insanları birliyə səsləyirdi. Ona görə də bütün dinlər daha böyük icmadan ibarət olan şəhərlərdə meydana gəlmişdi. Din qətllərin, qan axıtmanın qatı əleyhdarı idi. Xristian dininə itaət edən adamlar İisusun əsgərləri olduğundan, onlar silahdan istifadə etməklə vuruşmamalı idilər. Lakin Səlib yürüşləri Sahibin qəbrini xilas etmək pərdəsi altında gedən əsl işğalçılıq müharibələri idi və çox sayda müsəlmanların qanını axıtmışdı.

Xristian dini meydana gələndə ona inanc gətirənlər də təqib olunmuş, öldürülmüşdülər. Apostollar Pyotr və Pavel Romada edamla qətlə yetirilən ilk şəhidlər olmuşdular. Yalnız imperator Konstantin 330-cu ildə xristianların təqibinə son qoymuş, dini icmaların öz ibadətlərini sərbəst icra etmələrinə icazə vermişdi. Lakin xristian dini yalnız IV əsrin sonunda Romada dövlət dini elan olunmuşdu. Bundan xeyli əvvəl, 313-cü ildə bu din artıq Qafqaz Albaniyasının dövlət dini idi. Ermənilər isə qədim alban kilsələrini öz adlarına çıxaraq, guya onların Qriqoryan dininə məxsus olduğunu iddia etməklə, çox sayda olan dini məbədləri  saxta yolla mənimsəmək istəyirdilər.

İspaniyada XV əsrdə və sonralar inkvizisiya tüğyan edirdi. XVI əsrdə İngiltərədə əvvəlcə protestantlar, sonra isə katoliklər sərt təqiblərə məruz qaldılar. “Qanlı” adını daşıyan kraliça Mariya Tüdor protestantları edam etdirirdi,  onun kiçik bacısı kraliça I Elizabet də katoliklərə qarşı sərt mübarizə aparırdı.. Çünki katolik dünyası kraliça Elizabeti öldürmək barədəki çağırışla çıxış etmişdi.Şotlandiya kraliçası Mariya Stüart isə İngiltərədə əgər hakimiyyətə gəlsəydi, protestantların vəziyyəti daha ağır ola bilərdi.

Oliver Kromvel isə 1649-cu ildə kral I Çarlzın boynunu vurduqdan sonra, Şimali İrlandiyanın Droqheda şəhərində 20 min katolik rahibin qırğınına göstəriş vermişdi.

Hitler isə irqi və dini ayrı-seçkiliyi əsas götürərək, arilərin aliliyini həyata keçirmək üçün yəhudilərə qarşı Holokost adlanan geniş miqyaslı genosid həyata keçirmişdi. İsrail isə öz xalqının bədbəxtliyinə görə Hitlerə və alman natsistlərinə nifrət etməklə yanaşı, indi Qəzzədə ərəbləri qırğına məruz qoymaqdan çəkinmir.

İslam dini xristianlıqdan fərqli olaraq kütləvi qırğınlar tədbiri keçirməmişdir. Təəssüf ki, islamçılar çox hallarda terrordan geniş istifadə elirlər. 2001-ci ilin 11 sentyabrında Üsamə ben Ladenin xarabalıq "cəngavərləri" Nyu-Yorkda "Twin" – "Ekizlər" adlanan Ticarət Mərkəzinin iki nəhəng binasını partlatmışdılar, burada həm də xeyli insan tələfatı baş vermişdi. Teokratik dövlətlərdə insan haqlarına riayət edilməsinə məhəl qoyulmur. Səudiyyə Ərəbistanında əxlaq polisi günahsız adamları namaz vaxtı yalnız məscid əvəzinə, küçədə olduqlarına görə şallaqla qamçılayırdılar. İranda hicabı örtməyə düzgün əməl etməyən qadınlar nəinki cəzalandırılır, hətta həbs edilirlər. Dinlər yaxşı nümunə göstərmək əvəzinə, iyrənc əməllərə də əl atırlar.

## Dustaqxanalar və orada cəza çəkənlər

Dustaq edilənlərin və müharibə əsirlərinin saxlandıqları dustaqxana sakinlərinin psixoloji vəziyyətinin öyrənilməsinə nəzər salmaq maraq doğurmaya bilməz. Örtülü divarlar arasında olanlara bu institutun necə təsir göstərdiyini araşdırmaq heç də faydasız deyildir. Burada diqqət rolların, qaydaların, simvolların, şəxsi yaşayış şəraitinə və situasiya dəyişikliklərinə həmin fərdlər tərəfindən necə dözmələrinin,onları dəf etmələrinin öyrənilməsi baş verir. Bir neçə il ərzində fərdlilikdən uzaqlaşmış adamların vandalizmə və qeyri-humanist xüsusiyyətli hərəkətlərə meyl etməsi də diqqəti cəlb etməmiş qalmır. Onlar özlərindən asılı olmayaraq ,öz şəxsi kimliyinin anonim edən situasiyalara atılırlar. Bu adamların  müxtəlif anti-sosial hərəkətlərə yol verdikləri eksperiment vaxtı gözə çarpır. Görünür, onlar elə bil ki, insandan aşağı olan düşmənə və ya obyektə çevrilirlər. Bütün bunlar Qərb ölkələrində aparılan tədqiqat xarakterli eksperimentlərin nəticəsi ilə öyrənilir.

Dustaqxananı öyrənmə, anti-sosial davranışı başa düşməyə kömək edir. Burada mühafizəçilər ilə dustaqlar arasında baş verən konfliktlər də müəyyən maraq kəsb edir.

Bəzi dustaqlar məhbəsə salınana qədər digər adamlarla danışıqlarında, həm də mühakimə vaxtı əsasən özlərini heç də təqsirkar hesab etməmişdilər. Aqressiya, avtoritarizmin sağ qanadı, sosial ağalıq istiqaməti və nartsissizm dustaqxana eksperimentləri vaxtı məhbusları yüksək dərəcədə öyrənməkdə və xarakterizə etməkdə də kömək edir. Ona görə də bu, dustaqxananın fəaliyyət mexanizmini optimallaşdırmaqda və ekspertlərin nəticələrini düzgün tətbiq etməkdə böyük rol oynayır.

Qabaqcıl dustaqxana təcrübəsi olan ölkələrdə, dustaqların davranışında müsbət dəyişikliklərin yaranmasına nail olmaq üçün müxtəlif təyinatlı belə eksperimentlər həyata keçirilir və dustaqxana rəhbərliyi onların nəticələrindən istifadə etməyin praktiki əhəmiyyətini anlayaraq, geniş tətbiq etməyə cəhd edirlər. Onlar başa düşürlər ki, eksperimentlər elmi xarakter daşıdığından, dustaqlar arasındakı psixoloji durumu düzgün qiymətləndirməyə də kömək edir. Eksperimentlər heç də özünü aldatmaq vasitəsi olmayıb, baş verən situasiyaları düzgün qiymətləndirmək və anlamaq məqsədini güdür. Ona görə də həmin ölkələrin birində keçirilən eksperimentin gedişini və nəticəsini müşahidə etmək bizim üçün də heç də əhəmiyyətsiz məsələ deyildir.

Eksperiment, dustaqları və dustaqxana şəraitinin onlara göstərdiyi təsiri hərtərəfli öyrənməyə istiqamətlənir. Bəzi dustaqlar buna qədər digər adamlarla danışıqlarına görə əməllərini inkar edərək, özlərini təqsirkar hesab etməmişdilər.

Eksperiment  ilk növbədə volontyor subyektlərin köməyi ilə aparılır, dustaqxana mühitinin onlara necə təsir göstərdiyini hərtərəfli açmağa kömək edir. İlk növbədə volontyorların yarısı mühafizəçi rolunu oynamalıdır, digər yarısı isə dustağa çevrilir. Onlar 7 gündən 14 günə qədər bu rolları ssenariyə uyğun olaraq dəqiq icra etməli idilər.

Eksperiment dövründə dustaqlar zirzəmidə saxlanılırdı. Mühafizəçilər isə kontrast qaydaya uyğun olaraq, dustaqlardan ayrı, tam fərqli mühitdə olmalı idilər. Mühafizəçilərə istirahət üçün xüsusi zonaya çıxmaq və fiziki cəhətdən yüngülləşmək imkanı verilirdi.

Eksperimentin başlanmasından əvvəl mühafizəçilərə tapşırılmışdı ki, dustaqlara fiziki xətər toxundurmasınlar və ya onların qidalanmasını və su içmələrini ləngitməsinlər. Mühafizəçilər çalışmalı idilər ki, dustaqların hər bir fərdə aid olan xüsusiyyətlərini yox etməyə, azaltmağa çalışmasınlar. Onlar dustaqlar üzərində öz hakimiyyətlərini göstərməli idilər. Lakin onlara fiziki güc tətbiq etməklə, bu adamların hissini oyatmasınlar ki, onlar artıq dustaqdırlar.

Dustaqlar mühafizəçilərə qarşı üsyan qaldırdıqda, bu əlbəttə, dustaqxana praktikasında heç də nadir hadisə deyildir, onlar zirzəmini tərk etməkdən imtina etdilər və mühafizəçiləri təhqir etməyə başladılar. Mühafizəçilər isə dustaqların paltarlarını, yorğan-döşəklərini yığışdırıb, uzaqlaşdırdılar ki, onları üsyanı davam etdirməkdən çəkindirsinlər. Onlar üsyan edənlər barədə dedilər ki, "bunlar təhlükəli dustaqlardır".

Dustaqların, qaydanı pozmağa yönəlmiş sonrakı hərəkətlərinin miqyasını azaltmaq üçün mühafizəçilər onları bir-birindən ayırdılar, onların hamam otaqlarına getməsi imkanını azaltdılar və onları məcbur etdilər ki, özlərinin təbii ehtiyatlarını ödəmək üçün zirzəmidə qoyulmuş vedrələrdən yüngülləşmək vasitəsi kimi istifadə etsinlər.

Sonra isə dustaqları yaxşı davrananlara və bilavasitə qiyam qaldıranlara böldülər. Dustaqlar bir-birindən ayrı düşdülər, narazılıq edənlərin təsir dairəsi məhv edilməklə, onlar arasındakı həmrəylik də, əslində, yoxa çıxdı. Dustaqlardan biri bu vaxt zirzəmidə qışqırmağa başladı, buna görə onu uzaqlaşdırmalı oldular. Digər dustaqları isə mühafizəçilər məcbur etdilər ki, öz yoldaşları olan həmin dustağı "bəd adam" adlandırsınlar.

Hər bir dustağın üstü ardıcıl olaraq axtarılırdı və onlar lüt soyundurulurdular. Həşəratlardan qorunmaq üçün onların üzərinə dərman tipli maye səpirdilər. Eksperiment dustaqxana rejiminin mümkün qədər optimal qaydada olmasına şərait yaradırdı.

**Dustaq**

Dustaq törətdiyi cinayətinə görə cəzalandırılmaqla, dustaqxana daxilinin adamına, sakininə çevrilir. Eyni qaydada, misal üçün, müharibədə düşmən kimi əsir götürülənlər dustaq hesab olunurlar. Dustaqxana isə dustaqların örtülü saxladığı bir məkan olmaqla, həm də məhbəs, bəzən hətta daha sərt qaydaların tətbiqinə görə "zindan" adlanır. Dustaqxanalar həmçinin mühakimədən əvvəl ittiham edilənlərin bir qisminin, onlar adətən cəmiyyət üçün azadlıqda olanlara təhlükə mənbəyi sayılır, saxlanılması üçün də istifadə olunur.

Dustaq, öz iradəsi əleyhinə azadlıqdan məhrum edilmiş adamdır. Lakin onun bu məhdudiyyətlərə düçar olması kiminsə istəyinə görə deyil, onun özünün qanundan kənar şəkildəkii anti-sosial davranışı ilə əlaqədardır. Dustaqxananın nə olduğunu anlayan adam qanunsuz əməllərdən, zərərli davranışdan qaçmalıdır, çünki cinayətinə görə cəzalanmayacağına hansısa bir qarantiya yoxdur, cəzanın sərtliyinin və düşəcəyi mühitin ruhu əzməsini də heç vaxt yaddan çıxarmamalıdır.

Dustaqxanalar çoxlu növlərə bölünür. Onlar kişilər, qadınlar və yeniyetmələr üçün olur, həm də bəziləri cəmiyyət üçün təhlükə mənbəyi sayılan adamlar olduqlarından, şəraitinə görə bir-birindən fərqlənən növlərə də bölünürlər. Yerli və ayrıca geniş yayılmış dustaqxanalar mövcuddur, axırıncı növlərdə müttəhim özü barədəki hökmdə ifadə olunan cəzasını çəkir.

Bütün dustaqlar üç kateqoriyaya bölünür və onların hansı sistemə aid olan dustaqxanada saxlanması bununla müəyyən olunur.

Maksimum təhlükəsizlik şəraitində saxlanan dustağın oradan qaçmaq imkanı olduqca məhduddur və bu qaçmaya cəhdin baş tutması çətin olaraq qalır. Dustaqxana, penitensiar, həbs mərkəzi olmaqla, orada adamlar dövlət hakimiyyəti altında, həm də öz iradəsi əleyhinə və vətəndaşlıq borcunu inkar etmək qaydasındakı müxtəlif cinayətlərə görə dustaq kimi saxlandığı yerdir. Mühakimədən əvvəl ittiham edilən şəxslər də, ittiham daha ciddi xarakter daşıyanda, dustaqxanada saxlana bilər.

Dustaqxananın istifadəsi dövlətin yüksəlişi ilə əlaqədar olan bir sosial təşkilat forması kimi özünü göstərir. Bəzi qədim filosoflara görə, dustaqxanalar dustağı islah etmək üçün deyil, ittiham edilənləri cəzalandırmaq üçün istifadə olunur.

Cəriməni ödəyə bilməyənlərin də cəza növü kimi dustaq edilmə qaydasında saxlanması tətbiq olunurdu. Bu praktika Böyük Britaniyada geniş yayılmışdı, ölkədə XIX əsrdə borc məhbəsləri şəbəkəsi mövcud idi. Onu yazıçı Çarlz Dikkens özünün "Devid Kopperfild" əsərində təsvir edir.

Dustaqxana öz bədnam "şöhrəti" ilə insanlara yaxşı məlum idi və onlara əlavə adlar da verilirdi. Qədim Afinada dustaqxana "zəncirlər yeri" kimi tanınırdı. Qədim romalılar isə dustaqxanaları ilk dəfə cəza üçün olan bir forma kimi istifadə edənlər idi. Yaponiyada isə məhbəslər mühakimədən əvvəl müttəhimləri saxlamaq yeri idi, burada adamlar cəza kimi öldürəcəklərini, yaxud bəxtləri gətirərsə, azad olunacaqlarını gözləyirdilər. Yaponiyada başqa cəza növü yox idi, geniş yayılan cəza ölüm hökmü idi, yaponlar adi oğurluğa görə ölüm hökmü tələb edən Avropadakı eybəcər qanuna bələd olmasalar da, Drakontun hüquqi "icadını" müntəzəm olaraq tətbiq edirdilər.

Qədim Romada dustaqlar metal qəfəslərdə, ictimai binaların zirzəmilərində saxlanılırdı, ayrıca dustaqxana binası və ya ərazisi yox idi. Qədim romalılar qəbirstanlıqda mərhumun külü olan kiçik qutuların saxlandığı yeri "Kolumbari" – "Göyərçin yuvası" adlandırdıqları kimi, dustaqxananın da böyük ərazi tutmasını məqbul saymırdılar. Burada ən məşhur Mamartin dustaqxanası b.e.ə. 640-cı ildə, hələ respublika quruluşundan az qala bir əsr yarım əvvəl, çarların Romanın idarə etdiyi dövrdə yaranmışdı. Məhbəs öz sərt qaydaları ilə seçilirdi, geniş zindanlar şəbəkəsi fəaliyyət göstərirdi. Orta əsrlərdə isə Avropada qəsrlər, fortlar və ictimai binaların zirzəmiləri dustaqxana rolunu oynayırdı.

Hökumət dustaqxanaları himayə edərkən dustaqların təhlükəsizliyini təmin edir və onları yenidən cinayət törətməkdən yayındırmağa çalışır. Ona görə də həbsxanalarda vəziyyəti yaxşılaşdırmağa ehtiyac duyur. Burada dustaqlar əvvəlki əməllərini tərk etməlidirlər.

Dustaqxanalar öz işləri üçün və dustaqların təhlükəsizliklərini hiss etmələrinə real şərait yaratmağa borcludur. Dustaqxana dustağın həbsdən azad olmasına onları hazırlamalıdır ki, qapıdan çıxdıqdan sonra onların dəyişilməsinə ümid yaransın.

Yerli dustaqxanalar əsasən məhkəməyə qədər ittiham olunanları saxlamaq üçün istifadə olunur, həm də onlar bir neçə günlük həbs müddəti üçün nəzərdə

tutulur. Xırda xuliqanlıq cinayəti törədənlər qısa müddətdə də olsa, orada məskunlaşırlar.

Geniş yayılmış dustaqxanaların hamısı kateqoriyalara bölünür. “A” kateqoriyasına daxil olanlardan ağır cinayət törətmiş dustağın həbsdən qaçması imkanı olmur, çünki onlar qaçsalar, cəmiyyət üçün əlavə təhlükə törədə bilərlər. Bu dustaqxanalar həm də sərt qaydaların tətbiq edilməsi ilə fərqlənirlər. Aşağı kateqoriyalarda isə nisbətən az qorxulu dustaqlar saxlanılır. Dustağın davranışından asılı olaraq, onun saxlanması, dustaqxana şəraitinə görə daha yaxşısına və ya pisinə dəyişdirilə bilər. Sovet həbsxanalarında xüsusən soyuq və rütubətli iqlim şəraitində saxlanılanlar çox hallarda vərəmlə (tuberkulyozla) xəstələnirdilər. Xəstəlik hesabına onların orqanizmi çox zəifləyir, hətta onlar azadlığa çıxandan sonra da bu şəkildəki dustaqlıq mirası, onların həyatına zəhər qatmaqda davam edirdi və bəzən hətta həyatla vidalaşmalarına da səbəb olurdu. Dustaqxanalarda həm də tif epidemiyası yayıldığından, bu mərəz “dustaq xəstəliyi” kimi tanınır. Əlbəttə, dustaqlara tibbi nəzarət tətbiq edilir, lakin şərait öz təsirini göstərməmiş qalmır. Məhbəsdəki kameralarda dustaqların ifrat sıxlığı, epidemiyanın sürətlə yayılmasına səbəb olur. Heç bir izolyasiya tədbiri həyata keçirilməyəndə, xəstəliyin inkubasiya dövründə daha çox sayda adamın  ona sirayətlənməsi baş verir.

Sovet İttifaqında repressiyalar dövründə “xalq düşməni” hesab edilənlər saxta mühakimələr vasitəsilə azadlıqdan məhrum edilirdi və onlar həbs düşərgələrindəki daha ağır həyat şəraiti ilə tanış olmaq məcburiyyətində qalırdılar. Onlar həbsxanaya düşəndən çox hallarda işgəncələrin zülmünə də dözməli olurdular.

Dustaqxana institutu mahiyyətinə görə müxtəlif növlər arasında bölünürdü. Kişi cinsindən olanlar cinayət törətdikdə, adətən, daha sərt qaydaları olan dustaqxanalarda saxlanırdı.

Dustaqxana həmçinin məhbəs, penitensiar, həbs mərkəzi, yaxşılığa doğru düzəliş mərkəzi, düzəlmə bacarığına malik olan bir yer  kimi də tanınır. Burada adamların, öz iradəsi əleyhinə və dövlət hakimiyyəti altında azadlıqları inkar edilir, ümumiyyətlə, müxtəlif cinayətlər üçün onlar cəza çəkməli olurlar.  Cəmiyyətdə bütün səlahiyyətləri öz üzərinə götürdüyünə görə ,  bütün cəza sistemi də dövlətin

tabeliyindədir və onun adından tətbiq edilir. Dustaqlar cəzalarını çəkəndə dövlətin qanununun nə demək olduğunu anlamağa başlayırlar.

Həbsxanalar həmçinin bəzən hakim rejimin siyasi repressiyası üçün alət kimi də istifadə olunur. Diktaturanın hakim kəsildiyi ölkələrdə və teokratik dövlətlərdə belə təcrübə geniş yayılmışdır. Bu vaxt çox hallarda siyasi cinayətlər üçün cəzalandırmaqdan ötəri düzgün mühakimə və ya lazım olan proseslər aparılmır. Bəzi hallarda dövlət mülki adamları dustaq edə və onları həbs düşərgələrində saxlaya bilir.

Dustağa çevrilmə, cəza kimi öz cərimələrini ödəməyənlər üçün də tətbiq edilə bilər. Qədim romalılar dustaq edilməni, təkcə həbs kimi deyil, cəzanın xüsusi növü kimi də istifadə edirdilər, məhkum olunanlar dəmir qəfəslərdə saxlanılırdı. Orta əsrlərdə isə Fransada qəsrlər, fortlar və ictimai binaların zirzəmiləri dustaqları saxlamaq üçün istifadə olunurdu. İspaniyada isə qorxulu düşmənin qaçmaması üçün qüllələr əlverişli saxlama yeri kimi tanınırdı. 1525-ci ildə İtaliyadakı Pavia döyüşündə əsir düşmüş Fransa kralı I Fransiski İspaniya kralı I Karl məhz uca qüllədə saxlayırdı.

Digər ümumi cəza kimi adamlar qalera quldarlığına məhkum edilirdi, onlar gəmilərin dibində saxlanılmaqla, donanma və ticarət gəmilərində avar çəkirdilər. Bu olduqca ağır zəhmət idi və sərt cəza növü kimi qiymətləndirilirdi.

Bəzi ölkələrdə cinayətkarlara güclü təsir göstərmək məqsədilə, dustaqlar ölkənin öz ərazisində deyil, məhkumluq müddətini çəkmək üçün müstəmləkələrə göndərilirdi. İngiltərə bu üsuldan daha çox istifadə edirdi. Orada azadlıqdan məhrum edilənlər cəzalarını çəkmək üçün 1660–1776-cı illərdə Britaniya Amerikasına göndərilirdi. Amerikada inqilabın baş verməsi və Birləşmiş Ştatlar dövlətinin meydana gəlməsi ilə oraya dustaqların göndərilməsi imkanı kəsildiyindən, dustaqlar yeni qitə olan Avstraliyaya göndərilirdi. Avtoxton əhali olan avstraliya  buşmenlərindən sonra Avstraliyanın ilk sakinləri məhz ingilis dustaqları olmuşdu. Qitənin aborigen əhalisi öz qitələrində ağ adam kimi, ilk dəfə ingilis dustaqlar ilə qarşılaşmalı oldular, sonra isə britaniyalılar əhalinin əksəriyyətini təşkil etməklə, yerli əhalini sıxışdırmağa başladılar. Qitədə məskunlaşan ilk ağdərili sakinlər  məhz metropoliyadan gətirilən dustaqlar idi, sonralar isə buraya Böyük Britaniyadan geniş ölçüdə miqrasiya başlandı..

İnsan haqları siyasi əhəmiyyət kəsb etdiyindən, dövlətlərin çoxunda onun dustaqxana qaydalarına da təsiri üzə çıxdı. Modern dustaqxanaların yaradılmasına başlandı.

Yeni cəmiyyətlər erasında dustaqxanalar sosial sistemdə xüsusi rol oynayırdı. Həbsxana "intizam üçün istifadə yeri" adlanırdı. Onlar məktəb, xəstəxana və baraklar kimi istifadə olunurdu.

XVII və XVII əsrlərdə Avropada və ABŞ-da edam cəzasına və işgəncələrə qarşı müqavimət hərəkatı başlandı. Kiçik cinayətə görə ölüm hökmü verilməsinə son qoyuldu, axı bu, Afinada hər kiçik oğurluğa görə ölüm cəzası vermək barədəki drakon  qanunlarına bənzəyirdi. Kütləvi dustaq edilmə ləğv olundu, bəzən bunun həlli kimi ağır zəhmətə cəlb edilmə qaydası meydana gəldi. Maarifçilik ideyaları nəzərdə tuturdu ki, dustaqların daha effektiv cəzalandırılması üçün ictimai cəza kimi qamçılanma və ya mənəvi islaha məruz qalma tətbiq oluna bilər. Dustaqxanalar mənəvi təminatın bəşəri institutları kimi qurulmalı, dustaqların davranışı "düzəldilməli idi ki, onlar azad olanda cəmiyyətin normal model üzvlərinə çevrilsinlər". Dustaqlara "dustaqxana əməyi" işləri verilirdi ki, onlar real dünyada yaşamağa hazırlansınlar.

Dustaqxana təkcə dustaqlar üçün deyil, həm də oradakı nəzarətçilər üçün də bir növ sınaq yeridir. Nəzarətçilər dustaqlara yuxarıdan aşağı deyil,  insan kimi baxmalıdırlar. Onlar üçün azadlıqdan məhrum edilmiş bu adamlar heç vaxt nifrət obyektinə çevrilməməlidir. Nəzarətçi öz təyinatına ciddi əməl etsə, dustağın xırda xətasına görə onu əlavə cəzalandırmaq eşqinə düşməz. Məgər onun özü həyatda səhv etmirmi? Axı hər səhvə görə adamı cəzalandırmaq ağıla da gəlmir. Dustaq hökmün təyin etdiyi müddətdə öz azadlığının xeyli hissəsini itirmişdir, heç də bu o demək deyildir ki, bunula birlikdə insan olmağını da paralel qaydaya  uyğun olaraq itirmişdir. Onu aşağı insan hesab etmək, faşist prinsiplərinə yuvarlanmağa bənzəyir. Həbsxana dustağa cəza vermək üçündür, heç də onu ümidsizliyə qapılmağa sövq edən və həyatdan məhrum edilmək qorxusu yaradan ölüm düşərgəsi deyildir.

Lakin həbsxana təcrübəsində nəzarətçilərin qəddarlıq göstərməsi, addımbaşı dustağa təhqir etməsi halları da olmuşdur. Bu mənada XIX əsrin əvvəlində Fransa həbsxanalarının birində dustaqların qəddar nəzarətçidən qisas alması faktı maraqlıdır və həmin nəzarətçinin bədnam adı dustaqların ona verdiyi ağır cəzada

öz əksini tapdığından, iki əsrdən sonra da dustaqlar cəmiyyəti tərəfindən unudulmur. Bunun ifadəsi kimi dustaqxanalarda dustaqlar üçün bişirilən şorbaya həmin nəzarətçinin soyadından götürülmüş "balanda" deyilir. Özü də bu ad Fransadan bütün dünyaya yayılmışdır.

Böyük fransız yazıçısı Onore de Balzakın da "İnsan komediyası" epopeyasının kitablarının birində təsvir etdiyi hadisə real fakt idi və onun məşhurlaşmağı da təsadüfi deyildi. Dustaqxanaların birində Balanda adlı qəddar bir nəzarətçi işləyirdi. O, yeri gəldi, gəlmədi dustaqları təhqir edir, heç bir səbəb olmadan onlara əl qaldırırdı. Dustaqlar bu əclafın hərəkətindən cana doyduqlarından, nəhayət onu öldürmək qərarına gəldilər. Lakin bu qətlin izi qalsa, onlar ağır cəzalandırılacaqdı. Ona görə də qeyri-adi qətl formasını işə salmalı oldular.

Dustaqlar mətbəxdə qaynar qazanların yanında dayanmışdılar. Bura gələn Balanda onları söyməyə, təhqir etməyə başlayanda, dustaqlar nəzarətçini əllərinə götürüb, paqqıldayan şorba qazanının içinə atdılar. Az sonra onun bədənindən əsər-əlamət qalmadı, əti əriyib şorbaya qarışmışdı. Şübhə yaratmamaq üçün dustaqlar nəzarətçinin əti qatılmış həmin şorbanı iştahla yedilər.

Beləliklə, həbsxanalarda bişirilən şorbanın adı kimi beynəlxalq şəkildəki "balanda" sözü meydana gəldi və dövlət sərhədlərindən asılı olmayaraq, bu ad həbsxanaları dolaşmağa başladı. Nəsarətçi, öz səlahiyyətlərinə görə dustaqlardan fərqlənsə də, yaşadıqları birgə mühit onlara da öz təsirini göstərməmiş qalmır. Fransız müəllifi, markiz Astolf de Kyustin özünün "Rusiya 1839-cu ildə" əsərində yazır ki, Peterburq yaxınlığındakı Şlessilburq zindanında olarkən, o, müşahidə etmişdi ki, nəzarətçilər dustaqlardan o qədər də fərqlənmirlər, çünki eyni mühitdə olur, eyni hava ilə nəfəs alırlar. Bu qənaətinə görə, o, nəzarətçilərin də özünəməxsus cəza çəkdiklərini göz önünə gətirirdi.

Müasir həbsxanalarda da qəddarlar, Balanda kimi iyrənc nəzarətçilər heç də yoxa çıxmamışlar. Bəziləri dustağın qohumlarına gəlir mənbəyi kimi baxır, görüşə görə onlardan rüşvət alırlar. Dustağa evdən gətirilən xörəyə də "şirə məxsus pay" kimi şərik çıxırlar. Onlar "Balanda" əhvalatından nəticə çıxarsalar, dustaqların nifrətinə sahib olmalarını dayandırarlar.

Lakin nəzarətçiləri bütünlüklə qaralamaq da düzgün deyildir, insafsızlıqdır. Həbsxana rəisləri və nəzarətçiləri arasında əsl humanistlər, filantroplar heç də az deyildir və onlar hörmətə layiqdirlər.

Tanınmış yazıçı Azərbaycan Dövlət Universitetinin jurnalistika fakultəsində təhsil alarkən SSRİ rəhbəri N.S.Xruşşova göndərdiyi məktubda donuz və eşşək şəkilləri çəkmiş, atında müvafiq olaraq Xruşşov və Mikoyan sözlərini yazmışdı. Bir müddət sonra DTK işçiləri universitetə gəlib, onu auditoriyadan götürüb aparmışdılar. Onlar qrafologiya metodundan istifadə edərək, məktubun müəllifini üzə çıxarmışdılar. Buna təəccüblənmək lazım deyildir. Rumıniya diktatoru Nikolae Çauşesku özü haqqında yazılmış məktubun müəllifini tapmaq üçün, ölkədən az deyil, bir min yazı maşınkasını yığdırmışdı.

Məhkəmə tələbəni 4 il müddətinə azadlıqdan məhrum etmişdi. Dustaqlara qohumları onlara xörək, ərzaq gətirdikləri halda, bu kasıb tələbənin uzaq rayonda yaşayan valideynləri bir dəfə də olsun onu görməyə gəlməmişdilər. Dustaqxana rəisi olan Muradəliyev soyadlı nəcib adamın nəzərindən bu. yayınmamışdı, ona görə də evdən özünə gətirdiyi xörəklə birlikdə tələbə dustağın da payını nəzərə alır və onu öz kabinetində yeməyə məcbur edirdi. Sonralar tələbə dustaq həbsdən azad olunub, universitetə bərpa edildi, romanlar çap etdirməklə yazıçıya çevrildi. Lakin o, heç vaxt həbsxana rəisinin ona qayğıda ifadə olunan yüksək alicənablığını yaddan çıxarmırdı, onu dərin ehtiramla xatırlayırdı.

Dustaqxanalar son vaxtlarda həm də qəribə dini təhsil ocağına çevrilmələri ilə də öyünə bilərlər, bu məcburi həyat universitetləri auditoriyası. özgə təyinatlı məkanından xeyli sayda dindar məzun buraxır. Cəzaya məhkum edilmiş bəzi din xadimləri, dustaqların bekarçılıqdan yaranan depressiyasına son qoymaq üçün, onları namaz qılmağa, bəzi Quran ayələrini əzbərləməyə öyrədirlər. Dustaq edilmiş bir siyasi xadim onunla bir kamerada dözülməz sıxlıqda yaşayan şəhər məscidlərindən birinin axundu Hacı Əbdülün bu sahədəki fəaliyyətini çox tərifləyirdi. Kameradakı dustaqlar növbə ilə az müddətdə yatırmışlar, bu şərait də onları daha artıq əzirmiş. Bunu hiss edən axund onların dini təhsili ilə məşğul olmağa başlamış, yaranan ümidsizlikdən onları xilas etməyi bacarmışdı. Bunu söyləyən adam da, həmin axund da indi həyatda yoxdur. Lakin dustaqxanadakı müsbət həmrəylik ruhunu ifadə edən bu əhvalat dillərdə dolaşmaqda davam edir.

Cəzalar törədilən cinayətə cavab kimi təqdim edilir və onun məqsədlərindən biri cinayətlərin sayının mümkün qədər azaldılmasıdır. Həm də potensial caniləri xəbərdar etməkdir ki, onlar cəzadan yayına bilməyəcəklər.

Məhkəmələr də səhvə yol verdikdə, adamların həyatına, xoşbəxtliyinə zərbə vurur. Əvvəllər əslində saxta olan ağır cəzalar hətta onların həyatına son qoyurdu. ABŞ-da məhkum edilənlərin bir neçə il sonra təqsirkar olmadığı aşkar edilir və onlar dustaqlıqdan azad edilirlər. Lakin elektrik stulunda səhv nəticəsində canlarını tapşıranları artıq yenidən  həyata qaytarmaq mümkün olmur. Məhkəmənin, daha doğrusu, jürinin, hakimin səhvi günahsız insanın cəzalanmasına səbəb olduğu kimi, əsl təqsirkarın da cəzadan yayınmasına yol açır.

## Qanunlar cinayətkarlığa qarşı mübarizədə

Cinayət qanunçuluğu da bu xəstəliyə qarşı mübarizədə mühüm rol oynayır. Qanunverici orqan da qanunların hazırlanmasında və qəbul edilməsində yüksək məsuliyyət daşıyır.  Mahiyyətə sahib olmamaqla, qanun öz yol göstərməsi ilə məhkəmə səhvlərinə şərait yaratmamalıdır. Qanun bütün cəmiyyət üzvləri, hamı üçün eyni təsir gücünə və tətbiq edilmə imkanına malik olmalıdır.

Qanunlar dövrün tələbinə uyğun olmaqla yanaşı, həm də onlar, uzun müddət fəaliyyət göstərmələri  üçün strateji təfəkkürə arxalanmalıdır. Qanun heç də qaralama yazı deyildir ki, onu istənilən vaxt düzəlişə məruz qoyasan. Qanun dövlət siyasətinin vacib hissəsi olduğundan, onun meydana gəlməsinə mühüm qayğı bəslənməlidir. Qanunlar gələcəyə istiqamətlənmiş bu günün ümdə tələblərini və müsbət qaydalarını əks etdirməlidir, geriliyin, anaxronizmin təsirinə heç cür yol verməməlidir. Xalqın öz keçmişinə, ənənələrinə hörmət bəsləməsi, onun həyatında yaşamaqda davam etsə də, qanuların mətnində özünə yer tapmamalıdır.

Ənənələr, miflər qanun yaradıcılığında arxa plana keçməlidir. Mif  bəzi canlılara da müqəddəslik verməklə, onlara xüsusi qayğı göstərir. Qədim Çində qurbağalar müqəddəs sayılırdı, qurbağanın quruldaması yağış yağacağından xəbər verirdi. Yağış isə əkinçi üçün ən qiymətli hədiyyə idi. Qurbağa az qala səma cisimlərinə bərabər sayılırdı. Müasir çinli üçün bu həşarata aludəçilik keçmişdə

qalmışdır. Çinlilər bəlkə də yeganə xalqdır ki, əsrlər boyu dini ehkamları və baxışları inkar edərək, əxlaq normalarının kvintessensiyası saydıqları Konfutsi təlimini, onların daha canlı əvəzedicisi kimi qəbul etmişlər. Bu, həm də xalqın həyatına din bayrağı altında cəhalətin müdaxiləsinə yol verilməməsinə əsasən şərait yaratmışdır.  Çin Xalq Respublikasının qanunları  miflərin və dini baxışların təsirindən çox uzaqdır.

Bəzi xalqların mifləri cəmiyyət üzvlərinin davranışına mənfi təsir göstərməmiş qalmır. Mif adı altında həm də cəhalət böyük gücə yiyələnir. Qərbi Afrika ölkələrində ilan, miflər tərəfindən müqəddəslik qazandığına görə, onu öldürəni hökmən edam cəzası gözləyirdi. Zəhərli ilanın məhvi mükafat əvəzinə, insanın öldürülməsi ilə nəticələnirdi. Cinayətkar da cəmiyyət üçün ilana bənzər bir rol oynayır, onun orqanizmini zəhərləyir. Bəzi xalqlarda ilana xüsusi qayğı göstərildiyi kimi, caniyə də ifrat ədalətlilik göstərmək, bəzən onu cəzadan uzaqlaşdırmaq cəhdi yalnız böyük zərər vura bilər.

XXI əsr həyatda süni intellektin geniş yayılmasına yol açmaqla, dini ehkmların nisbi dominantlığına ağır zərbə vuracaqdır.  İnsan özü hansısa yaradıcıya ehtiyac duymadan, istənilən canlı aləm nümunələrini yaratmağa özü qadir olacaqdır. Öz məchulluğu ilə böyük təsir gücünə malik olan Göylər də əvvəlki sitayiş cazibədarlığını xeyli dərəcədə itirməli olacaqdır.

Qanunun hərfinə və ruhuna əməl edilməsi ilə yanaşı, törədplən cinayətin baş verdiyi şərait, motivlər və cinayət etmiş adamın şəxsi keyfiyyətləri, onun psixiki durumu da öyrənilməklə, nəzərə alınmalıdır.  Axı bəzən cinayətin yaranmasında mühit də öz təsirini göstərməmiş qalmır. Cinayət heç də boşluqda baş vermir, onun əmələ gəlməsində başqa faktorlar da iştirak edir.

Qanun icra vasitəsi ilə öz gücünü və ədalətliliyini göstərir. Bu mühüm sənəd dövlətin adından elan edilir. Qədim Romanın böyük şairi Horatsi yazırdı ki, "Caelo tanantem credidimus Jovem Reqnare"-  "Göydə ildırım çaxması , Yupiterin hökmranlığına bizi inandırır". Qanun icra edildikdə, heç də ildırımdan zəif səslənmir və dövlətin sarsılmaz iradəsindən xəbər verir. İldırım əgər Yupiteri yada salırdısa, qanun isə birbaşa dövlətin adından elan edilir. Dövlət isə yalnız xalqın səsinə əsaslanır. Yenə də Qədim Roma zərb-məsəli köməyə gəlir: "Vox populi - vox Dei"- "Xalqın səsi - Allahın səsidir".

Ona görə də qanunun düzgün icra edilməsindən də çox şey asılıdır. Musiqiçiyə yaxşı musiqi aləti lazım olduğu kimi,  alət də yaxşı musiqiçi əlində daha təsirli səslənir. Yaxşı qanun pis icra edildikdə, öz məzmununu və mahiyyətini itirir, hərfini və ruhunu dəyişmiş olur. Qanunlar ədalət prinsipindən, obyektivlikdən uzaqlaşdıqda, hökmən qanunsuzluğa yol açır. Onun icrasından hansısa bir seqment deyil, bütöv cəmiyyət ziyan və əziyyət çəkir. Bunu nəzərə aldıqda, ədalət qanundan yuxarıda dayanır, çünki qanun qəbul edildikdə, hansısa bir dolayı məqsəd güdülməsinə yol verilməsi, onu hökmən gözdən salır.

Hakimlər hökmü qanuna əsaslanaraq çıxarırlar, onların səhv etməyə haqqları yoxdur. Hökm istintaq materialına əsaslanır, lakin bu o demək deyildir ki, hakim müstəntiqin rəyini Quran ayəsi kim qəbul etsin. Məhkəmənin hökm çıxarması mexaniki deyil, məhz yaradıcı işdir, hakim bunu bacarmalıdır.  Hakimlər, yaxşı olar ki, qədim romalıların "Memento mori" maksimasını - "Ölümü yaddan çıxarma" prinsipini daim xatırlasınlar. Rəvayətə görə, hətta triumfda addımlayan Yuli Sezarın arxasında həmişə bir qul gedirdi və onun qulağına "Memento te esse mortalem"- "Yaddan çıxarma ki, sən ölərisən". Hakimlərə isə bu həqiqəti başqası deyil, özləri daim təkrar etməlidirlər. Bu xəbərdarlıq onları səhvlərdən hifz edə, həm də adamların taleyinə qanun çərçivəsində həssaslıqla yanaşmağa sövq edə bilər.

## Cəza çəkənlərin ləyaqət hissi gözlənilməlidir

Cəsa heç də sərtliliyi ilə öyünməməlidir, onun qiyməti obyektivliliyində və ədalətliliyində üzə çıxır.Azadlıqdan məhrum edilmə barədə hökm, cəza çəkənin və məhkum edilənin alçaldılmasına yol verməməlidir. Onun sərbəstliyinin məhdudlaşdırılması insan haqlarına hansısa bir şəkildə zərbə vurmamalıdır. Cinayət heç vaxt özünü əvvəllər törədilən kimi göstərmir, daim orijinallığı ilə seçilir. Axı tarixdə də heç bir hadisə mütləq dəqiqliklə təkrar olunmur. Ona görə də hakimlər Birləşmiş Ştatlardakı kimi keçmiş pretsedentlərə deyil,yalnız qanuna əsaslanmalıdır. Özündən razılıq, təcrübəsinə güvənmək hakimə yalnız pis xidmət göstərə bilər. Cinayətkara gəldikdə, o, çox vaxt cəsarətinə görə deyil, qorxaqlığına görə qanunu pozmaq yoluna düşür.

Dustağın ləyaqətinin tapdanmasına yol verilməsi insan haqlarının kobud surətdə pozulmasıdır. İttiham olunana və dustağa heç bir şəkildə işgəncə verilməməlidir. Dustağı hədələmək də yol verilməz bir qəbahət sayılmalıdır. Fransada II Dünya müharibəsi vaxtı Peten hökumətinin polisi, həbs edilmiş antifaşist qadının güllələnməkdən qorxduğunu hiss edib, ona demişdi ki, bizdə güllələnməkdən də betər daha dəhşətli cəza növləri vardır. Lakin polisin öz aqibəti də acınacaqlı oldu. Almanlar Fransadan qovulduğu kimi, onlarla əməkdaşlıq edən Vişi rejimi də məhv oldu. Xainlər, almanlara qulluq göstərənlər layiqli cəzalarını aldılar, lakin onlar yalnız qanun qarşısında cavab verməli oldular. Onlara qarşı başqa bir dəhşətli cəza növü tətbiq edilmədi.

Dustağın  şəxsiyyətinə hörmət edilməməsi, həmin ölkədə insan haqlarının pozulmasının əyani göstəricisidir. İşgəncələrlə yanaşı, dustağın mənəvi dünyasına həmlə, İspaniyadakı biabırçı inkvizisiya ənənələrinin reinkarnasiyası sayıla bilər. Müasir cəmiyyətə inkvizisiya prinsiplərinin ayaq açması, dövlətin Əsas Qanununa – Konstitusiyaya məhəl qoyulmamasından xəbər verir. Konstitusiyaya xəyanət isə dövlətin dayaqlarının zəifləməsinin, eroziyaya uğramasının göstəricisidir.

Dustaqxanaya gəldikdə, onun nəzarətçiləri öz təlimatlarına ciddi surətdə riayət etməlidirlər, ona əməl edilməyəndə, nəzarətçi öz səlahiyyəti daxilindəki fəaliyyəti ilə məşğul olmaq əvəzinə,  sui-istifadəyə yol verir və qanunu kobud surətdə pozmuş olur.

Dustaqxana cinayətkara təlqin etməlidir ki, o, yenidən normal vətəndaş kimi cəmiyyət sıralarında yaşamağa başlayacaqdır, azad insan kimi bütün hüquq və vəzifələrə sahib olacaqdır. Ona görə də əvvəlki törətdiyi əməldən peşman olmaqla yanaşı, özünü həbsdən sonrakı həyata hazırlamalıdır. Təəssüf ki, bir sıra hallarda dustaqxana islah əvəzinə, dustağa əlavə cinayət vərdişləri aşılamaqla məşğul olur. Belə dustaqxana dustağın mənəvi sağlamlığna nail olmur,  əksinə onu  başqa mənəvi xəstəliklərə sirayətləndirir. Cəmiyyət isə bundan yalnız ziyan çəkir.

Dustaq heç vaxt özünün də insan olduğunu unutmur və kəsmir.O, bəşər fərdinin ləyaqətlərini irs kimi qəbul etməlidir. Azadlıqdan məhrum olma operativ bir cəzadır və o həyat şəraitinin kəsilməyən qaydada azalmasına səbəb olmamalıdır. Onun sərbəstliklərinin məhdudlaşdırılması, heç də malik olduğu insan haqlarına zərbə vurmamalıdır. Dustağın hansısa bir şəkildə alçaldılmasına, mənəvi və fiziki cəhətdən təhqir edilməsinə yol verilməməlidir. Dustağın ləyaqətinin

tapdanması faktı, məhz insan haqlarının kobud surətdə pozulması kimi qiymətləndirilməlidir.

Dustağın imtiyazları da mövcuddur. Dustaq ailəsinin və uşaqlarının onun yanına gəlməsi hüququna və Qərb dövlətlərində həftə ərzində ona daha çox pul göndərilməsi imkanına malik olmalıdır. Dustaqxanalarda dustağın öz arvadı ilə bir yerdə yaşamasına da müəyyən müddət ərzində icazə verilir.

Lakin dustaqxana qaydalarını pozan dustaqlar normal qaydada cəzalandırılmalıdırlar. Qaydanı pozan cəza kimi 21 günə qədər zirzəmidə saxlanılır, bəzən hətta əvvəlki hökmündəki müddətə 42 gün də əlavə olunur. Bu vaxt dustağın imtiyazları da ləğv edilir, onun saxlandığı zirzəmidən televizor götürülür. Psixoloji cəhətdən Stokholm sindromu da əmələ gələ bilər. Bu vaxt paradoksal fenomen kimi, müəyyən vaxtdan sonra adam, ona xətər toxunduqda elə müdafiə mexanizmlərinə yüksəlir ki, bu, canlanmaya və travmatik situasiya stressindən azad olmağa gətirib çıxarır. Stokholm sindromu qadınlarda xüsusi qaydada özünü göstərir, bəzən zorlamanın qurbanı onun ləyaqətini tapdayanı nəinki bağışlamağa, hətta sevməyə başlayır. Təbiətin insan ağlına göstərdiyi təzyiqdən baş çıxarmaq çətindir.

## “Qanunda olan oğrular” adlananlar və ya “vorı v zakone” termini altında yaşayanlar

Sovet İttifaqı qapalı cəmiyyət olduğundan , orada dünyanın heç yerində rast gəlinməyən qəribəliklərə də təsadüf edilirdi. Bəzi institut növləri yalnız onun ərazisinə məxsus olduğundan, relikt sayılan ağacları xatırladırdı. Kriminal aləm də öz qeyri- adi xüsusiyyətlərinə görə cəmiyyətin digər seqmentlərindən geri qalmırdı. Dustaqxanalar cinayətkarlar arasında özlərinə nəxsus olan xırda “kübar” təbəqəsini yaradırdı və onlar qaydalarına görə başqa dustaqlardan fərqləndikləri kimi, əlavə nüfuz və imtiyaz sahiblərinə çevrilirdilər. Kriminal cəbhə kapitalist dünyasından da bəzi “inkişaf” elementlərini qəbul etdiyi halda, onun tam fərqli xarakter daşıyan yeni institutu ölkənin sərhədlərindən kənara çıxmırdı.SSRİ

dustaqxanaları cinayətkarlar arasında qanundan kənar iyerarxiyanın yaratması ilə, dünyanın digər dövlətlərindəki cəza müəssisələrindən kəskin surətdə fərqlənirdi.

Cinayət dünyasının elitaya məxsus və xeyli nüfuza yiyələnənlərdən ibarət olan xırda bir qrupun adı rus dilindən başqa dillərə keçmişdir və hər yerdə “vorı v zakone” adlanır. Bu ifadə dilimizə tərcümədə “qanunda olan oğrular” mənasını verir. Bu terminin yaranması və başlıcası, onun mahiyyəti spesifik bir hadisə olmaqla, dünya kriminal praktikasında onun heç bir analoqu yox idi. Bu xüsusi qrup 1930-cu illərdə yaranmaqla, kriminal ənənələrin, həmçinin müstəsna qapalılığın, gizlinliyin tətbiq olunduğu qəddar,  sərt bir kodeksə malik idi.

Oğru cəmiyyətinin özü cinayətkar – oğru adətlərində və ənənələrində meydana gəlmişdir və XVIII–XIX əsrlərdəki Saxalin katorqası dövrlərinə gedib çıxır. Böyük rus yazıçısı A.P. Çexov XIX əsrin sonlarında Saxalinə səfər edərkən, burada sürgün olunanların cəmiyyətini müşahidə etmiş, dustaqlara hökmranlıq edən gürcü mənşəli bir katorqaçının onlara tam rəhbərlik etdiyini görmüşdü. Bu adam banda üzvlərinin hamısına ağalıq edirdi.

SSRİ-də “vorı v zakone” kimi bir institutun meydana gəlməsi, Böyük Oktyabr inqilabının qələbəsindən 15 il sonra baş vermişdi. Bu vaxt islah-əmək müəssisələrinin cinayət mühitində digər professional cinayətkarlarla birlikdə yeni bir kateqoriya seçilirdi. Onlar özlərini əvvəlcə elita kimi müəyyən etdilər. “Vorı v zakone” dövrəsinə isə yalnız müəyyən tip professional cinayətkarlar daxil olurdu. Onlar özlərini inqilaba qədərki Rusiyanın kriminal ənənələrini qoruyub saxlayanlar adlandırırdılar. Onlara hüquq mühafizə orqanlarının işçiləri ilə əməkdaşlıq etmək qadağan olunmuşdu. Heç bir satqınlıq, hətta məhbusa zorakılıq tətbiq edildiyi təqdirdə də, bağışlanmırdı. “Vorı v zakone”lərə ailə qurmaq, qohumlarla və yaxınlarla əlaqə saxlamaq da qadağan olunurdu. Onlar dustaqlar arasında baş verən bütün mübahisələri həll etməli idilər. Siyasətlə heç bir yaxınlıq ola bilməzdi, hərbi xidmətə, dövlət maraqlarının müdafiəsinə də icazə verilmirdi. Onlar qumar oynamağı yaxşı bacarmalı idilər. Adamları qətlə yetirmək, əgər bu, oğru prinsiplərinə və oğrunun şərəfinə aid deyilsə, ola bilməzdi. Həmçinin xuliqanlıq cinayətinin törədilməsi və qadın zorlanması da qadağa altında idi.

Böyük Vətən müharibəsi dövründə isə oğruların çoxu kodeksə məhəl qoymayaraq, Qızıl Ordu sıralarına daxil olub, almanlara qaşı cəbhədə vuruşurdu.

1979-cu ildə Kislovodskda kriminal liderlərin ("Vorı v zakone") və qeyri-qanuni iş adamlarının (onlar "tsexovşiklər" adlanırdı) görüşü baş verdi. İş adamları razılaşdılar ki, təhlükəsizlik naminə öz gəlirlərinin 10 faizini oğrulara verəcəklər.

Xüsusi qrupa daxil olan oğruların sayına gəldikdə, əgər 1993-cü ildə onların üzvləri 1200 nəfər idisə, 2019-cu ildə bu say az qala üç dəfə azalıb, 444 nəfərə düşdü. Bu təşkilat özünün aydın nüvəsinə və rəhbərliyinə malik deyildir. Yaponlardakı "Yakudza"dan fərqli olaraq, oğruların mərkəzi rəhbərliyi olmadığından, nüfuz zonası üstündə onların arasında tez-tez qanlı münaqişələr baş verir, oğrular bir-birilərini qətlə yetirirlər.

Azərbaycanda da "qanunda olan oğrular" var idi və onların cinayətlərinə qarşı təsirli mübarizə aparılmırdı. Heydər Əliyev artıq müstəqil respublikada ikinci dəfə hakimiyyətə gəldikdən sonra, "vorı v zakone"lərə qarşı mübarizə gücləndi, onlardan bir neçəsi keçmiş cinayətlərinə görə azadlıqdan məhrum olma cəzaları aldılar. Digərləri isə Türkiyəyə qaçıb, bir-birilərinə qarşı qanlı münaqişəyə başladılar. Gürcüstanda isə prezident M. Saakaşvilinin təşəbbüsü ilə oğru qrupu üzvlərini 5-8 il müddətində azadlıqdan məhrum edilməsini nəzərdə tutan qanun qəbul edilmişdi.

"Vorı v zakone" bir qayda olaraq məhbuslar üzərində nəzarəti ələ keçirməyə çalışırlar. Bunun üçün onlar sadə müraciət forması ilə yanaşı, adamları satın almaqdan və hədələməkdən də istifadə edirlər. Onların arasında daim hakimiyyət uğrunda mübarizə gedir, lakin onlar mütəşəkkil cinayət sistemində müəyyən stabilliyə də nail olurlar. Bəzi oğrular Madriddə, Berlində və Nyu-Yorkda yaşayırlar.

Rusiyada ən nüfuzlu kriminal avtoritetlərdən biri olan ded Xasan 2013-cü ildə qətlə yetirildi. Öz kolleqaları kürd mənşəli oğrunu aradan götürdülər. "Müqəddəs" yer heç də boş qalmır. Bir avtoritet aradan götürüldükdə, onun yerini tutmağa çoxlu namizədlər olur. Onlardan biri nəhayət vahid ali nüfuz sahibinə çevrilir. Heç də sirr deyildir ki, Rusiyanın bəzi kiçik şəhərlərini avtoritetlər idarə edirlər, buna təəccüblənmək də lazım deyildir, çünki hakimiyyət nümayəndəsi kimi vəzifə sahibi olanların içərisində də tamahkarlığına görə oğrulardan fərqlənməyənləri az deyildir, korrupsiya onları oğruların kolleqasına döndərmişdir. Təəssüf ki, digər postsovet respublikalarında da həmin xəstəliyin infeksiyası yayılır.

Qanunda oğru olanlar o dünyaya köçdükdən sonra, bir qayda olaraq, törətdikləri ağır cinayətlərin xatirəsi ilə yaşamaqda davam edirlər, bu da onların "yaradıcılığının" məhsuludur. Pərəstişkarları isə onların "igidliklərini" xeyli şişirtməklə, bədii naxışlar vurmaqla bu kriminal cəbhənin qəhrəmanlarını geniş təbliğ edirlər. Onların fəaliyyətindən vaxtilə fayada götürmüş bəzi ötəri siyasi xadimlər də bu eybəcər işdə fəal iştirak edirlər. Öz kolleqalarının köməyi ilə həyatla tez vidalaşdıqdan sonra, onların nüfuzunun davamı, qəbirastınlıqda ucalan heykəllərdə və çox dəbdəbəli qəbir komplekslərində nümayiş etdirilməklə, "ölməzlik" qazanır. Heykəllər adamlara bunu təlqin etməyə cəhd göstərir ki, onlar ölməmişlər, iyrənc əməlləri yaşamaqda davam etməklə, bir növ "əbədilik" qazanır Uydurulan rəvayətlər də avam adamların şüuruna öz təsirini göstərməsini kəsmir..

SSRİ-də, sonralar isə müstəqil Gürcüstanda ən məşhur "vor v zakone" Caba İoseliani idi. O, əslində, öz kodekslərini pozaraq, siyasi xadim və hərbçi olmuşdu. Özü "Mexondroni" adlı böyük hərbi dəstə yaratmışdı. O, həm də böyük nüfuz sahibi olmaqla yanaşı, bədii yaradıcılıqla məşğul olurdu. 7 ay müddətində prezident E.Şevardnadzenin başçılıq etdiyi Dövlət Şurasının üzvü olmuşdu. Prezident onu özünə qarşı qəsd təşkil etməkdə ittiham etmiş və o, 11 il müddətinə azadlıqdan məhrum edilmişdi.

Cavanlığında oğurluğa və quldurluğa görə bir neçə dəfə həbs edilmiş, dustaqxanada "vor  v zakone" titulunu qazanmışdı. Sonralar o, Tbilisi Dövlət Teatr və Kino İnstitutunun professoru olmuş, çoxlu roman və pyes yazmışdı. Teatrlar onun pyeslərini tamaşaya qoyurdu.

Onun son həbsinə nail olan prezident sonralar İoselianini əfv etdi. Lakin 2003-cü ildə o, öldü və cəsədi, hörmət əlaməti olaraq Tbilisidə panteonda dəfn edildi. Kriminallardan heç kəs Caba İoseliani kimi belə nüfuz zirvəsinə yüksəlməmişdi. Oğruların çoxunun təhsili yox idi, onlar ancaq bir neçə həbsxana "universitetini" bitirmişdilər.

## Epiloq əvəzi

Cinayətlər təkcə ayrı-ayrı fərdlərin qüsuru olmayıb, müharibələr də nəzərə alındıqda, daha çox, cəmiyyətin müəyyən ölçüdəki natamamlığından xəbər verir. Tarix boyu cinayətlərə görə müxtəlif cəzalar tətbiq edilsə də, onların faydası gözlənildiyindən xeyli az olmuşdur. Kütləvi cinayətlər, onların dəhşətli nümunələri olan müharibələr və xüsusən Dünya müharibəsi adlanan onların növü bəşəriyyətə daha böyük ziyan vurmuşdur.

Dinlər də cinayətkarlığa qarşı dildə mübarizə aparsalar da, onlar da özlərinin bu sahədəki fəaliyyətləri ilə öyünə bilməzlər. Çünki onlar da xalqları barışığa, sülhə çağırmaq əvəzinə, işğalçının mövqeyini müdafiə etməklə, toqquşmaları qızışdırmaqla, revanşizmə səsləməklə, olduqca neqativ mövqedən çıxış edirlər.

Biz sabaha, gələcəyə böyük ümidlə baxırıq, çox hallarda isə dünyada baş verən reallıqlara göz yumuruq. Hadisələr isə bu gün olduqca qorxulu istiqamətdə gedir. Ona görə də cinayətlərin, bura müharibələr də daxildir, gələcəkdə azalmasını və ya artmasını modelləşdirmək də çətindir. Proqnozlar çox vaxt özünü doğrultmur. İnsanlar hər yeni əsrin dinc şəraitə malik olacağını düşünürlər, lakin baş verən dəhşətli olaylar bu nöqteyi-nəzəri alt-üst edir. XVIII əsrin sonunda Böyük Britaniyanın gənc baş naziri Kiçik- Uilyam Pitt bir sıra beynəlxalq münasibətləri yoluna qoyduğuna görə, XIX əsrin sülh, əmin-amanlıq dövrü olacağını vəd etmişdi. Napoleon isə həmin əsrin başlanğıcdakı on ili ərzində Avropda qan seli axıtdı. Vaxtından əvvəl dünyadan köçən Pitt bunları görmədi. Yaxud, 1938-ci ildə Hitlerlə xəyanət sazişini imzalayan İngiltərə baş naziri Nevil Çemberlen London təyyarə meydanında kağız parçasını adamlara göstərərək, sülh gətirdiyini elan etdi. Bir il sonra, Münxen sazişi ilə əl-qolu açılan Hitler Avropanı böyük dərdə salan müharibəyə başladı və az sonra bu, Dünya mühribəsinə çevrildi. I Dünya müharbəsinin yaraları hələ sağalmamış, bəşəriyyət daha böyük miqyaslı və daha müdhiş müharibənin iştirakçısına çevrildi.

SSRİ dağıldıqdan, Soyuq müharibəyə son qoyulduqdan sonra amerikan filosofu Frensis Fukuyama iki sistemin mübarizəsinin yoxa çıxdığını əsas götürərək, tarixin sona çatdığını xəbət vermişdi. Ancaq dünya xeyli genişdir və ayrı- ayrı dövlətlər arasında , onların maraq dairəsi fərqli olduğuna görə, ardıcıl olaraq qızğın münaqişələr gedir. XXI əsrin ilk onilliklərində baş verənlər yeni Dünya müharibəsi qorxusu yaradır. Yer kürəsinin müxtəlif nöqtələrində müharibə

ocaqları alovlanmağa başlamışdır. Sakit okeanın həm şərq, həm də qərb sahillərində tez-tez vulkan püskürməsi, zəlzələlər, tsunamilər baş verdiyinə görə, bu ifrat seysmik zona “Odlu qövs” adlanır. İndi Avropada və Yaxın Şərqdə gedən müharibələr , vulkanın oyanmasından daha dəhşətli ölçüdə həmin ərazilərdə insan qırğını lavası axıdır Elə bil ki, insanlar Yer kürəsinə ölüm və dağıntı cəzası gətirməkdə təbiətlə yarışa girmişdir və bu əcayib fəaliyyətində ona üstün gəlməyə çalışır. Müharibə timsalındakı antropogen xarakterli zəlzələlər bəşəriyyətə daha böyük ziyan vurur. İmperiyalist məqsədlər yenə ön plana keçir. Mahiyyəti üzrə daha çox iyrənc kapitalizmi təmsil edənlər və zonada ağalıq eşqinə düşənlər, bu formasiyanın daha yüksək pilləsinə çatmağa çalışırlar. Leninin ötən əsrin əvvəlində öz məşhur əsərində yazdıqları yenə də təkrar olunmaqla, özünü XXI əsrin reallığında da göstərir. Bu vəzifəni yerinə yetirmək üçün hətta nüvə silahını işə salmaq hədələrindən də istifadə edilir.Ona görə də az-çox iqtisadi və elmi texniki imkanları olan başqa dövlətlər də bu qırğın silahına sahib olmaq həvəsinə düşürlər. Bu isə heç də xoş persrektivdən xəbər vermir.

Gələcək, mənəvi cəhətdən sağlam insanlara məxsus olmalıdır, bu ümid verir ki, cinayətlər bütünlüklə yoxa çıxmasa da, onların sayı azalacaq, bu isə, cinayətkarların potensial hədəf obyekti olan dinc insanların rahat nəfəs almasına imkan verəcəkdir. Biz sadəcə gözləməli olmamalıyıq, fəaliyyətimizlə, bir arximilli vəzifə kimi, həm də təhlükəsizliyimiz naminə dövlətimizə bu sahədə köməklik göstərməliyik. Bu isə, heç şübhəsiz, gələcək barədə işıqlı ümidlərin reallaşacağı imkanı işartılarının meydana gəlməsi ilə, müəyyən sağlam təskinlik yaradacaqdır.

**SON**

***21.09.2024***

*Telman Orucov*

## *Ticarət müharibəsi və bazar rəqabəti*

**Qloballaşma beynəlxalq ticarətə böyük təkan vermiş, ölkələr arasında iqtisadi əlaqələri xeyli möhkəmləndirmiş, genişlənən bazarın tələblərinə uyğun gəlmək üçün, həmçinin istehsalçı tərəfindən əmtəələrin keyfiyyətinə diqqətin artırılmasına səbəb olmuşdur. Bunlar isə öz növbəsində istehlakçıların mənafeyini daha yaxşı ödənilməsinə şərait yaratmışdır. Əvvəllər özünü təmin etməyi ilə fərqlənən dövlətlər əcnəbi ölkələrdən idxal edilən malların daha ucuz qiymətə satılmasına görə, istehsalda gur inkişaf etməklə yanaşı daha sərfəli məhsul buraxanların nisbi asılılığına düşmüşdür. İstənilən alıcıya psevdovətənpərvərlik hissləri yaddır, o, öz tələbatını ödəyən mallara üstünlük verməklə onları alır. Bəzi dövlət rəhbərləri bu vəziyyətlə razılaşmayıb, öz istehsal müəssisələrinə proteksionizm göstərməklə, idxal daşqınına mane olmaq istəsə də, alıcı öz prinsipinə sadiq qalmaqla, doğma dövlətinin siyasətinə də məhəl qoymur. Bazar münasibətləri, onun yaratdığı rəqabət həm də dünyada ölkələr arasında elan olunmamış əmək bölgüsünü də müəyyən edir.**

**XXI əsrin əvvəllərindən Çində sənayenin yüksək sürətli inkişafı, həm də ixracın miqyasının və coğrafiyasının böyüməsinə səbəb oldu. Özünü qısa müddətdə dünya istehsal fabrikinə çevirən bu ölkə ixrac ekspansiyasını həyata keçirmək üçün Amerikanın geniş bazarını da işğal etməyə başladı. İstehsalın inkişafı və mallarına tələbatın böyüməsi həm də Çinin keyfiyyət məsələlərinə diqqətinin artırılması ilə yanaşı, bazar axtarışında onu yorulmadan çalışmağa sövq etdi. Təkcə Asiyanın deyil, qismən Avropanı, həm də Cənubi Amerikanı da öz ixrac nəzarəti altına keçirməyi bacardı.**

**Birləşmiş Ştatlarda Çin geyim paltarları, uşaq oyuncaqları və məişət malları daha çox satılırdı, ölkə həm də oradakı bir sıra xammal növlərini, həmçinin nadir torpaq metallarının xeyli hissəsini, həm də uranı bu kommunist ölkəsindən idxal edilirdi. Bir sözlə, Çin öz mallarınınABŞ-ın nəhəng bazarına daxil olması ilə, bundan yaxşı mənfəət götürürdü. Həm də mikroçiplərin ABŞ-dan ixracını əsaslı qaydada azaltmaqla, qısa müddətdə onlardan tamamilə imtina etməyi planlaşdırır. Çünki sənayesində işlənən mikrosxemləri bütünlüklə özünün daha keyfiyyətli çipləri ilə təmin edə biləcəkdir. Bu isə Amerika şirkətlərinə on milyardlarla dollar həcmində ziyan vuracaqdır. Beləliklə, yüksək texnoloji məhsullar istehsalında da Amerikanın Çini izolyasiya etmək cəhdi baş tutmadı. Çünki Çin artıq ondan asılılıqda deyildir, ən**

**müasir istehsal sahələrində də Birləşmiş Ştatlardan geri qalmır, yeni, lakin fərqli inkişaf yolunu seçmişdir.**

**Bir həqiqəti də qeyd etmək lazımdır ki, əgər amerikanların tələbatının daha sərfəli qaydada ödənilməsi şərtləri nəzərə alınmasa, əlbəttə, idxalın dominantlığı heç də Birləşmiş Ştatlar iqtisadiyyatının xeyrinə deyildi. İdxal, ixrac üzərində xeyli üstünlüyə malik olduğundan, ölkənin beynəlxalq ticarətində əmələ gələn disbalansın nəinki aradan qaldırılması, hətta ixtisarı belə, düşünülməmiş tarif siyasəti hesabına da heç cür mümkün olmayacaqdır. İqtisadi inkişaf əgər başqa istehsalçıya ziyan vurmaq üstündə qurulsaydı, onda onu əldə etmək o qədər çətin olmazdı. İqtisadi həyat belə zorakı müdaxiləyə tabe olmur, onu əsla qəbul etmir. İqtisadiyyatda komanda üsulunun tətbiqi panatseya rolunu oynasaydı, Sovet İttifaqı tarixində heç vaxt dəbdən düşməyən volyuntarizmin və onun digər eybəcərliklərinin hesabına zirvələrə qalxıb, özünü, heç olmasa dağılmaqdan qoruyardı, yaradıldığı əsrdə də onun məhv olması baş verməzdi.**

**Beynəlxalq ticarət üçün ən vacib sahədə də Amerika Çinlə rəqabətə girə bilməz, bu da ixrac üçün mühüm əhəmiyyət kəsb edən, məhsulun xarici ölkələrə ucuz qiymətə satılmasıdır.Çin istər məişət təyinatlı, istərsə də yüksək texnoloji malların istehsalında keyfiyyətə xələl gəlmədən, ucuz əmtəələrin bol mənbəyi olaraq qalır. Amerika bu sahədə onunla ayaqlaşa bilməz. Çıxış yolu**

**kimi öz istehsalını Vyetnama, Hindistana, İndoneziyaya keçirə bilər, lakin bu da asan məsələ deyildir, həmin ölkələrdə müvafiq infrastruktura yaradılmalıdır. Bu isə böyük xərc və xeyli vavt tələb edir və yəqin ki, istehsal edilən məhsulun bahalaşmasına da səbəb olacaqdır.**

**ABŞ-ın yeni prezidenti Donald Tramp keçmişi bütünlüklə inkar etmək prinsipinə sadiq qalaraq, bu vəziyyəti düzəltmək, yoluna qoymaq üçün çox asan vasitə saydığı tarifləri dəyişdirmək, idxal edilən malların gömrük rüsumlarını artırmaq yolunu tutdu. Bu tədbir, həm də heç şübhəsiz, pərakəndə satış qiymətlərinin də yüksəlməsinə, sadə amerikanların mənafeyinə zərbə vurulmasına səbəb olacaqdır. Mağazalarda artıq ərzaq mallarının, apteklərdə dərmanların qiyməti artır. Bütün məişət xərcləri yüksəlmişdir. İnflyasiya da böyüməkdə davam edir. Kiçik mağazalar idxalın yeni şərtlərinə görə bağlanmağa başladı. Pensiya təminatına inam azaldı.Fermerlərin isə malları alıcısız qaldı.Amerikan ailəsinin büdcəsinə benzinin qiymətinin yüksəlməsi də mənfi təsir göstərir. İpoteka kreditləri, ondan istifadə edənlərə xeyli baha başa gəlir. Orta amerikan ailəsi dünyada hamıdan əvvəl minik avtomobillərinə sahib olmağa başlamışdı. Tarif müharibəsi avtomobillərin qiymətinin 4 min dollardan 10 min dollara qədər yüksəldəcəkdir. *Second hand* mallarını almağa öyrənməmiş amerikan təzə maşın aldıqda, maddi**

**çətinliklə üzləşməli olacaqdır. Bu, ölkədə baş verəcək fəlakət perspektivinin simptomları sayıla bilər, çünki tariflərin artması bumeranq təsiri bağışlayıb, milyarderlərə deyil, sadə amerikan əhalisinin büdcəsinə zərbə vuracaqdır.**

**Amerikanlar qiymətlərin artmasından meydana gələn sosial böhrandan qorxurlar. Bir əsr əvvəl, 1929-cu ildəki Böyük Depressiya amerikanların maddi vəziyyətinə ağır zərbə vurmuşdu, əhali görünməmiş ehtiyac girdabına düşmüşdü. Bu vəziyyətin sona çatmasına on ildən artıq vaxtı gözləmək lazım gəldi.**

**Prezident isə ancaq dövlətə ziyan dəyməsinin qarşısını almağa, onun gəlir götürməsinə çalışır. əks reaksiyanın da meydana gələcəyini, tətbiq etdiyi yüksək tariflərə cavab kimi, müştərək dövlətin də buna əl atacağını nəzərə almır. ABŞ-ın dünyada hegemonluq etməsi artıq arxada qaldığından, onun qarşısında təzim edənlərin sayı xeyli azalmışdır.**

**Ticarət müharibəsi ABŞ-ın özü üçün ağır bir hadisə olsa da, başqa ölkələrə də mənfi təsirini göstərmişdir. Bir neçə gündə dünya bazarı 6,2 trilyon həcmində ziyan çəkməli oldu. Ən başlıcası isə, bu, fövqəldövlətin malik olduğu nüfuzu eroziyaya uğramışdır.**

**Köhnə zavodların ölkəyə geri qaytarılması, yenidən işə salınması xilas vasitəsi kimi irəli sürülür, onun iqtisadi**

**cəhətdən nə qədər faydalı olub, olmaması isə nəzərə alınmır Amerikanlar artıq ağır zəhmət tələb edən müəssisələrdə, mədənlərdə işləməkdən uzaqlaşmışdılar, onlar xidmət sahələrində işləməyə üstünlük verirlər. Amerika sənayesi də ciddi dəyişikliyə uğramışdır, yüksək texnoloji məhsulların istehsalına keçməklə, əvvəlki dövrlərdən daha artıq gəlir əldə edir. Amerikada bəzi zavodların bağlanması işsizlik probleminin yaranmasına da səbəb olmamışdır, burada işsizlik vur-tut 2 faizdən bir qədər artıqdır. Tarif tədbirlərindən sonra vəziyyət bu sahədə də mənfi tərəfə dəyişir.**

**Riskə onunla haqq qazandırılır ki, guya istehsalı geri qaytarmaq müəyyən dövr üçün retsessiya tələb etsə də, lakin bu, yalnız guya gələcək böyük inkişaf naminə atılan addımdan başqa bir şey deyildir. Bu, Maonun Çində həyata keçirdiyi uğursuz "Böyük sıçrayışı" yada salır. İrəliyə sıçrayış cəhdi ölkə üçün ağır olan geriyə atılmaqla nəticələndi. O da üç illik ağır zəhmətin min illər üçün xoşbəxtlik gətirəcəyini vəd etmişdi.**

**ABŞ, mallarını idxal etdiyi bütün dövlətlərə tarifləri, gömrük rüsumunu artırsa da, az sonra bunu ləğv etmək məcburiyyətində qaldı. Təkcə Çinə qarşı olan tədbirlər daha da sərtləşdi və ondan idxal etdiyi malların tarifləri 145 faiz artdı. Hədəf seçilən ölkənin özünün sərt cavabı ilə yanaşı, bu tədbirdən ziyan çəkən yerli "Apple" şirkəti də kənarda qalmayıb, öz dövlətindən qisas almağa girişdi.**

**"Apple" 600 ton çəkisində olan ayfomlarını Asiyadan çıxarmaq üçün yük aviayasından istifadə etməyə məcbur oldu. Hava logistikası böyük xərc tələb edir. Ayfonun ABŞ-da istehsalı az qala 1,5 dəfə baha başa gələcəkdir, çünki Çin alternativi olmayan infrastrukturaya malik idi. İstehslın Hindistana köçürülməsi baş versə, böyük xərc çəkməklə yeni infrastruktura yaratmaq lazım gələcəkdir. Bu isə məhsulun qiymətinin artmasına səbəb olacaqdır.**

**Ayfon yüksək texnoloji məhsul olmaqla yanaşı, heç də sadə telefon aparatı deyildir, çox funksiyalı olduğuna görə öz sahibinə də həmin sayda mühüm xidmətlər göstərir. Maliyyə məsələləri ilə, mühasibatla və informasia fəaliyyəti ilə məşğul olan işçi ayfomsuz intellect əlilinə çevrilir. Adamlar bu telefona elə öyrənmişdir ki, bunu, qəribə görünsə də, narkomaniyaya bənzətmək olar.**

**İqtisadi müstəqilliyi ilə öyünən, dünya ticarətində əzələlərini nümayiş etdirən Çin ABŞ-a daha ağrılı olan zərbələr vurmağa başladı, onun nisbətən sərfəli olan digər idxal kanallarını da bağlamaqla, bəzi qiymətli malları isə, məsələn, «Boinq» təyyarələrini ondan almaqdan imtina etdi. İri həcmdə olan və ABŞ-a ixracdan yaxşı gəlir gətirən soya və maye təbii qaz almağını da dayandırdı. İri amerikan şirkətləri milyard dollarla ziyana düşür. Çin isə texnoloji inkişafda, həmçinin süni intellektin tətbiqində rəqibindən geri qalmadığına görə. öz iqtisadi orqanizminə olan iynə batırılması həmləsinə, daha iri skalpellə cavab vermək yolunu tutdu. ABŞ tariflərlə Çinə ziyan vurmağa cəhd etsə də, ən ağır zərbəni özünə vurmuş oldu. Çünki Çin**

**xeyli əvvəldən, onun ilkin təzahürlərini 2019-cu ildə gördüyüyündən, Amerikanın bu siyasətə daha geniş ölçüdə əl atacağını gözləyirdi və lazım olan hazırlığı görmüşdü. Digər dövlətlər də, məsələn Kanada və Meksika bütünlüklə, hətta daim onun farvaterində üzən Yaponiya isə qismən Amerikadan üz döndərdi.**

**ABŞ dolları da öz mövqeyini itirir. Çin dollar məhv etmək üçün dünya ticarətini öz vayutası olan yuana keçirir. Beynəlxalq maliyyə əməliyyatları aparan SWIT-ə artıq ehtiyac olmayacaqdır. ABŞ-ın borc bazarı etibarı itirdiyindən, Çin və Yaponiya Amerika qiymətli kağızlarını satmağa başlamışdır.**

**Avropa ölkələri də onlara qarşı yönəldilmiş diskriminasiya tədbirlərinə güzgü effekti şəklində cavab verməyə başladı. ABŞ tədbirini 90 günlük təxirə saldıqda, Avropa İttifaqı da parallel addım atdı. Lakin düşünülməmiş, əks amilləri nəzərə almadan görülən tədbirlər, gözlənilənlərin ziddinə olan nəticələrlə müşayiət olundu. Natsist Almaniyasına və militarist Yaponiyasına qarşı müharibədə birgə vuruşanlar artıq müttəfiqliklərini dayandırdılar. Yaxın qonşusu Kanada ona əyilməyəcəyini bildirdi. Müqavilələrə əməl etməmək, əslində xəyanət heç də başqa cür, müsbət bəhrə verə bilməzdi. Tariflərin yüksəlməsinin nəticələri ABŞ iqtisadiyyatını tənəzzülə uğrada bilər. Səhmlərin kursunun aşağı düşməsinin iqtisadi böhran xarakteri alacağına artıq elə bir şübhə yoxdur. Nəticədə ölkənin burcları arta bilər.**

**Amerikaya bəslənən etimad bir andaca yoxa**

**çıxdı.Prezident Tramp çox sayda dövlət rəhbərlərinin, özünün dediyi kimi, yumşaq yerini öpməyə gəlməsini gözləsə də, əksinə, çoxu ona hətta formal diplomatik təzim qılmağı da özlərinə rəva bilmədi. Yalnız Yaponiya və Cənubi Koreya bir qədər sonra ABŞ-la sövdələşmə bağlamaq arzusunda olduqlarını bildirdilər. Bütövlükdə maqiyaya bəslənən inam isə, böyük ölçüdə götürüldükdə, puç oldu. Amerikaya olan hörmət az da olsa yoxa çıxdı, artıq təxəyyül edilən düşmənlər yoxdur, onunla hesablaşmayanların real ordusu meydana gəldi. Mif, illuziya gerçəkliyə təsir göstərə bilmədi.ABŞ siyasi xadimlərinin qələbə raportları isə farsla nəticələndi, reallığı zarafata çevirmək acı nəticəyə səbəb oldu. Markiz de Sadın pyesini XXI əsrdə həyat səhnəsinə gətirmək, siyasətdə sadomazaxizmlə məşğul olmaq, ondan ağır əzab çəkməyə gətirib çıxardı..**

**XXI əsrin başlanğıcından gur start götürən avtomobil sənayesinin istehsalı hesabına, dünya bazarı Çin avtomobilləri və elektromobilləri ilə doldu. Bu isə Amerika üçün daha güclü hiss edilən bir zərbə idi. ABŞ istehsalçıları – Ford, Ceneral Motors və Kraysler şirkətləri XX əsrin sonunda Yaponiyaya, yeni əsrdə isə Çinə uduzmalarını davam etdirdilər. Burada elə bir sirr də yoxdur, amerikan avtomobilləri texniki keyfiyyətlərinə və yüksək satış qiymətlərinə görə rəqib istehsalçılardan geridə qalırdı. Yaponlar öz maşınlarında yanacaq sərfini xeyli**

**azaltmışdılar, çinlilər isə bu sahədə daha uzağa gedib, rəqiblərini ağır vəziyyətdə qoydular.**

**Birləşmiş Ştatlar, novator tədqiqatçı İlon Maskın "Tesla" elektromobillərinə böyük ümid bəsləyirdi, onu ikonaya çevirmişdi. Axı fantaziyanı real həyata keçirməyə çalışan bu ixtiraçı öz məhsulunu futuristik bir nəqliyyat növü, gələcəyə ünvanlanmış maşın kimi nəzərdə tutmuşdu və onda həqiqətən çoxlu yeniliklər öz əksini tapmışdı. Bu, təkcə onun texniki xüsusiyyətlərində deyil, görünüşündə də nəzərə çarpırdı. Lakin bu elementlər həm də ən müasir sayılan elektromobil üçün «ayı xidməti» rolunu oynadı. Maşının kuzası ənənəvi axarlı, elektrodinamik formada olmaq əvəzinə, iti bucaqlı panellərdən ibarətdir. Onlar dəydiyi adamlara ağır travma vurmaqla yanaşı, toqquşduğu avtomobilləri də sıradan çıxara bilər. Digər bir qüsur isə ondan ibarət idi ki, maşın saatda 75 mil sürətlə getdikdə, mexaniki cəhətdən bərkidilmək əvəzinə, yapışqanla yapışdırılmış panellər dağılmağa başlayır, arxadan gələn nəqliyyata da təhlükə törədir.Adi qəza vaxtı da elektromobil tam dağılmaya məruz qalır. Digər tərəfdən, panellər paslanmayan poladdan və digər metalların ərintisindən düzəldildiyindən, maşının çəkisi ağır olmaqla, 4 tona çatır. Bəzi ölkələrdə isə çəkisi 3,5 tondan ağır olan minik maşınlarının istifadə edilməsinə icazə verilmir.**

**Bir sözlə, Maskın gələcəyi yaxınlaşdırmaq məqsədini**

**güdən elektromobili Çin istehsalı ilə rəqabətdə uduzmalı oldu və onun satışı həm öz ölkəsində, həm də Avropada və Çində aşağı düşdü, hətta 42 faizə qədər azaldı. Mask isə Nevadada, vətənindəki digər iki ştatda, həmçinin Çinin Şanxay şəhərində və Almaniyada çox iri zavodlar tikmişdi. Məhsulun satılmaması həmin zavodları da ağır problemlərlə üzləşdirir.**

**Həm də bu böyük istedad sahibinə Trampın himayə göstərməsi, Maska baha başa gəlir. Dövlət sifarişlərini aldıqda, edilən güzəştlər hesabına milyardlarla dollar gəlir götürməkdə onu ittiham edirlər. Federal məhkəmə onu manipulyasiya ilə məşğul olmaqda, digərlərinin elmi və texnoloji yeniliklərini qanunsuz mənimsəməkdə günahlandırır. Onu da nəzərə çatdırır ki, qanun istənilən milyarderdən və elmi kəşflər müəllifindən yuxarıda dayanır. Mask heç də müqəddəs deyildir, Amerika mühitinin məhsuludur, xüsusi mövqeyinə hesabına, onun qanunu pozmağa yol verə bilməsi də istisna olunmur.**

**Lakin bu deyilənlər İlon Maskın novatorluq istedadına, ecazkar dühasına kölgə salmamalıdır. Bu adam hansı sahəyə əl atırsa, orada ağıla gəlməyən kəşflər edir. Onun kosmosa uçub geri qayıdan raketləri «Shattle» - «Məkik» prinsipi üzrə uçur və qayıtdıqda şaquli vəziyyətdə yerə enir. O, dövlətdən asılı olmamaq üçün raketləri üçün özəl kosmodrom da tikmişdir. Dəmiryol nəqliyyatında da iti sürətli elektrovozlar ixtira etməklə, yer üzərində təyyarə**

**sürətini əldə etməyə nail olmuşdur. Lakin onun ixtirasının Amerikada tətbiqi çətinliklərlə üzləşmişdir, bu da dəmiryol infrastrukturasının bütünlüklə yenidən qurulması problemi ilə əlaqədardır. Çünki 1930 - cu illərdən Amerika yükdaşımada avtomobil nəqliyyatına üstünlük verdiyindən, dəmiryol nəqliyyatına qayğı azalmış, inkişafa lazımi diqqət yetirilməmişdi.**

**Mask elə bil ki, yeni piramida yaradana bənzəyir, onun tikintisində bəlkə də özününkü olmayan bloklardan da isifadə etmişdir. Misirdəki Xeops piramidası zamanın təsirinə məhəl qoymadan 4 min ildir ki, yaşayır. İlon Maskın piramidası da hər cür əsaslı ya əsassız təzyiqlərə məruz qalsa da , əsla dağılmayacaqdır, çünki gələcəyə ecazkar xidmət göstərməsi ilə başqalarından tam fərqlənir.**

**Çin dünya bazarında üstünlüyə malik olmaq üçün avtomobil sənayesində də keyfiyyət göstəricilərinə xüsusi fikir verir, yaxşı başa düşür ki, özündən daha təcrübəli istehsalçı ölkələrlə rəqabət olduqca ciddidir. Onun istehsal etdiyi maşınlar həm də çox səssiz işləmələri ilə seçilir. Sovet İttifaqı və Rusiya avtomobilləri isə, özünün digər böyük texniki qüsurları ilə yanaşı, tank gurultusu salması ilə seçilir. «Jiquli» və «Uaz» markalı maşınlar zavoddan çıxdıqdan sonra, onları sürmək mümkün olmadığından, bir neçə gün təmirdə dayanmalıdır. Olduqca gülünc haldır ki, zavodun nöqsanlarını yalnız təmir vasitəsilə**

**aradan qaldırmaq mümkün olur. Ona görə də bu maşınlar sovet və postsovet məkanında satılırdı, digər ölkələrə kiçik ixrac isə qiymətlərin çox aşağı olmasına əsaslanırdı.**

**Amerikan maşınlarının sovet və Rusiya maşınları ilə müqayisə etmək ədalətsizlik olardı. Lakin amerikan avtomobil sənayesi də son vaxtlarda inkişaf yolunu lazımınca zəbt edə bilməmişdi.**

**Prezident Tramp tarif tətbirləri ilə əslində ticarət müharibəsinə start vermişdir. Bazar mexanizmini siyasi və iqtisadi təzyiq hesabına dəyişdirmək, bazar rəqabətini məhv etmək əsla mümkün deyildir, çünki bu məkan kiminsə diqtəsinə, təzyiqinə məhəl qoymur, obyektiv qaydada öz prinsiplərini həyata keçirir. Bazarda qalib gəlməyin, tələbatı mənimsəməyin yeganə yolu malın keyfiyyəti və nisbətən ucuz qiymətə satılmasıdır. İstehsal da bu prinsipi hökmən nəzərə almalıdır, əks təqdirdə satış üçün yox, anbar üçün işləyəcəkdir.**

**Donald Trapmın beynəlxalq siyasətinin müəyyən uğursuzluğunun mühüm səbəblərindən biri, özünün reallığı nəzərə almaması ilə yanaşı, həm də ətrafındakı adamların səhvlərə müqavimətinin olmamasıdır. Belə vəziyyət təəssüf doğurmaya bilməz Onun dövlət işinə gətirdiyi milyarderlər biznesdə ldider olsalar da, siyasətdə diletantdırlar. Trampın xarici siyasət sahəsindəki tədbirləri də səriştəliliyə o qədər dəlalət etmir. Prezidentliyin ilk 100 günü ona yiyələnmiş adamın sınaq**

**dövrüdür. Bu müddətdə buraxılan nöqsanlar gələcək uğursuzluqlar seriyası üçün təməl rolunu oynayır. Start dövründə xalqın etimadını itirməmək üçün daha ehtiyatlı hərəkət etmək vacibdir.**

**Tramp ətrafına elə adamlar yığmışdır ki, onlar mümkün səhvlərə düzəliş vermək əvəzinə, öz vəzifələrinin icrasını prezidentə əsassız təriflər yağdırmaqda görürlər. Onlar elə bilirlər ki, keçmişi edama çəkməklə, guya yeni prezidentə xeyir-dua verirlər. İngilislər belə adamları «yesman» "bəli, bəli deyənlər. yaltaqlar" adlandırırlar, onlar tutuquşu timsalında nitq söyləyib, özlərinə vəzifə verəni göylərə qaldırırlar. Belələrinə ingilis dilindəki sərrast ifadə ilə «mouthpiece» - «muştuq» titulunu vermək daha düzgün olardı.**

**Tramp, siyasətə alver vasitəsi kimi baxan öz keçmiş biznes sirdaşını Yaxın Şərq və Rusiya- Ukrayna müharibəsi üzrə xüsusi emissar təyin etmişdir. Onun ötürməsi ilə, prezident aqressiyanın həqiqi müəllifi əvəzinə, Ukraynanı müharibəni başlamaqda təqsirləndirir. Siyasətə tam yad olan bu adam hətta konstitusion vəzifə sahiblərini əvəz etməklə, siyasətdə birinci skripka rolunu oynayır. Orkestr dirijorunun özü bu istedadsız musiqiçiyə belə imkan yaratmışdır. İqtisadi məsələlər üzrə müşavir olan Navarronu isə digər məmur kolleqası küt adam, kərpic dolu kisə adlandırmışdı.**

**Hələ seçkiqabağı yığıncaqlarda namizəd kimi Tramp**

**«Make Amerika great again» - «Amerikanı yenidən böyük edək» şüarını irəli sürmüşdü. Lakin son tədbirlər böyüklüyün bərpasına deyil, bədbəxtlikdən, mövcud möhkəm mövqelərin itirilməsinə aparır. Ritorika ilə, söz bolluğu ilə öyünənlər böyüklük əldə etsəydilər, boşboğazlar uca zirvələri fəth etmək bir tərəfə qalsın, onu heç vaxt tərk etməzdilər.**

**Amerika, Şimali qitəyə Avropadan gələnlər burada məskunlaşmağa başladığı vaxtdan immiqrantlar ölkəsi sayılır. Hollandlar, ingilislər, fransızlar, ispanlar bura köçüb gəldikdən sonra aborigen əhali olan hindular sıxışdırılmağa başlandı. Qısa müddətə ölkə ağdərililərin vətəninə, sonra isə Afrikadan qulların gətirilməsi ilə həm də afroamerikanların yaşadığı məkana çevrildi. Tramp isə qeyri-leqal immiqrantlara qarşı mübarizə adı altında heç bir cinayətkar qrupa aid olmayanları da, Salvadora göndərməyə başlamışdır. Məhkəmə haqsız təqib olunanları müdafiə etsə də, zorakılıq nəticəsində immiqrantlar sürgün edilir. Ali Məhkəmə nəhayət immiqrantların ölkədən çıxarılmasının dayandırılması barədə qərar qəbul etdi. Vaxtilə «Azadlıq» heykəli əlindəki məşəllə zülmə məruz qalanları azadlığa qatılmaq üçün Amerikaya dəvət etdiyi halda, indi onlara qeyri-loyal münasibət bəslənməyə başlanmışdır. İmmiqrantların qovulması, yalnız onların guya cinayətkar olması ilə izah edilir. Cinayətkar ünsürlər cəzalandırılmalıdır, onlara güzəşt edilməməlidir, lakin bu yarlıkdan adamlara qarşı**

**kütləvi qaydada istifadə edilməsi insan haqqlarına qarşı Səlib yürüşünü yada salır, bədnam irqçiliyin bərpa edilməsi təsiri bağışlayır.**

**Uzun müddət ərzində insanlar öz doğma ölkəsində haqsızlıqlarla, təqiblərlə, ağır ehtiyaclarla üzləşdikdə Amerikaya üz tutmuşdular. Bu əsl imkanlar ölkəsi onlara təkcə sığınacaq verməyib, həm də fərqli, xoşbəxt həyata malik olmalarına şərait yaratmışdı. Doğulduğu ölkədəki tufandan əziyyət çəkənlər, Birləşmiş Ştatları sakit liman hesab edib, orada dərdlərindən xilas olurdular. Amerika ona pənah gətirən yad adamlara da doğma övladı kimi yanaşırdı. İndi isə vəziyyət dəyişmişdir, Amerikanı qapalı, uca divarları olan qəsrə çevirmək həvəsi meydana gəlmişdir və immiqrasiyanı ləğv etmək isə ölkənin nüfuzuna mənfi təsir göstərməyə bilməz.**

**Donald Tramp yeni tədbirlərinə imza atmaqla, dünyadakı mövcud, kövrək tarazlığın da pozulmasına şərait yaradır. O, kommunizmə nifrət etsə də, Kommunist İnternasionalında irəli sürülən ali vəzifəyə aid sözləri təkrar edir: «Biz bütün dünyanı məhv edəcəyik, \\ Biz özümüzün yeni dünyamızı yaradacağıq». Bəzi amerikanlar isə İnternasionalın yeni dünya qurmaq barədəki sözlərini bir qədər dəyişib, « biz yaranan yeni dünyanı qarət edəcəyik» kəlmələri ilə əvəz etməyi təklif edirlər.**

**Prezident Tramp lazım feilini çox sevdiyindən, «Mən**

**prezident olsaydım, ( əsasən müharibəni nəzərdə tutaraq), bu baş verməzdi» sözlərini mantra kimi təkrarlayır. Bəlkə də, bu yolla özünün üçüncü dəfə, hətta ömürlük prezident olması arzusunu dolayı yolla dilinə gətirir. Lakin o, hələlik yalnız ticarət müharibəsinə start vermişdir, bunu isə heç də onun uğuru saymaq olmaz. Tarif dərəcələrinin artırılması təkcə ölkədə iqtisadi və sosial vəziyyətin pisləşməsinə gətirib çıxarmamışdır, həm də seçkiləri öz zəfərinə çevirmiş yeni prezidentin reytinqinin aşağı düşməsinə səbəb olmuşdur. Prezidentin iqtisadi siyasətinə münasbət isə ürəkaçan olmaması ilə daha çox fərqlənir.**

**Dünya, ziddiyyətlər dənizində üzməyə məcbur ediləcəyi, tsunami meydana gətirməklə, gəmiləri batırmaq gücündə olacaq dalğalar yaranması ilə hədələnir. Yəqin ki, müstəqil dövlətlərin birgə müqaviməti buna imkan verməyəcəkdir. Ritorika heç də həmişə əmələ çevrilə bilmir, məğrurluqla « İ never sarrander» - «Mən heç vaxt təslim olmuram» söyləyən prezident iki gün sonra tarif barədəki qərarını əsasən ləğv etdi.**

**Dünyanı problemlərlə üzləşdirmək heç də yaxşı siyasət deyildir. Siyasi və iqtisadi təzyiq haradasa müvəqqəti fayda gətirsə də, sonradan öz acı nəticəsini göstərir. Hədələrdən, təqiblərdən diplomatiyaya keçid, sivilizasiyalanmış dövlətin siyasətinin əsasını təşkil etməlidir. Dünya, gücün hakim kəsildiyi cəngəllik, yırtıcılar və onların qurbanları aləmi deyildir, ağıllı**

**insanların yaşadığı mühitdir. Onu dağıtmaq heç kəsə şərəf gətirə bilməz. Quzğunlar yenidən tarix səhnəsinə gələ bilməz, balın idarəçiliyini İblisə həvalə etmək olmaz.**

**Qədim yunan mifologiyasında hamını məhv etməyə hazır olan Meduza adlı bir varlıq mövcud idi. Meduza bir baxışı ilə istənilən adamı daşa döndərirdi. Bəzi siyasi xadimlər öz səs tellərini işə salmaqla, sözlərinin Meduzanın gözü gücündə olduğunu güman edirlər. Söz bolluğu, özünü öymək heç də həqiqi qüdrət sahibi olmaq deyildir. Ali vəzifə sahiblərini, sap kimi çözələnən nitq deyil, yalnız əməl, yaradıcılıq böyük etməklə, onu şərəfə çatdırır. Populyarlıq qazanmağın da sıradan çıxmayan yolu budur. Keçmişi bütünlüklə bəyənməmək, inkar etmək bu günün qiymətini artırmaq əvəzinə, zaman əlaqəsini pozmağa xidmət edir. Zaman isə keçmişdən gəlib, bu gündən keçməklə, gələcəyə ünvanlanır. Burada yolu qısaltmaq istəyi və həvəsi fayda vermir.**

**Kim ki, dünyada sülhdən də vacib şey olduğunu dilə gətirirsə, o, insanlığa qarşı olan müharibələrə haqq qazandırır. Təəssüf ki, beləl追ri də vardır. 1970-ci illərdə NATO baş katibi olan Yozef Lunts bu sərsəm sözləri bəlağətli nitq şəklində tələffüz etmişdi.**

**Seçkidə qalib gəlmək heç də yeni vəzifəni icra edəndə, həmin sevincdən yaranan eyforiya davam etsə, bu, karnaval effekti yaradır.. Seçkidə qazanılan böyük qələbə həmin adama bu ali vəzifəni tutmağa imkan vermişdir.**

**Vəzifədə isə onun təklif etdiyi məstedici ağuşdan hökmən uzaqlaşmaq lazımdır.**

**Siyasətdə buraxılmış səhvi düzəltmək çətin olur. Napoleon Fransasının polis naziri Jozef Fuşenin dediyi kimi, elə səhv var ki, cinayətdən betərdir. Siyasətçi özünü belə səhvlərdən qorumalıdır, bunu ona etimad göstərənlər də arzulayır. Demokratiya xalq hakimiyyəti demək olduğundan, daha səmərəli siyasi sistem hesab olunur. Onu, ABŞ-ın bani-ataları qədim afinalıların irsini əxz etməklə, yenidən həyata gətirmişdilər. Onlar həm də yaratdıqları dövlətə zirehi andıran möhkəm təməl qoymuşdular. Ona görə də ölkə XIX əsrin əvvəlində britaniyalıların işğalından təbiətin də köməyi ilə xilas ola bilmiş, XXI əsrin əvvəlində isə islam terrorçularının ağır zərbəsindən sarsılmaq əlamətləri göstərməmişdi.**

**ABŞ nisbətən gənc dövlət olsa da, zəngin tarixə malikdir. Onun prezidentləri arasında uğurlular çox olduğu kimi, bu vəzifəyə layiq olmayanlar da olmuşdu. Bunu da demokratiyanın zəif cəhətinə aid etmək olar. İlk president Corc Vaşinqton İnqilab müharibəsinin qalibiyyətli sərkərdəsi olmuşdu. Üçüncü president Tomas Cefferson İstaqliliyyət Deklarasiyasının müəllifi olmaqla, dəniz quldurlarını susdurmuş, ölkə ərazisini Fransadan alınmış torpaqlar hesabına, onun həcminin üçdə biri qədər böyütmüşdü. Abraham Linkoln Vətəndaş müharibəsində qalib gəlməklə, dövlətin parçalanmasına yol verməmiş,**

**ölkədə quldarlığı ləğv etmişdi. Franklin Delano Ruzvelt Yeni Kursu tətbiq etməklə Böyük Depressiyaya son qoymuş, II Dünya müharibəsindəki qələbənin az saydakı arxitektorlarından biri olmuşdu. İlk qaradərili president Barak Obama idarəetmədə düzgün yol seçərək, ölkəsini təlatümlərdən kənarda saxlamağı bacarmışdı.**

**Uğursus prezidentlər isə ölkəsini nüfuzuna zərbə vurmamış keçinməmişdilər. XIX əsrdə Endryu Cekson ölkənin idarəçiliyini yaratdığı "mətbəx hökumətinə" həvalə etmişdi. XX əsrdə Herbert Huver Böyük Depressiya vaxtı fəaliyyətsizlik göstərməklə, ölkədəki böhranın dərinləşməsinə şərait yaratmışdı. XIX əsrdə Endryu Conson, XX əsrdə Riçard Nikson və Bill Klinton impiçmentdən güclə canlarını qurtarmışdılar. Donald Tramp birinci kadensiyasında iki dəfə impiçment təhlükəsi ilə üzləşmişdi. Prezidentlərin hər biri xalqın səsverməsi ilə bu vəzifəni tutmuşdur. Lakin təəssüf ki, onlardan xalqın etimadını doğrultmayanlar, onu layiqincə qiymətləndirməyənlər də olmuşdu.**

**Amerika həqiqi çoxtərəfli potensialına görə ilk fövqəldövlət olduğundan, onda meydana gələn sarsıntı bütün dünyaya təsir göstərə bilər. Çünki bu ölkə beynəlxalq aləmdə böyük nüfuza malikdir və onun bu qüdrəti və zirehi öz təsir gücünü itirməməlidir. Amerika özü də dünyanı sarsıntılara cəlb etməkdən çəkinməlidir, onun malik olduğu böyüklük, fiziki ölçülərindən, iqtisadi**

**və hərbi imkanlarından daha çox, dünyanı bəlalardan xilas etməsi kimi tarixi roluna əsaslanır. Amerika qazandığı bu layiqli mövqeyindən başqalarına təsir göstərməkdə nəcib üsullra üstünlük verməklə və onları davam etdirməklə, sui-istifadə hallarına yol verməməlidir. Məhz bu xüsusiyyəti onu daha böyük edəcəkdir.**

**SON**

**17.04.205**